# İSLAM VƏ UZAQ ŞƏRQ DİNLƏRİ

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- GİRİŞ:
  - Batil Uzaq Şərq dinlərini yaxından tanımaq

- I KİTAB: HİNDUİZMİN QARANLIQ DÜNYASI
  - Hinduizm bütpərəst dindir
  - Hinduizmin ölüm və axirət həyatına dair batil inancları
  - Batil təlimlər üzərinə qurulmuş bir həyat
  - Hindistandakı amansız sosial nizam
  - Hinduizmin faşist açıqlaması: Hindutva hərəkəti
  - Faşist hinduların ilk hədəfləri müsəlmanlar

- II KİTAB: DİGƏR UZAQ ŞƏRQ DİNLƏRİ
  - Caynizm: Öz-özünə əziyyət dini
  - Şintoizm: Ölülərə və təbiətə tapınma dini
  - Batil Çin dinləri
  - Materialist və bütpərəst din: "Yeni Çağ"
  - Nəticə: Müsəlmanın Uzaq Şərq dinlərinə baxışı necə olmalıdır?

- Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan

xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili

kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos

mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ: BATIL UZAQ ŞƏRQ DİNLƏRİNİ YAXINDAN TANIMAQ

Şərq dinləri xeyli çox insan üçün böyük bilinməzlikdir. Hinduizm, Caynizm, Buddizm, Siqhizm, Şintoizm, Konfutsiçilik və Taoizm kimi dinlərin adları sayıldığında ümumiyyətlə insanların ağıllarına daşdan, ya da taxtadan heykəllərə tapınan, bu heykəllərə qurbanlar təqdim edib hörmət nümayişlərində olan, sönük məbədlərdə qəribə ayinlər təşkil edən birliklər gəlir. İslam, xristianlıq və yəhudilik kimi Allahın vəhyinə söykənən ilahi dinlər *(burada xristianlığın və yəhudiliyin ilk vəhy edildikləri halları nəzərdə tutulmaqdadır. Çünki yəhudilik və xristianlıq vəhy edilmələrindən sonra təhrif edilmiş, orijinal hallarından uzaqlaşmışlar)* insanları nurlu, dinclik dolu, etibarlı və ədalətli həyata çağırarkən, dünya üzərində təxminən 1.5 milyard insanın[1] qəbul etdiyi Şərq dinləri sıxıcı bir həyatı, azğın ayinləri, ictimai ədalətsizliyi, dünyadan tamamilə uzaqlaşıb səfil şərtlərdə yaşamağı, qısaca hər istiqamətiylə batil bir həyatı təmsil edirlər. Bu dinlərə inananların ən fundamental yanılmaları isə Allahın mütləq varlığını inkar edib, sayları yüz milyonu aşan bütlərə tapınmaları və bu bütlərdən qarşılıq, ya da kömək görməyi ümid etmələridir.

Asiya xalqlarının böyük bir hissəsinin inandıqları Hinduizm, Buddizm kimi dinlər, bütpərəst inanclardır. Buddistlər Buda heykəlləri qarşısında əyilər, onlara qurbanlar verərkən, hindular milyonlarla fərqli bütə tapınırlar. Bir insanın daşdan düzəldilmiş bir heykəlin güc sahibi olduğuna, insanlara kömək etmə, ya da cəza vermə qüdrətini əlində tutduğuna inanmasının, bu daş yığınına hörmət etməsinin, ya da ondan qorxmasının nə qədər böyük azğınlıq və ağılsızlıq olduğu açıqdır. Üstəlik Hinduizm kimi inəklərə, meymunlara,

siçanlara, ağaclara və çaylara tapınmağı əmr edən batil dinlər insanları daha böyük mənəvi azğınlığın, cəhalətin və qaranlığın içinə sürüyürlər.

Ancaq bu kimi bütpərəst inanışlara sahib birliklər tarixin hər dövründə var olmuşlar. Allahın Quranda hekayələrini xəbər verdiyi bir çox mübarək elçisi bənzər birliklərlə qarşılaşmış, onları Allahdan başqa varlıqlara səcdə etməkdən imtina edib, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə iman etməyə dəvət etmişlər. Allahın Özünə dost etdiyi, hənif qulu hz. İbrahimin, bütpərəst qövmünə çağırışı Ənkəbut surəsində bu şəkildə xəbər verilir:

**Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız". (Ənkəbut surəsi, 17)**

Zəmanəmizin bütpərəstləri də hz. İbrahimin qövmündən fərqli deyildirlər. Onlar da keçmişdəki bütpərəstlər kimi inanclarını **"Biz atalarımızın belə etdiklərini gördük" (Şuəra surəsi, 74)** deyərək müdafiə edirlər. Xurafatlarla, batil təlimlərlə beyinləri doldurulmuş olan bu insanlar, içində olduqları böyük ağılsızlığı və xəstə ruh halını fərq edə bilmir, xarici dünyadan kənarlaşdırılaraq atalarından miras aldıqları dinlərinə dörd əllə sarılırlar. Halbuki sahib olduqları inancları ağıl və vicdanla bir dəfə olsun sorğulasalar, atalarının izindən getməyi deyil, gerçəyi və doğrunu tapmağı məqsəd etsələr, mütləq özlərini və bütün kainatı yoxdan var etmiş olan Uca Rəbbimizin sonsuz güc və qüdrətinin fərqinə varacaqlar. Bunun ardından da xurafatlarla dolu həyatlarından xilas olub, Allahın elçiləri vəsiləsiylə insanlara bildirdiyi hidayət yolunu mənimsəyəcəklər.

Bu kitabda haqqında bəhs etdiyimiz mövzu Şərq dinlərinin bütün səhv istiqamətləri, azğınlıqları, ağıl və məntiqlə ziddiyyət təşkil edən tətbiqləri, irqçiliyi, şiddəti və vəhşiliyi qanuni göstərən təlimləri gözlər önünə səriləcək.

Ümidimiz, bu dinlərin mənsubu olan insanların da nə qədər batil həyat yaşadıqlarını anlamaları, insan tərəfindən uydurulan, atalardan qalma ənənələrə kor-koranə tabe olmalarının özlərini həm dünyada, həm də axirət həyatında nə qədər böyük itkiyə uğradacağının fərqinə varmaları və bir an əvvəl bütün batil inanışlarından imtina edib Allaha təslim olmalarıdır.

Üzərində dayanacağımız bir başqa mövzu isə bu inanışların Qərb mədəniyyəti üzərindəki dərin təsiridir. Şərq dinlərinin qərbli cəmiyyətlərin düşüncə quruluşu üzərindəki təsirini ilk baxışda anlamaq bir az çətindir. Ancaq 18-ci əsrdəki Aydınlanma fəlsəfəsi, ardından gələn 19-cu əsr materializmi, Avropa cəmiyyətlərini ilahi dinlərdən uzaqlaşdırmış, yaranan mənəvi boşluq isə 20-ci əsrdə başda Hinduizm və Buddizm olmaq üzrə saxta Şərq dinlərini Qərb düşüncə dünyasına daşımışdır. Din əxlaqının cəmiyyət üzərindəki köklü təsirini ortadan qaldırmaq, materialist dünya görüşünün mənimsənməsini asanlaşdırmaq və mənəvi axtarış içində olan insanları "Allah inancına qarşı çıxan saxta din" ilə yanıltmaq cəhdində bu batil dinlər əhəmiyyətli rol oynamışlar.

Bəzi kütlələr tərəfindən guya "**Milenium dini**", ya da "**21-ci əsrin dini**" təyin etməsiylə çox istiqamətli təbliğatı edilən və Uzaq Şərq mədəniyyətinin bütün batil və bütpərəst təlimlərini bir yerə gətirən "**Yeni Çağ**" tərzi axınlar isə bu dinlərin 21-ci əsrdə də qərbli cəmiyyətlərin gündəmində olacağını bizlərə göstərir. Belə ki, başda Vatikan olmaq üzrə müxtəlif xristian birlikləri də, Uzaq Şərq dinlərindən təməl alan və Qərbli cəmiyyətlərdə sürətlə yayılan bu saxta axınları, içində olduğumuz əsrdə xristianlığın qarşısındakı ən böyük təhlükələrdən biri olaraq təyin edirlər. Vatikan tərəfindən hazırlanan və bəzi kütlələr tərəfindən "Xristianlığın yeni izahı" olaraq təqdim edilən Yeni Çağ hərəkətinin səhv istiqamətlərinin sərgiləndiyi "**A Christian Reflection on the New Age**" (Yeni Çağa Xristian baxışı) başlıqlı hesabat, xristian dünyasının da bu axını nə qədər təhlükəli gördüyünü ortaya qoyur.[2]

Heç şübhəsiz, insanları Allah inancından uzaqlaşdıran, ilahi dinlərin insanlara tövsiyə etdiyi gözəl əxlaq anlayışını ortadan qaldırıb yerinə materialist və batil inancları yerləşdirməyə çalışan bu kimi axınlara qarşı,

Allaha səmimiyyətlə iman edən bütün insanların birlik olaraq hərtərəfli fikri mübarizə etmələri lazımdır. Bunun üçün edilməsi lazım olanlardan biri, ilahi dinlərin insanları dəvət etdiyi sülh, hüzur, güvən, ədalət, bərabərlik, köməkləşmə, mərhəmət, şəfqət və sevgi dolu dünya ilə batil dinlərdəki maddi və mənəvi azğınlığı təməl alan həyat şəkli arasındakı böyük uçurumu gözlər önünə sərməkdir.

Unutmamaq lazımdır ki, Qərbli cəmiyyətlərdə bu səhv dinlərə simpatiya duyan insanların çox böyük hissəsi əvvəlcə diqqəti cəlb etməyi, fərqli və orijinal rəftarlarla diqqətləri üzərində toplamanı məqsəd qoyurlar. Bir tərəfdən də xoşbəxtliyi bu dinlərdə tapacaqları səhvinə qapılırlar. Allahın elçiləri vasitəsiylə insanlara göndərdiyi haqq dinlərin doğru yollarından uzaqlaşaraq özlərini darıxdırıcı, sıxıcı, qorxu və çətinlik dolu bir dünyaya, çox böyük məhvə sürüyürlər.

Bilinməlidir ki, dünya və axirət həyatında həqiqi xoşbəxtlik ancaq Allaha könüldən iman etmək və Allahın ayələrinə tabe olmaqla mümkündür.

**"...Çünki Allah gecəni gündüzə, gündüzü də gecəyə qatır..." (Həcc surəsi, 62)**

**O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. (Həşr surəsi, 23)**

# I KİTAB

# HİNDUİZMİN QARANLIQ DÜNYASI

Şərq dinləri deyildiyi zaman ilk ağla gələn çox vaxt Hinduizmdir. Çünki Hinduizm təxminən 900 milyon davamçısı ilə, İslam dini və xristianlıqdan sonra dünya üzərində ən çox insan tərəfindən qəbul görən üçüncü dindir. Hindistan, Nepal və İndoneziyadakı əhalinin əhəmiyyətli bir hissəsi başda olmaq üzrə, Hinduizmi dünya əhalisinin təxminən 15%-i qəbul edir. Hindistan əhalisinin təxminən 90%-ni meydana gətirən 700 milyon insan hindidir.

Əslində Hinduizmi bir din olaraq təyin etmək doğru deyil. Çünki İslam dini, xristianlıq və yəhudilik Allahın vəhyinə söykənən haqq dinlər ikən *(yəhudilik və xristianlıq vəhy edilmələrindən sonra təhrif edilmişlər)*, Hinduizm bir fəlsəfə, yaşayış şəkli, əsrlərdir davam edən batil ənənələrdən ibarət olan bir mədəniyyətdir. Bu səbəblə də kitabın irəliləyən hissələrində Hinduizm batil din olaraq təyin olunarkən, gerçəkdə əsrlərdir var olan bütpərəst Hindi mədəniyyəti nəzərdə tutulur.

Tarix boyunca Hind çayı ətrafında dəyişik ənənələri və inancları olan fərqli sivilizasiyalar yaşamışdır. Hindistan bir çox dəfə işğal edilmişdir. Bilinən ən qədim işğal edənlər isə Arilərdir. Arilər, e.ə. 2500-1500 illəri arasında Şimal-Qərbdən gələrək bütün Şimali Hindistanı işğal etmişlər. Hindistan torpaqlarını yalnız hərbi mənada işğal etməklə qalmamış, yeni bir Hindi sivilizasiyası meydana gətirmişlər. Bunu edərkən də bu torpaqlardakı məskunlaşmış mədəniyyətin bəzi ənənələrini qoruyub, bəzilərini dəyişdirib, Ari mədəniyyətini təməl götürən yeni bir inanc meydana gətirmişlər. Yerli Hindi xalqı qara bədənli ikən Arilər ağ bədənli, uzun boylu bir irqdir, bu

səbəblə də yaradılan yeni mədəniyyət irqçi təməllər üzərinə qurulmuş, ağ olanlara üstünlük verilmiş, yerli xalq isə alçaldılmışdır.

Arilərın e.ə. 1000 illikdə sanskrit dilini istifadə edərək yazdıqları Vedalar isə, Hinduizmin ilk mətnləri olaraq qəbul edilmişdir. Vedaların ardından zamanla fərqli kəslər tərəfindən yeni mətnlər yaradılmış və bunların hamısı bir yerə gətirilib Hindi dininin azğın inanclarını izah edən qondarma müqəddəs mətnləri olaraq qəbul edilmişdir. Bu səbəbdən Hinduizm Allahın vəhyinə deyil, işğalçı və döyüşçü bir birlik olan Arilərın kitabələrinə əsaslanan “insan istehsalı” bir inancdır.

İngilislərin 1829-cu ildə Hindistanı işğalının ardından Hinduizm adıyla xatırlanacaq olan bu din, gərək təməl aldığı batil mətnlər, gərək illərdir davam edən primitiv ənənə və adətlər, gərəksə bütün ayinlər və tətbiqləriylə qarmaqarışıq bir xurafatlar cəmidir. Bu inancı, tək bir kitaba bağlı olan, qaydaları təyin olunmuş, qurucusu olan bir inanc olaraq təyin etmək də mümkün deyil. Hinduizm kənddən-kəndə, qəsəbədən-qəsəbəyə, hətta ailədən-ailəyə çox böyük fərqlər daşıyır, bu fərqlər də Hinduizmin “insana özəl batil yaşayış şəkli” olduğu gerçəyini gözlər önünə sərir. “History of Hindi Imperialism” (Hindi imperializminin tarixi) adlı kitabın yazıçısı Swami Dharma Theertha bu vəziyyəti aşağıdakı şəkildə açıqlayar:

*Açıqcası, kimin Hindi olduğunu və Hinduizmin nə olduğunu tam olaraq söyləyə bilmək mümkün deyil. Bu suallar təkrar-təkrar araşdırmaçılar tərəfindən qiymətləndirilmiş və bu suallara indiyə qədər təmin edici hər hansı bir cavab verilə bilməmişdir. Hinduizm, teizm (Allahın varlığına inanma), ateizm, politeizm (çox tanrıçılıq), Advitizm, Dvaitizm, Saivizm, Vaishanavizm və bənzəri dinlərin hər növünü içində saxlayar. Təbiətə tapınma, atalara tapınma, heyvanlara tapınma, bütlərə tapınma, şeytana tapınma, simvollara tapınma, öz-özünə tapınma və tanrıya tapınmağı ehtiva edər. Bir-birləriylə ziddiyyət təşkil edən bu fəlsəfələr hər hansı bir sıravi insanın ağlını qarışdıracaq. Hinduizmin içində barbar tətbiqlər və qaranlıq batil inanclardan, ən mistik ayinlər və fəlsəfələrə qədər bütün mərhələlərə və növlərə yer vardır.”*[3]

1947-1964-cü illər arasında müstəqil Hindistanın ilk Baş naziri olan Pandit Nehru da Hinduizmi bənzər şəkildə təsvir edir:

*Hinduizm bulanıq, kəskin xətlərlə təyin oluna bilməyən, çox istiqamətli, hər insana görə dəyişən bir inancdır. Onu tam olaraq təyin etmək çox çətindir. Hətta sözün həqiqi mənası ilə bir din olub olmadığını söyləmək də çox çətindir. Bugünkü halıyla keçmişdə də olduğu kimi ən ucasından ən alçağına qədər, hətta bir-birinə qarşı və bir-biriylə zidd düşən hər cür inancı və ibadəti içinə alır.*[4]

Yekunlaşdırmaq lazım olsa Hinduizm, bütpərəstliyin və batil inancların ən alçaldıcı şəkillərinə yol verir, şeytana, bütlərə, ağaclara, dağlara, çaylara, bitkilərə tapınanları batil bir inancın altında birləşdirir. Hətta belə ki, insanların istədikləri bütlərə tapınmalarını, öz bütlərini özlərinin meydana gətirməsini, müxtəlif xurafatlar və batil inanışlar çıxarıb bunları din olaraq müqəddəsləşdirmələrini mümkün edir.

Bu anlayış isə onsuz da hər istiqamətiylə azğın olan Hinduizm, təxminən 300 milyon fərqli bütə sahib, milyonlarla törəməsi olan, hər istiqamətiylə batil, qaranlıq bir həyat şəkli halına gətirmişdir. Üstəlik bu, insanların iyirmi dörd saatına nəzarət edən zorakı və totalitar bir həyatdır. Batil hindu ənənələrini; ailə həyatlarında, insanlar arasındakı əlaqələrdə, kitabın irəliləyən hissələrində detallı olaraq araşdıracağımız ədalətsiz ictimai nizamda, irqçiliyə gedib çatan səhv milliyyətçilik anlayışında, digər cəmiyyətlərə olan düşmənlikdə, ölkə siyasətlərində, hətta necə yemək yeyiləcəyindən, necə yatılacağına qədər həyatın hər sahəsində görmək mümkündür.

Hindular bütün həyatlarını Hindu mətnlərində yazdığı şəkliylə keçirdikləri təqdirdə “doğru yola” çatacaqlarını zənn edər, bundan ötəri çox böyük bir yanılmaya düşərlər. Çünki Hinduizmin həm dünya həyatı, həm də

axirət həyatı üçün heç bir gözəllik vəd etməsi mümkün deyil. Hinduizm batildir və haqq qarşısında mütləq yox olacaq. Rəbbimiz bu şəkildə buyurur:

**De: “Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də, batil puçluğa məhkumdur!” (İsra surəsi, 81)**

# HİNDUİZM BÜTPƏRƏST DİNDİR

Hinduizmin öz içində bir çox fərqli törəməsi olduğu üçün, bu batil inancın təlimlərini kəskin xətlərlə təsbit etmək, inanışlarını təsnif edə bilmək və bunun ardından bütün azğın istiqamətlərini tək-tək ortaya qoymaq mümkün deyil. Ancaq Hindi dini haqqında bilinən ən fundamental gerçək, bu dinin insanları bütlərə tapınmağa təşviq edən, bütpərəst bir inanc olduğudur.

Hinduların necə bir Allah inancına sahib olduqlarını anlamaq olduqca çətindir. Çünki hər fərqli hindu birliyinin, qəsəbənin, kəndin, hətta eyni ailə içində yaşayan fərdlərin belə bir-birlərindən fərqli inancları olur. Ancaq bu din üzərinə araşdırma aparıldığında Hinduizmin bütpərəst bir din olduğu nəticəsinə gəlmək olur. Bu həqiqətə baxmayaraq, hindular əsrlərdir davam edən bütpərəst ənənələrini çox fərqli şəkillərdə şərh edirlər.

Milyonlarla fərqli bütə tapınmalarına, bu bütlərin cəzalandırma və mükafatlandırma kimi bir çox uydurulmuş üstün gücə sahib olduqlarına inanmalarına baxmayaraq, hindular ümumiyyətlə bütpərəst olduqlarını qəbul etməzlər. "Brahma" adını verdikləri "universal ruha" inandıqlarını, digər bütləri Brahmanın əks olunmaları olaraq gördüklərini, bu səbəbdən Hinduizmin tək tanrılı bir inanc olduğunu söyləyərlər.

Halbuki bu, İslam dini ilə heç bir şəkildə uyğun gəlməyən azğın bir anlayışdır və onsuz da bütpərəstlik də budur. Üstəlik Hinduizmin bütpərəst bir din olduğunu anlamaq üçün hər hansı araşdırmaya, ya da uzun müddət müşahidələr aparmağa da ehtiyac yoxdur. Hindistanın dörd bir tərəfini əhatə edən milyardlarla büt bu gerçəyi bütün açıqlığı ilə gözlər önünə sərir.

Quran ayələrində də bütpərəstliyin tərifi çox açıq bir şəkildə edilir. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) dövründə də bütlərə tapınan bəzi Ərəb birlikləri, bütün kainatın yaradıcısı və hakimi olan Allahın varlığına inanır,

ancaq tapındıqları bütlərin Allahdan başqa gücləri olduqlarını zənn edir, bəzən də onlara "vasitəçi" olaraq tapınırdılar. Hinduizmdəki Brahma inancı ilə bir qisim cahiliyyə dövrü ərəblərinin bu bütpərəst inancları böyük bənzərlik göstərir. Allah, bu insanların necə səhv içində olduqlarını Quranda belə xəbər verər:

**...Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik" – deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.**

**(Zumər surəsi, 3)**

Belə ki, şəkil olaraq da cahiliyyə bütpərəstliyi ilə Hinduizm olduqca bənzərdir. Hindular də qondarma ilahlarına ibadət edir, yeməklər təqdim edir, hörmət göstərir, onlardan qorxurlar. Hinduizmin bütpərəst din olduğu açıqdır və bütün təlimləri bu açıq gerçəyi ortaya qoyur.

Bir müsəlman üçün Hinduizmin gerçək tərifini etmək olduqca asandır. Çünki iman edənlərin önlərində haqqı batildən ayıran bir rəhbər var. Bu rəhbər Rəbbimizin bütün insanlara doğrunu səhvdən ayıran bir hidayət rəhbəri olaraq göndərdiyi Qurandır.

Allahı "Bir və Tək" olaraq tanıyan İslam dini, bu tövhid inancı üzərinə quruludur və müsəlmanlar "La İlahə illəllah" (Allahdan başqa ilah yoxdur) gerçəyinə iman edən, muvahhid kəslərdir. Rəbbimiz insanları yaratma məqsədini **"Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım." (Zariyat surəsi, 56)** ayəsiylə bizlərə xəbər vermişdir. Bütün insanlar Allaha təslim olmaq, yalnız Ona dua edib yalnız Ondan kömək istəmək və heç bir şeyi Rəbbimizə ortaq qoşmamaqla məsul tutulur. Bir ayədə bu şəkildə buyurulur:

**De: "Mənə, dini yalnız Allaha məxsus edərək, Ona ibadət etmək əmr olunmuşdur. (Zumər surəsi, 11)**

**"Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur..." (Rum surəsi, 30)** ayəsiylə də bizlərə bu gerçək xatırladılır. Allah, kainatın və kainatdakı qüsursuz nizamın tək sahibidir, yaradıcısıdır və tək qoruyucusudur. Kainatı yoxdan var edən, ona müəyyən nizam verən, göyləri, yeri və ən kiçiyindən ən böyüyünə qədər bütün canlıları yaradan, onlara həyat və ruzi verəndir. Fatir surəsində bu şəkildə buyurulur:

**O, gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, günəşi və ayı ram etmişdir. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. (Fatır surəsi, 13)**

Bütün kainatı üstün bir yaradılışla var edən Rəbbimiz, elmi ilə hər şeyi əhatə etmişdir. Başqa varlıqları Allaha ortaq qoşanlar, cansız bütlərin qarşısında səcdə edib hörmət nümayişi edərkən çox böyük günah işləyirlər. Çünki Allah bütün mülkün gerçək sahibidir, təriflənməyə, itaət edilməyə və şükür edilməyə həqiqi layiq olandır. Bir ayədə bu həqiqət belə xəbər verilir:

**De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. (Al İmran surəsi, 26)**

Canlı cansız bütün varlıqları ətraflı əhatə etmiş olan Rəbbimiz, söylədiyimiz hər sözdə, ağlımızdan keçən hər düşüncədə, etdiyimiz hər işdə bizə şahiddir. O insanların içlərindən keçirdiklərindən, gizlicə hazırladıqlarından xəbərdar olan, gizlinin gizlisini biləndir:

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

Yer üzündəki hər varlıq Allaha möhtacdır. Allah isə; insanın sahib olduğu hər cür nöqsandan münəzzəhdir, heç bir şeyə ehtiyacı olmayandır. Allah Özünə yeganə sığınılan, ehtiyac duyulandır. Özündən kömək gözlənilməsi, mədət ümid edilməsi lazım olan da yalnız Odur. Allah, əzəli və əbədi olan, daim diri olandır:

**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Allah sonsuz güc sahibidir, hər şey Onun məlumatı və əmri daxilində hərəkət edər. Göydən yerə qədər bütün işlər Allahın əmriylə reallaşır. Ölümlər, doğumlar, təbiət hadisələri, ağla gələ biləcək hər iş, hər hadisə Allahın əmriylə meydana gəlir. Ən kiçiyindən ən böyüyünə qədər alınan hər qərar, edilən hər fəaliyyət Allahın icazəsi ilədir.

Eyni şəkildə bədəninizdəki trilyonlarla hüceyrənin işləməsi, bu hüceyrələrin hər birinin içində olan orqanoidlərin bir-bir yerinə yetirdikləri bütün vəzifələr, bu hüceyrələri bəsləyən sistemlər və daha saya bilməyəcəyimiz müxtəlif detallar Allahın idarəsindədir. Bununla yanaşı, boşluqda dayanmaqda dönməkdə olan Dünyadan, Dünyanın üzərindəki tək bir qarışqanın bəslənməsindən törəməsinə qədər həyatını davam etdirməsi üçün lazım olan bütün fəaliyyətlərə qədər hər şey yenə Allahın icazəsiylə reallaşar. Rəbbimiz "**...Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın...**" **(Hud surəsi, 56)** ayəsiylə bu gerçəyi bizlərə bildirər.

Heç bir insan, ya da varlıq Allahdan müstəqil bir gücə sahib deyil. Bütün varlıqlar Allaha boyun əymişdir. Göylərdə və yerdə nə varsa Allaha təslim olmuşdur və Onun idarəsindədir. Heç kimsə Allahın idarəsi və diləməsi xaricində hərəkət edə bilməz, tək bir söz belə söyləyə bilməz. Allah, bütün aləmlərin sahibidir. Bütün qüvvət sadəcə Allahın əlindədir. Bu gerçəyi unudub, nə özünə nə bir başqasına (Allahın diləməsi xaricində) ən kiçik bir köməyə belə güc çatdıra bilməyəcək daşdan, torpaqdan varlıqlardan mədət ümid etmək, insana həm dünyada həm də axirətdə çox böyük hüsran gətirər. Allah Əraf surəsində belə buyurur:

**Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri Allaha şərik qoşurlar? Bütlər nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. Siz onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün fərqi yoxdur. Allahdan saVayu çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab**

**versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir. Ondan saVayu çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər". Siz onları doğru yola çağırsanız, eşitməzlər. Onları sənə baxan görürsən, halbuki onlar görmürlər. (əraf surəsi, 191-198)**

Hinduizmi araşdırdığımızda son dərəcə azğın, batil, primitiv, ağıl və məntiqlə ziddiyyət təşkil edən ayinlər dini ilə qarşılaşarıq. Onlar bütün həyatlarını xəyali ilahlarına cahil bir şəkildə ibadət edərək keçirərlər. Hindistanın hər yerində bu Hindi bütlərini görmək mümkündür: məbədlərdə, evlərdə, kiçik yol üstü ibadət yerlərində, girintili çıxıntılı daş oymalarında, reklamlarda, təqvimlərdə, film afişalarında, dükanlarda, ləl-cavahirat dizaynlarında, bəzək-düzəklərdə, ev bəzəmələrində... Qısaca Hinduizmin təsirli olduğu ölkələrdə həyatın hər sahəsi bu bütlərlə çevrilmişdir.

Allah Fatir surəsində belə kəslərin vəziyyətlərini bizlərə bu şəkildə xəbər verir:

**Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin onlara ibadət etdiyinizi danacaqlar. Heç kəs hər şeydən Xəbərdar olan Allah kimi sənə xəbər verə bilməz.**

**(Fatir surəsi, 14)**

Hinduların bütpərəst olmadıqlarını iddia etmələrinin səbəblərindən biri isə, bu inancın axmaqlığının dünyadakı demək olar ki, hər sağlamfikirli insan tərəfindən bilindiyinin fərqində olmalarıdır. Tapındıqları bütlərin əslində büt olmadığını, özlərini "Brahma"ya və ya "ümumbəşəri ruha" çatdıracaq vasitəçilər sayıldığını iddia edərkən fərqində olmadıqları gerçək isə, bu iddianın onsuz da tarix boyunca bütün bütpərəstlərin iddiası olmasıdır.

Başda da ifadə etdiyimiz kimi, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in dövründəki cahiliyyə dövrü müşrikləri də tapındıqları bütlərə özlərini Allaha yaxınlaşdırsınlar deyə tapındıqlarını irəli sürmüşlər. Bu azğın inanca qapılmalarının səbəbi isə (həm cahiliyyə dövrü müşriklərinin, həm də hinduların) atalarından miras qalan təlimlərə kor-koranə, sorğulamadan inanmalarıdır. Hz. İbrahim ilə bütpərəst qövmü arasında keçən və Quranda xəbər verilən bu söhbət, bütpərəstlərin tarix boyunca davam edən bu fanatikliyini göstərir:

**Bir zaman o öz atasına və tayfasına: "Nəyə ibadət edirsiniz?" – demişdi. Onlar dedilər: "Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik". O dedi: "Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?" Onlar dedilər: "Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük".**

**(Şüara surəsi, 70-74)**

Hinduizmi şəfqətli göstərmə təbliğatının qabaqcılları yalnız hindular deyil. Kitabın irəliləyən hissələrində daha detallı olaraq araşdıracağımız materialist və darvinist kütlələr də bu təbliğatda əhəmiyyətli bir rol boynuna götürür. Ancaq Qərb cəmiyyətlərində bütpərəstliyə qarşı xristian ənənəsindən gələn təbii reaksiya vardır. Xristianlıq zaman keçdikcə ilk vəhy edildiyi halından uzaqlaşıb degenerasiya olsa da bu kimi təməl dəyərlərini qorumuşdur. Dövrümüzdə də xristian cəmiyyətləri bütpərəstliyi bir növ azğınlıq, Hinduizmi də bütpərəst inanc olaraq görürlər.

Bu səbəblə də, Hindi inanışlarının qərbli cəmiyyətlərdə yerləşməsini hədəfləyən kütlələr, "ümumbəşəri ruh" tərifini istifadə edərək bu azğınlığı bütpərəstlikdən uzaq bir görünüşlə kamuflyaj etməyə çalışırlar. Bu aldatmanın pozulması üçünsə, çözüm Hinduizmə inanan insanların düşünməyə, vicdanlarının səsini dinləməyə və ağıllarını istifadə etməyə dəvət edilmələridir. Allah, Özündən başqa ilahlar əldə edərək cahil bir şəkildə azan insanları vicdanlarıyla hərəkət etməyə belə dəvət etməmizi bizlərə bildirmişdir:

**"...De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, hər şeyə Qalib gələndir". (Rad surəsi, 16)**

# HİNDULAR MILYONLARLA BÜTƏ TAPINIRLAR

"İslam və Buddizm" adlı kitabımızda detallı olaraq araşdırdığımız batil Buddist inanışlar, Buda heykəllərinə azğın bir şəkildə tapınmağı, heykəllərə yeməklər təqdim etməyi, aclıq və səfalət içində Buddaya özünü həsr etməyi əmr edir. (Baxın: İslam və Buddizm, Harun Yəhya, dekabr 2002, Araşdırma nəşriyyat) Hinduizmdə isə bu bütlərin sayı 300-350 milyona qədər yüksəlir. Çünki hər istiqamətiylə batil təlim olan Hinduizmə görə hər hindi öz bütünü düzəldə bilər, istədiyi canlı ya da cansız varlığa azğın şəkildə tapına bilər. Hər üç hindiyə ortalama bir büt düşməsi bu dinin nə qədər böyük bir xurafat olduğunu ən açıq şəkildə ortaya qoyur.

Hindular insan, heyvan, bitki, məkan və hadisələr kimi milyonlarla fərqli varlığı və ya faktı büt əldə edə bilərlər. Hər qəsəbə öz uydurma ilahına sahibdir. Hər qəsəbənin, ya da kəndin girişində ilan, meymun və daha fərqli bütlərin təmsil edildiyi heykəllərə rast gəlinir. Hər hindi evinin də öz bütləri vardır. Hətta eyni ailə içində belə hər fərdin fərqli bütlərə səcdə etdiyi görülür. Səhərlər bütlərini mahnılarla və işıq oyunlarıyla oyandırdıqlarını düşünər, onları təmizləyər, onlara çiçəklər, yeməklər, südlər təqdim edərlər. Allah bütpərəst qövmlərin bu böyük aldatmasını və özlərinə ilah əldə etdikləri varlıqların heç bir şeyə güc çatdıra bilməyəcəklərini "**onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər?..." (Əraf surəsi, 195)** ayəsiylə bizlərə xəbər verir.

Hindular bütlərinə bu şəkildə tapınarlarkən, çox böyük bir azğınlıq içində olduqlarını, etdiklərinin ağıl və məntiqlə ziddiyyət təşkil etdiyini düşünməz, hər hərəkətlərini bir ibadət olaraq görərlər. Halbuki onların taxtadan, daşdan bütlərə, ya da qondarma ilahlarına tapınmaları, Allahın vəhyinə söykənən bütün dinlərdə şiddətlə qadağan edilən çox böyük günahdır.

Allahın xaricində canlı, ya da cansız başqa varlıqlara tapınanlar Quranda müşriklər, yəni Allaha şirk qoşanlar, olaraq təsvir edilər.

Şirk Allahın xaricindəki varlıqlara, Allah ilə bərabər, ya da Allahdan daha çox dəyər vermək deməkdir. Yəni şirk qoşan adam sevgisini, marağını Allahdan çox bu varlığa yönəldər, Allahdan başqa ilahlar əldə edər. Bəzi müşriklər Allahın varlığını açıq inkar edərkən, bəziləri Allahla birlikdə öz qondarma ilahlarına da tapınırlar. Quranda şirk mövzusuyla əlaqədar bir çox ayə var və Allah şirk qoşanları bağışlamayacağını bildirir. Bu ayələrdən bəziləri bu şəkildədir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

**"…Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır". (Maidə surəsi, 72)**

**Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür. (Nisa surəsi, 116)**

Bir ayədə isə hz. Loğmanın oğluna bu şəkildə bir öyüd verdiyi xəbər verilir:

**…Ey oğlum, Allaha şirk qoşma. Şübhəsiz şirk, həqiqətən böyük bir zülmdür.” (Loğman Surəsi, 13)**

Hindi inanışlarındakı azğın ayinlər, bir-bir tərif edilə bilməyəcək qədər detallı və kompleksdir. Hindi kitabələrində hər bir büt ilə əlaqədar ayrı hissələr, əfsanələr, xüsusi ayinlər, qurban mərasimləri vardır. Həmin əfsanələrdə bütlərin hər birinin öz ailə həyatları, düşmənləri, zəiflikləri, ehtirasları, fövqəlbəşər gücləri, cəzalandırma üsulları vardır. Həmçinin bu bütlərin toxunduqları, üzərinə minib səfər etdikləri, bir yerdə olduqları canlı-cansız hər varlıq da hindular tərəfindən cahil şəkildə müqəddəs hesab edirlər. Gündəlik həyat da bu bütlər arasında bölüşdürülmüşdür.

Hindular bu bütlərin varlığına da, onların bütün bu xüsusiyyətlərə sahib olduqlarına da tam mənasıyla inanarlar. Hinduların ən çox dəyər verdikləri bütlər isə üçdür. Bunlar Brahma, Vişnu, Şivadır. Brahmanın guya var etmə xüsusiyyətinə sahib olduğuna inanılar. Vişnunun qoruyucu, Şivanın isə yox edici olduğuna inanılar. Hinduizm daha bunlar kimi milyonlarla batil inanış üzərinə quruludur. Ancaq uşaq nağıllarında rast gəlinə biləcək qəribə hekayələr, insanlara bir din olaraq təqdim edilər. Halbuki İslam dini Allahın vəhyinə, Rəbbimizin “**Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq Allah tərəfindən nazil edilmişdir.” (Fussilət surəsi, 42)** ayəsiylə təsvir etdiyi Qurana söykənir. Rəbbimiz Bəqərə surəsində bu şəkildə buyurur:

**...İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran...**

**(Bəqərə surəsi, 185)**

Allaha iman edən bir insan bütün həyatını Rəbbimizin razı olacağı kimi keçirər, Quran ayələrində bildirilən hökmlərə dəqiqliklə əməl edər. Mömin

dərin Allah qorxusu və Allah sevgisi, səmimi imanı və güclü vicdanı ilə tanınar. Həyatının hər anında vicdanının səsini dinlədiyi üçün doğru ilə səhvi bir-birindən ayıra bilər, fərasət və bəsirət sahibidir, ağıllıdır. Quran əxlaqından uzaqlaşıb, atalarından gördükləri ənənələrə uyğun gəlmənin insanı nə qədər böyük itkiyə uğratdığının fərqindədir. Bu üstün xüsusiyyətlərdən məhrum olan müşriklərin içində olduqları vəziyyət isə ayələrdə bu şəkildə xəbər verilir:

**Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız". (Ənkəbut surəsi, 17)**

**De: "Allahdan başqa məbud saydıqlarınızı çağırın". Onlar nə göylərdə, nə də yerdə zərrə qədərcə olan bir şeyə də sahib deyillər. Onların göylərin və yerin yaradılışında heç bir şərikliyi yoxdur və onlardan Allaha yardımçı olanı da yoxdur.**

**(Səba surəsi, 22)**

Bütün müşriklər kimi Hindular də tapındıqları bütlərin Allahdan müstəqil güclərə sahib olduqları səhvinə düşərlər. Qarşısında səcdə etdikləri daşdan, taxtadan heykəllərin özlərini eşitdiklərini, işlədikləri günahların fərqində olduqlarını zənn edərlər. Bu heykəllərin insanlara zərər verə biləcəyinə, onları lənətləyə biləcəyinə inanarlar. Halbuki bu düşüncələriylə həm Allaha şirk qoşaraq çox böyük günah işləyirlər, həm də ağıl və məntiqlə ziddiyyət təşkil edən çox böyük çıxılmaz vəziyyətə girirlər. Rəbbimiz müşrikləri bu böyük çıxılmaz vəziyyətdən xilas olmağa belə dəvət edir:

**Sizi yaradan, sonra sizə ruzi verən, sonra sizi öldürən, sonra da sizi dirildəcək məhz Allahdır. Şərikləriniz içərisində bunlardan, heç olmazsa, birini edə bilən varmı? O, pakdır və müşriklərin Ona şərik qoşduqlarından ucadır. (Rum Surəsi, 40)**

Hinduların azğın ayinləri saymaqla bitməyəcək qədər çoxdur. Məsələn hindular, məbədlərinin içində olan ikonalara çox böyük hörmət göstərərlər. Hörmətli qonaq kimi bu cansız heykəllərə xidmət edər, sevgi təqdim edər, maraq göstərərlər. Yuyunmaları və içmələri üçün su, geyim, çiçəklər, buxur və daha bir çox fərqli şey təqdim edərlər. Bu bütlər hər gün sanki bir canlı oyandırılır kimi diqqətlə oyandırılar, geydirilər, hindular tərəfindən ziyarət edilərlər; onlara ibadət edilər və daha sonra istirahətə tərk edilərlər.

Hindu bayramlarında toplu şəkildə bütlərə hədiyyələr, təqdim edilərək, oruc tutularaq, ilahilər söyləyərək heç bir gücü olmayan mənasız əşyalara qarşı şüursuz şəkildə bağlılıqlarını sübut etməyə çalışarlar.[5] Heç bir hindi bütün bunların nə dərəcə axmaq və hörmətdən salan olduğunu fərq etməz. Bir daşı, ya da taxtanı oyandırmağa cəhd etmənin, onu geydirmə, ya da onunla danışmanın nə qədər böyük ağılsızlıq və axmaqlıq olduğunu qavraya bilməz. Ancaq şizofreniya xəstələrində görülən növdə sayıqlama sərgilədiklərinin dərk edə bilməz. Rəbbimiz bütpərəstlərin bu azğın inanclarını bizlərə bu şəkildə bildirir:

**O dedi: “Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?” Onlar dedilər: “Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük” (Şuəra surəsi, 72-74)**

Hinduizmin azğın inanışlarına görə inəklər, meymunlar, bəzi quş növləri, bəzi ayı növləri, marallar, fillər, bəzi timsah növləri, pişikkimilər, siçanlar, bayquşlar, qarğalar, itlər də guya müqəddəsdirlər[6] və bütün bu

heyvanlara da xəyali ilahlarına göstərdikləri hörməti göstərərlər. Məsələn Rajputana Məbədindəki siçanlara kimsə toxunmaz; bu siçanlara toxunmaq çox böyük günah olaraq görülər.[7] Özünə ən çox hörmət göstərilən heyvan isə heç şübhəsiz inəkdir. Yolda bir inəklə qarşılaşan, ya da bir inək rəsmi görən hindular üstün güclərə sahib, "bütün insanlığın anası" və hər şeyi ilə müqəddəs bir qondarma ilahla qarşılaşdıqlarını düşünər və bu inəyə hörmət nümayişi göstərməyə başlayarlar.

İnəklər azğın hindi inanclarına görə yer, göy və atmosferin anası sayılır. Bu səbəblə də inəklər və öküzlər küçələrdə, alış-veriş mərkəzlərində və ya dilədikləri hər yerdə sərbəstcə gəzə bilərlər. İnək ətinin yeyilməsi qadağandır, öldürülmələri də qanunla qadağan edilmişdir. İnəklərin nəcisləri hindular tərəfindən müqəddəs və eyni zamanda da çox faydalı sayılır. Çox sayda xəstəliyi müalicə etdiyinə və adətlərə görə insan ruhunu təmizlədiyinə inandıqlarından ötəri müqəddəs sayılır, içilir və yeyilir.[8] İnəklərə tapınmanın (həm də bu cür iyrənc ayinlərin tətbiqi) nə qədər böyük bir ağılı, əxlaqi və ruhi pozuqluq olduğu açıqdır.

Təhsilli, universitet məzunu, müəyyən intellektual səviyyəyə çatmış hinduların belə bu azğın ənənədən əsla güzəştə getməməyi isə, Hinduizmin insanlar üzərindəki böyük təsirini bütün açıqlığı ilə ortaya qoyur. Hindu ənənələriylə ağılları örtülmüş olan bu insanlar nəyi nə üçün etdiklərinin belə fərqində deyildirlər, analiz qabiliyyətlərini və doğrunu səhvdən ayırd edə bilmə xüsusiyyətlərini tamamilə itirmişlər. Və heç düşünmədikləri bir həqiqət daha vardır: Bütün bütləri bir yerə gəlsələr belə Allahdan gələcək bir əzabdan onları "heç kim, ya da heç bir varlıq, heç bir şəkildə" qoruya bilməyəcək. Allah Əraf surəsində müşriklərə bu şəkildə xəbər verir.

**Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri Allaha şərik qoşurlar? Bütlər nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. (Əraf surəsi, 191-192)**

İnəyin hindular tərəfindən qondarma bir ilah olaraq görülməsi olduqca diqqət çəkicidir. Çünki Rəbbimiz Quranda xüsusilə buzovu tanrı edənlərə bir çox ayə ilə diqqət çəkir və **"Həqiqətən, buzova sitayiş edənlərə öz Rəbbindən bir qəzəb və dünya həyatında zillət üz verəcəkdir. Biz iftira yaxanları belə cəzalandırırıq." (Araf surəsi, 152)** şəklində buyurur. Ayələrdə hz. Musanın yanlarından ayrılmasının ardından İsrailoğullarının da buzovu büt etdikləri və ona tapındıqları xəbər verilir. Ayələrdə bu şəkildə buyurulur:

**O zaman Biz Musaya vəhy üçün qırx gecəlik vədə verdik. Sonra siz onun ardından buzovu özünüzə məbud qəbul edərək zalım oldunuz. (Bəqərə surəsi, 51)**

**Onlar dedilər: "Qəlblərimiz qapalıdır!" Xeyr, Allah onları məhz küfrlərinə görə lənətləmişdir. Odur ki, onlar olduqca az inanırlar. Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir Kitab (Quran) gəldikdə onu inkar etdilər. Halbuki əvvəllər kafirlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları peyğəmbər gəldikdə isə onu inkar etdilər. Allah kafirlərə lənət etsin!**

**(Taha surəsi, 88-89)**

**Musa sizə açıq-aydın dəlillər gətirmişdi. O getdikdən sonra siz buzovu ilahiləşdirib özünüzə zülm etdiniz. O zaman Biz sizinlə əhd bağlayıb dağı başınızın üstünə qaldırdıq: "Sizə verdiyimizdən möhkəm yapışın və eşidin!" – deyə əmr etdik. Onlar: "Eşitdik və asi olduq!" – dedilər. Küfrlərinə görə buzova olan məhəbbət onların qəlblərinə yeridildi. De: "əgər siz möminsinizsə,**

imanınızın sizə əmr etdiyi şey necə də pisdir!" (Bəqərə surəsi, 92-93)

Musanın ardınca qövmü öz zinət əşyalarından böyürən bir buzov heykəli düzəltdilər. Məgər bu heykəlin onlarla danışmadığını, onlara düz yol göstərmədiyini görmürdülərmi? Buna baxmayaraq ona məbud kimi sitayiş edib zalımlardan oldular. (Əraf surəsi, 148)

Həqiqətən, buzova sitayiş edənlərə öz Rəbbindən bir qəzəb və dünya həyatında zillət üz verəcəkdir. Biz iftira yaxanları belə cəzalandırırıq. (Əraf surəsi, 152)

Onlara: "Allahın nazil etdiyinə inanın!" – deyildikdə, onlar: "Biz özümüzə nazil edilənə inanırıq" – deyib onun ardınca gələni inkar edirlər. Halbuki Quran onların yanında olanı təsdiqləyən bir həqiqətdir. De: "əgər siz inanan idinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz?"

(Taha surəsi, 91)

Ayələrdə də görüldüyü kimi İsrailoğulları buzova "ehtirasla" bağlanmış, hz. Harun isə onları bu azğınlıqdan imtina etmələri üçün dəfələrlə xəbərdar etmişdir. Taha surəsində hz. Harunun qövmünə etdiyi bu xəbərdarlığı xəbər verilər:

**Bundan əvvəl Harun onlara demişdi: "Ey qövmüm! Siz bununla ancaq sınağa çəkildiniz. Həqiqətən, sizin Rəbbiniz Mərhəmətli Allahdır. Mənə tabe olun və əmrimə itaət edin!" (Taha surəsi, 90)**

Hz. Musa qövmünə geri gəldiyində onları buzova tapınarkən görür:

**O zaman Musa öz qövmünə dedi: "Ey qövmüm! Siz buzova ibadət etməklə özünüzə zülm etdiniz. Odur ki, Yaradanınıza tövbə edin və özünüzü (sizlərdən özlərinə zülm edənləri) öldürün. Bu, Yaradanınızın yanında sizin üçün xeyirlidir". O, sizin tövbənizi qəbul etdi. Doğrudan da O, tövbələri qəbul edəndir, Rəhmlidir. (Bəqərə surəsi, 54)**

İnəyə tapınan hindularla, buzovu ilah edən hz. Musa dövründəki İsrailoğulları arasındakı bənzərlik çox diqqət çəkicidir. Onlar da başqa bir heyvanı, ya da başqa bir obyekti deyil, Quranda bir çox ayə ilə diqqət çəkilən inəyi Allaha ortaq qoşmuş və çox böyük günaha girmişlər. Ancaq hz. Musa dövründəki İsrailoğulları bu etdiklərinin çox böyük səhv olduğunu fərq etmiş və Rəbbimiz də onların tövbələrini qəbul etmişdir. Hindular də bir an əvvəl içində olduqları bu azğınlığın fərqinə varmalı, səmimiyyətlə tövbə edib, Bir və Tək olan Allaha könüldən təslim olmalıdırlar. Ümid edilər ki, Rəbbimiz tövbələrini qəbul edəcək və onları hidayətə yönəldəcək. Bəqərə surəsində bu şəkildə buyurulur:

**Yalnız tövbə edənlər, əməllərini islah edənlər və haqqı bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, Rəhmliyəm! Kafir olub kafir kimi də ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Onlar bu lənətin içərisində həmişəlik qalarlar. Onların əzabı**

**yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir.**

**(Bəqərə surəsi, 160-162)**

Hinduizmdə bütlər insan və heyvanlarla da məhdud qalmamaqdadır. İnsanın gün ərzində qarşılaşa biləcəyi demək olar ki, hər obyekt böyük bir azğınlıqla müqəddəsləşdirilmiş və ona ibadət edilər hala gətirilmişdir. Məsələn Allahın icazəsiylə bir yerə gəlib çağlayaraq axan çaylar, Onun uca təqdiri ilə toxumu yerə düşüb böyüyən ağaclar, Rəbbimizin sarsılmadan sabit dayanmasına icazə verdiyi dağlar hindular tərəfindən müqəddəs olaraq görülməkdədir. Halbuki Rəbbimizin Quran ayələrində bildirdiyi kimi bütün bu varlıqlar Allaha səcdə edirlər:

**Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi?.. (Həcc surəsi, 18)**

**Göylərdə və yerdə olanların hamısı, heyvanlar da, mələklər də təkəbbür göstərmədən Allaha səcdə qılırlar.**

**(Nəhl surəsi, 49)**

Bu azğın düşüncə hinduları dağlar, çaylar haqqında ağıldan kənar əfsanələr uydurmağa aparıb çıxardır. Bu əfsanələrə görə dağların, çayların ruhları və həyatları vardır. Haqdan azaraq özlərinə görə müqəddəsləşdirdikləri çayların ən məşhuru isə Qanqdır, guya müqəddəs dağların başında isə Himalay dağı gəlir.[9] Hindulara görə atəş bütü Aqni, Günəş bütü Surya, okean bütü Varuna, külək bütü Vayu, memarlıq bütü Vişkarma, ölüm bütü isə Yamadır.

Allahın bu əmrinə uyğun olaraq Ondan qorxan mömin, qarşısındakı insan kasıb da olsa, zəngin də olsa, hər nə şərt olursa olsun, mütləq ədalətlə hökm edər, o insanın maddi və ya ictimai vəziyyəti səbəbiylə fərqli davranış sərgiləməz. Çünki zənginlik, ya da kasıblığın Allahın insanları sınamaq üçün yaratdığı keçici dünya şərtləri olduğunu bilər. İnsan öldüyü zaman dünyadakı malının və mülkünün heç bir dəyəri qalmayacaq, yalnız təqvasıyla qarşılıq görəcək. Allahın məmnun olacağını bildirdiyi rəftar isə haqlılıqdır, ədalətdir, dürüstlük və düzgünlükdür. Bu gözəl əxlaqın qarşılığı isə sonsuz axirət mükafatlarıdır. Rəbbimizin ədalət mövzusunda Quranda bildirdiyi bir başqa ayə isə bu şəkildədir:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun.... (Nisa surəsi, 135)**

Ayədə əmr edildiyi kimi iman sahibləri heç bir vəziyyətdə ədalətdən güzəştə getməz, Allahın ayələrinə diqqətlə əməl edərlər. Yalnız qan və ya dostluq bağı olduğu üçün haqsız yerə yaxınları qorunub nəzarət edilməsi, cəmiyyətdə narahatlıq meydana gətirəcəyi açıqdır. Ancaq Quranın hökmlərinə görə hərəkət edən bir müsəlman Allahın "...**Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız**" (Ənam surəsi, 152) şəklində bildirdiyi tövsiyələrinə xəbərdar edir. Bu rəftar onun Allaha olan güclü imanının və gözəl əxlaqının bir göstəricisidir.

Quran əxlaqının ortaya çıxardığı insan və cəmiyyət modeli budur. Allahın vəhyinə deyil də, insanların çıxardıqları xurafatlara söykənən Hinduizm isə ədalətsiz, irqçi, təzyiqçi, tolerantsız, barbar cəmiyyət modeli ortaya çıxarmışdır.

# Batil hindu dini və siqhizm

Hindu dinindəki insanı heyvandan aşağı görən kasta sistemi, bu dinin mənsublarının böyük hissəsi üçün tarix boyunca həmişə böyük zülm qaynağı olmuşdur. Bu səbəblə də İslam dininin tolerant, ədalətli, ictimai həmrəyliyə əhəmiyyət verən əxlaq modeli hindular üçün çox böyük ümid qaynağı olmuşdur. Daha əvvəl də vurğuladığımız kimi İslamın Hindistan torpaqlarına çatmasının ardından çox sayda hindu İslam dinini qəbul etmişdir. Ancaq bəzi seqmentlər də illərdir içində yaşadıqları batil hindu ənənələrini tərk edir çətinlik çəkməyə məcbur edilmişlər.

İslamı qəbul etməyən bu insanlar fərqli yol izləmişlər, hindu dinini tam olaraq tərk edə bilməyib, Hinduizm ilə İslam dinini birləşdirərək fərqli axınlar

meydana gətirməyə çalışmışlar. Bu axınlardan biri isə Siqhizmdir və Sri Quru Nanak Dev Ji (1469-1539) tərəfindən qurulmuşdur.

Quru Nanak illər boyunca müsəlman idarəçilərin yanında işləmiş və İslam dinini çox yaxından tanıma fürsəti əldə etmişdir. Bir çox İslam alimi ilə tanış olub, fikirlərindən istifadə edən Nanak, zamanla hindu dininin bəzi ənənələri ilə İslam dininin təməl inanışlarını bir yerə gətirərək yeni bir dini mədəniyyət meydana gətirmə yoluna getmişdir. Zaman ərzində ətrafında müxtəlif insanlar toplanmış və Siqhizm meydana gəlmişdir.

Sihlər ümumiyyətlə şimal-qərb Hindistanın Pəncab bölgəsində yaşayırlar. 1995-ci il hesabına görə əhaliləri 18.7 milyondur və bu say Hindistan əhalisinin 1.9%-ni təşkil edir. Həmçinin kiçik qruplar halında İngiltərə, Kanada, ABŞ, Malayziya və Şərqi Afrikada da yaşayırlar.

Siqhizm Allahın birliyi, bütün kainatı Allahın yoxdan var etdiyi, insanlığın qardaşlığı və bərabərliyi kimi doğru İslami inancları qəbul edər. Bununla yanaşı, kasta sisteminin və bütə tapınmasının rəddi də Siqhizmin müsbət istiqamətlərindəndir. Ancaq Siqhizm batil hindu dinindən reinkarnasiya, karma, nirvana kimi müxtəlif azğın inanışlar ehtiva edir. Bir çox hindu ənənəsi, bayramı və mərasimi Sihlərə görə də tətbiq edilir.

Batil karma və reinkarnasiya inanclarına geniş yer verən Sih dinində, Quru Nanakdan sonra gələn 9 qurunun (təlimçinin) bir əvvəlki qurunun ruhunu daşıdığına inanılar. 10-cu quru Gobind Singhdən sonra (1675-1708) silsilə yoluyla quruluğa son verilmişdir. Ancaq dövrümüzdə 10 quru sihlər tərəfindən çox böyük hörmət ilə xatırlanır və hər Sihin evində bu quruların şəkilləri var. Qurulara bağlılıq, Sih dininin təməl inanclarından qəbul edilir.

Sihlərin adı, xüsusilə də Sih xadimlərin Hindistanın dörd bir tərəfində etdikləri hərəkətlərlə dünya gündəminə daşınmışdır. Dövrümüzdə sihlər həm hindularla, həm də Hindistanda yaşayan müsəlmanlarla qarşıdurma halındadırlar. Xüsusilə də Kəşmir torpaqlarında Sih xadimlərin hərəkətləri səbəbiylə illərdir minlərlə müsəlman həyatını itirmişdir. Ancaq hindularla yaşadıqları qarşıdurmalar daha böyük itkilərlə nəticələnmişdir.

1947-ci ildə Hindistanla Pakistanın ayrılmasından əvvəl sihlər Pəncabda çox təsirli mövqedə idilər. Ancaq iki ölkənin ayrılmasının ardından Hindistanın fərqli bölgələrinə dağıldılar. Bunun nəticəsində də əllərində saxladıqları hərbi və siyasi gücü itirdilər. Hindistanda sürən "Sihlərin Hindulaşdırılması" kampaniyalarında 1941-1951-ci illər arasında təxminən 200.000 Sih məcburi hindu edildi. Bu dövrdən etibarən hindular sihlər arasında davamlı qarşıdurmalar yaşandı.

Hind yarımadasındakı digər dinlərə görə daha aktiv, təcavüzkar, uzlaşmaz bir birlik olaraq bilinən sihlər, müstəqillik tələbində olduqları üçün hücumlar, təxribatlar, terrorist cəhdləri etdilər. Qarşıdurmalar, 1984-cü ildə hinduların sihlərə görə müqəddəs sayılan Amritsar məbədinə girmələri və 4 gün 4 gecə sürən qarşıdurmanın nəticəsində sayları 450 ilə 1200 arasındakı Sih xadimini öldürmələriylə daha da artdı. Sihlər qısa müddətdən sonra bu hücuma cavab verdilər və bu məbədə hücum qərarını verən İndira Qandi, 2 sih mühafizəsi tərəfindən 1984-cü il oktyabrda öldürüldü.

Bunun ardından hindu rəhbərliyi tərəfindən sihlərə istiqamətli böyük əməliyyat təşkil edildi. Rəsmi açıqlamalara görə çoxu sih olmaq üzrə 2700 adam öldürüldü. İnsan haqları təşkilatları və qəzetlər isə bu sayın 10.000 ilə 17.000 arasında olduğunu açıqladılar.[36] Bu qırğına sih xadimlər, qabaqcıl bəzi hindular və siyasətlərinə qarşı çıxan mülayim sih liderləri öldürərək cavab verdilər. 1984-cü ildən etibarən sihlərlə hindular arasında yaşanan qarşıdurmalarda təxminən 30.000 adam öldü. 1990-cı illərin ortalarına doğru şiddət hadisələri azalmağa başladı. Ancaq son illərdə hindu milliyyətçiliyinin yüksəlişi ilə qarşıdurmalar təkrar artmağa başladı.

Siqhizm, əvvəl də ifadə etdiyimiz kimi, İslamın bəzi doğrularını qəbul edən, ancaq hindu ənənələrini tərk etməyərək bunları Hinduizmlə birləşdirən batil bir inancdır. Halbuki bu, ağıldan kənardir.

İslam, vəhyə söykənən bir dindir. Hinduizm isə insanların uydurduqları ənənələrə söykənəndir. Vəhy, Allahdan gələn İlahi məlumatdır və mütləq doğrudur. Ənənələr və digər insan məhsulu fikir və tətbiqlər isə, qaçınılmaz olaraq əksik və səhvlərdir. Qaldı ki, Hinduizm, əvvəlki hissələrdə

araşdırdığımız kimi, digər ənənə və ya insan məhsulu sistemlərin çoxuna görə daha axmaq, mövhumatçı, barbar, ədalətsiz və azğın inancdır. Bu səbəbdən İslam ilə Hinduizm arasında "qarışıq din" meydana gətirmək, çox böyük azğınlıqdır.

Gerçəkdə Siqhizm, tarix boyunca bir çox insanı azdırmış olan bir yanılmanın məhsuludur: Ənənələrə kor-koranə bağlılıq. Allah bu yanılmaya qapılan insanlar haqqında belə bildirər:

**Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" – deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" – deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun? (Maidə surəsi, 104)**

Bizim də sihilərə çağırışımız, "atalarını üzərində tapdıqları" dinə deyil, yalnız və yalnız Allahın vəhyinə tabe olmaları və İslamla şərəflənmələridir.

# Hinduizm, insanlığı səfalətə, aclığa məhkum edər

Hinduizmin təməlində yer alan karma inancının səhv nəticələrindən biri, insanların xəstəliklərini, kasıb olmalarını, acizliklərini, şikəst olmalarını bir əvvəlki həyatlarındakı əxlaqi pisliklərindən, səhvlərindən qaynaqlanan bir cəza olaraq görmələridir. Bu səbəblə alt kastada olduqlarını, bu cəzanı layiq olduqlarını düşünürlər. Cəmiyyət də bu insanı günahkar olaraq görər. Sistemin təpəsində olan zənginlər və rəhbər kasta isə, sahib olduqları bütün imtiyazları təbii haqları olaraq görərlər. Bu batil inanca görə alt kastalardakı insanlar Hind cəmiyyətində hər zaman xor görülmüş və əzilmişlər.

Hinduizmin qaydalarına görə alt kastada yaşayan bir insan dünyada ikən kastanı dəyişdirə bilməz. Bu səbəbdən ictimai statusunu, peşəsini, həyat standartını da dəyişdirə bilməz. Özü üçün edə biləcəyini zənn etdiyi tək şey içində olduğu nizama üsyan etmədən itaət etmək surətiylə, daha sonrakı həyatında üst təbəqələrə yüksəlmə imkanına sahib olmağı ümid etməkdir. Əks halda dünyaya təkrar gəldiyində heyvan və ya bitki olacağına inanır. Yaxşı hər insanın davranışlarını kim ölçəcək, buna görə bir sonrakı həyatındakı bioloji formasını kim təyin edəcək?

Hindular bu suala cavab verə bilməz, yalnız bu xəyali qarışığın bir təbiət qanunu kimi öz-özünə işlədiyini sanarlar. Halbuki bu cür "təbiət qanunu" ola bilməyəcəyi və dolayısilə bu inanışın nə qədər böyük axmaqlıq olduğu açıqdır. Ancaq əsrlərdir eyni təlqinlərlə yetişən hindular və buddistlər kimi digər karmaya inananlar bu xəyali sistemə kor-koranə inanırlar. Bu batil inancın nəticəsində isə, hər insanın müəyyən bir ictimai səviyyədə tutulmasını nəzərdə tutan zalım kasta sistemi ortaya çıxmışdır.

Hindi cəmiyyətində var olan kasta sistemi, insanlar arasındakı köməkləşmə, həmrəylik, ehtiyac içindəki insana dəstək olma kimi anlayışları ortadan qaldırmışdır. Çünki vəhşi kasta qaydalarına görə insanların bir-birlərinə düşmən kimi baxmaları təmin edilmiş, xüsusilə də toxunulmazlar sözüylə ifadə edilən seqmentə sanki ikinci kasta insan rəftarı haqq görülmüşdür. Bu insanlar ən murdar işlərdə işləmək məcburiyyətində buraxılmış, yeməkləri yoxsa kimsədən kömək görməmiş, xor görülmüş və alçaldılmışlar.

Kasıbların layiq olduqları üçün kasıb olduqlarına inanan hindular bu kəslərə kömək etməz, xəstələrə, ehtiyac içində olanlara, şikəstlərə pis gözlə baxarlar. Hinduizm insanı ən çox alçaldan inanışdır. Həyatda ən böyük dəyər verdikləri şey bütləridir, uydurma ilahlarıdır. Bu səbəblə də öz əlləriylə düzəltdikləri daşdan, taxtadan cansız bütlərin qarşısında əyilmək, onlara xidmət etmək onlar üçün çox böyük xoşbəxtlik qaynağıdır. Qondarma müqəddəs ağac, ilan, soxulcan və ya inək, hindu cəmiyyətində insandan çox

daha qiymətlidir. Hinduizmdən başqa heç bir inanışda insan bu şəkildə xor görülmür.

Köməkləşmə duyğusunun əskikliyi dövlət rəhbərliyində də təsirli olduğu üçün ölkənin səfaləti hər keçən gün daha da artır. Hindistan əhalisinin 10%-ni meydana gətirən yüksək kasta üzvləri, ölkə zənginliyinin, təhlükəsizlik, ədalət və medianın 90%-ni nəzarət etməkdədirlər. Hindistan əhalisinin təxminən 40%-i kasıblıq çəkir. Bu da təxminən 400 milyon insanın qida, geyim və sığınma kimi təməl həyat ehtiyaclarını qarşılaya bilmədikləri mənasını verir. Bu çox böyük rəqəmdir.

İnsan Haqları İzləmə Təşkilatı (Human Rights Watch)ın hesablarına görə 15 milyon uşaq feli olaraq köləlik sistemi içində yaşayır: Bunlar ailələri tərəfindən borclarına qarşılıq fidyə olaraq verilən uşaqlardır.[37] 8 milyon uşağın əkinçilikdə ağır işçi olaraq istifadə edildiyi təxmin edilir. “The Times of India” qəzetində dərc olunan 11 aprel 1984-cü il tarixli xəbərdə uşaqların yaşadığı şərtlər “işgəncə düşərgəsi” olaraq xarakterizə edilmişdir.[38]

Bütün bu uşaqlar həyatlarını aclıqla boğuşaraq keçirərlər. Bu səfalət qarşısında son dərəcə laqeyd davranan hətta kasta sistemi lazımınca bunu haqlı və doğru olaraq görən dindar hindular isə, əlləriylə düzəltdikləri heykəllərə ən bahalı yeməkləri təqdim edərlər. Hindistan, yeməklərini aç insanlara deyil bütlərə verildiyi dəlilik diyarıdır.

Hindistandakı təhsil sisteminin şərtləri də olduqca mənfidir. Məktəb çağı əhalisinin təxmini olaraq yarısı (6-14 yaş) ya evdədir, ya da işləyir. Hindistan cəmiyyətində təhsil sistemi zəruri deyil və ədalətsizdir.[39] Kasıbların uşaqlarını məktəbə göndərmək üçün lazımlı olan vəsait, paltar və nəqliyyat məsrəflərinə gücləri çatmır. Təhsil sisteminin yetərsizliyi hökumət də daxil olmaq üzrə çox seqmentin bu mövzunu, xüsusilə də kasıblar (alt kastalar üçün) gərəksiz olaraq görməsinə səbəb olur.

Bu, ancaq din əxlaqının yaşanmadığı, bütpərəst cəmiyyətlərdə yaşana biləcək bir sistemdir; çox böyük zalımlıqdır və Quran əxlaqının tamamilə ziddidir. Allah Quranda bütün zəifliklərin, nöqsanların insanlara dünya həyatında imtahan olaraq verildiyini xəbər verər. Allah “**Biz sizi bir az qorxu,**

**bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver."** (Bəqərə surəsi, 155) şəklində buyurur. Xəstəliklər, yoxluqlar cəza deyil, Rəbbimizdən bir sınaqdır. İnsan bunlara səbir göstərməklə, bütün nöqsanlara baxmayaraq ən gözəl əxlaqı göstərib Rəbbimizin məmnun olacağı kimi bir həyat sürməklə məsuldur.

Allahın vəhyinə söykənən haqq dinlərdə insanlar arası əlaqələrdə yaxşılıq etmək, köməkləşmə və həmrəylik əsasdır. Rəbbimiz bir ayəsində bu şəkildə buyurur:

**...Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir. (Maidə surəsi, 2)**

Ayədə də açıqlandığı kimi, möminlər yaxşılıq mövzusunda səy göstərməklə məsuldurlar. Onlar Allahın **"Xeyr adına hər nə etsəniz, şübhəsiz Allah onu bilər."** (Nisa surəsi, 127) ayəsini düşünər və hər etdiklərinin qarşılığını Allahın icazəsiylə Rəbbimizin Qatında mütləq alacaqlarını heç unutmazlar. Yuxarıdakı ayədə Allah məqbul olan köməkləşmənin "yaxşılıq və təqva" mövzusunda olması lazım olduğunu bildirmişdir. Yaxşılığın nə olduğu isə bizə Quranda açıqlanmışdır:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz**

**verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Rəbbimizin Bəqərə surəsində də buyurduğu kimi, yaxşılıq möminin bütün həyatını əhatə edən bir əxlaq şəklidir və insanın bütün həyatı boyunca tətbiq etdiyi bir ibadətdir. Müsəlman özü ehtiyac içində olsa belə yoxsula və yetimə köməklik edən, sevdiyi şeylərdən verən (İnsan surəsi, 8) ixlas sahibi bir quldur. Çünki Allah **"Onların mal-dövlətində dilənçinin və yoxsulun payı vardır."** (Zəriyət surəsi, 19) ayəsiylə köməkləşməyi, infaq etməyi və yaxşılıq etməyi bir müsəlman xüsusiyyəti olaraq xəbər vermişdir.

Onların köməyi heç bir şərtə bağlı deyil. Mömin lazım olduğunda yaxşılıq edə bilmək və başqalarını yaxşılığa təşviq edə bilmək üçün hər cür fədakarlığı gözə ala bilər. Etdiyi kömək qarşılıqsızdır, yalnız Allah rizasını hədəfləyər. Peyğəmbərimiz (s.ə.v) bir hədisində *"Əziz və Cəlil olan Allah: Ey qulum, sən kasıblara nəfəqə ver ki, məndə sənə nəfəqə verim, buyurdu."*[40] şəklində bildirmişdir.

Allah İnsan surəsində möminlərin rəftarını bu şəkildə bildirər:

**və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" (İnsan surəsi, 9-10)**

Müsəlman Allahın sonsuz ədalət sahibi olduğunu bilər və dünya həyatında etdiyi gözəl davranışların mütləq bir qarşılığı olacağını ağılından çıxarmaz. Dünya həyatının keçici olduğunu, əsl yurdun Rəbbimizin Qatında olduğunu heç unutmaz. Çünki Allah insanları bu qaçınılmaz sonla xəbərdar etməkdə və hər kəsi gözəl davranışlar etməyə dəvət edir: Gözəl davranış

edənlərin alacağı qarşılığı isə, Allah ayələrdə bu şəkildə bildirməkdə və bütün insanlığa çox gözəl müjdə verir:

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir nazil etmişdir!" – deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! Onlar ağacları altından çaylar axan Ədn bağlarına girəcəklər. Orada onların ürəklərinin istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır. (Nəhl surəsi, 30-31)**

## Hindu dini qadınlara zülmü əmr edər

Kitabın əvvəlki hissələrində Hinduizmin batil təlimlərini və alt kastalara daxil olan insanları bir heyvandan daha aşağı görən irqçi ictimai nizamını araşdırdıq. Hindu dininin alt kastalara və hindu olmayanlara istiqamətli irqçi tutumu, qadınlara gəldikdə daha qatı və vəhşidir. Hindu yazılı mətnlərində qadınların gündəlik həyatlarına istiqamətli xüsusi qadağalar, məhdudlaşdırmalar mövcuddur və bütün bu qaydalar qadınlar üçün çox çətinliklərlə dolu bir həyatı nəzərdə tutur. Kişilərlə müqayisə edildiyi zaman hindu qadını sanki bir kölə kimidir və ən təbii haqlarını belə istifadə etməkdən daşınmağa çağırılmışdır.

Dünya üzərindəki bir çox ölkədə qadınlara istiqamətli məhdudlaşdırıcı tətbiqlər, təzyiqçi ənənələr mövcuddur. Ancaq Hindistandakı ənənələr şiddəti, təzyiqi, hər cür alçaltmağı guya müqəddəs örtükdə insanlara təlqin edər. Bu səbəblə də hindular qadınlara zülm etməyi, onları xor görməyi və alçaltmağı

özlərinə görə ibadət olaraq görərlər. Hindu dinində qadının mövqeyi bu dinin yalançı müqəddəs mətnləri arasında yazılı olan Manuda belə ifadə edilər:

*Bir iradəsizlik çıxmazı, bu əxlaqi fəsad çıxmazı... Bu yanğınlar topluluğu, bu gözlər qapısını insana bağlayan maneə, bu cəhənnəm atəşinin ağızı, bu yalan çiçəklərin səbəti, bu zəhərli sirrin iksiri, bu insanları dəyərsiz dünyaya bağlayan zəncir, ya da tək bir sözlə qadın...*[41]

Əsrlərdir sürən ənənələrindən, din adamlarından və müqəddəs olaraq qəbul etdikləri mətnlərdən güc alan hinduların qadınlara istiqamətli barbar tətbiqlərindən bəziləri bu şəkildədir:

- Hindu dinində əhəmiyyətli bir yerə sahib olan Manuda qadınlardan "it-bişiricilər" olaraq bəhs edilər. Bu mətnlərdə bəhs edən əmrlərə görə qadınların mülk əldə etmə haqları yoxdur. Qadın hər cür işdə işləyib pul qazana bilər. Amma bütün qazandıqları atasına, yoldaşına, ya da dul isə oğluna aiddir.
- Qadının tək başına, müstəqil şəkildə qərar verməsi qadağandır. Belə bir haqq axtarışı belə Manuda qadağan edilmişdir.
- Hindu dininə görə qız uşaqları 7 yaşından etibarən evləndirilə bilərlər. 8 yaşında bir qız uşağının ideal yoldaş olduğuna inanılar. Bu tətbiq, İngilis müstəmləkə rəhbərliyi tərəfindən 1891-ci ildə qadağan edilmiş, ancaq bu qadağan hindu din adamları tərəfindən ənənələrlə ziddiyyət təşkil etdiyi üçün şiddətlə etiraz edilib, həyata keçirilməsinə maneə törədilmişdir. Hindistanda uşaq evlilikləri hələ cəmiyyətin çox böyük bir seqmenti tərəfindən tətbiq olunur.
- Boşanma haqqı yalnız kişidədir. Qadın hansı növ zülmə, təzyiqə, şiddətə məruz qalırsa qalsın yoldaşından boşana bilməz. Hər vəziyyətdə yoldaşına itaət etməli, gördüyü rəftara razı olmalıdır. Manuda bu vəziyyət "...Əgər ərinin hər hansı xüsusi tərəfi yoxsa belə,

onu öz tanrısı kimi saymalıdır" şəklində azğın bir əmrlə idarə olunur.[42] (Allahı tənzih edərik.) Bu inanış gündəlik həyatdakı tətbiqlərdə də görülür. Köhnə dövrlərdə Ari kişiləri yoldaşları icazəsiz olaraq evdən çıxarlarsa onların qulaqlarını və burunlarını kəsmə haqqına sahib idilər. Bu tətbiq hələ Hindistanın bəzi kəndlərində davam edir.[43]

- Kasta ayırmadan, bütün qadınların təhsil üçün istifadə edilən təməl kitabların böyük hissəsini oxumaları qadağandır. Qadınlar eyni zamanda hindu yazılı mətnlərini, xüsusilə də Vedaları, oxuya bilməz, öyrənə bilməzlər.
- Drahoma, yəni kişilərin aldığı başlıq pulu, hindu ənənələrindən qaynaqlanan bir başqa zülmdür. 1961 qanunu ilə qadağan edilən drahoma hələ də Hindistanda geniş şəkildə davam edir. Drahomayı bu qədər əhəmiyyətli edən şey, bunun qadınlara qarşı təzyiq, işgəncə və zülm məqsədli olaraq istifadə edilməsidir. Evlilik əsnasında qızın ailəsi kişinin ailəsinə çox böyük pul verər. Evlilikdən sonra da kişinin ailəsi tez-tez pul və mal tələbləri edər və bəzən bunu əldə etmək üçün şiddət edər. Bəzi kişilər başqa bir drahoma daha əldə etmək üçün təkrar evlənmək istəyərlər. Bunun üçün də ümumiyyətlə gənc yoldaşlarını yandıraraq qətl edərlər. Bu qırğınlara intihar, ya da ev qəzası görünüşü verilir. Bu səbəbdən Hindistanda "ev qəzası" ilə ölən qadınların nisbəti olduqca yüksəkdir.[44]
- Hindistanda qızları olan ailələr drahoma səbəbiylə böyük narahatlıq yaşayırlar. Çünki həm böyük drahoma verəcək, həm də evləndikdən sonra qızlarının necə bir rəftarla qarşılaşacaqlarını təxmin edə bilməyəcəklər. Son illərdə hamiləlik mərhələsində cinsiyyətin təsbit edilməsinin asanlaşması, qorxu içindəki ailələri çox böyük vəhşiliyə sövq etmişdir. "The Times of India" qəzetində "Cinsiyyət testləri inkişaf etdikcə abort artdı" kimi xəbərlər çıxmış və eyni il Bombeydəki bir araşdırmada, belə bir testlə birlikdə biri xaricində hamısı qız olan 8.000 dölün alındığını göstərmişdir.[45] Darvinist nəzəriyyəçilər

tərəfindən inkişaf etdirilən və ən mərhəmətsiz tətbiqləri Nazı Almaniyasında yaşanan yevgenika vəhşiliyinin yeni mərkəzi Hindistandır.

- Yeni doğulan qız uşaqlarının öldürülməsi hindu dininin ən qədim kitablarındakı qadınlara istiqamətli mərhəmətsiz əmrlərdən qaynaqlanır. Məsələn Ari mətnlərində bu vəhşi ənənə "Bu andan etibarən yeni doğulan bir qız uşağını rədd et və bir oğlana sahiblən" sözləriylə təsdiqlənir.[46] Atharva Vidada isə "Burax qız uşağı başqa bir yerdə doğulsun, burada oğlanın doğulmasına icazə ver"[47] şəklində əmr mövcuddur. Bir qız uşağı dünyaya gətirən qadın günahkarlıq duyur. Buna görə yeni doğulan qız uşaqlarını öldürmə, yükdən xilas olmanın asan yolu olaraq görülür.[48]

Qız uşaqlarına istiqamətli bu insanlıqdan kənar tətbiq tarix boyunca din əxlaqının yaşanmadığı bir çox cəmiyyətdə də görülmüşdür. Arilərın bir adəti olan bu vəhşilik, əslində Arilər kimi digər bir çox bütpərəst mədəniyyətdə də görülə bilər. Bu bütpərəst mədəniyyətlərdən biri də, İslamdan əvvəlki ərəb cəmiyyətidir. Allah Quranda bütpərəst ərəblərin qız uşaqlarını dəyərsiz görərək doğular doğulmaz, diri-diri torpağa basdırdıqlarını xəbər verir və qiyamət günü bu günahın hesabının soruşulacağını bildirir:

**Diri-diri torpağa basdırılmış qız uşağı soruşulacağı zaman hansı günaha görə öldürülmüşdür; (Təkvir surəsi, 8-9)**

Başqa ayələrdə isə Allah, **"Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. Bilmir nə etsin, körpəni rüsvayçılıq içində saxlasınmı, yoxsa onu torpağa gömsün? Onların verdikləri qərar necə də pisdir!"** (Nəhl surəsi, 58-59) ifadəsiylə, qız uşağı olduğu üçün utanan bütpərəstlərin nə

qədər böyük səhvin içində olduqlarını açıqlayır. Bu bütpərəst adətinin azğınlığını vurğulayan bir başqa ayə bu şəkildədir:

**Onlardan birinə, Mərhəmətli Allaha aid etdikləri qız uşağı ilə müjdə verilsə, hirsindən üzü qapqara qaralar.**

**(Zuxruf surəsi, 17)**

Halbuki Allah **"Göylərdə və yerdə səltənət Allahındır. O, istədiyini yaradır; kimə qız uşaqları, kimə də oğlan uşaqları bəxş edir. Yaxud hər ikisindən – oğlan və qız uşaqları verir, istədiyini də sonsuz edir. Həqiqətən, O, Biləndir, Qadirdir."** (Şura surəsi, 49-50) ayəsiylə, hər insana cinsiyyətini verənin Özü olduğunu xatırladır. Oğlan kimi, qız uşağı da Allahın doğumunu təqdir etdiyi bir insandır. Ana-atanın məsuliyyəti, Allahın bəxş etdiyi uşaqlarına Onun əmr etdiyi şəkildə sevgi, şəfqət və mərhəmətlə baxmaqdır.

İslam, tarix boyunca hər yerdə bütpərəst dinlərin barbarlığı olan körpə cinayətlərini qadağan etmiş və ortadan qaldırmışdır. Rəbbimiz İslam əxlaqından xəbərsiz olan bu cəmiyyətlərə göndərdiyi peyğəmbərləri və endirdiyi haqq kitabları ilə, qız uşaqlarına qarşı olan bu dünya görüşünün səhv olduğunu bildirmişdir. Peyğəmbərlərin təbliği və İslam əxlaqının insanlar tərəfindən öyrənilməsiylə birlikdə, qız uşaqlarını bir utanc vəsiləsi olaraq görmə düşüncəsi və cahiliyyə cəmiyyətlərində var olan bu cür tətbiqlər böyük ölçüdə ortadan qalxmışdır. Ancaq Hindistan cəmiyyəti əsrlərdir davam edən azğın ənənələrini davam etdirməkdə israr edir və qız uşaqlarını öldürməyi hələ də qanuni görür.

# Sati vəhşiliyi ya da dul qadınların yandırılması

Hindistanda ictimai həyata hakim olan azğın tətbiqlər saymaqla bitməyəcək qədər çoxdur. Hər bir inanışın isə çox detallı ritualları, bölgədən-bölgəyə dəyişən şəkilləri vardır. Ancaq bunların içində ən ürküdücü olanı heç şübhəsiz əsrlərdir yüz minlərlə qadının ölümünə səbəb olan “sati” (suttee)-dir. Bu ənənəyə görə qadınlar ərlərinin ölümünün ardından özlərini yandırmalıdırlar.

Qorxunc sati ənənəsi Arilərın Hindistanı zəbtləri dövründə başlamışdı. Tək bir adam üçün tətbiq olunduğunda sati olaraq adlandırılan bu tətbiq, kütlələr halında, bir qəsəbədəki bütün qadınların və qızların dul qalmasının gözlənildiyi vəziyyətlərdə (məsələn kişilər bir döyüşə getdiklərində) tətbiq olunduğunda Jauhar olaraq bilinər.

Qadınların ərlərinin ardından özlərini yandırmalarının səbəbi isə “ərlərindən əvvəl ölməmələrinin” cəzalandırılmasıdır. Jauhar əsnasında, qadınlar heç bir günahları olmadan canlı-canlı qaynadılar, bəziləri iki parçaya kəsilər və digərləri də itlərə yem edilər. Hindu ənənələri bu vəhşi tətbiqi qanuniləşdirmək üçün bəzi açıqlamalar da gətirir. Məsələn bəzi hindu mətnlərində “Jauharın qadınların döyüşdən sonra düşmənlərin əllərinə düşməsinə maneə törətmək üçün edildiyi” izah edilər.[49]

Bacısı da drahoma ilə uşaq yaşlarında öldürülən hindistanlı yazıçı Sita Ararwal 1999-cu ildə yazdığı “Genocide of Women an Hinduism” (Hinduizmdə qadınların soyqırımı) adlı kitabında satinin bütün hindu mətnlərində yer alan, əsrlər boyunca brahmanlar tərəfindən tətbiq olunan və hələ də tətbiq olunmağa davam edən çox yayılmış bir ənənə olduğunu detallı olaraq izah edir.[50] Başda Manu olmaq üzrə hindular tərəfindən ilahi vəhy olaraq qəbul edilən kitablarda bəhs edilən sati əmrlərindən bir neçəsi bu şəkildədir.

*Bu həyat yoldaşlarının, üzərində ölülərin yandırıldığı odun yığınına doğru ilk addımı atmalarına icazə verin, heç bir kədər olmadan gözyaşı tökmədən və gözəlcə bəzənmiş olaraq.*[51]

*Ərinin cənazə atəşində ölən bir sati, cənnətdə sonsuz səadətin dadını çıxardacaq.*[52]

*Ərin ardından özünü qurban etmək, bir qadın üçün edilə biləcək ən üstün vəzifədir.*[53]

Həyat yoldaşına bağlılıq kimi doğru dəyəri qorxunc vəhşiliyə çevirən sati inancı səbəbiylə saysız qadın əsrlərdir yanaraq həyatını itirmişlər. Hindli qadınlar bu vəhşi ənənəni bəzən öz tələbləri ilə, çox zaman da cəmiyyətin təzyiqi ilə tətbiq etmişlər. Zəmanəmizdə sati, Hindistanda rəsmi olaraq qadağandır, ancaq hələ də yayılmış şəkildə tətbiq olunur. Sati hadisələri qeydlərə ümumiyyətlə ev qəzası, mətbəx yanğını kimi keçirilməkdədir. Bəzən də ictimai ritual şəklində...

Məsələn 1987-ci ildə Rajasthandakı Deorala kəndində Roop Kanwar adlı gənc bir qadın ərinin cənazə mərasimində alovlar içində öldürülmüş və sati təkrar müzakirə edilməyə başlanmışdır. Ailəsi, bölgədəki xalq və bir çox hindu qabaqcıllar tərəfindən müdafiə olunan Roopun hərəkətinin, onun öz seçkisi olduğu iddia edilmiş, bəzi kəslər isə gənc qadının ailəsi və brahmanlar tərəfindən zorla məcbur etdirilərək yandırıldığını söyləmişlər.[54]

Bu yandırma hərəkətlərində kasta sisteminin suverenləri olan brahmanlar tarix boyunca çox böyük rol boynuna götürmüşlər. Satini təşviq edən, bütün ritualı təşkil edən ümumiyyətlə brahmanlar olmuşdur. Dövrümüzdə də sati ənənəsinin təkrar canlandırılması üçün səy göstərənlərin başında yenə brahmanlar gəlir. Ararwala görə brahmanların xüsusilə digər kastalardakı dulların qətl edilməsini təşviq etmələrinin iki təməl məqsədi var:

1) *Qadınlarını ortadan qaldıraraq Brahman olmayan irqlərin sayını azaltmaq,*

2) *Öldürülən qadının mallarının brahmanlar tərəfindən ictimailəşdirilməsi.*

İkinci maddə, 1641 və 1667-ci illəri arasında Hindistanı 6 dəfə ziyarət edən fransız səyyah Jean Baptiste Tavernierin gəzinti qeydlərində də geniş bəhs edilir. Tavernierin peşəsi zərgərlikdir və Hindistana ləl-cavahirat ticarəti ilə əlaqədar bir işi səbəbiylə gəlmişdir. Yazdıqları çox insan tərəfindən mühakiməsiz, müşahidələr edilərək qəbul edilir. Hətta Tavernierin yazılarında Hindistana istiqamətli bir heyranlıq sezilir. Ancaq digər bütün müşahidəçilər kimi Brahman olmayan kastaların brahmanlar tərəfindən sıx şəkildə qətl edilməsinə görə çaşqınlıq yaşamış, bunu da qeydlərində izah etmişdir:

*Brahmanlar sati edəcək olan qadına yoldaşlıq edərək güc və qərarlılıq təlqin edərlər. Avropalıların bir hissəsi, ölüm qorxusunun ortadan qalxması və yaşanacaq ağrıların yox olması üçün qadına hisslərini yox edən bir növ içki verildiyinə inanılır. Bu qadınların ölməsi brahmanların mənfəətinədir. Çünki qadının üzərindəki bütün ləl-cavahiratlar, üzüklər, bilərziklər yandırılmadan sonra ritualı reallaşdıran Brahmanın mülkiyyətinə keçər. Brahmanlar qadın öldükdən sonra küllərinin arasından bu zinətləri tapmağa çalışarlar.*[55]

Tavernierin təsvirləri, yaşanan vəhşiliyin insanın gözlərinin qarşısında canlanmasına kömək olur. Brahmanların əvvəlcə qadını özünü yandırmağa təşviq etmələri, daha sonra onu şəxsən öz əlləriylə canlı-canlı yandırmaları, sonra da küllərinin arasından zinət əşyalarını axtarışları hindu ritualları gerçəkdə vəhşi bir istismarın vasitəsi olduğunu göstərir. Tavernierin xatirələrində, bu vəhşiliyin detalları belə çatdırılır:

*Üç fərqli yerdə qadınların yandırıldığına şahid oldum: Qucarat, Aqra, Dehli. Çayın, ya da su anbarının kənarında qamışlıqdan və müxtəlif otlardan ibarət olan bir neçə kvadrat metr böyüklüyündə bir daxmada edilər. Daxmanın*

*ətrafına kiçik qablar içində yağlayar və müxtəlif materiallar qoyular. Bu materialların məqsədi yandırma əməliyyatının daha tez nəticələnməsidir. Qadın yarı yatmış vəziyyətdə daxmanın ortasında durar. Başı tez yanan bir taxtaya söykənər. Bir brahman onu kürəyindən bir dəmirə bağlayar. Bağlamasının səbəbi qadının atəşdən qorxub qaçmasına maneə törətməkdir.*

*Ərinin ölü bədənini qadının dizlərinin üzərinə yerləşdirərlər. Təxminən yarım saat bu vəziyyətdə qaldıqdan sonra, yanında olan brahman çölə çıxar və qadın, din adamlarına atəşi yandırmalarını söyləyər. Brahman, qohumları və yoldaşları qadının daha sürətli yanıb, əzab çəkməməsi üçün ətrafdakı yağ dolu qabları atəşə atarlar. Bədən yandıqdan sonra brahmanlar küllər arasında üzük, sırğa, bilərziklərindən qalan qızıl və gümüşləri götürərlər. Rituallara görə bu mallar brahmanlara aiddir.*[56]

Bu edilənlər böyük vəhşilikdir və bütün dünya da satiyi bu şəkildə qəbul edir. Ancaq hindular üçün sati, ölümün öhdəsindən gəlməyi seçən sadiq bir qadın mənasını verər və bu ritualı reallaşdıran qadının guya bir növ tanrı vəziyyətinə gəldiyi fərz edilər.

Hindistanda minlərlə il davam etmiş olan bu qorxunc ənənəni ilk dəfə qadağan edənlərin müsəlmanlar olması da diqqət çəkicidir. “Encyclopedia Britannica”da da ifadə edildiyi kimi, sati tətbiqini ortadan qaldırmaq üçün cəhd edən ilk rəhbərlər, 1526-1707-ci illər arasında Hindistana suveren olan müsəlman Böyük Moğol İmperiyasının hökmdarları olan Sultan və oğlu Əkbərdir.[57]

Böyük Moğol İmperiyasından sonra Hindistana suveren olan İngilis rəhbərliyi də sati tətbiqini rəsmi olaraq qadağan etmiş, 1828-ci ildə İngilis ümumi qubernator William Bentinck tərəfindən bu mövzuda qanun nəşr olunmuşdur. Ancaq sati ənənəsi yox olmamışdır və hələ də ölkənin bəzi bölgələrində hindu ənənələrinə bərk-bərk bağlı olaraq yaşayan kənd və qəsəbələrdə sati tətbiq olunur.

Təhsilsiz, cahil hindu kütlələrin bu vəhşiliyi məqbul görmələrindən daha da qorxunc olan isə, Hindistanın ən inkişaf etmiş şəhərlərində yaşayıb, oxuyub

təhsil almış insanların arasında belə satiyə hələ də tərəfdar tapa bilməsidir. Hindistanda hər keçən gün daha da güclənən həddindən artıq milliyyətçi qruplar, sati ənənəsinin canlandırılması üçün kampaniyalar qururlar. Məsələn fundamentalist VHP partiyasının liderlərindən olub, Babur şah məscidinin sökülməsindən aldığı məmnuniyyəti hər fürsətdə ifadə edən Acharya Giriraj Kishore “Əgər bir qadın yoldaşından ayrılmağa dözə bilməyib, onunla birlikdə yandırılmaq istəyirsə bunda səhv heç bir şey yoxdur”[58] şəklində açıqlamaları vardır.

“Deccan Herald” qəzetində dərc olunan “VHP Reviving Sati”-(VHP satini canlandırır)” başlıqlı xəbərdə də dövrümüzün hindu milliyyətçilərinin qadınlara istiqamətli bu zülmün təkrar cəmiyyət içində yayılması üçün güclü təbliğat icra etdikləri və iqtidar partiyası BJP-in də aralarında olduğu Sangh Parivar üzvlərinin ideologiya olaraq satiyə tərəfdar olduqları vurğulanır. Sita Agarwal “Genocide of Woman an Hinduism” (Hindistanda qadın soyqırımı) adlı kitabında hindu həddindən artıq milliyyətçi axınlarıyla qadınlara edilən zülm arasındakı əlaqəni bu şəkildə izah edir:

Dövrümüzdə qadınlara xor baxılması ilə hindu milliyyətçiliyinin yüksəlməsi arasında çox yaxın əlaqə vardır. Sangh Parivar üzvü fundamentalist təşkilatlar (BJP, RSS, VHP, Bajrang Budaq və s.) Hindistanın fərqli bölgələrində sati, drahoma, qız uşaqların öldürülməsi kimi tətbiqləri canlandırırlar. Bu səbəblə də hindi təşkilatlarının işləri səbəbiylə qadının cəmiyyət içindəki mövqeyi çox böyük zərər gördü. Bəziləri cinsiyyətini öyrəndikdən sonra qız uşaqlarını öldürürlər. Bəziləri canlı-canlı yandırırlar, bəziləri boğulurlar, ya da ac buraxılaraq öldürürlər. RSS və VHP kimi partiyaların üzvləri sati üsulunu açıq şəkildə dəstəkləyirlər.[59]

# Hindu dini, uşaq yaşdakı qız uşaqlarını fahişəliyə təşviq edir

Hinduizm hər hansı gözəl əxlaq xüsusiyyətini nəsihət etmədiyi kimi, azğınlığı və əxlaqdan kənar həyatı da açıqca təşviq etməkdədir. Bunlardan biri də "Devadasi (ya da devdasi) sistemi"dir. Hindu ənənələrinə görə uşaq yaşdakı qızlar hindu məbədlərinə xidmət üçün verilərlər. Yoqini adı verilən bu qız uşaqları "hindu yalançı ilahlarıyla" evləndirilərək, onlara həsr edilərlər. Həqiqətdə isə məbəddəki hindu kişilər tərəfindən cinsi istismara məruz qalarlar. Bu evliliklər bir çox araşdırmaçı tərəfindən "hindu dininə xidmət yalanı ilə məbəd imzalı fahişəlik"[60] olaraq adlanır.

Bu tətbiq ilk olaraq brahmanlar tərəfindən, xalqın marağını məbədlərə çəkmək və onlardan pul yığa bilmək üçün ortaya atılmışdır. Brahmanlar xalqı da bu tətbiqin içində yer almaları üçün təşviq etmişlər, bu məqsədlə də "Vesya darsanam punyam, papa nasanam!" (Fahişəlik edən qadına baxma üstünlüyü ilə, günahlardan xilas ola bilərsiniz)[61] şəklində şüar da uydurmuşlar. Ancaq İngilis rəhbərliyinin çıxardığı bəzi qanunlarla qadağan edilən bu tətbiqə hələ də tez-tez rast gəlinir.

Məbədlərdə edilən fahişəlik hindular tərəfindən çox qiymətli ritual olaraq görülər. Məbədlərə verilən qızlar, yəni yoqinilər, onlara görə xəyali ilahlarla evlidirlər. Bu səbəblə də ailələr qızlarını məbədlərin xidmətinə təqdim etməkdə heç bir qorxulu hal görməzlər. Bu qızlar 13 yaşına gəldiklərində əvvəlcə bir şəkil, ya da daşla simvollaşdırılan Subramania bütü ilə evləndirilərlər. Onlarla ilk olaraq rahiblər əlaqəyə girər[62], daha sonrakı gün, 4000 rupi ilə 10000 rupi (94-235 USD) arasında ən yüksək miqdarda pul təklif edən adama istədiyi qədər saxlamaq şərti ilə satılarlar. Bu əxlaqdan kənar qazanc isə məbədin gəliri halına gəlir.

İllinoys Universitetində aparılan bir araşdırmada Hindistanın "uşaqların fahişəlik etdirilərək cinsi mənada ən çox istismar edildikləri" ölkə olduğu ifadə

edilir. Təxminən 300.000 uşaq bu əxlaqsız nizamda istifadə edilməkdə, ortalama yaş isə 13 olaraq təyin olunmaqdadır. "Jubilee Action" adlı beynəlxalq insan haqları təşkilatı tərəfindən hazırlanan "Hindistanda uşaq fahişəliyi" başlıqlı hesabatda isə bu sayı hər il 8-10% arasında artdığı ifadə edilir. Yalnız Belgum bölgəsində 3300 ədəd devadaşi, yəni fahişəlik tətbiq olunan məbədin olduğu təxmin edilir. Fahişəliyin bu dərəcə yayılmış olması Hindistandakı AIDS xəstələrinin sayını da sürətlə artırır. Hindistanda rəsmi qeydli 3.5 milyon AIDS xəstəsi var.[63]

Fahişəlikdə istifadə edilən "yoqini" gənc qızların böyük hissəsi kəndlərdən gəlir. Cəmiyyətin patriarxal quruluşu, dini sanksiyalar, əsrlərdir davam edən ənənələr bu tətbiqin yayılmasının ən əhəmiyyətli səbəbidir. İllinoys Universitetinin hesabatında uşaq fahişəliyinin "ənənəvi, ayinləşdirilmiş və ictimai olaraq təşkil edilmiş" olduğuna da diqqət çəkilir.[64] Devadasi 1982-ci ildə qanunla qadağan edilmişdir. Uşaqlarını məbədlərə fahişəlik etmələri üçün göndərən ailələr 5 ildən başlayan həbslə cəzalandırılırlar. Ancaq bu cəza çox vaxt tətbiq olunmur. Çünki devdasın hindu dinindən gələn bir ənənə olduğuna inanan ailələr bunu səhv olaraq görmürlər. 2001-ci ildə, illərlə zorla fahişəlik etdirildiyi bir məbəddən qaçan Ashama adlı 35 yaşındakı bir yoqini, uşaqlığından bəri yaşadıqlarını belə izah etmişdir:

*Məbədə girdiyim gündən etibarən heç bir zaman hüzur tapa bilmədim. Karnidə yaşayan bütün kişilərin təcavüzünə açıq hala gəldim... Yaşadığım bu zədə, daha yetkinlik çağına belə gəlmədən əvvəl başladı.*[65]

Dövrümüzdə həddindən artıq milliyyətçi hindu qrupları da qanunlarla qadağan edilən devadasi sisteminin təkrar rəsmi olaraq həyata keçirilməsini müdafiə edirlər. Bu əxlaqi çökmənin daha ürküdücü istiqaməti isə Hindistan kimi uşaqların fahişəlik ticarətində istifadə edildikləri ölkələrin ən əsas turistik məkanlar olaraq tanıdılması, dünyanın bir çox yerindən azğın düşüncəyə sahib insanların yalnız bu məqsədlə bəhs edilən bölgələrə axın etməsidir. Halbuki fahişəlik çirkin həyasızlıq, Allahın haram etdiyi böyük günahdır. Allah Quranda

belə buyurar: **“Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!”** (İsra surəsi, 32)

**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

Ancaq azğın hindu dinini ilk ortaya atanlar kimi əsrlərdir bu əxlaqi azğınlığa dəstək olanlar da, bu çirkin əxlaqsızlığa ortaq olurlar.

Ancaq heç unutmamaq lazımdır ki, bu əxlaqı çöküşü təşviq edən insanların, içində olduqları vəziyyətdən tezliklə qurtarılmaları lazımdır. Bu insanlar ya Hindistanda olduğu kimi atalarından gördükləri üçün, ya da dünyanın dörd bir tərəfindəki kimi əxlaqi degenerasiya səbəbiylə çirkinliyi, əxlaqsızlığı, azğınlığı gözəl görməyə başlamışlar. İslam əxlaqının hakim olduğu bir cəmiyyət isə insanları hər zaman ən gözələ, ən doğruya, ən dürüst olana, ən heysiyyətli və şərəfli olan həyata, ən ağıllı olan rəftara etina etdirər. Allah bir ayəsində imanı gözəl və əxlaqsızlığı çirkin görənlərin doğru yolu tapdıqlarını bildirər:

**…Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır.**

**(Hucurat surəsi, 7)**

İnsanları pisliklərdən və azğınlıqlardan saxlayacaq, gözəl əxlaqı insanlar arasında hakim edə biləcək tək güc Rəhman və Rəhim olan Allahdır. Rəbbimiz elçiləri vasitəsilə bizlərə ən gözəl əxlaqı bildirmişdir. Allah bir ayəsində belə bildirər:

**Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir. (ənkəbut surəsi, 45)**

# İslamda qadına verilən dəyər

İslam dinində qadına verilən böyük dəyər Quran ayələrində və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində detallı olaraq açıqlanır. İslam dinində qadın və qadın haqları müdafiə edilir, cahiliyyə cəmiyyətlərində qadınlara qarşı hakim olan səhv dünyagörüşü ortadan qaldırılmış, qadına cəmiyyət içərisində hörmətli bir yer qazandırılmışdır. Alınan bütün bu tədbirlər, qadınların lehinədir və onların zərərə uğramalarını, əzilməmələrinə qarşı tədbir məqsədini daşıyır.

Allah insanlara Quran ilə ən doğru yolu göstərmiş və cahiliyyə inanclarını daşıyan insanların səhv tətbiqlərini ortadan qaldırmışdır. Rəbbimiz Qatında üstünlük ölçüsünün cinsiyyət deyil, Allah qorxusu, iman, gözəl əxlaq, ixlas və təqva olduğu ayələrdə belə bildirilmişdir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb onlardan ibrət alasınız.**

**(əraf surəsi, 26)**

Bir başqa ayədə isə Allah, "...**Sizin etdiyiniz yaxşılıqları Allah bilir. Özünüzlə azuqə götürün! Ən yaxşı azuqə isə təqvadır. Məndən qorxun, ey ağıl sahibləri!.**" (Bəqərə surəsi, 197) şəklində buyuraraq, insanlara əldə edə biləcəkləri ən xeyirli xüsusiyyətin təqva olduğunu bildirmişdir. Bu səbəbdən insanların əsas məqsədləri mal-mülk, şan-şöhrət kimi maddi dəyərlər deyil, insanı həm dünyada, həm də Allah Qatında əsas qiymətli hala gətirəcək və üstünlük qazandıracaq olan təqva olmalıdır.

Allah bir başqa ayəsində də, bəzi insanlar arasında bir üstünlük ünsürü halına gəlmiş olan zənginlik yerinə, Allahın fəzlini istəmənin daha məqbul olduğunu belə bildirir:

**Allahın birinizi digərinizdən üstün etdiyi şeyə tamah salmayın. Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır. Allahdan, Onun lütfünü diləyin. Həqiqətən, Allah hər şeyi Biləndir. (Nisa surəsi, 32)**

Allahın bildirdiyi bütün bu ayələrdən aydın olduğu kimi, üstünlüyü cinsiyyətdə, fiziki gücdə, ya da başqa bir cahiliyyə meyarında axtarmaq böyük səhvdir. Tək üstünlük Allahın bizə bildirdiyi kimi imanın və təqvanın üstünlüyüdür.

Allah Quranın **"Şübhəsiz ki, sədəqə verən kişi və sədəqə verən qadınlar və Allaha gözəl borc verənlər üçün əvəzi qat-qat artırılacaqdır. Onlar üçün çox**

**dəyərli bir mükafat da vardır.** (Hədid surəsi, 18) ayəsiylə, həm kişilərə həm də qadınlara, əsl üstün və şərəfli olan qarşılığın Allahın bildirdiyi əxlaqı yaşamaqla qazanılacağını xatırlatmışdır.

Qadın və kişi əlbəttə ki, fiziki mənada bir-birlərindən fərqli quruluşa sahibdirlər. Ancaq qadının fiziki olaraq, kişiyə nisbətlə daha az güclü olması, onun cəmiyyət içərisində kişidən daha az dəyər görməsi üçün bir səbəb deyil.

İslam əxlaqına görə, əsl əhəmiyyətli olan bir insanın cinsiyyəti deyil, Allaha dərin iman və Allah qorxusuyla bağlanmış olmasıdır. Allahın əmr və qadağanlarına diqqətlə əməl etməsi, Quran əxlaqını ən gözəl şəkildə yaşamağa çalışmasıdır. Allah Qatında əsl dəyər görəcək olan, insanın bu xüsusiyyətləri olacaq. Allah Quranda qadın olsun kişi olsun iman edən bir kimsənin sahib olması lazım olan xüsusiyyətləri belə açıqlamışdır:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Allahın ayədə bildirdiyi kimi, mömin qadınlar və mömin kişilər eyni məsuliyyətlərə sahibdirlər. Allaha ibadət etməklə, Quran əxlaqını yaşamaqla, insanlara yaxşılığı əmr edib pisliyi maneə törətməklə və Quranda bildirilən bütün əmr və tövsiyələrə əməl etməklə məsuldurlar. Allah Quranın **"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir."** (Ənfal surəsi, 29) ayəsində, Allahdan qorxub çəkinən hər insana, "doğrunu səhvdən ayıran bir nur və anlayış" verəcəyini vəd etmişdir.

İnsanın qadın, ya da kişi olması bu nəticəni dəyişdirmir. Səmimiyyətinə, ixlasına və imanına qarşılıq, Allah bir insana həyatın hər sahəsində özünü doğru yola çatdıracaq, doğru qərarlar alacaq və məqsədəuyğun rəftarlar

etməsini təmin edəcək bir ağıl verir. Bu səbəbdən ağıl, insanın cinsiyyətinə görə deyil, tamamilə Allaha qarşı olan səmimi bağlılığına, yaxınlığına və qorxusuna görə inkişaf edir.

Qadın, ya da kişi olsun, bu tamamilə insanın Allaha olan imanının gücü istiqamətində, əxlaqıyla, şəxsiyyəti ilə və boynuna götürdüyü məsuliyyətlərlə ön plana çıxmasına bağlıdır. Bu səbəblə də İslam əxlaqını mənimsəyən qadınlar üçün, kişilərə istiqamətli bir bərabərlik mübarizəsi deyil, bunun yerinə “xeyirlərdə yarışma” əxlaqı vardır.

Xeyirlərdə yarışmaq, iman edənlərin, həyatlarının hər anında Allahın razılığını qazana bilmək üçün əllərindən gələn səyin ən çoxunu göstərmələridir. Bu məqsədləri istiqamətində, Allahın ən sevdiyi, ən razı olduğu və Allaha ən yaxın insan ola bilmək üçün xeyirlərdə yarışarlar. Ancaq bu yarış, tamamilə Rəhmanı bir yarışdır. Allah möminləri dünyada və axirətdə önə keçirən xüsusiyyətin bu istiqamətdə göstərdikləri səy olduğunu Quranda belə bildirir:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

**Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur. (Fatır surəsi, 32)**

Qadın və kişi arasındakı bərabərlik, Allahın qadına və kişiyə dünya həyatındakı imtahan müddətində bərabər haqlar verməsindən də aydın olur. “**Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək.**” (Kəhf surəsi, 7) və “**Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz**

**ancaq Bizə qaytarılacaqsınız!"** (Ənbiya surəsi, 35) ayələriylə Allah, kimlərin daha gözəl davranışlarda olacağının ortaya çıxması üçün, qadını da kişini də sınadığını bildirmişdir.

Allah qadına da, kişiyə də müəyyən bir ömür təyin etmiş, hər ikisini də Qurandan məsul tutmuş, hər ikisinə də həyatlarının hər anında özlərinə doğrunu ilham edəcək bir vicdan vermiş, nəfsi və şeytanı hər ikisinə düşmən etmişdir. Dünya həyatındakı imtahanın gərəyi olaraq, bütün bu şərtlər qarşısında qadın, ya da kişi olsun hər kim gözəl əxlaq göstərib saleh əməllər edərsə, Allah o kəslərin dünyada və axirətdə ən gözəl qarşılığı tapacaqlarını bildirmişdir:

**...istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır. (Ali İmran surəsi, 195)**

Hindistan torpaqlarındakı 200 milyon müsəlman, dünyanın ən sıx azlıqlar olan əhalisini meydana gətirir. Ancaq bu böyük azlıq, əksəriyyəti meydana gətirən hinduların illərdir dərəcəsi həmişə artan şiddəti ilə və hərəkətləriylə qarşı-qarşıyadır. Hindistanda yaşayan müsəlmanlar, həddindən artıq milliyyətçi Vişna Hindi Parişad Partiyası (VHP)-nın əsası olan irqçi Hindi təşkilatlar tərəfindən öldürülür, evləri yandırılır, torpaqlarından sürgün edilir və müxtəlif işgəncələrə məruz qalırlar. Hadisələrdə polis hinduların tərəfini tutduğundan, həyatını itirənlərin və ya yaralananların çoxu müsəlmanlar təşkil edir, buna baxmayaraq polis hadisələrdən sonra daha çox müsəlmanları həbs edir. Bunun ən açıq nümunələrindən biri 6 dekabr 1992-ci il tarixində, 16-cı əsrdən qalma tarixi Babur məscidinin dağıdılması əsnasında yaşanmışdır.

# Babur məscidinə edilən vəhşi hücum

Hindistan torpaqlarında yaşayan müsəlmanlar xüsusilə də hindu milliyyətçiliyinin yüksəlişə keçdiyi son yarım əsrdir barbar şəkildə hücumlara məruz qalır. Bu hücumların ən əhəmiyyətlisi heç şübhəsiz Ayodhya şəhərində olan Babur Şah (ya da Babur) məscidinin dağıdılmasıdır.

430 il əvvəl Moğol İmperatoru Babur Şah tərəfindən inşa edilən bu məscid Hindistanlı müsəlmanlar üçün çox böyük əhəmiyyət daşıyır. Ancaq bu məscid illərdir hindularla müsəlmanlar arasında çox böyük anlaşılmazlıqlar doğurur. Hindular İslam mədəniyyətindən qalan çox qiymətli bir tarixi əsər olan bu məscidin qondarma ilahlarından biri olan Ramanın doğulduğu yerin üzərinə tikildiyini iddia edir, bu səbəblə də məscidin bir an əvvəl dağıdılıb yerinə bir hindu məbədinin tikilməsini istəyirlər. İddiaların tək dayağı, qulaqdan qulağa yayılan əfsanələrdir. Öz ağıllarına uydurmuş və əsrlərdir bu axmaq inanca görə hərəkət etmişlər.

Hindistan tarixi və Hinduizm mövzusundakı ən əhəmiyyətli adlardan biri olan Kaliforniya Universitetindən Prof. Brian K. Smith "Re-envisioning Hinduism and Evaluating the Hindutva Movement" (Hindiuizmi yenidən hazırlamaq və hindutva hərəkətini qiymətləndirmək) başlıqlı çalışmasında Ayodhya və Rama məbədi ilə əlaqədar çox təəccüblü gerçəklər ortaya qoyur.[94]

Prof. Smithin ortaya qoyduğu dəlillərdən biri "Archaeological Survey of India" tərəfindən aparılan bir araşdırmadır. Bu təşkilatın sədri Prof. B. B. Lal 1970-ci illərdə apardığı detallı araşdırmalar nəticəsində keçmiş tarixlərdə Ayodhya bölgəsində hər hansı hindu məbədi olduğuna dair ən kiçik sübut belə tapa bilmədiyini açıqlamışdır. Smithin bir başqa qaynağı isə Hindistanın ən əhəmiyyətli universitetlərindən biri olan Jawaharlal Nehrunun nəşr etdiyi bir araşdırmadır.

Universitetin Tarix Araşdırmaları Mərkəzi "The Political Abusa of History" (Tarixin siyasi baxımdan sui-istifadə edilməsi) başlıqlı nəşrlərində bu mövzuya toxunmuş və Ayodhya mövzusunda çox böyük yalana müraciət edildiyini

ortaya qoymuşdur. Çalışmalarında Ayodhyada keçmiş dövrlərdə bir məbəd olduğuna dair "heç bir dəlilin heç bir zaman" olmadığını ifadə etmişlər.

Ancaq hindu radikallar bu təyin etmələrə heç bir şəkildə etibar etməmiş və Ayodhyanın xaricində Hindistan daxilindəki 3000 fərqli hindu müqəddəs bölgəsinin müsəlman imperatorlar tərəfindən ələ keçirildiyini iddia etməyə davam etmişlər. Bu bölgələrin də gələcək illərdə bir Ayodha ola biləcəyi bir çox insan tərəfindən dilə gətirilir. Hindli tədqiqatçılara görə çox yaxın zamanlarda hinduların hədəfi ola biləcək mərkəzlərdən biri isə Benaresdə olan 17-ci əsrə aid bir məsciddir.[95]

Babur məscidinin dağılmasına istiqamətli ilk böyük kampaniya 1990-cı ilin payızında, hamin dövrdə iqtidar partiyası olan BJP tərəfindən başladıldı. BJP-nin ogünkü lideri L. K. Advani, məscidin dağıdılıb, yerinə məbəd inşa edilməsinə qarşı hinduların qiyamını qızışdırmaq məqsədiylə avtomobil ilə gəzməyə çıxdı. Hindu bütlərindən Mahabharatanın at arabasını təmsilən, bəzəklərlə bəzənmiş bir mikroavtobus, təxminən 20 böyük şəhər ilə yüzlərlə qəsəbə və kəndi dövr edərkən, müsəlmanlara istiqamətli ardı arxası kəsilməyən şiddət hadisələrini başlatmış oldu.

Azğınlaşan izdihamlı bir qrup, Babur Məscidini əhatə edən divarları aşaraq, məscidin 16-cı əsrdən qalma qübbələrinə hindu bayraqları asdılar. Ancaq bu hadisələrin ardından heç bir istintaq açılmadığı kimi, bu hücum BJP-nin oy nisbətində böyük bir partlayış meydana gətirdi.

1992-ci ildə məscidə istiqamətli hücumlar daha da artdı. 4 dekabr 1992-ci il cümə günü Advaninin kampaniyasının ardından hərəkətə keçən 50 minə yaxın hindu, Babur Məscidi qarşısında toplanaraq böyük nümayiş etdi. Hindular sabahısı gün də izdihamlı qruplarla məscidə hücumlar edərək 430 illik Babur Məscidini yerlə bir etdilər. Məhz bu hadisəni hindularla müsəlmanlar arasında şiddətli qarşıdurmaların meydana gəlməsinə səbəb oldu.

Bu, VHP kimi Sangh Parivar üzvü partiyalar tərəfindən dəstəklənilən və illərdir planlanan bir hücum idi. Bu hücum əvvəli, Babur Məscidi yerinə uzun zamandan bəri Rama məbədini tikmək üçün hər cür şiddətə müraciət edən

həddindən artıq milliyyətçi Vişha Hindu Parişad Partiyası (VHP) liderlərindən Ram Chandra Pramhans təcavüzkar açıqlamalar etmişdir.

Bu hadisənin ardından çıxan qarşıdurmalarda isə 2000-dən çox müsəlman vəhşicə qətl edildi. İqtidardakı BJP və Baş nazir Vajpayee isə bu hadisələrin ən qabaqcıl dəstəkçilərindən idi. VHP kimi irqçi təşkilatlarla möhkəm əlaqə içində idi. Qarşıdurmalar yalnız Hindistan torpaqları ilə məhdud qalmadı. Banqladeş, Pakistan və İngiltərədə də müxtəlif qarşıdurmalar oldu. Həmçinin bu hadisələrə görə Pakistan ilə Hindistan arasındakı gərginlik daha da artdı.

1992-ci ildə adı çəkilən məscidin dağıdılmasından sonra çıxan qarşıdurmaları yatırmaq üçün Hind hökuməti bu məscid yerinə yenisinin tikiləcəyi vədini verdi. Lakin aradan bu qədər müddət keçməsinə baxmayaraq, bu vədini yerinə yetirmə istiqamətində hər hansı bir addım atmadığı kimi hinduların, məscidin yerinə bir Hindi məbədi tikmə planlarının qabağına keçmək üçün də ciddi səy göstərmədi. Hind Hökumətinin bu vəziyyətindən cəsarət alan hindular 2003-cü ildə Babur Məscidinin ərazisi üzərinə bir hindu məbədi tikmək üçün hərəkətə keçdilər. Müsəlmanlar da buna fürsət vermək istəməyincə yenə qarşıdurmalar çıxdı və yeddi yüz insan daha həyatını itirdi.

Dünyanın ən hörmətli insan haqları təşkilatlarından olan "Human Rights Watch" (İnsan haqları izləmə təşkilatı), nəşr etdiyi hesabatlarda Hindistanda müsəlmanlara istiqamətli bu və bənzəri hücumlar haqqında çox detallı məlumatlar verər. HRW 1994-cü ilə aid bir hesabatında Ayodhyadakı Babur Məscidinin dağıdılmasının iqtidardakı BJP Partiyası və hindu milliyyətçi qruplar tərəfindən icra edilən bir kampaniya nəticəsində reallaşdığını, polisin və digər təhlükəsizlik güclərinin heç bir şəkildə hadisələrə müdaxilə etmədiyini ifadə edir. Hesabatda əhəmiyyətli məlumatlar yer alır:

*BJP Hökumətinin məscid qorunacaq sözünə baxmayaraq, bölgədəki polis söz-söhbətlərə görə nə bölgədəki dağıtmaya nə də ardından jurnalistlərə və digərlərinə edilən hücumlara müdaxilə etmədi. Şimali Hindistanın kənarındakı şəhərlərdəki vəhşilikdə 1000-dən çox insan öldü. Ölənlərin böyük*

*hissəsi polis tərəfindən vurulan müsəlmanlar idi. Öldürülənlərdən bəziləri evlərindən çıxarılıb dərhal edam edilmişdi. Qucarat Əyalətinə bağlı Suratda müsəlmanlara hücumda qadınlara təcavüz edildi. Yanvarda 700-dən çox insanın öldüyü Bombeydəki doqquz günlük vəhşilikdə müsəlmanlar yenə ana hədəf idilər. Əksəriyyətinin hindu militan Shiv Sena təşkilatını müdafiə etdiyi Bombey polisi isə kastadan müsəlmanları hədəf aldı və insanlar müsəlmanların evlərini talan edərkən onlar yalnız seyr etdilər.*[96]

Ölkədə hadisələr vaxtaşırı durğunlaşsa da müharibənin atəşi tamamilə söndürülə bilinmir. Bunda hinduların məbəd tikmə cəhdlərini təkrar etmələrinin və Hindistan hökumətinin hindulara cəsarət verən davranışının əhəmiyyətli rolu var. Buna görə vaxtaşırı yeni qarşıdurmalar çıxır, hindu militanlar müsəlmanların evlərini talan edir, qadınlara hücum edir və demək olar ki, hər hücumda günahsız insanlar həyatlarını itirir və ya yaralanır.

## Qucarat ayalətindəki qarşıdurmalarda minlərlə müsəlman barbarlıqla qətl edildi

Babur Məscidinə edilən hücumun bənzərləri illərdir Hindistan torpaqlarında davam etməkdədir. Hər qarşıdurma, hinduların müsəlmanlara aid evləri, iş yerlərini və avtomobilləri qundaqlama və yandırmaları ilə nəticələnir. Gecə yatarkən evləri atəşə verilən müsəlmanlar arasında diri-diri yanaraq ölən insanlar vardır.[97] Hindistan rəhbərliyi bu mövzuda bir çox saxta tədbir alsa da əslində hücumları əl altından dəstəkləyir. Bu vəziyyət, insan haqları təşkilatlarının hesabatları ilə açıq şəkildə ortaya qoyulur.

Məsələn "Human Rights Watch" (İnsan haqları izləmə təşkilatı) Hindistanda müsəlman xalqın yaşadıqlarıyla əlaqədar bir çox hesabat hazırlamış və bu hesabatlarda da hökumət rəhbərlərinin, yerli idarəçilərin və təhlükəsizlik orqanlarının davranışını, şahidlərdən yola çıxaraq ortaya qoymuşdur.[98] Ancaq Hinduizmin irqçi ideologiyasından və iqtidarda olan rəhbərlikdən güc alan hindular hücumlarına böyük sürətlə davam edirlər.

2002-ci ilin ortalarında bir qatarın yandırılmasıyla başlayan və sonra da təxminən 2000 müsəlmanın vəhşicə qətl edilməsiylə davam edən hadisələrin arxa planında da Babur Məscidinin dağıdılması mövzusundakı gərginlik vardı. Bu dəfə hadisələr Qucarat Əyalətində reallaşdı. Bir qrup radikal hindunu daşımaqda olan bir qatar yandırıldı. İddiaya görə qatarı müsəlmanlar yandırmışdı, ancaq hadisənin bir təxribat olduğu daha ilk günlərdə dilə gətirilməyə başlandı.

Belə ki, BBC-də nəşr olunan bir xəbər də, bu şübhələri doğrular xüsusiyyətdə idi. Qatarda olan bəzi kəslər yanğının qatarı dayandıran bəzi müsəlman qruplar tərəfindən çıxarıldığını söyləyirdilər. Ancaq ədliyyə eksperti tibbi hesabatları tam tərsini deyirdi və yanğının qatarın içindən çıxarıldığını ortaya qoyurdu.[99] Bu qundaqlama hadisəsinin ardından Hindistan hökuməti bir tərəfdən müsəlmanları hədəf göstərərkən digər tərəfdən hindu xadimləri təhrik etdi.

RSS kimi irqçi təşkilatlar da gözlədikləri fürsəti əllərinə keçirdiklərini düşünürdülər. Hindistan hökumətinin vəhşiliyi alovlandıran davranışlarından güc alaraq hindu təcavüzkarlar müsəlmanların üzərinə şiddətlə hücum etdilər. Yüzlərlə insan qruplardan ibarət olan hindu xadimlər müsəlmanların evlərini basdılar. Evlər atəşə verildi, qadınlara təcavüz edildi, insanlar canlı-canlı yandırıldı, evlər və dükanlar talan edildi, insanlar yük maşınları ilə əzildi, günlər sürən qırğın reallaşdı.

Cəsədlər isə kanallara və çaylara atıldı. Hadisələrə nə polis qüvvələri, nə yerli rəhbərliklər, nə də Vajpayee iqtidarı müdaxilə etmədi. Tam tərsinə bir çox təcavüz və qundaqlama hadisəsini polislərin qoruması altında və köməyi ilə reallaşdırıldı.

Xüsusilə də Hindistanın qərbindəki Əhmədabad şəhərində fanatik hindular vəhşi qırğın daha reallaşdırdılar. Hindulardan ibarət olan polis və ordu birlikləri, hücumları önləmək üçün ən kiçik səy göstərmədilər. Jurnalistlər, Əhmədabadın bir çox bölgəsində quldur dəstələri avtomobilləri yandırdıqlarını, dükanları talan edib atəşə verdiklərini, polisin isə qruplar halında onları seyr etdiyini bildirdilər.

Əhmədabaddakı hindular, Narora daxmaların olduğu məhəlləni basaraq, çoxu uşaq 27 müsəlmanı diri-diri yandırdılar. Yollarda toplanan hindu quldur dəstələri isə, avtomobilləri dayandırıb "içəridə müsəlman olub olmadığını" soruşurdular. Yalnız hinduların yola davam etməsinə icazə verilərkən, müsəlmanlar çölə çıxarılıb öldürülürdü.[100] 11 insanın saxlandığı bir zirzəmi yandırılanda yeddi insan öldü. Səkkiz nəfərlik bir ailə avtomobillərinin içində canlı-canlı yandı.

Bıçaqlar, dəmir çubuqlar, qılınclar və xokkey çubuqlarının istifadə edildiyi bir hücumda, ən az 48 insan öldü. Xəstəxanalar bıçaq yarasına görə gələnlərlə dolu idi. Bir çox şəhərin divarlarına "müsəlmanları necə yandıracağınızı bizdən öyrənin" yazılarkən, hindu militanlar xarici müxbirlərə, "Hər nə oldusa yaxşı oldu. Bu problemi həll etmənin tək yolu müsəlmanları yox etmək" deyə bəyanat verirdilər.

Qucaratda baş verən hadisələrlə əlaqədar bütün dünya mətbuatında çoxlu xəbər dərc edildi. İnsan haqları təşkilatları bir çox hesabat hazırladılar. Ancaq bu hesabatlar nə dünya ictimaiyyəti nə də Hindistan hökumətini hərəkətə keçirmədi. Qırğını şəxsən yaşayan müsəlman qadınların açıqlamaları təməl alınaraq hazırlanan "The Gujarat Massacre Affected Minority Women, The Survivors Speak" (Qucarat qırğını azlıq qadınlarını təsir etdi, həyatda qalanlar izah edir) başlıqlı hesabatda isə qısaca bu həqiqətlər ortaya qoyulurdu:

- Vəhşilik "özbaşına inkişaf edən" hərəkət deyil. Bir ön hazırlıq, təşkilatçılıq və hədəfin təyin olunmasında həssaslıq təsbit edilmişdir.

- Kömək düşərgələrində həyatda qalan qadınlar arasında (təcavüz, birdən çox adam tərəfindən təcavüz, kütləvi təcavüz, çılpaq gəzdirilmə, bədənlərinə müxtəlif obyektlərin soxulması, sataşmaq daxil) cinsi vəhşiliyin ən vəhşi formalarına məruz qalan bir çox qadın var. Təcavüzə uğrayanların böyük əksəriyyəti sonra canlı-canlı yandırılmışdır.
- Qadınlar üzərindəki təsir fiziki, iqtisadi və psixolojidir. Bütün bu üç cəbhədə də dövlətin onlaraköməkçi olmaq üçün səy göstərdiyinə dair heç bir dəlil yoxdur.
- Qucaratın ana dilində nəşr edən bəzi mətbuat orqanları vəhşiliyin dəstəklənilməsində, xüsusilə qadınlara qarşı cinsi vəhşiliyin təhrik edilməsində təhlükəli və kriminal bir rol oynamışdır.
- Hamilə qadınların qarınları kəsilmiş, dölləri (doğulmamış körpələr) çıxarılıb atəşə atılmışdır.
- Təcavüz və qadınlara istiqamətli hücumlara, heç bir qəzetdə, televiziyada yer verilməmiş, bu hadisələr dövlət və polis tərəfindən əhəmiyyətsiz edilmişdir.
- Bir çox uşaq bu insanlıqdan kənar təcavüzlərə, yandırma hadisələrinə şahid olmuşdur. Bu uşaqlar üzərində çox böyük psixoloji təxribat meydana gəlmişdir.
- Dövlət, vəzifəsini etməməkdən qaynaqlanan heç bir peşmanlıq göstərməmişdir. Hökumət səlahiyyətliləri "Edə biləcəyimiz heç bir şey yox idi. Bütün hindular ürəklərində təbii nifrət və qəzəb vardı. Biz bunu idarə edə bilmədik" deməklə kifayətlənmişdir.
- Polislərin aktiv olaraq quldur dəstələrinə kömək etdiyi, əməkdaşlıq etdiyi və hətta bəzi hadisələrdə quldur dəstəsini istiqamətləndirdiyinə dair bir çox dəlil vardır. Bəzi video çəkilişlərində müsəlmanların evlərinin divarlarına "Polis də bizim tərəfimizdə" kimi şüarların yazıldığı görülür. Digər vəziyyətlərdə polis kömək çağırışlarına qarşı ya görməməzlikdən gəlmiş, ya da kömək etmək üçün "yuxarıdan əmr almadıqlarını" söyləmişlər.

Qadınlar və uşaqlar çoxu zaman polis avtomobillərindən və stansiyalarından geri qaytarılmış, öz-özlərini qorumaları deyilmişdir. Bir çox dəlil; polisin faylları doldurmağı "yetərli dəlil yox, belə bir hadisə yox" deyərək rədd etdiyini göstərir.[101]

# Hindu vəhşiliyi və Kaşmir

Hindistan rəhbərliyinin müsəlmanlara istiqamətli şiddət tətbiq etmələri araşdırılarkən ilkin olaraq ələ alınması lazım olan bir mövzu da heç şübhəsiz Kəşmir xalqının yaşadıqlarıdır.

Kəşmir qızıl, zümrüd və yaqut mədənləri baxımından dünyanın ən əhəmiyyətli bölgələrinin əvvəlində gəlir. 1947-ci ildən bu yana Hindistanın işğalı altında olan bölgə, yüksək dağların üstündə olduğu üçün bütün bölgəni rahatlıqla idarəsi altına ala biləcək strateji torpaqdır. Müstəqil müsəlman dövlət olmağı ya da İslami şəxsiyyətə sahib Pakistan ilə birləşməyi hədəfləyən Kəşmir xalqı on illərdir iqtisadi embarqolar, şiddət hərəkətləri, səbəbsiz həbslər, işgəncələr, bombalamalarla qarşı-qarşıyadır.

Hind Yarımadası, II Dünya Müharibəsinin sonuna qədər İngilis suverenliyi altında idi. İngilis müstəmləkəçilər bölgəni tərk etdiklərində hindli müsəlmanlar hindulardan ayrı dövlətə sahib olmağı istədilər və 1947-ci ildə Pakistanı qurdular. Pakistan və Hindistan arasında əhali mübadiləsi edildi; Hindistan sərhədləri içində yaşayan çox sayda müsəlman Pakistana köç etdi. Ancaq əhalisinin əzici əksəriyyəti müsəlmanlardan ibarət olan Kəşmir əyaləti, Hind rəhbərliyinin intriqaları və İngilislərin də dəstəyi ilə Hindistan suverenliyində qaldı. O tarixdən bu yana Kəşmir xalqı Hind zülmü altında yaşadı.

Hindular başlanğıcda müsəlmanların ayrı bir dövlət qurmalarına qarşı çıxırdılar. Buna görə Pakistanın qurulmasından məmnun qalmadılar. Pakistan

quruldduqdan sonra isə iki ölkə arasındakı məsələnin mərkəz nöqtəsini Kəşmir problemi meydana gətirdi. Bu səbəblə iki ölkə iki dəfə müharibə etsə də, Kəşmir problemi həll edilə bilmədi. Bu gün Kəşmirin bir hissəsi Pakistan rəhbərliyindədir və bura "Azad Kəşmir" olaraq adlandırılır.

Ancaq əhəmiyyətli bir hissəsi hələ də Hindistan işğalı altındadır. BM, Kəşmir xalqı arasında Pakistan və ya Hindistandan hansını seçdikləri mövzusunda referendum edilməsini qərarlaşdırdığı halda Hindistan bu qərarı keçən bu qədər müddət ərzində tətbiq etməmişdir. Digər tərəfdən Kəşmirin müstəqilliyi üçün mübarizə edən qruplar ümumiyyətlə fəaliyyətlərini Pakistandan icra etdiklərindən, Hindistan bu ölkəyə qarşı rəftar göstərir və beynəlxalq quruluşların Pakistana təzyiq etmələrini istəyir. Hindistan sahib olduğu nüvə silah gücüylə də Pakistan üçün təhdid meydana gətirir. Ancaq Pakistana, nüvə tutumundan ötəri davamlı təzyiq edilərkən, Hindistanın təhlükəli nüvə gücü nəzərə alınmır.

İşğal altındakı Kəşmirin sahəsi 138.935 km$^2$, əhalisi təxminən 9-10 milyon və bu əhalinin 80%-i müsəlmandır. Geriyə qalan hindu əhalinin əksəriyyəti də bölgəyə sonradan yerləşdirilmişdir. Hindistan rəhbərliyi Kəşmiri işğal altında tuta bilmək üçün bu bölgədə və Pakistan sərhədində yarım milyon əsgər saxlayır. Əsgərlərə Kəşmirdəki müstəqillik mübarizəsini yatırtmaları və müsəlman xalqı təzyiq altında tutmaları üçün hər cür səlahiyyət verilmişdir.

Əksəriyyəti hindulardan ibarət olan və müsəlmanlara qarşı xüsusi kinlə yetişdirilən əsgərlər də özlərinə verilən səlahiyyəti sonuna qədər istifadə edərək insanları vəhşicəsinə öldürür, mərhəmətsizcə həbs edib işgəncə verir və qadınlara təcavüz edirlər. Kəşmirdəki xəstəxanalar və səhiyyə quruluşları Hindistan əsgərlərinin hücumları nəticəsində yaralananlarla dolub daşır. "Asia Watch and Physicians for Human Rights" adlı insan haqları təşkilatının nəşr etdiyi bir hesabatda, Hindistan rəhbərliyinin Kəşmirli müsəlman qadınlara istiqamətli təcavüz siyasəti bu şəkildə aşkar edilir:

*"Kəşmirdəki qarşıdurmalar dördüncü ilinə girərkən, mərkəz və əyalət səlahiyyətliləri Hindistan təhlükəsizlik güclərinin Kəşmirdəki yayğın olan*

*təcavüzlərini dayandırmaq üçün çox az şey etdilər. Həqiqətən də avtoritetlər, təcavüz dəlilləri ilə qarşılaşdıqlarında dəfələrlə şahidlərin doğruluğunu inkar etməyə çalışdılar. Ədliyyə ekspertizasının ifadələrinə inanmadılar, ya da araşdırma və təcavüzdən məsul olanlar üçün cinayət təqibi xaric, bütün günahlandırmaları rədd etdilər... Yanvar 1990-ci ildən bəri Hindistan işğalçı qüvvələrinin təhqir etmələr daha çox olmağa başladı.*

*Təhqir edilmələr əksəriyyətlə qadağan edilən yerlərdə, polis kordonunda və təhlükəsizlik qüvvətləri evlərini axtararkən, şəxsiyyəti təyin etmək üçün parklarda, ya da məktəb sahələrində tutulduqları sırada reallaşır. Təhlükəsizlik qüvvətləri onlara zorakılıq edərkən bütün cəmiyyəti də cəzalandırmağa və hörmətdən salmağa çalışırlar... Təhlükəsizlik qüvvələri xəstəxanalara girdilər, xəstələri döydülər, həkimlərə vurdular, əməliyyatxanalara girdilər, alətlərə zərər verdilər. Təcili yardımlara hücum edildi, küçəyə çıxma qadağasına əməl etməyənlər həbs olundu... Cinsi istismar, döyülmə, zorakı təhdidlər və elektrik şoku işgəncənin ən məşhur şəkilləridir."*[102]

Kəşmirli müsəlmanlar 1947-ci ildən bu yana Hind rəhbərliyinə müqavimət göstərdilər və müstəqilliklərini qazanmaq üçün mübarizə etdilər. Bu haqlı müqaviməti qırmaq üçün Hind gücləri tərəfindən, ölkədə 1947, 1965 və 1971-ci illərdə üç böyük qırğın reallaşdırıldı. On minlərlə kəşmirli müsəlman öldürüldü, 4.000-dən çox qadın işgəncəyə və təcavüzə uğradı. İslami şüurun meydana gəlməsinin maneə törədilməsi üçün din təhsili verən məktəblər bağlanıldı.[103]

1990-cı ildən sonra isə Kəşmirdəki soyqırım və assimilyasiya hərəkəti ən mərhəmətsiz şəklini aldı. İnsanlar səbəbsiz yerə nəzarətə alınıb, işgəncə altında öldürüldülər. Evlər qundaqlandı, müdafiəsiz insanlara müxtəlif təzyiqlər tətbiq olundu, qəzet və məktəblər bağlanıldı. İngilis "The Independent" qəzetində dərc olunan bir xəbərdə isə barbar Hind ordusunun Kəşmirdə tətbiq etdiyi sistematik işgəncə üsulları bu cümlələrlə təsvir edilir:

*"Gənc qızlar, daha əvvəl olduğu kimi tək əsgər yerinə, indi sistematik şəkildə bütün Hind ordudakılar tərəfindən təcavüzə uğrayır. Qızlar əsgər düşərgələrinə aparılır və günlərlə çadırlarında çılpaq saxlanılır. Bir çoxu bir daha əsla evlərinə dönmür... Qadınlar ağaclarda çılpaq olaraq yelləndirilir və Hind əsgərləri tərəfindən sinələri bıçaqla yaralanmış bu qadınlara sinələrinin yeni doğan militana bir daha əsla süd verə bilməyəcəyi deyilir. Qadınlara ərlərinin və uşaqlarının gözləri qarşısında təcavüz edilir, və ya çılpaq olaraq kəndlərdə gəzdirilir və sinələrinə vurulur."*[104]

Hind rəhbərliyi yalnız silahlı hücumlara, ya da təcavüzlərə müraciət etməklə də kifayətlənmədi. Əkinçilik üçün istifadə edəcəyini açıqladığı su anbarlarını belə müsəlmanlara qarşı işgəncə məqsədli istifadə etdi. Anbarları ağzına qədər su doldurub, musson yağışlarının yağması ilə birlikdə qapaqları birdən açaraq, bölgənin aşağı ətraflarında olan azad Kəşmir və Pakistanı sular altında buraxdı. Bunların nəticəsində minlərlə insan həyatını itirdi və çox böyük maddi ziyanlar oldu. "The Toronto Star" qəzetində yer alan aşağıdakı xəbər Kəşmir xalqının yaşadıqlarını bu cur yekunlaşdırır:

*650.000 insan güclü Hind ordusu tərəfindən boyun əyməyə məcbur buraxılan, alçaldılan, işgəncə edilən və öldürülən Kəşmir xalqı, dövlət təzyiqinin gedərək artan sərt kampaniyası nəticəsində, bir ildən uzun müddətdir tam bir cəhənnəm həyatı yaşayır. Hindistan diqqətlə yaradılmış "şiddətdən qaçmaq" imicinin arxasına gizlənir və beynəlxalq forumlarda özünü demokratiya və plüralizm modeli olaraq təqdim edir. Ancaq, öz pərəstişkarlarının belə araşdırmalarını qəbul edə bilmir. Xüsusilə televiziya qrupları olmaq üzrə bütün jurnalistlər bölgədən çıxarıldılar və dünya, Hind qüvvələrinin mərhəmətsizliklərini yaza biləcək hər hansı kamera olmadığı üçün böyük nisbətdə qaranlıqda buraxıldı.*[105]

1993-cü il oktyabr ayında Kəşmirin paytaxtı Sirinaqarda Hazratbal məscidinə qarşı böyük hücum reallaşdırıldı. Hindistan mövqelərinin,

müsəlmanların hərbi qərargahı olaraq xarakterizə etdikləri Hazratbal məscidi təxminən bir ay mühasirəyə alındı. Mühasirəyə alınma əsnasında 100-dən çox insan öldürüldü. 300 günahsız insan həbs olundu. Şəhərin elektrik və suyu kəsildi.

Kəşmirdə, Hind rəhbərliyinin davam etdirdiyi vəhşiliyi ilə yanaşı bir də mühacir problemi yaşanır. Aşağıda Kəşmirdəki mühacir düşərgələrini ziyarət edən Kanal 7 televiziyasının müxbiri Səfər Turanın çatdırdığı təəssüratlara yer verilmişdir. Səfər Turan düşərgədəki həyatı bu şəkildə təsvir edir:

*Ambor mühacir düşərgəsi 1990-cı ildə Cammu Kəşmirdən qaçan kəşmirlilər üçün qurulmuşdur. Həyat standartları normadan çox aşağıdır. Kiçik-kiçik torpaq evlərə insanlar sanki sıxışmış. Girdiyimiz tək otaqlı bir evdə bir tək yataq var. Neçə adam qaldığını soruşduqda aldığımız cavab "9 adam"dır. Düşərgədə cəmi 1.110 adamdan ibarət olan 214 ailə yaşayır. Həyat standartlarının çox aşağı olduğunu görmək üçün torpaqdan tikilmiş evlərdən birinə girməniz kafidir. Evlər ümumiyyətlə iki otaqlı. Otaqlarda bir neçə istifadə edilə bilməyəcək saxsı çanaq.*

*Bir və ya iki yataq. Yataqlara yataq demək üçün min şahid lazımdı. Küncdə oturmuş bir ana, qucağında körpəsi. Bəzən içərisində alovlandırılmış üç-beş budaq parçasının olduğu torpaq ocaqda qaynayan bir qazan. Ətrafda quru və ya yaş yemək adına heç bir şey yox! Amma utandığımdan heç bir qazanın qapağını açma cəsarəti tapa bilmədim. Hansı çadıra girdiksə ortada nə yemək, nə yatacaq heç bir şey görmədik! Çadırların birində ortada yerdə kiçik köhnə bez parçası yan-yana idi. Aydındır ki, yataq olaraq istifadə edilirdi. "Bu çadırda neçə adam qalır?" deyə soruşduğumda aldığım cavab "11 adam" idi... Və çöldə yenə tək-tük qaynayan bir sac qazan!*[106]

Hindistanın Kəşmirdə bu cür böyük təzyiq siyasətini əlli ildən çox müddətdir rahatlıqla davam etdirə bilməsi, Qərbdəki bəzi anti-İslami kütlələrdən aldığı açıq və bağlı dəstəklərin nəticəsidir. Kəşmirdəki müsəlmanlar, Birləşmiş Millətlərin heç bir sanksiyası olmayan qərarları

nəticəsində hinduların təzyiqçi rəhbərliyinə tərk edilmişlər. Əhalisinin demək olar hamısı Müsəlman olan Kəşmirin, müstəqil olma səyi və Pakistanın verdiyi haqlı dəstək bu səbəblə müsbət şəkildə nəticələnə bilməməkdədir.

Diqqət yetirilsə, dünya mətbuatının böyük hissəsi Kəşmirdəki vəhşiliyə heç toxunmaz. Toxunduqlarında isə, bəziləri bu xəbərləri **"Hindistana aid bir bölgədəki daxili üsyan yatırdıldı"** kimi səhv açıqlama təqdim edərlər. Məsələn "New York Times", 22 yanvar 1990-cı il tarixli sayında Pakistanı Kəşmirdəki "irqçi" müsəlman qrupları dəstəkləyərək "**ölkədəki sabitliyi pozmaq**"la günahlandıran bir yazı nəşr etmiş və pakistanlıların böyük reaksiyasını almışdı.[107] Qərb mediasının bir hissəsində bu cür haqsız açıqlamalara tez-tez rast gəlmək mümkündür.

Son illərdə isə bölgədəki Hind rəhbərliyi təzyiq və assimilyasiyanı şiddətləndirmişdir. Fanatik hindu təşkilatları isə Babur Məscidi qırğınında, Qucaratda, ya da Əhmədabadda olduğu kimi, Kəşmirli müsəlmanların tamamilə yox edilməsini hədəfləyir. Kəşmirli müsəlmanlara qarşı tətbiq olunan vəhşilik faciəvi ölçülərdədir. Ancaq tarix boyunca olduğu kimi, dövrümüzdə indiki vaxtda da müxtəlif təbliğat üsullarıyla Kəşmir və bölgəsində yaşananlar, insanlara çox fərqli şəkildə əks etdirilir.

Tətbiq olunan zülmlər, işgəncələr, günahsız insanlara edilən təzyiqlər gizlənməkdə, nəticədə bütün dünya olub bitənlər qarşısında səssiz qalır. İnsan haqları təşkilatlarının hazırladıqları hesabatlar sanki yoxmuş kimi davranılır. Halbuki yarım əsrə yaxın bir zamandır Hind zülmü ilə qarşı-qarşıya qalan Kəşmir xalqının diləyi, dinlərini rahat şəkildə yaşaya biləcəkləri, insanların yalnız müsəlman olduqları üçün zülm görməyəcəkləri, uşaqlarını sülh və güvən içində böyüdə biləcəkləri bir torpağa sahib olmaqdır.

# İsraildən irqçi hindulara hər tərəfli dəstək

Radikal hindlilərin müsəlmanlara qarşı olan düşmənlik və təcavüzkarlıqları, onları İslama qarşı antipatiyayla baxan bəzi güclərlə də əməkdaşlığına yönəldir. Bu güclərin başında, özlərini İslama və müsəlmanlara qarşı qlobal mübarizə içində görən israilli radikallar gəlir.

İsrail ilə hindular arasındakı hərbi əlaqələr, olduqca qədim tarixlərə uzanar. İsrailin Hindistana verdiyi dəstək ilə əlaqədar xəbərlər, dünya mətbuatına ilk dəfə 1960-cı illərin sonunda əks olunmuşdu.[108] Buna görə İsrail, Hindistana böyük nisbətlərdə silah köməyi edirdi. Bu köməyin ən əhəmiyyətli hissəsini, İsrail istehsalı 120 mm.-lik son dərəcə rahat və təsirli hava topları meydana gətirirdi. Ancaq xəbərdə də ifadə edildiyi kimi, uzun müddətdir davam edən bu cür hərbi köməklər son dərəcə "gizli" idi.

Soyuq Müharibə dövrü boyunca Hindistan və İsrail arasında xüsusilə kəşfiyyat, müdafiə etmə və nüvə araşdırma sahələrində yaxın əməkdaşlıq davam etdi. Hind və İsrail əsgəri səlahiyyətliləri illərdir qarşılıqlı ziyarət ənənəsini davam etdirdilər. Hər iki ölkə bir-birindən hərbi vəsait satın alırdı. 1963-cü ildə Polkovnik M. M. Sindhi, Hindistanın ehtiyac duyduğu İsrail silahlarını təsbit etmək üzrə İsrailə getmiş və 2 ay Hayfada qalmışdı.

Bu ziyarət Hindistanın Şimal-Şərq əyalətlərinin Çin tərəfindən işğal edilməsidən dərhal sonra idi. Hindistan Çin müharibəsi əsnasında ortaya çıxan İsrail casusluq qalmaqalının açar adı Rama Sawarupun açıqlamasına görə, 1963-cü ildə İsrail hərbi kəşfiyyat rəisi Hindistana dəvət edilmişdi. Bunun səbəbi, pis vəziyyətdə olan Sovet silahları mövzusunda İsraildən kömək istənməsi idi.

1965-ci il Hindistan-Pakistan müharibəsi əsnasında isə İsrail hərbi mütəxəssisləri, Hərbi Kəşfiyyat rəisi başçılığında Hindistanı ziyarət edərək, Pakistanın əlində olan Amerikan silahları mövzusunda hindlilərə məlumat

verdilər. 1967-ci il İsrail işğalı əsnasında da Hindistan taktika və alınan nəticələri araşdırmaq üzrə İsrailə hərbi mütəxəssislərini göndərdi.

İsrail 1971-ci ildə də Banqladeşin qurulması ilə nəticələnən Hindistan-Pakistan müharibəsi əsnasında da Hindistana silah köməyi etdi. Qərb mətbuatında yer alan xəbərlərə görə mərkəzi Torontoda olan İsrail şirkəti Levy, "avtomobil ehtiyat hissələri" görünüşü altında 1981-ci ildə Hindistana 3.000 ton tank hissəsi təmin etdi.

Hindistan və İsrail arasındakı gizli ittifaq, nüvə silahları da ehtiva edirdi. İsrailli yazıçılar Dan Raviv və Yossi Melmanın yazdıqları və İsrail gizli xidməti Mossaddan bəhs edən 'Every Spy a Prince" (Hər casus bir şahzadədir) adlı kitabda iki ölkənin nüvə sahəsindəki əməkdaşlığa toxunulurdu. Victor Ostrovskyun bildirildiyinə görə, Hindistan, 1984-cü ildə Pakistanın atom bombası istehsal etməsindən narahatlıq duyaraq İsraildən kömək istəmişdi. İsrail Hindistanın bu istəyinə müsbət cavab vermiş və iki ölkə arasında gizli razılaşma olmuşdur.

Bunun ardından 2 hindistanlı nüvə fizikası alimi, nüvə bomba və mərmi başlığı istehsalında mütəxəssisləşmək üçün İsrailə getmişlər. İsrail, özünün 1981-ci ildə İraqın nüvə stansiyası inşaatına etdiyi hücumun bir oxşarını Pakistandakı nüvə stansiyasına etməsi üçün, Hindistana texniki məlumat vermişdi.[109]

Uzun müddət gizlilik içində icra edilən bu əlaqələr, 1990-cı illərdə yaxşı şəkildə ortaya çıxdı. Amerikan mənşəli "News India" qəzetinin verdiyi bir xəbərdə, İsrail Gizli Xidməti Mossadın uzun müddətdir Hindistan gizli xidməti RAW-nin işçilərini öyrətdiyi ortaya çıxarılmışdı. Mossadın hindli həmkarlarına verdiyi təhsilin mövzusu isə "xalq qiyamlarının yatızdırılması", yəni Kəşmirin müstəqillik mübarizəsinin yox edilməsi istiqamətində idi. Xəbərə görə, israillilərin təhsilindən keçmiş yüzə qədər RAW agenti, Kəşmirdə fəaliyyət göstərirdi.[110]

1993-cü ildə İsrail və Hindistan arasında imzalanan bir protokolda, Hind ordusunun İsrailli əsgəri mütəxəssislər tərəfindən öyrədilməsi

qərarlaşdırılmış, xüsusilə də Kəşmirdəki Hind birliklərinin İsrailli komandos birliklərinin təhsilindən keçirilməsinə qərar verilmişdi.[111]

Kəşmirli müsəlman milislərlə edilən bir reportajda isə bu milislər, israillilərin Sirinaqar bölgəsinə qurduqları 3 təhsil düşərgəsində Hind əsgərləri öyrətdiklərini xəbər vermişdi.[112] Silah sənayesi mütəxəssisi Jane Hunterin yazdığı bir məqalədə isə *"Amerikan qaynaqlı müxtəlif hesabatlara görə Hindistan-İsrail yaxınlaşmasının anti-İslami təməlli olduğu"* xəbər verilir və həmçinin Hindistan Müdafiə Naziri Pavarın, Hind ordusunun İsrail tərəfindən öyrədiləcəyini bildirən şərhinə diqqət çəkilirdi.[113]

Əlaqələrin qazandığı sürətlənmə 1992-ci ildə Hindistanın İsrail Dövlətini tanımasıyla çox gücləndi. Yitzhak Rəbin və Şimon Peresin Hindistan hökumətinə "müsəlmanlarla olan mübarizəsində" sonuna qədər kömək edəcəyi sözü isə bu əlaqənin əhəmiyyətini ortaya qoyurdu. İki ölkə arasındakı əlaqə iqtisadi, siyasi, hərbi və elmi sahədə sürətlə inkişaf etdi.

## Hindu militanlara yahudi lobbilərindən örtülü dəstək

"Washington Report on Middle East Affairs" jurnalı, yanvar 1994-cü il sayında ABŞ-dakı yəhudi lobbisi və radikal hindu qrupları arasındakı əməkdaşlıqla əlaqədar uzun araşdırma nəşr etdi. Yazıda, yəhudi lobbisi ilə hindular, xüsusilə də Kəşmirdəki müsəlman qırğınının baş məsulu olan radikal hindu təşkilatları arasında tam bir "ittifaq" yaradıldığı açıqlaması edilirdi.

"Washington Report", həmin xəbərdə Hindistanda getdikcə güclənən Hindutva hərəkatına diqqət çəkirdi. Bu güclənmənin ən əhəmiyyətli səbəblərindən birinin isə bəhs etdiyimiz təşkilatların Vaşinqtondakı ən böyük güc olan yəhudi lobbisi ilə ittifaq etmələri olduğunu vurğulayırdı. "Washington

Report", BJP-RSS-VHP kimi hindu təşkilatlarının "hindu-Sionist ittifaqı" qurma yolunda olduqları açıqlamasını edirdi.

Bəhs etdiyimiz təşkilatlar, daha əvvəlki səhifələrdə araşdırdığımız kimi, Kəşmirdə və ümumiyyətlə bütün alt-qitədə müsəlmanlara edilən hücumların cavabdehləridir. Bu təşkilatlar, Hindistandakı ən təcavüzkar hindu təşkilatı olan Shiv Sena ("Shivanın Ordusu"; Shiva Hindu dinində "yox etmə tanrısı" olaraq qəbul edilir.) ilə çox yaxın əlaqə içindədirlər.

Müsəlman məscidlərinə, Bombeydəki və bütün Hindistandakı müsəlman birliklərinə edilən hücumları onlar təşkil etmişlər. Qəribə olan, Hitlerə qibtə edəcək qədər faşist olan bu hindu təşkilatlarının İsrail dövləti ilə çox yaxın əlaqə içində olmasıdır. Bu mövzunu araşdıran "Washington Report", eyni hindu qruplarının, Şimon Peresin 17 may 1993-cü ildə Hindistana etdiyi ziyarət əsnasında Pereslə ən yaxın əlaqə quran qruplar olduğuna diqqət çəkirdi.

Radikal Hindu təşkilatları ilə İsrail arasındakı yaxınlaşma, Vaşinqtonda nəşr olunan "The Times of India" qəzetinin 9 iyul 2003-cü il tarixli sayında "Ties With India Advancing" (Hindistan ilə bağlar sıxlaşır) başlıqlı xəbərdə də diqqət çəkilmişdi.

"Washington Report", BJP-RSS-VHP liderlərinin İsrailə və İsrail lobbisinə olan heyranlıqlarını açıqca şəkildə ifadə etmələrini də vurğulayırdı. Məsələn ABŞ-dakı hindu təşkilatlarının liderlərindən biri olan Tiwari, "yəhudi lobbisi həqiqətən də çox qabiliyyətli və güclü, buradakı sistemin necə işlədiyini çox yaxşı bilirlər. Hindistanın mənfəətləri üçün də indiyə qədər çox şey etdilər" deyərək lobbiyə olan minnətdarlığını vurğulamışdı. Tiwari həmçinin "Bizim lobbi işlərimiz çox zəifdir. Amma hər ehtiyacımız olduğunda İsrail lobbisindən kömək istəyirik. Bizi indiyə qədər heç geri çevirmədilər" demişdi.

"Washington Report", Yəhudi lobbisinin hindulara dəstək olmaq üçün bəzi think-tankları (düşüncə və strategiya quruluşları) da dövrəyə soxduğunu yazır və bunların başında ABŞ-ın Ankara sabiq səfiri Morton Abramowitzin idarə etdiyi Carnegie Endowmentin gəldiyini bildirirdi. Xəbərdə həmçinin Şimon Peresin Hindistan ziyarəti əsnasında söylədiyi **"Pakistanın terrorist dövlət elan edilməsi üçün sizə dəstək verəcəyik"** sözü də xatırladılmışdı.

Tel Əviv Universitetindən prof. Martin Sherman isə "The Jerusalem Post"da nəşr olunan "From Conflict to Convergence" (Qarşıdurmadan birləşməyə) başlıqlı yazısında Soyuq Müharibə dövrünün iki rəqibinin, dövrümüzün strateji ortaqları halına gəlməsi izah edilirdi. Xəbərdə İsrail lobbiləri ilə hindular arasındakı əlaqəyə də diqqət çəkilirdi:

*Hindistan üçün İsrail və Vaşinqtondakı yəhudi lobbilərinin Yeni Dehlinin Pakistan mövzusundakı vəziyyətini düzəltmək üçün çox əhəmiyyətli təsirləri ola bilər. Bu mövzu keçdiyimiz həftə Yeni Dehlidə edilən üçlü yığıncaqlarda da nəzər salındı. Yığıncağa Vaşinqtonun ən güclü lobbilərindən sayılan Jinsa (Jewish Institute of National Security Affairs), keçmiş İsrail gizli xidməti üzvləri və müdafiə etmə mütəxəssisləri qatıldı. İsrail və Hindistan arasında təhlükəsizlik əsaslı əlaqə davamlı böyüyür.*[114]

## Kaşmirə qarşı "Hindistan-İsrail ittifaqı"

Dünya müsəlmanlarının passiv edilmələri, təzyiq altında tutulmaları, assimilyasiya edilmələri radikal Sionist ideologiya üçün əhəmiyyətli hədəfdir. Bu gün bu ideologiyaya qapılan bəzi İsrailli radikallar, dünyanın dörd bir tərəfindəki İslam-əleyhinə güclərə dəstək verməyi, onlarla ittifaqlar quraraq bir növ "qlobal anti-İslami cəbhə" meydana gətirməyi hədəfləyir. Bu cəbhə yalnız Orta Şərq coğrafiyası ilə məhdud deyil; bütün dünyanı əhatə edir. *(Ətraflı məlumat üçün baxın: Yeni Masonik nizam, Harun Yəhya, Vural nəşriyyat)*

Kəşmir, İsrailli radikalların İslama qarşı meydana gətirməyə çalışdığı ittifaqın sıx şəkildə fəaliyyət icra etdiyi bölgələrdən biridir. Sahib olduğu yeraltı zənginlikləri, strateji mövqeyi, Pakistan ilə olan yaxınlığı, Pakistanın sahib olduğu nüvə gücü və güclü müsəlman birliyinin varlığı İsrailin Kəşmirdə diqqətini sıxlaşdırmasının başlıca səbəbləri arasında sayıla bilər.

İsrail dövləti, Amerikadakı yəhudi lobbisinə paralel olaraq, Kəşmirli müsəlmanların müstəqillik hərəkətinə qarşı Hindistana böyük dəstək verir. Bu dəstək, Hindistana edilən böyük silah köməyi və satışlarını; Hindistan gizli xidməti və xüsusi təyinatlarının "qiyamları yatızdırmaq" mövzusunda öyrədilmələrini ehtiva edir.

İsraillilər, fələstinlilərə qarşı yarım əsrdir davam etdirdikləri soyqırım və işğal altında tutma siyasətləri səbəbiylə, xalq qiyamlarını yatızdırmaq, xalqı işgəncə, psixoloji döyüş və sistemli terror yoluyla passivləşdirmək mövzusunda mütəxəssisdirlər. Bu mütəxəssislik, başqa bir çox təzyiqçi və İslam-əleyhinə rejimə olduğu kimi Hindistana da ixrac edilir.

## Radikal sionistlərlə fanatik hinduların internet ittifaqı

2 iyun 2001-ci il tarixli "New York Times" qəzetində çıxan "anti-müsəlman qruplar internet üzərində birləşir" başlıqlı xəbər, radikal hindu qruplarla bəzi radikal Sionist təşkilatlar arasındakı əlaqəni təkrar gözlər önünə sərdi. Amerikadakı militan hindular tərəfindən işlədilən bir veb saytı, müsəlmanlara qarşı düşmənliyi və şiddəti dəstəklədiyindən ötəri gələn şikayətlər üzərinə bağlanılmışdı.

Lakin bir neçə gün sonra sayt, ABŞ-da yaşayan bəzi fanatik yəhudilər tərəfindən təkrar açıldı. Saytı açan Kahani təşkilatının fanatik fikirləriylə tanınan Haham Kahaninin qurduğu və terrorist təşkilatlar siyahısında adı çəkilən bir qrup idi. "New York Times" qəzeti bu əlaqənin təməlini bu şəkildə izah edirdi:

*İlk baxışda dünyanın fərqli bölgələrindəki 2 ifrat dini fəlsəfəni bir yerə gətirən bu qeyri-adi birləşmənin ortaq olan çox az istiqaməti vardır. Lakin*

*Nyu-Yorkun etnik qarışığı içərisində birlikdə yaşayan kiçik hindu və yəhudi qrupları uzaq düşməni paylaşmanın dostluq üçün yetərli təməl olduğunu kəşf etmişlərdi. Anti-müsəlman bağları o qədər güclüdür ki... Bu əlaqəni hindu veb saytının üzvlərindən biri "Eyni döyüşdə döyüşürük" şəklində müəyyənləşdirir.*

Hinduunity.org saytının sahiblərindən olan Rohit Vyasmaan Kahani, təşkilatının saytı ilə aralarındakı bu əlaqəni "Biz onlarla eyni məqsəd üçün döyüşürük. Fələstinli, ya da pakistanlı olmaları əhəmiyyətli deyil. Hindu və yəhudilərin problemi İslamladır" şəklində şərh edir.

## Yəhudilərə müraciət

İsrailli və ya amerikalı bəzi radikal sionistlər ilə radikal hindular arasındakı bütün bu əlaqələr, hər iki gücün də özlərinə hədəf olaraq İslamı və müsəlmanları seçmələrindən qaynaqlanır. Halbuki bu fanatik ittifaq, həm səhv, həm də gərəksizdir. Müsəlmanların nə hindulara, nə də yəhudilərə qarşı bir düşmənlikləri yoxdur; yalnız Kəşmirdə və ya Fələstində təzyiq görmədən, azad şəkildə yaşamaq məqsədi güdürlər. Hindu və ya yəhudi radikallar, müsəlmanlara qarşı şiddət və təcavüzkarlıq göstərmək yerinə, bu haqlı tələbə qulaq assalar, həm özləri, həm də bütün dünya sülh üçün çox daha yaxşı olacaq.

Digər tərəfdən radikal yəhudilərin müsəlmanlara qarşı, Nazi pərəstişkarı fanatik hindulara əməkdaşlıq etmələrinin mənəvi istiqamətdən də çox böyük ziddiyyət olduğunu ifadə etmək lazımdır. Yəhudilər dünya üzərində inanc olaraq özlərinə ən yaxın dinin hansı olduğunu səmimi olaraq qiymətləndirsələr, cavabın İslam olduğunu görəcəklər.

Müsəlmanlar da, yəhudilər də tək bir İlaha, aləmlərin Rəbbi olan Uca Allaha inanır, Ondan gələn vəhyi izləyir, Onun peyğəmbərlərinə iman edirlər.

Hər iki dinin əxlaqi dəyərləri də bir-birinə çox yaxındır. Üstəlik müsəlmanlar, Quran ayələri yəhudiləri "Kitab əhli" olaraq görür, onların inanc və ibadət azadlıqlarına hörmət edirlər.

Bütün bu həqiqətlər yəhudilər ilə müsəlmanlar arasında qarşılıqlı tolerantlıq və yaxşı niyyət olmasını tələb edərkən, bəzi radikal yəhudilərin bütpərəst və faşist mədəniyyətə sahib olan fanatik hindularla əməkdaşlıq etmələri böyük ziddiyyətdir. Ümid edirik bu həqiqəti görər və hindu radikalları dəstəkləyərək alt qitədə daha çox qan və gözyaşı tökülməsinə vasitəçi olmaqdan imtina edərlər.

# 11 KİTAB
# DİGƏR UZAQ ŞƏRQ DİNLƏRİ

Uzaq Şərq dinləri deyildiyində ağla bir çox batil inanc gəlir. Birinci hissədə detallı olaraq araşdırdığımız Hinduizm, bu azğın dinlərin ən böyüyü, mənşəyi ən qədim tarixlərə uzananı və dünya üzərində ən çox mənsubu olanıdır. Asiya ölkələrindən Qərb ölkələrinə qədər bir çox mədəniyyətdə hindu dininin izlərini görmək mümkündür.

Xüsusilə də Hindistanın uzun müddət İngilis İmperatorluğunun işğalı altında qalması, hindu mədəniyyətinin Qərb cəmiyyətlərində məşhurluq qazanmasında böyük rol oynamışdır. Ancaq Uzaq Şərq ölkələrində Hinduizm ilə yanaşı Caynizm, Buddizm, Siqhizm, Şintoizm, Konfutsiçilik, Taoizm kimi daha bir çox inanc mövcuddur. Bu dinlər də öz içlərində müxtəlif qollara bölünür, ölkədən-ölkəyə dəyişikliklər göstərir.

Uzaq Şərq dinlərinin ən fundamental xüsusiyyətləri Allahın mütləq varlığını inkar edən, bütpərəst təməl üzərinə qurulmuş olmalarıdır. Hər birinin özünə xas saxta ilahları, qarşısında səcdə etdikləri bütləri vardır. Ancaq daşdan, torpaqdan düzəltdikləri xəyali ilahları həyatdakı hər şeydən üstün görən, həyatlarını bütlərini xoşbəxt etmək üçün çalışaraq keçirən bu insanlar nə qədər böyük aldatma içində olduqlarının fərqində deyildirlər. Atalarını, inəkləri, meymunları, siçanları, ya da ağacları saxta ilahlar edən bu kəslərin vəziyyətini Rəbbimiz Fatir surəsində bu şəkildə bildirir:

**əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin onlara ibadət etdiyinizi danacaqlar. Heç kəs hər şeydən Xəbərdar olan Allah kimi sənə xəbər verə bilməz.**

**(Fatir surəsi, 14)**

Bu hissədə bəhs etdiyimiz dinlərin səhv istiqamətlərini müzakirə ediləcək, bu dinlərin mənsublarına batil həyatları haqqındakı həqiqətlər xatırladılacaq. Həmçinin bu inanclardan imtina edib, Allaha təslim olmaları üçün müraciət ediləcək.

Üzərində dayanacağımız bir başqa mövzu isə yaşadığımız əsrdə bəzi kütlələr tərəfindən insanlara qurtuluş yolu olaraq təqdim edilən, çox böyük təbliğatla dünya gündəmində tutulmağa çalışılan saxta dini axınlardır.

Materialist və ateist kütlələr tərəfindən din əxlaqının cəmiyyət üzərindəki köklü təsirini ortadan qaldırmaq və mənəvi axtarış içində olan insanları "Allah inancına qarşı çıxan saxta din" ilə yanıltmaq məqsədi ilə yaradılan bu saxta axınların təhlükələrinə qarşı insanları xəbərdar etmək bütün iman sahiblərinin vəzifəsidir. Rəbbimiz Rad surəsində bu şəkildə bildirər:

**De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, hər şeyə Qalib gələndir" (Rad surəsi, 16)**

# CAYNİZM: ÖZ-ÖZÜNƏ ƏZİYYƏT DİNİ

Hindu dinindəki üst kastalara bir çox imtiyaz təmin edib digər insanları kölə halına gətirən zorakı ictimai nizam, qadınlara istiqamətli vəhşi tətbiqlər və bütlərə edilən qurban mərasimləri, tarix boyunca Hind cəmiyyətinin bəzi seqmentlərində narahatlıq meydana gətirdi. Bu səbəblə zaman-zaman Hinduizmə cavab olaraq bir çox yerli axın ortaya çıxdı. Bunlar, Hinduizmin mənfi reaksiya meydana gətirən hissələrini kənarlaşdırdılar, bəzi tətbiqlərini qəbul etdilər və eyni zamanda yeni təlimlər də çıxardılar.

Məsələn e.ə. 6-cı əsrdə Siddharta Qautamanın qurduğu Buddizm, Hinduizmin içindən doğuldu, ancaq Hinduizmdən bir çox mövzularda fərqləndi. Qautama qurduğu bu batil dini şəkilləndirərkən kasta sistemini rədd etmiş, amma əziyyət (münzevilik) şəklində təyin olunan yeni zorakılıq sistemi nəzərdə tutmuşdu. Həmçinin Hinduizmin təməlini meydana gətirən batil qarışıq və reinkarnasiya inanışlarını da mühafizə etmişdi. (Baxın: *İslam və Buddizm, Harun Yəhya, dekabr 2002, Araşdırma nəşriyyat)*

Caynizm (ya da Caynacılık, Jainizm) də Buddizm ilə eyni dövrlərdə ortaya çıxan və bu batil dinlə çox böyük bənzərliklər daşıyan axınlardan biridir.

Caynizm cəmiyyəti kastalara ayıran kasta nizamına, hindu müqəddəs mətnlərinin bəzi hissələrinə və hindu ayinlərinin böyük hissəsinə qarşı çıxan, ancaq başqa növdə batil və azğın inanışlar daşıyan dini hərəkətdir. Caynacı ənənələrin tam olaraq hansı dövrdə çıxdığı bilinmir. Ancaq araşdırmalardan bu anlayışın Hindistan cəmiyyətində əsrlərdir tətbiq olunduğu aydın olur.

Bu dinin Hindistan torpaqlarında məskun hala gəlməsi və yayılması isə e.ə. 500-cü illərdə reallaşmışdır. Keçmişdən bəri var olan bütün Caynist inanışlar, Nataputta Vardhamana, ya da Mahavira adlı döyüşçü kasta mənsubu bir adam tərəfindən bu dövrdə bir yerə gətirilmiş, öz kilsəsi, rahib, rahibə və

münzəviləri olan yeni din yaradılmışdır. Dövrümüzdə Caynizm Hindistanın ən qədim dinlərindən biri olaraq qəbul edilir və dünya üzərində təxminən 4 milyona qədər Caynanın olduğu qəbul edilir.

## Caynizm Allahın mütləq varlığını inkar edən, ateist dindir

Caynizmin ən əhəmiyyətli xüsusiyyəti bütün kainatı yoxdan var edən bir Yaradıcının varlığını inkar edən, ateist din olmasıdır. Caynalar (caynistlər) kainatın sonsuz olduğuna, varlıqların bir başlanğıcı, ya da sonu olmadığına inanarlar. Onlara görə kainatdakı bütün maddələr və varlıqlar sonsuzdur, kainat isə öz kosmik qanunları ilə işləyir. Bu tərif Allahın varlığını inkar edən materialist fəlsəfənin də təməlini meydana gətirir və tarixin ən qədim düşüncələrindən biridir. 20-ci əsrdə isə bu materialist düşüncə elmi üsullarla çürüdülmüş, maddənin sonsuzdan bəri var olduğu düşüncəsi, kainatın yoxdan var edildiyini isbat edən Böyük partlayış (Big Bang) nəzəriyyəsi ilə məhv edilmişdir.

Big Bang nəzəriyyəsi ilə kainatın bundan təxminən 15 milyard il əvvəl reallaşan böyük partlama ilə yarandığı ortaya qoyulmuşdur. Yəni kainatdakı bütün maddə yox ikən, var hala gəlmişdir. Big Bangın ortaya qoyduğu bir başqa həqiqət isə kainatın hər mərhələsinin idarəli yaradılışla şəkilləndirildiyidir. Ancaq bütün bu elmi həqiqətləri bilməyən bir insan üçün də Allahın sonsuz güc və qüdrətini görmək çox asandır.

Kainatın işləməsindəki qüsursuz nizam, təbiətdəki və heyvanlardakı bənzərsiz dizayn, insan bədənindəki mükəmməllik kimi daha bir çox detal bizlərə Allahın üstün yaratma gücünü göstərən dəlillərdəndir. Allah hər yerdədir və hər şeyi əhatə etmişdir. Bütün varlıqlar ONA boyun əymişdir. Sonsuz güc sahibi olan Rəbbimiz içində yaşadığımız bütün kainatı, yer üzündə

var olan gəlmiş keçmiş bütün insanları, canlı və cansız varlıqları yoxdan var etmişdir. Allah Yasin surəsində bu şəkildə xəbər verir:

**Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları diriləcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız". Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, Biləndir. Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar. Əlində hər şeyin hökmü Olan Allah pak və müqəddəsdir. Siz ancaq Onun hüzuruna qaytarılacaqsınız. (Yasin surəsi, 77-83)**

Caynizm ateist dindir, ancaq bu ateizmin içində Hinduizmdən qalan bütpərəst inanclar da var. Cayna məbədlərində, ya da evlərində bir çox hindu xəyali ilahın şəkillərini, ya da heykəllərini görmək mümkündür. Caynalar bu bütlərə hörmət nümayişləri edər, müxtəlif yeməklər, qoxular və çiçəklər təqdim edərlər. Onlara dua edər, zənginlik, uzun ömür, oğlan uşağı kimi istəklər edirlər. Bu bütlərin özlərini eşitmədiyini, görmədiyini, heç bir istəklərinə cavab verə bilməyəcəyini bir an olsun düşünməz, onlardan bir kömək görmə ümidi daşıyarlar. Halbuki Allah Quran ayələrində daşdan, taxtadan bütlərə tapınanların vəziyyətini bu şəkildə bildirir:

Musanın ardınca qövmü öz zinət əşyalarından böyürən bir buzov heykəli düzəltdilər. Məgər bu heykəlin onlarla danışmadığını, onlara düz yol göstərmədiyini görmürdülərmi? Buna baxmayaraq ona məbud kimi sitayiş edib zalımlardan oldular (əraf surəsi, 148)

Məgər bu heykəlin onlara heç bir cavab vermədiyini, onlara nə bir zərər, nə də bir fayda verməyə qadir olmadığını görmürdülərmi?! (Taha surəsi, 89)

Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: “Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! (əraf surəsi, 195)

# Caynizmin insanı bütləşdirən batil inancları

Allahın varlığını inkar edən caynalar başqa cür tanrı inancına sahibdirlər: Mükəmməl insan. Ancaq bu mükəmməlliyə çatmaq üçün insanın dünya həyatında uzun təhsildən keçməsi, bütün batil ayinləri əksiksiz tətbiqi, illərcə səfil həyat sürməsi, özünə zülm etməsi, lazım olsa intihar etməsi lazımdır. Azğın Caynist inanışlara görə belə bir insan (əslində heç bir dayağı olmayan, axmaq) karma zəncirindən xilas olacaq, üstün bir mövqeyə çatıb ruhunu

qurtaracaq. *(Cayna sözü fateh mənasını verən Cinə sözündən gəlir.* Cinə ruhi dünyanı fəth etmiş mənasında istifadə edilir.)

Caynistlər bu xəyali mövqeyə çatdığına inandıqları adama Tirthankara adını verər və onu guya bir tanrı olaraq qəbul edərlər. Bu batil dini mütləq bir həqiqət olaraq görən milyonlarla caynanın məqsədi isə bu mövqeyə çatmaqdır. Günümüzə qədər 24 Tirthankaranın gəlib keçdiyinə, Caynizmin qurucusu qəbul edilən Mahaviranın isə 24-cü Tirthankara olduğuna inanarlar. Cayna dinində Tirthankaralar hər şeyin üstündədirlər. Ayinləri əsnasında onlara hörmət nümayişləri edirlər.

Halbuki bir insanı ilah olaraq görmək (Allahı tənzih edərik), bu adama tapınmaq, dua edərək mədət ümid etmək Allaha şirk qoşmaq deməkdir. Əvvəlki hissələrdə də detallı olaraq izah etdiyimiz kimi şirk Allahın bağışlamayacağını bildirdiyi çox böyük bir günahdır. Rəbbimiz Özündən başqa varlıqları büt edən insanların vəziyyətini bir Quran ayəsində bu şəkildə bildirir:

**Kafirlər isə Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə məbud götürdülər.**

**(Furqan surəsi, 3)**

Allah insanı yoxdan var etmişdir. Heç bir insanın özünə aid bir gücü, iradəsi yoxdur. İnsan Allahın diləməsi ilə danışır, Allahın həyat verməsi ilə yaşayır. Heç bir insan Allahın təyin etdiyi qüsursuz qədərin xaricində ən kiçik bir hərəkət edə bilmə gücünə sahib deyil. Allahın dilədiyi yer və zamanda hər insan mütləq öləcək, bu saatı nə geriyə, nə də irəliyə ala biləcək.

Bu səbəblə də Rəbbimizin dünya həyatında sınadığı, müxtəlif nöqsan və zəifliklərlə var etdiyi insanı qondarma ilah olaraq görmək çox böyük azğınlıq, çox böyük cəhalətdir. Allah insanın acizliyini bir Quran ayəsində "... **insan zəif**

**olaraq yaradılmışdır" (Nisa surəsi, 28)** şəklində bildirmişdir. Başqa ayələrdə isə insanın yaradılışı bu şəkildə xəbər verilir:

**Ey insan! Səni öz Səxavətli Rəbbinə qarşı qoyan nədir? O ki, səni yaradıb kamilləşdirdi və sənə gözəl bir surət verdi. Səni istədiyi şəklə saldı. Xeyr! əksinə, siz Qiyaməti yalan hesab edirsiniz! (İnfitar surəsi, 6-9)**

Allah insanın yaradılış məqsədini isə Zariyat surəsində bu şəkildə bildirir.

**Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zariyat surəsi, 56)**

Bu səbəbdən caynistlər insanın dünya həyatında nəfsinin arzularından xilas olub, ruhunu qurtuluşa çatdırmaq məqsədi ilə olduğunu iddia edərkən çox böyük səhvə düşürlər. Üstəlik bu qurtuluşla birlikdə bir ilahlıq iddiasında olmaları isə daha böyük azğınlıqdır. İnsanın dünya həyatında yaranma məqsədi Rəbbimizə qulluq etməkdir. Bunların nəticəsində ümid edilən isə sadəcə Allahın məmnuniyyətini, rəhmətini və cənnətini qazanmaqdır.

# "Canlılara acı verməmə" adı altında şizofreniyalı tətbiqlər

Bütün batil Uzaq Şərq dinləri kimi caynalar da reinkarnasiya və karma sistemlərinə inanarlar. Onsuz da caynaların təməl məqsədləri xəyali qarışıq zəncirini qırıb, guya üstün insan mövqeyinə çatmaqdır. Onlara görə bunun tək yolu Caynist qaydalara bağlı bir həyat sürməkdir: Aclıq orucu tutmaq, müəyyən yeməkləri yeməmək, hər cür arzunu, istək və ehtirası yoxlama altında tutmaq, kimsəsiz yerlərə çəkilmək və mümkün qədər əziyyət çəkmək...

Bir caynistin həyatının təməl qaydası "Ahimsa"dır. Ahimsa "əzab verməmək, şiddətsizlik, heç bir canlıya zərər verməmə" mənasında istifadə edilir və caynaların məktəblərində təlimlənmək ən əhəmiyyətli prinsipdir. Caynaların bütün həyatları bu qanuna görə təşkil edilmişdir. Ahimsa Hindistandakı bütün fikir axınlarını təsir etmiş və hind inanıclarının böyük hissəsində iştirak etmişdir.

Ahimsa anlayışı səbəbiylə caynalar heç bir canlı varlığa zərər verməməyə çalışarlar. Bu inanc ilk eşidənə gözəl əxlaqi prinsip olaraq başa düşülsə də əslində Ahimsa caynalar üçün şizofreniyaya çevrilmişdir. Hər canlının fərqli ölçülərdə ruhları olduğuna inandıqları üçün Ahimsanın əhatəsinə heyvanları, böcəkləri, bitkiləri, mikroskopik canlıları da alırlar. Çox kiçik canlıları öldürmədən, ya da incitmədən yaşamaq, praktik olaraq qeyri-mümkündür. Bəzi canlılar biz nəfəs alarkən, su içərkən, ya da yemək yeyərkən belə ölərlər.

Oturduğumuz, ya da yatdığımız yerdə, geyimlərimizdə bir çox mikroskopik canlı vardır. Ancaq caynistlər bütün bunlar üçün ağıl və məntiqlə üst-üstə düşməyən, axmaq tədbirlər almışlar. Məsələn caynalar nəfəs alarkən hər hansı bir canlını öldürməmək üçün ağızlarına maska taxaraq gəzərlər. Mikrobları öldürməmək üçün dərman istifadə etməzlər. Cayna dinində antibiotik və dezinfeksiyaedici vasitələr qadağandır. Meyvə, bal və ət yemək

qadağandır. Katolik Ensiklopediyasında (The Catholic Encyclopedia) Ahimsa haqqında bu nümunə verilər:

*Cayna münzəvi öldürməkdənsə, ağcaqanadlar, ya da digər böcəklər tərəfindən dişlənilməyi seçər... Məsələn 1834-cü ildə Kutch məbəd xəstəxanasında 5000 siçan var idi.*[115]

Caynist keşişlərin həyatları isə daha zorakı qaydalardan meydana gəlir. Məsələn onlar gecələri yemək yeməzlər, çünki gecələri yemək yeyərkən fərq etmədən kiçik böcəkləri və canlıları da uda biləcəklərini düşünərlər. Bəzi caynist məzhəblərdə isə keşişlər gündə bir dəfə yemək yeyərlər. Caynist keşişlərin böyük bir hissəsi üzərlərinə heç bir paltar geymədən, tamamilə çılpaq gəzərlər. Bəziləri isə çox kiçik bir örtü ilə örtünərlər. Keşişlərin yarı çılpaq, ya da çılpaq gəzmələrinin səbəbi, geyimlərinin arasına girəcək kiçik canlılara zərər verməmə istəyidir.

Məsələn bu mövzuda çox qatı və qəti davranış göstərən Digambara məzhəbindəkilər (bu, Caynizmin iki təməl məzhəbindən biridir) "göy paltarı" mənasını verən adlarının bir gərəyi olaraq, tamamilə çılpaq olaraq gəzərlər. Bu, maddi olan bütün şeylərdən uzaq dayanılması mənasını verər. Bu tətbiqi indiki vaxtda da davam etdirən caynalar ümumiyyətlə monastır və məbədlərdən çölə çox çıxmazlar. Heç bir şəkildə mülk sahibi ola bilməz, evlənə bilməzlər.

Cayna rahibinin paltar daxil heç bir şeyə sahib olmaması lazım olduğuna inanarlar. Təxmin edilə biləcəyi kimi, caynist keşişlərin həyatı çox böyük səfalət, aclıq içində keçər. Özlərini əyləndirən, fərahlıq verən, xoşlarına gedən, zövq aldıqları hər şeydən uzaq dayanarlar. Çünki caynist inanışlarına görə insanın bütün arzularını yox etməsi, həyatla bütün əlaqələrini şizofreniyalı şəkildə kəsməsi, melanxolik həyat sürməsi lazımdır.

Nə qədər çox acı çəkər, aç qalar və səfalət içində yaşayarlarsa o qədər tez "ruhlarını qurtara biləcəklərinə" inanarlar. Halbuki bu qurtuluş deyil, insanın özünə işgəncə etməsidir. Bu tətbiqlər insanı qurtuluşa çatdırmaz, tam

əksinə zorakı sistem içində kölələşdirərlər. İnsanın bütün arzularını yox etmə iddiasında olan Caynizm həqiqətdə çox böyük təzyiq və əziyyət sistemidir.

İslam isə bu kimi inanışlardan tamamilə uzaqdır. Allah dünya həyatındakı nemətləri insanların faydalanması, zövq alması, şükür etməsi üçün var etmişdir. Təbiətdəki gözəlliklər, bənzərsiz dad və qoxulardakı yeməklər, meyvələr, tərəvəzlər, paltarlar Allahın yaratdığı çox gözəl nemətlərdəndirlər. İman edən bir adam bir meyvə yediyində, gözəl bir paltar geydiyində Allaha şükür edər və bu nemətlərdən ötəri çox böyük həzz alar. Ayələrdə Rəbbimizin insanların xidmətinə verdiyi nemətlər bu şəkildə bildirir:

**Mal-qaranı da O yaratdı. Onlarda sizin üçün istilik (bədəninizi isti saxlayan yun geyim) və başqa faydalar vardır. Həmçinin onlardan yeyirsiniz. Mal-qaranı axşam tövləyə qaytardıqda, səhər çölə buraxdıqda onlara baxıb fərəhlənirsiniz. Onlar yüklərinizi, özünüzün çətinliklə apara biləcəyiniz bir ölkəyə daşıyırlar. Həqiqətən də, Rəbbiniz Şəfqətlidir, Rəhmlidir. Atları, qatırları və uzunqulaqları sizə həm minik, həm də zinət olsun deyə Allah yaratdı. O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradır. Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi. Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində mal-qaranızı otardığınız otların bitməsi üçündür. Allah onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və başqa meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır.  O, gecəni və gündüzü, günəşi və ayı sizə xidmət etməyə yönəltdi. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Sözsüz ki, bunlarda anlayan insanlar üçün əlamətlər vardır. Yer üzündə sizin üçün yaratdığı müxtəlif rəngli şeyləri də sizə ram**

**etdi. Şübhəsiz ki, bunda düşünüb ibrət alan insanlar üçün dəlillər vardır. O, dənizi də sizin xidmətinizə verdi ki, ondan yemək üçün təzə balıq və taxmaq üçün bəzək şeyləri əldə edəsiniz. Sən gəmilərin dənizi yara-yara üzdüyünü görürsən. Bütün bunlar Allahın lütfündən sizə nəsib olanları axtarıb tapmağınız və şükür etməyiniz üçündür. O, sizi silkələməsin deyə, yer üzündə möhkəm dağlar və düzgün səmt götürəsiniz deyə, çaylar və yollar yaratdı. Əlamətlər yaratdı. İnsanlar ulduzlar vasitəsilə də getdikləri yolu müəyyənləşdirirlər. Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Nəhl surəsi, 5-18)**

Allah insanların əmrinə saymaqla bitirə bilməyəcək qədər çox nemət vermiş və dünyadakı bütün bu gözəlliklərdən faydalanmalarını istəmişdir. Bunları “haram edən”lər, yəni insanları Allahın nemətlərindən məhrum edərək onları əzab və səfalətə sürüyənlər isə səhv yoldadırlar. Allah bir ayəsində bu həqiqəti belə ifadə edər:

**De: “Rəbbim həm aşkar, həm də gizli törədilən yaramaz əməlləri, hər cür günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur”. (Əraf surəsi, 32)**

Cayna inancında, Allahın ayədə də bildirdiyi kimi, demək olar bütün nemətlər aydın olmaz şəkildə insanlara haram qılınar. Caynizm, insanlardan

bütün istək və arzularını korlaşdırmalarını istər, özlərinə əzab və iztirab çəkdirmələrini əmr edər. Əzab çəkməyi, aç qalmağı, üşüməyi, xəstəlikləri bir ərdəm olaraq göstərər. Bu dinə bağlanan bütün insanlar da bu ərdəmlərə çatmaq üçün əzab çəkməkdən zövq alacaq hala gələrlər. Bu vəziyyət Quranda bəhs edilən "**Şübhəsiz Allah, insanlara heç bir şeylə zülm etməz. Ancaq insanlar, öz nəfslərinə zülm edirlər." (Yunis surəsi, 44)** ayəsinin tam təcəllisidir.

Halbuki insanın etməsi lazım olan, sayları son dərəcə məhdud olan haramlardan çəkinmək, bunun xaricində dünyadakı bütün nemətlərdən faydalanmaq, bunları verənin sonsuz lütf sahibi olan Rəbbimiz olduğunu unutmamaq və ONA şükür etməkdir. İnsan özünü dünyadakı gözəlliklərdən gərəksiz yerə məhrum etməməli, nəfsinə təzyiq etməməli, əzab çəkdirməməlidir. Allah bir ayədə belə bildirir:

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır". (Əraf surəsi, 157)**

Ayədə də görüldüyü kimi Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) insanların "ağır yüklərini, üzərlərindəki zəncirləri" azad etmiş, onları batil inancların və ənənələrin bütün təzyiqlərindən, qadağalarından azad etmişdir.

Caynaların özlərinə etdikləri zülm, yalnız aclıq, ya da səfalətlə də məhdud deyil. Bir Cayna, fiziki səbəblərlə andlara uyğun gəlməyəcək hala

gəldiyində, ya da bir an əvvəl ruhunu "qurtuluşa" çatdırmağı istəyirsə, özünü aç buraxaraq könül razılığıyla ölməlidir. Çünki Caynizmə görə, aç qalaraq ölmək ən böyük ərdəmdir. Katolik Ensiklopediyası (The Catholic Encyclopedia), Caynizmin bu xüsusiyyətini belə açıqlayır:

*Caynaların dini intihara baxışı Buddistlərdən fərqlidir. Cayna ənənəsinə görə 12 il ciddi münzəvi həyatı yaşayan, ya da uzun sınaqlara baxmayaraq dünyəvi arzularını idarə edə bilməyən bir rahib, ölümünü sürətləndirməli və intihar etməlidir.*[116]

Caynaların qadınlara baxışı da, təxmin edilə biləcəyi kimi, çox müsbət deyil. Caynizmin iki təməl məzhəbindən biri olan Diqambarada, qadınlar insan belə sayılmaz, çünki onların qurtuluşa çatmalarının mümkün olmadığına inanılar.[117] Digər məzhəbdə, yəni Svetambarada isə, bu qədər qatı olmasa da, qadınları ikinci sinif insan olaraq görən inanc hakimdir.

Qısacası Caynizm intiharı təşviq edən, insanların yalançı ilahlıq mövqeyinə yüksəlmək üçün bir an əvvəl həyatlarına son vermələri lazım olduğunu söyləyən vəhşi inanışlara malikdir. Caynizm insanları səfalət içində yaşamağa, aç qalmağa, çılpaq gəzməyə, zəhərli böcəklər tərəfindən sancılarkən səssizcə gözləməyə, xəstə ikən bakteriyaları öldürməmək üçün antibiotik içməməyə, zərərli heyvanları yox etmək üçün dezinfeksiyaedici istifadə etməməyə təşviq edərkən, çox böyük bir zülm edir.

İnsanı yalançı ilah kimi gördüyünü iddia edən Caynizm, gerçəkdə insanı bir mikrobdan, bakteriyadan belə daha kiçik görən, insanı pislik içində yaşamağa məhkum edən, təmizliyi, rahatlılığı, gözəl yeməkləri qadağan edən zorakı dindir. Halbuki Allah Quranda insanın yaradılışıyla əlaqədar olaraq bizlərə bu şəkildə xəbər verir:

**...Sizə surət verib onları gözəl şəklə saldı. Dönüş də Onadır.**

**(Təğabun surəsi, 3)**

**Verdiyi nemətlərlə sınamaq üçün sizi yer üzünün xələfləri təyin edən, birinizi digərinizin fövqünə dərəcə-dərəcə qaldıran Odur... (ənam surəsi, 165)**

**Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir canişin bərqərar edəcəyəm!" – dedikdə... (Bəqərə surəsi, 30)**

**Sizi xəlq etdik, sonra sizə surət verdik, sonra da mələklərə: "Adəmə səcdə edin!" – dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı. Allah dedi: "Mən sənə əmr etdikdə sənə səcdə etməyə nə mane oldu?" İblis dedi: "Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!" Allah dedi: "Buradan aşağı en! Burada təkəbbürlük göstərmək sənə yaramaz. Çıx get, çünki sən alçaldılmışlardansan". (əraf surəsi, 11-13)**

Ayələrdə də görüldüyü kimi insan, Allahın ən gözəl surətdə yaratdığı, yer üzündə xəlifələr etdiyi, təmiz nemətlərlə ruzi verildirdiyi, bir varlıqdır. Beyyinə surəsində isə iman edib saleh əməllərdə olan insanları Rəbbimiz **"yaradılmışların ən xeyirliləri"** (Beyyinə surəsi, 7) olaraq adlandırır.

# NƏTİCƏ

Caynist birliklər bütpərəst inanışlarını 2500 ildir qoruyurlar. Ancaq İslam dininin Hindistan torpaqlarına girməsiylə birlikdə bu inanışlarda da böyük dəyişikliklər olmuşdur.

Müsəlman Moğol İmperatoru Əkbər Şahın dövründə, daha əvvəl hindu təzyiqi altında əzilən bütün caynistlər çox rahat dövr yaşamışlar. İslam əxlaqının gətirdiyi ədalət, tolerantlıq və sülh mühiti sayəsində caynistlər öz dinlərini istədikləri kimi yaşamışlar, istədikləri kimi ibadət etmə imkanı əldə etmişlər.[118]

Müsəlmanlarla bir yerdə yaşamaq, İslam dinini yaxından tanımaq isə onların inanışlarında çox köklü dəyişikliklər meydana gəlməsinə vəsilə olmuşdur. Məsələn İslam dininin təməlini meydana gətirən tövhid inancından təsirlənən bir çox caynist təriqət meydana gəlmiş, bu təriqətlər caynizmin bütpərəst inanışlarını tərk edərək, tövhid inancına yönəlmişlər. “Jainism and Other Religions” (Caynizm və digər dinlər) adlı əsərdə bu təsir aşağıdakı şəkildə təsvir edilir:

*İslam dininin caynalar üzərindəki təsirli və uzun nəfəsli təsiri xüsusilə də bütlərə tapınma mövzusunda olmuşdur... Lonka Shah kimi cayna liderlərini İslam dinindəki tövhid inancına yönəltmişdir. Bunun nəticəsində də Hindistanın müsəlman rəhbərliyindəki orta və qərb hissələrində, Caynizmin Svetambara məzhəbinin bütpərəstliyi rədd edən bir alt qolu olan Sthanakvasis təriqəti və Digambara məzhəbində isə Taranpatha təriqəti ortaya çıxmışdır.*[119]

Dövrümüzdə da caynistlər müsəlmanlarla bir yerdə yaşamaqda və İslam dini ilə şərəflənən bu insanların nə qədər zadəgan, dinc, etibarlı həyata sahib olduqlarına yaxından şahid olurlar. Bu səbəblə də batil inanışların təsiri altında olub, cahil şəkildə özlərinə zülm edən, həyatın bütün həqiqətlərindən

uzaqlaşıb melanxolik kabusun içində yaşayan bütün caynistlərin nə qədər böyük yanılma içində olduqlarını bir an əvvəl fərq etmələri lazımdır. İslamın çağırışı yanlarındadır və bu çağırışları mütləq dinləməlidirlər. Allah Quranda bəzi insanların bu çağırışa bu şəkildə cavab verəcəklərini xəbər verir:

**Onlara: "Allahın nazil etdiyinə və göndərdiyi Elçiyə tərəf gəlin" – deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir" – deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə onda necə olsun? (Maidə surəsi, 104)**

Caynistlər bu səhvə yol verməməli, ənənələrini deyil həqiqəti seçməlidirlər. Bilməlidirlər ki, atalarının axmaq bir inanışla əyləndiyini fərq edənlər, bütpərəstliyin böyük azğınlıq olduğunu anlayanlar, vicdanlarının səsini dinləyərək Allaha iman edənlər və əvvəlki həyatlarından peşman olub tövbə edənlər, Rəbbimizi "tövbələri qəbul edən və qullarına mərhəmət edən" olaraq tapacaqlar. Allah Şura surəsində bu şəkildə bildirər:

**... Allah batili silib yox edər və haqqı Öz sözləri ilə bərqərar edər. Şübhəsiz ki, O, kökslərdə olanları Biləndir. Qullarının tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur. (Şura surəsi, 24-25)**

# ŞİNTOİZM: ÖLÜLƏRƏ VƏ TƏBİƏTƏ TAPINMA DİNİ

Yaponiyanın milli dini olan Şintoizm Yapon xalqına xas, batil ənənələr dinidir. Şintoizmin özü təbiətə, ölülərə və büt olaraq qəbul etdikləri milyonlarla fərqli varlığa tapınırlar.

Şintoizm, Yapon tarixinin ən qədim dövrlərindən bəri var olmuş, yerli xalqın ənənələrində, dünyagörüşlərində, tapınmalarında, mərasimlərində hər zaman yaşamışdır. Ancaq bu dinin mənşələri ilə əlaqədar yazılı qaynaqları tapmaq mümkün deyil. Bunun ən əhəmiyyətli səbəbi isə Yaponların 5-ci əsrə qədər yazı yazmağı bilməmələridir. Bu tarixdə, Çin yazısı qəbul edilmiş və müxtəlif mövzularda ilk yazılı qaynaqlar yaradılmağa başlanmışdır. Şintoizmin başlıca yazılı mətni 8-ci əsrə aid "Kojiki" (Köhnə obyektlər kitabı)dır. Nihongi (Yaponiya xronologiyası) adlı digər kitab isə yenə eyni dövrlərdə Çin dilində qələmə alınmışdır.

6-cı əsrə qədər olan mətnlərdə Şinto adı heç keçməmiş, bu anlayış yaponlara görə ilk dəfə 6-cı əsrdə istifadə edilmişdir. Bundakı məqsəd 6-cı əsrin əvvəllərində Çin və Koreya yoluyla Yaponiyaya girən Buddizm ilə, yapon xalqının yerli dini olan Şintoizm arasında bir fərq meydana gətirmək idi. Beləcə iki batil din bir-birindən ayrıldı, yaponlar "Şintoizm" adıyla xatırlanan bir növ milli dinə sahib oldular. (Şinto sözü, Çin dilində iki söz olan "shin" və "tao"dan gəlir və "Tanrıların yolu" deməkdir.)

Yenə də Buddizmin və Konfutsiçiliyin, Yapon mədəniyyəti üzərində çox dərin təsirləri oldu. Xüsusilə də yaponların Koreya yarımadasındakı krallıqlarla əlaqəyə girmələri nəticəsində, Yaponiyada Çinin mədəni təsirləri görülməyə başlandı. Yapon şahzadələrin Buddizmi təşviq etmələri, Buddist məbədlər açmaları, Buddaya hörmət nümayişləri etmələri, 7-ci və 8-ci əsrlərdə bu dinin cəmiyyət içində sürətlə yayılmasına səbəb oldu.

Konfutsiçiliyin də Buddizm kimi Yapon İmperatorluğu tərəfindən dəstəklənildi, xalqa əxlaqi təlim olaraq təqdim edildi. Şintoizmin hər hansı əxlaqi prinsipi olmaması, Konfutsiçiliyin bu ölkədə sürətlə yayılmasında çox əhəmiyyətli faktor oldu. Bu iki batil dinin cəmiyyət üzərindəki təsirləri, yenə batil bir din olan Şintoizmin zaman ərzində güc itirməsinə səbəb oldu. Xalq Şinto məbədlərindən çox, buddist məbədlərə getməyə, ölülərini Buddist rahiblərin hüzurunda yandırmağa başladı.

Şintoizmin bu şəkildə yavaş-yavaş yox olmağa başlaması, müasir dövrdə Yaponiyadakı **“Şintoyu canlandırma və qədim ənənələrə dönmə”** hərəkətlərinin də başlanğıcı olacaqdı. İrəliləyən hissələrdə detallı olaraq araşdıracağımız bu hərəkət, Yaponiyanın işğalçı, imperialist bir imperatorluğa çevrilməsində və II Dünya Müharibəsində çox böyük məhvə məruz qalmasında əhəmiyyətli faktor meydana gətirəcəkdi.

## Batil Şinto ənənələri milyonlarla xəyali tanrıya sahib, atil bir din

Şintoizmin təməlini batil “kami” inancı meydana gətirər. Kami sözü “üst və yuxarı” mənalarını verər, Şintoizmdə isə “ilah, tanrı, tanrı tərəfindən və müqəddəs güc” mənalarında istifadə edilər. Şintoizmin bir başqa adı da “kami no michi” yəni “Kami yolu”dur.

Şintoistlər “kami”nin kainatın hər yerində olduğuna inanarlar. Onlara görə bir insan, quş, heyvan, ağac, daş, balıq, çiçək, dağ, okean, su qaynağı, qılınc, daraq ya da güzgü kimi bir obyekt, “kami” yəni “müqəddəs güclərə sahib xəyali bir tanrı” ola bilər (Allahı tənzih edərik). Batil Yapon inanışlarına görə 8 milyona qədər kami vardır. Bu səbəblə də Şinto “milyonlarla tanrılı din” olaraq təyin olunur.

Azğın Şinto inanışlarına görə kamilər pis, ya da yaxşı, hər şəkildə, ya da ölçüdə ola bilərlər. Doğular, evlənər, xəstələnər, ağlayar, qısqanar və ölərlər. Ancaq bütün bu xüsusiyyətlərinə baxmayaraq sıravi insanlardan üstün olaraq qəbul edilərlər. Hərbi müvəffəqiyyət əldə etmiş bir qəhrəman, xidmət edən bir rəhbər, yaponlar tərəfindən "kami" elan edilə bilər. Bu adam həmin andan etibarən özünə böyük hörmət edilən xəyali bir ilah olar.

Yaponiyada 100.000-dən çox Şinto tapınağı mövcuddur. Hər məbədin özünə xas kamiləri var. Kamilərin şəkilləri, ya da heykəlləri məbədlərdə olmasa da ruhlarının orada olduğuna inanılar. İnsanlar Şinto məbədlərindəki kamilərə guya ibadət məqsədiylə yeməklər, su, meyvələr təqdim edər, hörmət nümayişləri edərlər, buxur yandırarlar. Əlbəttə ki, bu boş inanclarının onlara heç bir faydası olmayacaq. Kitabın əvvəlki hissələrində də Allaha ortaq qoşmanın nə qədər böyük imani azğınlıq olduğunun üzərində dayanmış və Allahın Özünə şirk qoşanları çox böyük əzabla xəbərdar etdiyini xatırlatmışdıq. Allah Həcc surəsində bu şəkildə buyurur:

**... Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin; ancaq tək Allaha ibadət edənlərdən və Ona şərik qoşmayanlardan olun! Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar. (Həcc surəsi, 30-31)**

Ayələrdə xəbər verildiyi üzrə şirk qoşduqları insanları, ya da cansız maddələri özlərinə dost bilən, onlara güvənən, çətin anlarında onların köməyinə gləcəyinə inanan bu insanlar çox böyük qəflət içindədirlər. Çünki hər şeydən çox sevərək bağlandıqları bu bütlər də, nə özlərinə nə də bir başqasına kömək etməyə gücləri çatmayan aciz və möhtac varlıqlar, hətta bir çoxu cansız maddələrdir.

Ayədə bütlərə tapınan bu insanlar üçün xəbər verilən, **"sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar"**

**nümunəsi, bütlərə tapınmanın insanı nə qədər tək, çarəsiz və aldanmış hala gətirəcəyinin hikmətli bir ifadəsidir.** Allahın "iyrənc bir pislik" (Həcc surəsi, 31) olaraq təsvir etdiyi bu bütlər insanları Rəbbimiz olan Allahdan ayıraraq, boş bir xəyal arxasına sürüyərək aldadır.

Allah bir ayəsində "**...Şəriklərinizi çağırın!" – deyiləcək. Müşriklər onları çağıracaq, lakin şərikləri onlara cavab verməyəcəklər. Onlar əzabı görəcəklər. Yaxşı olardı ki, onlar doğru yolla getmiş olaydılar.**" (Qəssas surəsi, 64) şəklində buyurur və bütpərəstlərin sonsuz cəhənnəm əzabı ilə qarşılaşacaqlarını bizə xəbər verir. Şintoistlər bu həqiqəti düşünməli, içində olduqları səhvdən sıyrılaraq, bütün insanların Yaradıcısı, Rəbbi, sahibi və vəlisi olan uca Allaha yönəlib, Onun haqq dininə tabe olmalıdırlar. Müsəlmanlara düşən vəzifə isə, səhv içindəki bu insanlara din əxlaqını bir an əvvəl, bütün gücləriylə və təsirli şəkildə izah etməkdir.

## Şintoizm ölülərə tapınma dinidir

Şintoistlər ölülərin ruhlarının bir "kami" halına gələrək yaşayanlar arasında gəzdiyinə, məzarlarında qaldığına, uşaqları ilə nəvələrinin sevinclərinə, kədərlərinə ortaqlıq etdiklərinə, onlara göz qulaq olduqlarına inanarlar. Onlar ölərək guya bəzi fövqəltəbii güclərə sahib olmuşlar. Bu batil inanc, şintoistləri ağıllı bir insanın heyrətə düşərək dinləyəcəyi nağıllar uydurmağa şövq etmişdi.

Onlara görə ölülər təbiət hadisələrini idarə edər, doğumlara, ölümlərə nəzarət edər, bərəkət gətirər, mövsümlərin meydana gəlməsini təmin edər, fəlakətləri və qıtlıqları meydana gətirərlər. Bu azğın anlayış üzündən hər ailənin, hər kəndin, hər klanın, xalqın "öz atalarının ruhları" tərəfindən qorunduğuna inanarlar. Bəzi kamilərin də ağaclara, təbiətə, alətlərə, hətta mətbəxdəki qazanlara qədər hər şeyə can verdiklərinə inanarlar.

Bu səhv inanca görə şintoistlər, bəzi kamilərin xəstəliklərdə, bəzilərinin nəqliyyatda, bəzilərinin isə universitet imtahanlarında müvəffəqiyyətli olmaq üçün köməkçi olduğuna inanarlar. Yapon təxəyyülü, dünyanı yaxşı, ya da pis ruhlarla doldurmuşdur. Hər şintoist üçün öz kamisi kainatın və varlığın təməlidir.

Halbuki aciz insanların, daşdan, ya da taxtadan əşyaların bəzi gücləri olduğuna inanmaq çox böyük bir cəhalətdir. Kainatdakı hər işi nizamlayan sonsuz güc və qüdrət sahibi olan Rəbbimizdir. Səcdə surəsində də bildirildiyi kimi **"Göydən yerə hər işi dəyişdirib nizama qoyan Odur."** (Səcdə surəsi, 5) Bütün kainatı yoxdan var edən, canlı və cansız bütün varlıqları yaradan aləmlərin Rəbbi olan Allahdır. Ayələrdə bu şəkildə bildirilir:

**Sizin məbudunuz Tək olan İlahdır. Ondan başqa məbud yoxdur, Mərhəmətlidir, Rəhmlidir. Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 163-164)**

**Gördüyünüz göyləri dirəksiz yüksəldən, sonra da ərşə ucalan, müəyyən vaxta qədər göydə hərəkət edən günəşi və ayı əmrinə tabe edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini belə izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız. (Rad surəsi, 2)**

Ayələrdə işarə edildiyi kimi, Allahın varlığını və birliyini, kainatdakı və təbiətdəki böyük nizamı müşahidə edərək də anlaya bilərik. Bütün kainatda insan həyatını mümkün edən böyük tarazlıq və uyğunluğun var olmasıyla da təbiətdəki bütün canlıların ortaq dizaynın izlərini daşıması (məsələn hamısının eyni DNT quruluşuna sahib olması), varlıq aləminə sonsuz ağla sahib nizamın suveren olduğunu göstərir.

Məşhur molekulyar bioloq Michael Dentonun “Natures Destiny: How The Laws of Biology Reveal Purpose in The Universe” (Təbiətin qədəri: Biologiya qanunları kainatda bir məqsədin var olduğunu necə göstərir) adlı kitabında açıqladığı kimi, qalaktikalardan atomun quruluşuna qədər bütün kainata hakim ortaq bir məqsəd, ortaq bir dizayn vardır. Bu da tək bir Yaradıcının varlığını göstərər.

Bunun əksini düşünmək, yəni kainatda Allahdan başqa ilahlar olduğunu, hər birinin fərqli gücə sahib olduğunu xəyal etmək isə axmaqlıqdır. Allah Quranda bu şəkildə düşünən bütpərəstlərə (məsələn Şintoistlər kimi, milyonlarla xəyali ilaha inananlara) bu inanclarının nə qədər böyük aldatma olduğunu belə bildirir:

**Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı ibadətə layiq olan heç bir məbud yoxdur. Əks təqdirdə hər bir məbud öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır. (Muminun surəsi, 91)**

Ölülərinə saxta ilahlıq verən şintoistlər, bu ayədə bildirilən həqiqəti yaxşı düşünməli, öz zehinlərində meydana gətirdikləri xəyali “ilahlar qarışıqlığı”ndan xilas olaraq, Allahın açıq-aşkar varlığını qəbul etməli və Ona təslim olmalıdırlar.

Ölülər haqqında bu cür azğın inanışlara sahib olan şintoistlər ölüm, hesab günü, axirət həyatı, cənnət və cəhənnəm kimi mövzularda isə demək olar ki, heç bir açıqlama etməzlər. Sahib olduqları azğın inanışlar şintoistləri bu mövzularda da ağıl və məntiqə uyğun gəlməyən, axmaq tətbiqlərə itələmişdir. Batil Şinto yazılı mətnlərinə görə ölülərin rahatı "yaşayanların onlara yaxşı baxmaları, təqdim etdikləri yeməklər, məzarlarına qoyduqları təqdimatlar sayəsində" olar, "ölülərə yaxşı davrananlar xoşbəxt, pis davrananlar bədbəxt olarlar".

Əgər ölülərə lazımlı hörmət göstərilməz, tez-tez təqdimatlar edilməzsə, hədiyyələr alınmazsa ölülərin bunun intiqamını alacaqlarına inanarlar. Bu səbəblə də Şintoizmə inanan bir yapon, ölülərə hörmət göstərməyi, məzar ziyarətlərini, ölülərə təqdimatlar etməyi çox əhəmiyyətli bir vəzifə olaraq görər. Halbuki Şintoizmin digər inanışları kimi, ölüm və ölülərlə əlaqədar bu inanışı da yaponların atalarından götürdükləri böyük aldatmadır.

İnsanların meydana gətirdiyi heç bir ənənə və ya təlim, ölüm sonrası haqqında doğru məlumat verə bilməz; çünki heç bir insan ölüm sonrasını görüb geri dönmüş deyil. Ölüm və ölümdən sonrakı həyat haqqındakı həqiqət məlumatı öyrənə biləcəyimiz tək qaynaq, Allahın bizə çatdırdığı Qurandır.

Rəbbimiz həm (indiki vaxtda təhrifə məruz qalmış vəziyyətdə olan) Tövrat və İncildə, həm də təhrif edilməmiş tək İlahi kitab olan Quranda ölümlə birlikdə insanın dünya həyatının sona çatacağını və axirət həyatının başlayacağını xəbər verir. Reinkarnasiyaya inananların iddia etdikləri kimi insan yeni bir bədənlə dünyaya gəlməyəcək, şintoistlərin inandığı kimi öldükdən sonra ruhu dünya həyatında uzun illərlə yaşamayacaq. Allah Quranda bu şəkildə bildirər:

**Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm". Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların arxasında**

**dirilәcәklәri günә qәdәr bәrzәx hәyatı vardır. (Muminun surәsi, 99-100)**

Ayәdәki ifadәdәn dә aydın olduğu kimi, inkarçıların öldükdәn sonra tәkrar dünyaya dönmәlәri, boş bir dilәkdәn ibarәtdir. Başqa ayәlәrdә dә cәnnәtdәkilәrin "ilk" ölümdәn başqa bir ölüm dadmayacaqları belә bildirilәr:

**Onlar orada ilk ölümdәn başqa heç bir ölüm dadmayacaqlar. Allah onları Cәhәnnәm әzabından qorumuşdur sәnin Rәbbinin lütfkarlığı sayәsindә. Mәhz bu, böyük uğurdur.**

**(Duxan surәsi, 56-57)**

Allah inkar edәnlәrin ölümü haqqında isә bizә bir çox detal verir. Allahın varlığını, sonsuz axirәt hәyatını inkar edәn insanlar üçün ölümlә birlikdә böyük әzab başlayacaq. Bu kәslәrdәn birini kәnardan görәnlәr, yatağında sakit şәkildә öldüyünü sanarkәn o hәqiqәtdә çox böyük әzabın içinә girәcәk. (Doğrusunu Allah bilәr) Ölüm mәlәklәri, әzab verәrәk vә alçaldaraq onun canını bәdәnindәn çıxaracaqlar. Ayәlәrdә inkar edәnlәrin ölüm anı bu şәkildә tәsvir edilir.

**...Zalımları ölüm girdabında olduqda, mәlәklәrin dә әllәrini uzadıb: "Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlәr söylәdiyinizә vә Onun ayәlәrinә tәkәbbür göstәrdiyinizә görә bu gün siz cәzalandırılacaqsınız!" – dediklәrini bircә görәydin...**

**(Әnam surәsi, 93)**

**Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. Mələklər onların üzünə və yanlarına vura-vura deyirdilər: "Dadın yandırıcı odun əzabını! Bu, öz əllərinizlə etdiyiniz əməllərə görədir. Yoxsa Allah qullarına zülm edən deyildir".**

**(ənfal surəsi, 50-51)**

Başqa ayələrdə belə buyurulur:

**Xeyr, o ruh körpücük sümüklərinə yetişəcəyi zaman; "Ovsunu kim oxuyacaq?" – deyiləcəkdir. Can verən adam dünya həyatından ayrıldığını yəqin edəcəyini anlamışdır.**

**(Qiyamət surəsi, 26-28)**

Məhz, inkar edən insan artıq həyatı boyunca inkar etmiş olduğu o böyük həqiqətlə üz-üzədir. Ölümlə birlikdə, həyatı boyunca işlədiyi böyük günahın, inkarının cəzasını çəkməyə başlayacaq. Mələklərin kürəyinə vura-vura, canını ən dərindən sökərək almaları, özünü gözləyən sonsuz əzabın yalnız bir başlanğıcıdır.

Şintoizm, ölümdən sonrası haqqında olduğu kimi, bütün kainatın yoxdan var edilməsi haqqında da batil nağıl uydurmuşdur. Təhsilli, ya da təhsilsiz, işsiz, ya da peşə sahibi, cahil, ya da mədəni Şintoizmi qəbul edən bütün yaponlar, kainatın "İzanaqi" və "İzanami" adlı iki saxta ilah tərəfindən meydana gətirildiyinə inanarlar.

Ancaq nağıl bu qədərlə də məhdud qalmamışdır: Bütün Yapon adaları, Yapon xalqı və bütün kamilər, bu ikili tərəfindən "xüsusi bir yaradılışla" var edilmişdir. İzanaminin burnundan axan sudan okean üzərindəki fırtınaları nəzarət edən Susani (igid kişi "kami"), sağ gözündən düşən bir damladan

xəyali ay tanrısı Tsukinokami, sol gözündən düşən bir damladan da xəyali günəş tanrısı Ameterasu doğulmuşdur.[120]

Növbəti hissələrdə ətraflı olaraq araşdıracağımız fanatik Yapon milliyyətçiliyi də bu ağıl və məntiqdən kənar nağıldan güc tapır. Yaponların bu əfsanəsinin, nə qədər böyük axmaqlıq olduğunu izah etməyə belə ehtiyac yoxdur. Çünki çox sadə mühakimə qabiliyyətinə sahib olan bir uşaq belə, yuxarıda yazılanların məntiqdən kənar olduğunu anlaya bilər. Ancaq atalarından gördüklərinə kor-koranə bağlı olan və bu bağlılıqla qürur duyan bəzi yaponlar həqiqətləri görməkdən uzaqdırlar. Bir Yapon deyimi bu inanışı belə şəkildə açıqlayar:

*"Ataların xatirəsinə bağlılıq, bütün ərdəmlərin qaynağıdır və ölülərə qarşı tapşırıqlarını yaxşı şəkildə yetirən insan, yaşayanlara qarşı olan tapşırıqlarını da yaxşı şəkildə yerinə yetirəcək".*

Halbuki bu böyük aldatmadır və ağılını istifadə edən hər insan bunu anlaya bilər. Dünya üzərindəki hər mədəniyyətin, hər cəmiyyətin son dərəcə fərqli ənənələri olduğuna görə, "ənənələrə əməl etmə"nin insanları doğruya aparacağı necə düşünülə bilər? Bir Afrika qəbiləsində yetişən bir insan üçün izlənilməsi lazım olan doğru, atalarının azğın adətini davam etdirməkdir? Nazı bir atanın oğulu üçün doğru, atasının zalım, irqçi, cani ideologiyasını qorumaqdır?

Deməк olar ki, hamısı bir-biriylə ziddiyyət təşkil edən, son dərəcə fərqli əfsanələr, qaydalar, tabular ehtiva edən ənənələrin hansı insanı doğruya apara bilər? Bunların hansının doğru olduğu, daha doğrusu hər hansı birinin kiçik də olsa bir düzgünlük payı daşıyıb daşımadığı, necə təsbit ediləcək?

Bütün bu suallar, ənənələrə, ataların dəyərlərinə uyğun gəlmənin insanı heç bir zaman doğruya çatdıra bilməyəcəyinin ifadəsidir. Necə ki, Allah Bəqərə surəsində atalarının dininə gözü bağlı şəkildə inananlara bu həqiqət üzərində düşünmələrini nəsihət edir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

Hər şeyi yoxdan var edən Rəbbimizi inkar edən, heç bir şeyə güc çatdıra bilməyən daşdan ibarət bütlərin qarşısında səcdə edən insanların nə qədər böyük azğınlıq içində olduqları Nəml surəsində bu şəkildə xəbər verilər:

**...Allah yaxşıdır, yoxsa Ona şərik qoşduqlarınız? Göyləri və yeri yaradan, sizin üçün göydən yağmur endirən kimdir? Biz onunla gözəl bağçalar saldıq. Halbuki siz onların ağaclarını böyüdə bilməzdiniz. Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onlar haqdan yayınan adamlardır. Yeri məskən edən, arasından çaylar axıdan, üzərində möhkəm duran dağlar yaradan və iki dənizin arasında maneə qoyan kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onların əksəriyyəti bunu bilmirlər. Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz? Qurunun və dənizin qaranlıqlarında sizə doğru yol göstərən, küləkləri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi kimi göndərən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Allah onların qoşduqları şəriklərdən ucadır. Məxluqatı əvvəldən yaradan, sonra onu yenidən dirildən, sizə göydən və yerdən ruzi verən**

**kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var?" De: "əgər doğru deyirsinizsə, dəlilinizi gətirin". (Nəml surəsi, 59-64)**

# Şintoizmdə gözəl axlaq nəsihət edilməz

Yapon dininin tələbləri, "ataların ruhlarına hörmət, atalara və kamilərə hörmət və ibadət, ailəyə bağlılıq, müxtəlif mərasim və ayinlər, dövlətə və imperatora bağlılıq, vətənpərvərlik" şəklində yekunlaşdırıla bilər. Bunun xaricində heç bir əxlaqi qadağan, öyüd, sanksiya, ya da qayda yoxdur.

Yaponlar bunun səbəbi olaraq müqəddəs bir irq olduqlarını, öz təbiətlərinə uyğun gəldikləri üçün onsuz da doğru yolda olduqlarını söyləyərlər. Halbuki yaponların müqəddəs irq olduqları inancı çox böyük boş sözdür. Yaponların özlərini aldatmaq üçün uydurduqları bu aldatma daha əvvəl üzərində dayandığımız ağıldan kənar bir əfsanəyə söykənir.

Heç bir insan irqi, soyu, dili, ya da etnik mənşəyi səbəbiylə üstünlük iddiasında ola bilməz. Üstünlük yalnız insanın Allaha olan yaxınlığına görədir. Allah Quranda "**...Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır...**" (Hucurat surəsi, 13) şəklində buyurur. *(Bu mövzu haqqında ətraflı məlumat üçün baxın: "Hindistandaki mərhəmətsiz ictimai nizam" hissəsi)*

Yaponlar özlərini digər xalqlardan üstün, müqəddəs irq olaraq gördükləri üçün çox sərt və mərhəmətsiz bir qürur anlayışı inkişaf etdirmişlər. Bu anlayış, səhvə dözüm göstərməz. Belə ki, bir müvəffəqiyyətsizlik qarşısında intihar etmə Yapon xalqı arasında olduqca yayılmışdır. Əsrlərcə "harakiri" adı verilən qorxunc üsulla (yəni insanın özünü qılınc və ya bıçaqla öldürməsiylə) sürən bu tətbiq, dövrümüzdə də fərqli üsullarla davam etməkdədir.

Müasir Yaponiyada da universitet imtahanlarında müvəffəqiyyətli ola bilməyən, təhsil sistemindəki təzyiq səbəbindən sıxıntıya düşən,[121] şirkəti

müflisləşən bir çox yaponun intihar yolunu seçdiyi görülür. Yaponiya gənclərdəki intihar nisbətinin ən yüksək olduğu ölkələrin əvvəlində gəlir.[122] Yalnız 2000-ci il ərzində təxminən 33.000 adamın intihar etdiyi təsbit edilmişdir.[123] Bu vəziyyət din əxlaqından uzaq yaşamanın bir nəticəsidir.

Şintoistlər, İlahi dinlərin insanlara öyrətdiyi təvazökarlıq, səbir, təvəkkül, mərhəmət kimi əxlaqi dəyərlərə sahib olmamaları və atalarından götürdükləri əsassız qürurları səbəbiylə, bu batil ənənələri bir üstünlük kimi qəbul edirlər. Ölüm, axirət, cənnət və cəhənnəm inanclarının olmaması da bu kəsləri həm digər insanlara, həm də özlərinə qarşı son dərəcə mərhəmətsiz və tolerantsız olmağa vadar edir. Öz uydurduqları qürur anlayışına və digər insanların gözündəki imiclərinə o qədər böyük əhəmiyyət verirlər ki, müvəffəqiyyətsiz olaraq bilinməkdənsə ölməyi seçirlər.

Bunda, müvəffəqiyyətsizliyi pis bir əxlaq xüsusiyyəti olaraq görən, insanların zəiflik və qüsurlarına anlayış və mərhəmətlə deyil, qəzəb və dözümsüzlüklə baxan cəmiyyət quruluşunun da şübhəsiz böyük payı vardır. Şintoizmin az sonra daha ətraflı olaraq araşdıracağımız faşist mədəniyyəti, sadə bir səhvin belə ölümlə cəzalandırılmasına hökm edir. İntiharın bir ərdəm olaraq qəbul edilməsi, bu "nekrofilik" (ölü sevər) ruh halının bir nəticəsidir.

Halbuki intihar Allahın haram etdiyi böyük günahdır. Başqa insanları öldürmək kimi insanın özünü öldürməsi də İslam dininə ziddir. Allah "**...və öz nəfslərinizi öldürməyin...**" **(Nisa surəsi, 29)** ayəsiylə intiharı açıq şəkildə haram etmişdir. Bir insanın, hər nə səbəblə olursa olsun, özünü öldürməsi İslama görə qadağandır.

İslam əxlaqının yaşandığı bir cəmiyyətdə hər hansı bir mövzuda səhv edən, müvəffəqiyyətsiz olan insanlara isə pis gözlə baxılmaz, əksinə şəfqət və mərhəmətlə yaxınlaşılar. Əhəmiyyətli olan insanların müvəffəqiyyətli olub olmamaları deyil, gözəl əxlaqlı olub olmamalarıdır. Gözəl əxlaqlı olmayanlara isə gözəlliklə öyüd verilər.

# Şintoizmde günah və cinayət anlayışı yoxdur

Allah tarix boyunca göndərdiyi elçiləri və haqq kitablarıyla haramları və halalları bildirmiş, gözəl əxlaqı təsvir etmiş, insanların nələrdən çəkinmələri lazım olduğunu xəbər vermişdir. Hər insan dünya həyatında bir sınaqdan keçirilir. Bu həqiqət, haqq olan yol göstəricimiz Quranı Kərimdə xəbər verilir. Allah Quranda, "**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.**" (Mülk surəsi, 2) şəklində buyurur.

Hər insan Allahdan qorxub çəkinməli, Rəbbimizin əmrlərini diqqətlə tətbiq etməli, Allahın razı olacağı kimi bir əxlaq göstərməlidir. İnsana həm dünya həyatında, həm də axirətdə fayda verəcək olan budur. Başqalarını razı etmək üçün Allahın əmrlərinin xaricində rəftarda olan insan səhv yoldadır.

Şintoizmə inanan insanlar isə hər hansı bir günah anlayışına sahib deyildirlər. Etdikləri pisliklərin pis ruhların insanlar üzərində meydana gətirdiyi mənfi təsirlər nəticəsində meydana gəldiyinə, insanların da bu çirkdən tez-tez təmizlənməsi lazım olduğuna inanarlar. Məbədlərində bu təmizliklə əlaqədar müxtəlif mərasimlər edərlər. Duz, su, ya da odla edilən və "harae" adını verdikləri bu mərasimlərdə insanın həm fiziki, həm də ruhi olaraq təmizləndiyinə inanarlar.

Yaponların digər batil ənənələri kimi, "harae" də çox böyük aldatmadır. Çünki insanın mənəvi olaraq təmizlənməsi, duzla, odla ayinlər etməklə deyil, vicdanının səsini səmimi olaraq dinləyib, nəfsini pisliklərdən təmizləyib, Allaha yönəlməsiylə olar. Hər insan dünya həyatında bütün etdiklərinin qarşılığını axirət həyatında əskiksiz olaraq alacaqdır. Həyatlarını Allahın razı olacağı kimi keçirənlər, günah işləməkdən və çirkin əxlaqsızlıqlardan uzaqlaşıb, saleh əməllər edənlər Allahın razılığı, rəhməti və sonsuz cənnət nemətləri ilə qarşılıq tapacaqlar.

Allah bu kəsləri Quranda, "...**Əməlləriniz sayəsində varis olduğunuz Cənnət budur!"** (Əraf surəsi, 43) şəklində müjdələyir. Allahı inkar edən, öz əlləriylə etdikləri bütləri Rəbbimizə ortaq qoşan, günahda və üsyanda bir-birləriylə yarışan, çirkin əxlaqsızlıqların insanların arasında yayılması üçün səy göstərənlər də hesab günündə bütün etdikləriylə əskiksiz olaraq qarşılıq tapacaqlar. Ayələrdə bu şəkildə buyurulur:

**Günahın aşkarından da, gizlisindən də əl çəkin! Şübhəsiz ki, günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar. (Ənam surəsi, 120)**

**Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq.**

**(Nəhl surəsi, 88)**

**...Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: "Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!" – dediklərini bircə görəydin. (Ənam surəsi, 93)**

Ancaq bunu da təkrar vurğulamaq lazımdır ki, bu kəslər də tövbə edər və bütün etdiklərindən imtina etsələr şübhəsiz Rəbbimizi tövbələri qəbul edən, sonsuz bağışlayan, rəhmət sahibi olaraq görəcəklər:

**Müşriklər səni yaxşılıqdan öncə pisliyə (əzabın gəlməsinə) tələsdirirlər. Halbuki onlardan əvvəl neçə-neçə ibrətamiz cəzalar olub keçmişdir. Həqiqətən, Rəbbin insanların zalımlığına baxmayaraq onları (tövbə edənləri) bağışlayır. Sözsüz ki, Rəbbinin cəzası şiddətlidir. (Rad surəsi, 6)**

# Şintoizmin bütpərəst məbədləri

Şintoizmdə, insanın fərdi olaraq reallaşdırdığı məbəd ziyarətləri və professional Şinto rahibləri tərəfindən təşkil edilən mərasimlərə qatılması böyük əhəmiyyət daşıyır. Şinto inancında rahiblərin təməl vəzifəsi, bütün məbəd ayinlərini idarə etməkdir. Dini mövzularda yol göstərməsi, çıxış etməsi, ruhani öndər olaraq fəaliyyətlər etməsi gözlənilməzdir. Şintoistlərin dinlərindən anladıqları tək şey məbədlərə gedib, xəyali tanrılarına hörmət nümayişləri etmək, ayinlər, mərasimlər və yığıncaqlarla atalarından gördükləri ənənələri tətbiq etməkdir.

Matsuriyə, yəni Şintoya xas məbəd mərasimlərinə qatılanlar, əvvəl, müddəti bir neçə saatdan bir neçə günə qədər dəyişə bilən bir pəhrizlə və ümumiyyətlə duzlu suda yuyunaraq təmizlənərlər. Bundan sonra kamidən simvoluna, ya da yerləşəcəyi obyektə enməsi istənilər. Bu tamamilə boşuna bir çağırışdır. Bir daş, balıq, ya da dağ da ola bilən “kami”nin insanların köməyinə gələ biləcəyinə, onları eşidə biləcəyinə inanmaq ağıl və məntiqlə uyğunlaşmayan bir hərəkətdir.

Ardından kamiyə əhd olaraq yeməklər və müxtəlif hədiyyələr təqdim edilər. Rahiblər, həyatları boyunca heç bir zaman özlərini eşitməyən, özlərinə cavab verməyən bütlərinə dua edərlər. Tapınanlar, müqəddəs qəbul etdikləri ağacın budaqlarına əhdlər təqdim edərlər. Mərasim musiqiləri çalınar, rəqs edilər. Daha sonra əhdlər geri alınar və kamidən çəkilməsi istənər.

Birlik, bəzi vəziyyətlərdə kaminin daşına bilən bir heykəl, ya da bir maddənin içində olduğuna inanar və bir heykəli küçələrdə böyük izdiham halında gəzdirərlər. "Kami"nin keçdiyi yolların müqəddəs hesab edildiyinə inanarlar. Bəzənmiş dağ, məbəd ya da qayıq formasındakı avtomobillər, insanlar ya da öküzlər tərəfindən çəkilər yaxud çiyinlərdə daşınar.

Şintoistlər atalarından qalan bu batil ənənələri əksiksizcə tətbiq edərlər və həyatlarını bu azğın adətlərlə keçirərlər. Ancaq etdiklərini bir qurtuluş olaraq görən şintoistlər çox böyük aldatma içindədirlər. Çünki qarşısında ibadət etdikləri, çiyinlərində daşıdıqları, yeməklər təqdim etdikləri bu bütlərin onların hörmət nümayişlərini anlamaları, çağırışlarına cavab vermələri mümkün deyil.

Allah Furqan surəsində bu şəkildə buyurar:

**Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən Allah necə də xeyirxahdır! Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə oğul götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. Kafirlər isə Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə məbud götürdülər. (Furqan surəsi, 1-3)**

# Dövlət şintosu və yapon faşizmi

Uzaq şərq dinlərində ölkənin rəhbərinin şişirdilmiş olaraq təriflənməsinə istiqamətli axmaq bir ənənə vardır. Məsələn Çin İmperatoru “Batan Günəşin İmperatoru” olaraq təyin olunarkən, Yapon İmperatoru “Doğan Günəşin İmperatoru” olaraq xatırlanmışdır. Yapon İmperatorunun Çin İmperatorundan ən böyük fərqi isə müqəddəs bir varlıq olaraq qəbul edilməsidir.

Amaterasu, Şinto dinində xəyali günəş tanrısı olaraq bilinir. Və şintoizmdə Yapon İmperatorunun Amaterasunun soyundan gəldiyi istiqamətində batil inanış vardır. Bu səbəblə də imperatorun hər söylədiyi ilahi bir söz, hər toxunduğu əşya müqəddəs, hər istəyi gözü bağlı edilməsi lazım olan bir əmr olaraq görülmüşdür. Hətta İmperatorların yazdıqları şeirlər bir yerə toplanıb bir müqəddəs kitab olaraq qəbul edilmiş, imperatorun əmrində işləyən insanlar isə ilahi bir vasitəçi olaraq qəbul edilmişdir.

İmperatoru müqəddəs görən bu inanış, 6-cı əsrdə Buddizm və Konfutsiçiliyin ölkəyə girişiylə zəifləmişdi. Ölkədəki daxili qarışıqlıqlar da İmperatorun cəmiyyət üzərindəki təsirini azaltmışdı. 8-ci əsrin sonlarında Fujivara ailəsi iqtidarı ələ keçirdi, amma digər dərəbəyləri ona qarşı çıxdı və ölkədə böyük vətəndaş müharibəsi başladı. Əsrlər sürən vətəndaş müharibəsi sonunda dərəbəylərdən Yoritomo Minamoto 1192-ci ildə üsyankarların hamısını məğlub edərək ilk “Şoqun” (hərbi diktator) ünvanıyla başa keçdi və yeni bir rəhbərlik qurdu.

Beləcə tarixə “Şoqun rəhbərliyi” olaraq keçən xanədanlıq şəklindəki hərbi diktatorluq dövrü başladı. Yoritomo, Şoqun ünvanını, öz nəslindən gələnlərin digər dərəbəylərini idarə edə bilmələri şərtiylə qohumluq yoluyla keçən bir ünvan halına saldı. İmperator isə siyasi səlahiyyəti olmayan, yalnız toxunulmazlığı olan ruhani bir lider mövqeyini davam etdirdi.

# Dövlət şintosundan təcavüzkar Yapon milliyyətçiliyinə

17-ci və 18-ci əsr Yaponiyada Şintoizmi təkrar canlandırmağı məqsəd qoyan hərəkətlər doğuldu. Bunların ən əhəmiyyətlisi olaraq qəbul edilən "National Learning Movement" (Milli təhsil hərəkəti), şinto dinini Yapon cəmiyyətində mərkəzi bir mövqeyə gətirməyi, Buddist və Konfutsi mədəniyyətinin Yapon xalqı üzərindəki təsirlərini isə ən aşağı endirməyi məqsəd qoyurdu. Bu hərəkət Dövlət Şintosunun meydana gəlməsinin də qabaqcılı olacaqdı.

Bu vaxt 19-cu əsrin ikinci yarısına qədər şoqunlar tərəfindən idarə olunan feodal bir cəmiyyət quruluşuna sahib olan Yaponiya, 1867-ci ildə edilən Meiji inqilabı ilə bir daha imperatorluq rəhbərliyinə girdi. Daha sonradan Meiji adını alan Mutsuhitonun başladığı bu yeni imperatorluq dövrü II Dünya Müharibəsinin sonuna qədər sürəcəkdi. Meiji, Şintoizmin təkrar dövlət dini halına gətirilməsinin və tamamilə dövlətin idarəsi altına girməsinin də memarı idi.

"Dövlət Şintosu" olaraq adlandırılan bu milliyyətçi sistemin mərkəz nöqtəsi, imperatorluq xanədanı idi. İmperator həm bir "ata", həm mənəvi bir bələdçi, həm də bir dövlət başçısı idi. Dövlət Şintosu imperatorun bələdçilik etdiyi mərasimlərlə məbədlərdəki ayinlər üzərində sıxlaşırdı. Hökumətə bağlı Şinto Nazirliyi məbədlər üzərində idarə sahibi idi. Nazirlik Şintoizm xaricindəki digər dinlərə, təriqətlərə və hər cür axına qarşı məhdudlaşdırıcı qanunlar çıxardı.

1889-cu ildə hazırlanan konstitusiyada şinto məbədlərinə hörmət göstərmək bütün yaponların vətənlərinə qarşı vəzifəsi halına gətirildi. Sayları 100.000-ə çatan şinto məbədləri hökumət tərəfindən idarə olunur, şinto təhsili məktəblərdə zəruri hala gətirilir, İmperatorun guya müqəddəs mövqeyi müxtəlif qanunlarla siyasətçilər tərəfindən daha da gücləndirilirdi.[124]

Bu Quranda izah edilən Firon rəhbərliyini xatırladan təzyiqçi rejim idi. Necə ki, rejimin təpəsindəki imperatora da, eyni Firona olduğu kimi, xəyali müqəddəs xüsusiyyətlər ətf edilmişdi.

## İmperatora tapınma dini

Dövlət Şintosu, 19-cu əsrə qədər Yapon xalqının sahib olduğu Şinto inancıyla eyni şəkildə uyğun gəlmirdi. İmperatorluq və rəhbərlik hər gün yeni qaydalar meydana gətirir, guya müqəddəs kitablar şəxsən dövlət rəhbərliyi tərəfindən yazılırdı. Tokio Universitetində Yapon Mütəxəssisi olan və Meiji dövrünün son illərinə də şahid olan alim Basıl Hall Chamberlain 1912-ci ildə yazdığı "Yeni dinin icad edilməsi" (The Invention of a New Religion) adlı məşhur çalışmasında o dövrdə Yaponiyada yaşananlara diqqət çəkir.[125] Chamberlain çalışmasında, İmperatorluq və onun əmrində işləyən necə yeni bir din meydana gətirdiklərinin üzərində belə dayanır:

*Yaponiyaya və İmperatora tapınma yeni Yapon dininin adıdır və təbii ki, bir anda ortaya çıxmamışdır... Amma 20-ci əsrdəki milliyyətçi və ölkəsinə sadiq Yapon dini çox yeni bir dindir. Daha əvvəldən var olan fikirlər seçimdən keçirilmiş, dəyişdirilmiş, yeni formalara salınmış, yeni istifadə sahələri meydana gətirilmiş və yeni bir mərkəz nöqtəsi tapmışdır. Bu yalnız yeni bir din deyil, eyni zamanda tam olaraq da tamamlanmamış bir dindir. Rəsmi heyətlər tərəfindən (şüurlu, ya da yarı şüurlu olaraq) yavaş-yavaş yaradılır. Bu, heyətlərin və cəmiyyətin ümumisinin mənfəətlərinə xidmət etməsi üçün hazırlanmışdır...*[126]

Yazıçının da ifadə etdiyi kimi Dövlət Şintosu olaraq təyin olunan bu yeni din, 19-cu əsrin əvvəllərində yaradılmağa başlanmışdı. Ortada vəhyə söykənən

saf bir inanc olmadığı üçün, Şintoizm deyilən ənənələr və batil inanışlar bütünü, mövcud rejimin ehtiyac və məqsədlərinə görə asanlıqla yenidən şəkilləndirilə bilir və cəmiyyət də bunu qəribə qarşılamırdı. Beləcə Dövlət Şintosu, Yapon İmperatorluğunun gedərək yüksələn faşist meyllərinə vasitə halına gəldi.

Rəsmi dini təlim, Yapon imperatorunun və xalqının müqəddəsliyinə tez-tez istinad edirdi, yaponların dünyadakı bütün xalqlardan üstün olduqları fikrini aşılayırdı. Bu, heç bir təmələ söykənməyən, axmaq fikrin bir nəticəsi olaraq da xarici düşmənliyi ortaya çıxmışdı. Ancaq digər yandan xalqın Buddizmə olan marağı dövlət rəhbərliyini narahat edir və bunun mütləq ortadan qalxmasını istəyirdilər. Basıl Hall Chamberlain bu vəziyyəti belə izah edir:

*Sıravi xalq Buddizmə və aktual Buddist festivallara olan marağını itirmir, ölülərini hələ Buddist məbədlərdə yandırmağı seçirdilər. Hökumət heyətləri isə bunu dəyişdirmək istəyirdi. Yapon İmperatorunun birbaşa günəş tanrıçasının soyundan gəldiyi, onun dünyadakı yaşayan tanrı olduğu, hər kəsin İmperatora şərtsiz sadiq olması lazım olduğu istiqamətindəki Şinto doktrinası üzərində israr edirdilər.*

*Konstitusiya və cəmiyyət həyatını təşkil edən müxtəlif qaydalar İmperatorun xalqa qarşılıqsız təqdim etdiyi hədiyyələr olaraq görülürdü, fərdi haqlar olaraq deyil! Bu səbəblə də rəhbərliyindəki nazirlər və məmurlar (alt mərtəbə, ya da üst mərtəbə olsun) üstün, bəzilərinə görə fövqəltəbii, nüfuzun tətbiq edicisi olaraq görülməli idilər...*[127]

Yaponiya, daha əvvəl hər istiqamətiylə xaricə bağlı bir cəmiyyət ikən Meiji dövründə Qərb cəmiyyətlərindən informasiya və texnologiya ixracına başladı. Orduya və donanmaya böyük əhəmiyyət verib, Çini və Rusiyanı təxribata məruz qoyacaq böyük, amma eyni zamanda da təcavüzkar hərbi gücə sahib oldu.

İqtisadi mənadakı bu böyük inkişaf və ölkə içində güclənən milliyyətçi duyğular Yaponiyanın xammal və bazar axtarışı səbəbiylə işğalçı bir siyasət izləməsiylə nəticələndi. Şiddəti qanuni görən səhv bir vətənpərvərliyin inkişafı, yaponları başqa xalqların haqlarını tanımayan, təcavüzkar, faşist və imperialist anlayışa aparıb çıxardı.

Sırayla Çinlə (1894-95) və Rusiyayla müharibə etdilər (1904-05) və hər iki döyüşü də qazandılar. Ardından Koreyanı işğal etdilər (1910). 1930-cu illərdə Mançuriyanı işğal edərək Çinə hücum etdilər. Çinə qarşı icra etdikləri işğal əsnasında sıravi xalqa qarşı ağla sığmaz vəhşiliklər tətbiq etdilər.

1937-ci ildə Çinin Nanking şəhəri Yaponlar tərəfindən işğal edildi və şəhərdəki 300 min qorunmasız insan işgəncə, təcavüz və toplu qırğınların hədəfi oldu. II Dünya Müharibəsi illərində isə yaponlar, Malayziyaya, Sinqapura, Yeni Qvineyaya, Maneləyə və Cavaya hücum etdilər. Bu döyüşlər də Dövlət Şintosunun güclənməsində çox böyük rolu oldu. Chamberlain "Yeni Şinto dininin" zəfər siyasətlərini bu şəkildə təsvir edirdi:

*Qazanılan bütün zəfərlər İmperatorun və atalarının müqəddəs gücünə və üstün xüsusiyyətlərinə bağlanırdı. İmperator hər zəfərin ardından günəş tanrıçası üçün etdirilən məbədinə yeməklər, əşyalar təqdim edirdi. Eyni şey, digər Şinto məbədlərinə də xalqa milliyyətçilik aşılamaq üçün edilirdi. Çinlilərdən və ruslardan alınan qənimətlər məbədlərdə sərgilənir, bu şəkildə xalqa imperializmin müvəffəqiyyəti, şintonun və milliyyətçiliyin zəfərləri aşılanırdı. İmperatorluğun rəsmi müvəffəqiyyətlərini qeyd etmək üçün yeni festivallar edilir, mümkün olan mövzularda yeni əfsanələrlə inanışlar gücləndirilirdi.*[128]

"History of Religious Statism and Buddhism in Japan" (Yaponiyada dini dövlətçiliyin və buddizmin tarixi) başlıqlı çalışmada Yapon imperializminin "Dövlət Şintosu" üzərinə qurulduğu izah edilər. Məsələn Çinlə edilən döyüş əsnasında dövrün Baş naziri Hiranuma Kiichiro "Bütün dinlər bizim milli siyasətimizlə uyğun olmalıdır, İmperatorluğun yoluyla heç bir şəkildə üst-üstə

düşməməlidir" deyərkən, "Əks tətbiqlərin mütləq cəzalandırılacağını" da vurğulayırdı.

Çıxarılan qanunlarla hökumətin dini təşkilatlar üzərində tam səlahiyyətli olması zəmanət altına alınırdı. Ancaq bu səlahiyyətlər təcavüzkar milliyyətçiliyin qızışdırılması məqsədiylə istifadə edilir və təhsildəki tətbiqlərlə xalqa faşist və imperialist bir milli şüur aşılanırdı.[129]

Məktəblər, imperialist Dövlət Şintosunun təbliğat işlərinin ən əhəmiyyətli hissəsini meydana gətirirdi. Tarix imperializmin məntiqinə görə təhrif edilərək öyrədilirdi. Eyni şəkildə ordu və donanma da imperatoru hər şeyin üstündə görən bir təlimə tabe tutulurdu. Tək edilməsi lazım olan imperatora itaət idi və hər cür tənqid qadağan edilmişdi.

Tarix hökumət tərəfindən şəkilləndirilən bu yeni azğın dinə görə "təkrardan yazılır", mifoloji əfsanələrlə imperatorun mövqeyi gücləndirilirdi. Yaponları bütün xalqlardan üstün görən bu təcavüzkar və səhv dünyagörüşü bütün Yapon xalqının gözlərini sanki kor etmişdi. Bunun təsiriylə və bir tərəfdən də fanatik faşizmə qapılan Yapon generalların təzyiqiylə ölkə II Dünya Müharibəsinə sürükləndi.

## Dövlət Şintosunun sonu: İkinci Dünya Müharibəsi

İmperatorun, donanmanın və ordunun aldığı qərarlar tənqid oluna bilmir, bütün Yapon xalqı qeydsiz və şərtsiz itaətə çətinlik çəkməyə məcbur edilirdi. 1939-cu ildə Almaniya və İtaliya ilə hərbi ittifaq quran Yaponiya, 7 dekabr 1941-ci ildə Havay Adalarına basqın edərək Pearl Harbourdakı Amerikan donanmasını batırdı. Beləcə dünyanın ən böyük hərbi gücünə müharibə elan edən Yaponiya, öz sonunu da hazırlamış olurdu.

Müharibənin irəliləyən illərində əvvəl İtalyanların sonra Almanların müharibədə məğlub olmalarına və təslim olmalarına baxmayaraq yaponlar müharibəyə davam qərarı aldılar və çox ağır itkinlərə uğradılar. Amerikan təyyarələrinin 6 avqust 1945-ci ildə Hiroşima və 9 avqustda Naqasakiyə atdıqları atom bombaları II Dünya Müharibəsinin nəticəsini bildirdi. Yüz mindən çox insan həyatını itirdi, on minlərlə də yaralandı, şəhərlər xəritələrdən silindi.

Bu vaxt Sovetlər İttifaqı da Yaponiyaya döyüş elan edərək ayrı cəbhə açdı. Bu təzyiqə daha çox dözə bilməyib, 14 avqust 1945-ci ildə qeydsiz şərtsiz təslim olmağı qəbul edən Yaponiya ilə 2 sentyabr 1945-ci ildə rəsmi təslim olma razılaşması imzalandı.

II Dünya Müharibəsi Dövlət Şintosunun da sonu oldu. Yaponların ordu qurmaları, silah istehsal etmələri qadağan edildi və milli müdafiələri Amerikan ordusu tərəfindən təmin edilməyə başlandı. Amerika bütün Yaponiyanı işğal etdi. Yapon İmperatoru, tarixi çıxışını radiodan etdi və ölkəsinin Müharibəni uduzduğunu, özünün də "müqəddəs bir adam, ya da bir ilah olmadığını" (Allahı tənzih edərik) etiraf etdi. İmperatorluq ləğv edildi. Yaponiyanın yeni konstitusiyasıyla din ilə dövlət tamamilə bir-birindən ayrıldı. Dövlət Şintosunun yerini Məbəd Şintosu (Cinca Şinto) aldı.

İmperatorluq ailəsiylə bağları sürməklə birlikdə, Məbəd Şintosu dövrümüzdə siyasi funksiyalarından uzaqlaşdırılmış vəziyyətdədir. 1926-cı ildə taxta keçən İmperator Hirohito 7 yanvar 1989-cu ildə ölmüş, yerinə böyük oğlu şahzadə Akihito taxta keçmiş və 1990-cı il noyabr ayında tac geymişdir. Dövrümüzdə Yaponiyada imperatorluq yalnız xalqı təmsil edən bir simvol olaraq görülür.

Yapon İmperatorluğunun yaşadığı bu böyük məğlubiyyət, müxtəlif batil ənənələrlə dolu olan Şintoizmin boş bir inanc olduğunun tarixi dəlili olmuşdur. Nazilərin II Dünya Müharibəsində məğlubiyyəti, necə "min illik Alman Krallığı" qərargahı vəd edən irqçi və bütpərəst Nazi ideologiyasının boş olduğunu sübut etmişsə, irq üstünlüyü iddiasını qızışdıran əfsanələrə söykənən bütpərəst

Şintoizm dini də boşdur. Bu batil dinə inanan insanlar, Allahın xaricində tapındıqları ilahlar uğuruna, özlərini böyük məhvə aparırlar.

Allah, bu insanlara içində olduqları səhvi belə xəbər verər:

**De: "Allahdan başqa məbud saydıqlarınızı çağırın". Onlar nə göylərdə, nə də yerdə zərrə qədərcə olan bir şeyə də sahib deyillər. Onların göylərin və yerin yaradılışında heç bir şərikliyi yoxdur və onlardan Allaha yardımçı olanı da yoxdur.**

**(Səba surəsi, 22)**

Dövrümüzdə Yaponiyada isə din, yalnız yeni ildə məbədlərə axın edib bütlərə müvəffəqiyyət və xoşbəxtlik üçün dua etməkdən ibarətdir. Ancaq Yaponiyada, Şintoizm və Buddizm xaricində və ya onların yan qolları halında törədilmiş (Edissona tapınan elektrik dinindən (Denshinkyo)) cinsi orqana, ya da dağlara tapınan axınlara qədər 180.000 qədər irili-kiçikli azğın təriqət vardır.[131]

Bunların ən diqqət çəkənləri Tendai, Shinpon, Jodo Shin, Nichiren, Tenrikyo, Konkokyo, Secho No le və Omotoleyodur. İslam, bu müşrik birliklərin hər cür azğın anlayışlarını rədd edər və kainatın tək sahibi, Rəhman və Rəhm olan Rəbbimizə qulluq etməyi əmr edər. Allah Bəqərə surəsində bu şəkildə buyurur:

**Onlar, doğru yolu verib azğınlığı satın almış kimsələrdir. Amma onların ticarəti qazanc gətirmədi və özləri də doğru yola yönəlmədilər (Bəqərə surəsi, 16)**

# BATİL ÇİN DİNLƏRİ

Dünyanın ən qədim sivilizasiyalarından biri olaraq qəbul edilən Çin, 1.2 milyarda yaxın əhalisi, Avropa torpaqlarının hamısına bərabər sahə və sürətlə inkişaf edən iqtisadiyyatıyla dünyanın ən əhəmiyyətli ölkələrindən biridir. Çin 18-ci əsrin sonlarına qədər Qərb mədəniyyətindən uzaq, xaricə bağlı bir ölkə olmuşdur. Bu səbəblə Çin cəmiyyəti ənənəvi dinlərini və mədəniyyətlərini əsrlər boyunca qorumuş, ancaq 19-cu əsrdə ölkəyə gələn İngilis tacirlər cəmiyyət həyatında bir çox dəyişikliyə səbəb olmuşlar.

Xüsusilə də 1949-cu ildə Kommunist Partiyanın iqtidara gəlməsiylə birlikdə Çin çox böyük bir dəyişim yaşamışdır. İllər boyunca Çinin dəyişik bölgələrində hökumət qüvvətlərinə qarşı partizan müharibəsi aparan və “azad olmuş bölgə”lər meydana gətirən Mao Tse-Tungun militanları, dünyanın ikinci böyük kommunist inqilabını reallaşdırmış və ölkədə iqtidarı ələ keçirmişlər. Maonun rəhbərliyə gəlməsiylə birlikdə Çin bütün dünyaya qorxu salan bir dövlətə çevrilmişdir.

Mao öz xalqını da qırğınların, işgəncələrin, qıtlıqların, yoxsulluğun hakim olduğu bir cəmiyyət halına gətirmişdir. Maodan sonra iqtidara gələn rəhbərliklər isə bəzi islahatlar reallaşdırıb, iqtisadi mənada yaxşılaşmalar təmin etmiş olsalar da kommunist düşüncə quruluşu Çin cəmiyyəti üçün həmişə basqın bir şəxsiyyət olmuşdur.

Çindəki məskun salmış mədəniyyət, kommunizmin yanında ölkədə qəbul görən üç dinin təsiri altındadır: Buddizm, Konfutsiçilik və Taoizm.

# Çinin antik dini: Şamanizm

Şamanizm Çinin ən qədim dini olaraq qəbul edilir. Bu batil din, "Kam" adı verilən Şaman rahiblərinin ruhlarla əlaqə qurduqları və guya bu ruhlardan aldıqları güclə gələcəyi bildirmə, pislikləri dəf etmə, xəstəlikləri yaxşılaşdırma, pis ruhları çıxarma, ölümsüzlüyün yolunu tapma, həyatı uzatma kimi qabiliyyətlərə sahib olduqları istiqamətində səhv bir təməl üzərinə quruludur.

Şamanizm, Konfutsiçiliyin ilk ortaya çıxışına qədər Çin cəmiyyəti üzərindəki ən təsirli inanış idi. Ancaq Konfutsiçiliyin xalq arasında qəbul görməsi və dövrün rəhbərlikləri tərəfindən dəstək görməsi Şamanizmin cəmiyyət üzərindəki təsirini azaltdı.

Şamanizm və konfutsiçilik bir-biriylə tamamilə ziddir. Konfutsiçilik əxlaqi bir təlim kimi görünməklə birlikdə Allah və axirət inancını ehtiva etməyən batil bir dindir. Şaman inanışları "Kam"ların gücünə, caduya, ruhların insanlar üzərindəki yaxşı və pis təsirinə böyük yer verərkən, konfutsiçilik tam əks istiqamətdə bir həyat fikrinə malikdir. Konfutsiçilər "məntiq, həqiqət, nizam, idarə, tarazlıq" kimi dəyərləri prioritetli görür, şamanları isə nizam pozucu, cahil və anarxist bir birlik olaraq qəbul edirdilər.

Məhz bu səbəblə konfutsiçiliyin yüksəlişi Şamanizmin də enişi mənasını verdi. Ancaq Şamanizmin güc itirməsi, batil inanışların, cadunun və dünyəvi ölümsüzlüyü axtarma istiqamətindəki bihudə cəhdlərin ortadan qalxdığı mənasını vermirdi. Xüsusilə də bəzi karmalar, ayinlər və cadularla ölümün maneə törədilə biləcəyi istiqamətindəki axmaq inanc çinlilər arasında yayılmışdır. Bəzi Çin imperatorlarının da bu istiqamətdəki ağıl və məntiqdən kənar, azğın ayinləri dəstəkləmələri yeni bir batil dinin ortaya çıxmasına gətirib çıxardı.

2-ci əsrdə cadu, ruhlarla əlaqə, bitki və müxtəlif qarışıqlarla müalicə kimi batil tətbiqlərə yönələn bəzi axınlar müxtəlif Şaman liderlərinin ətrafında birləşdilər. Şeytan çıxarma kimi Şamanist tətbiqlərdə, ölümsüzlüyün

formulunu kəşf etmə kimi xəyali məşğuliyyətlərdə birləşən bu yarı fəlsəfi düşüncə “Taoizm” adı altında xalqa təqdim edildi.

Taoizmi və Çini şəkilləndirən digər bütpərəst inancları irəliləyən səhifələrdə araşdıracağıq. Ancaq bundan əvvəl Çinin antik dini olan və digər bir çox Asiyalı xalq tərəfindən də paylaşılan Şamanizmin necə səhv inanc olduğunu araşdırmaqda fayda vardır.

## Şamanizm: Göllərə, çaylara, dağlara azğınca dua

Şamanizm, miladdan əvvəlki min illərdə Sibir bölgəsində inkişaf edən və Orta Asiyadakı müxtəlif qövmlər tərəfindən mənimsənən bir növ bütpərəst dindir. Şamanizmin təməlində iki əhəmiyyətli anlayış yatır:

1) Təbiətdəki hər varlığın (daş, torpaq, su, ağac və s.) bir ruhu və iradəsi olduğuna, onun üçün bunlarla dialoq qurulması lazım olduğuna inanılar.
2) Bu dialoqu qura bildiyinə inanılan kimsə isə “Şaman”dır. Şaman, buxurlar, nağara ritmləri və ya rəqslər yoluyla təbiətdəki cansız maddələrlə danışar, onları öz ağlına görə razı salar və yenə öz ağlına görə müxtəlif xəstəlikləri yaxşılaşdırmağa çalışar.

Şamanizmin təməli, yuxarıda da ifadə edildiyi kimi təbiətdəki cansız varlıqların ruh və qüdrət sahibi olduqlarına inanılmasıdır. Məsələn yağışın buludların içindəki ruh tərəfindən yağdırıldığına və ya atəşin öz içindəki bir ruh tərəfindən yandırılıb davam etdirildiyinə inanılar.

Bu inanc əslində bir çox qədim bütpərəst dində mövcuddur və "animizm" olaraq bilinər. Animizm, qısaca, təbiətdəki hər varlığın ayrı bir ruh və ayrı bir ilah olduğu inancıdır. Şaman dini, animizmin Orta Asiyaya xas şəklidir. Bu mövzuda ətraflı araşdırmalar aparan Paulson adlı antropoloq, **"Şamanizm əslində animist bir ideologiyadır"** deyərək mövzunu yekunlaşdırır.[132]

Sibir və Orta Asiyadakı Şaman inanışlarını araşdıran və 1980-ci ildə kitab nəşr edən N. A. Alekseev, kitabının "Təbiətin və təməl güclərin ilahlaşdırılması" adlı hissəsində Şamanizmin qəribə inancını belə izah edir:

*Qədim Altay xalqlarının inanclarına görə, hər dağ, hər göl və ya hər çay özünə aid bir ruh gücünə sahib idi. Bu ruhun o bölgəyə və içində yaşayan heyvanlara hakim olduğu düşünülürdü. Yenə o bölgədə yaşayan və ya yalnız keçib gedən insanların da bu ruh tərəfindən qorunduğuna inanılırdı. Bu ruhların öz aralarında evlənib uşaq əldə edə bildikləri, üstəlik insan danışıqlarını anladıqları fərz edilər və bu ruhların məmnuniyyətini qazanmaq üçün müxtəlif dualar edilib qurbanlar kəsilərdi.*[133]

Görüldüyü kimi Şaman dini tam mənasıyla çox-ilahlı şirk dinidir. Bu dinə mənsub olanlar, saysız deyiləcək qədər çox ilahın varlığına inanılır və bu ilahları məmnun edə bilmək üçün dualar edib qurbanlar təqdim edərlər. Hər göl, hər dağ, hər meşə ayrı bir ilah olaraq görülür, hamısına ayrı-ayrı tapınılırdı.

İslamın təməli olan "La İlahə İlləllah" (Allahdan başqa İlah yoxdur) həqiqətinə tamamilə tərs olan bu batil inancın, ağla tamamilə zidd olduğu ortadadır. Təbiətdəki daşın, torpağın və ya suyun bir iradəsi olmadığı kimi, əslində hamısını aləmlərin Rəbbi olan Allah yaratmışdır. Bütün kainatın tək bir Yaradıcısı və tək bir Hakimi olduğunu qavraya bilməyən şamanlar isə, Allahdan başqa saysız ilahlar əldə edərək Ona şirk qoşmuş insanlardır.

Allah Qurani Kərimdə şirk inancının məntiqsizliyini belə açıqlayar:

**...Onunla yanaşı ibadətə layiq olan heç bir məbud yoxdur. əks təqdirdə hər bir məbud öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır.**

**(Muminun surəsi, 91)**

Diqqət yetirilsə, cahiliyyə dövrü Ərəbləri və ya tarixdə peyğəmbərlərin ünsiyyətdə olduqları bütpərəst qövmlər ilə Şamanizm inancı arasında böyük bənzərlikdir. Bütpərəstlər təbiətdə "göy tanrısı", "yer tanrısı", "bərəkət tanrısı", "döyüş tanrısı" kimi xəyali ilahlar olduğuna inanmış, sonra da bunların bir simvolunu öz əlləriylə edib bunlara tapınmışlar.

Şamanizmin tək fərqi, varlığına inanılan ilahlar üçün bir simvol (büt) edilməməsidir. Bunun yerinə "Şaman" adı verilən kəslər birbaşa göyə, yerə, dənizə, gölə və ya meşəyə yönəlib bunlara tapınıb dua etmişlər. Nəticədə hər iki təlim də, Allahdan başqa ilahlar olduğuna inandığı üçün, şirkdir.

Şamanizm inancı, ağla və məntiqə tamamilə zidd bir xurafat olmasına baxmayaraq nəsildən nəsilə köçürülmüş, hər nəsil bu inancı atalarından gələn bir ənənə olaraq mənimsəmişdir. Bir çox qövm və qəbilə, dağın, daşın və ya suyun ağıl və iradəsi olmadığını görmələrinə baxmayaraq, bunlara dua edib qurban təqdim etməyə davam etmişdir.

Əslində "düşünüb ağıl və məntiq süzgəcindən geçirmədən inanma" qəfləti, bütün şirk dinlərinin ortaq xüsusiyyətidir. Quranda hz. İbrahim ilə bütpərəst qövmü arasında keçən söhbət, buna açıq nümunədir:

**Onlara İbrahimin əhvalatını da oxu. Bir zaman o öz atasına və tayfasına: "Nəyə ibadət edirsiniz?" – demişdi. Onlar dedilər: "Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik". O dedi: "Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və**

**ya zərər verirlərmi?" Onlar dedilər: "Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük". (Şuəra surəsi, 69-74)**

# Şamanizmdəki ağıldan kənar inanclar

Şamanizmin təməlində təbiətdəki obyektlərin ilah olaraq qəbul edilməsi xurafatı yatar. Bu inanc, şamanları olduqca qəribə ibadətlərə sürümüşdür:

*Şamanlar, "dağ ruhları" (tag-azi) və "su ruhları" (shug-azi) olduğuna inanardılar. Hər qəbilənin özünə aid bir dağı və bu dağın bir ruhu olduğuna inanılar və bu ruhun qəbilə üzvlərini qoruduğu düşünülərdi. Hər üç ildə bir bu dağın üzərində qurban ayinləri təşkil edilərdi... Suların ruhu isə uzun qollu çılpaq bir qadın olaraq xəyal edilirdi... Bu qadın-ilahın rahatlaması üçün çay kənarlarına daşlardan və quru budaqlardan oturacaqlar düzəldilərdi. Daxmaya bənzəyən bu quruluşlar içinə su ilahını məmnun etmək üçün qiymətli daşlar, xalçalar və ya at tükləri qurbangah olaraq yerləşdirilərdi. Xüsusilə bir çayı keçmədən əvvəl (boğulmaqdan qoruması üçün) su ilahına bu kimi ayinlər edilərdi.*[134]

Şamanların su ilahı dedikləri xəyali tanrıya olan inancları, eynilə "bərəkət tanrısı"na inanan bütpərəstlərin inancına bənzəyir. Antropoloq S. M. Malinovskayanın ifadə etdiyinə görə, **Şamanlar bir yerdə balıq ovlamadan əvvəl, ovun bərəkətli olması üçün su ilahına bir hədiyyə və ya qurban təqdim edərlər.**[135]

Şaman dininin bir başqa axmaq inancı, digər bir çox bütpərəst dində də rast gəlinən "atəş külü"dür. Atəşin də bir ruhu olduğuna, bu ruhu məmnun etmək lazım olduğuna inanan şamanlar, atəşə qurban və ya hədiyyə təqdim etmək kimi ənənələrə sahibdirlər.

Lehtisalo adlı antropoloqun 20-ci əsrin ilk dörddə birində icra etdiyi araşdırmalara görə, şamanlar **atəşin canlı varlıq olduğuna inanırlar, hətta onu metafizik gücləri olan yaşlı bir qadın olaraq görürdülər.** Atəşin alovları bu qadının hərəkətləri olaraq aydın olurdu. Əgər biri atəşə kül atsa və ya üzərinə tüpürsə, atəşin hirslənəcəyi və sonra yanğın törədərək intiqam alacağından qorxulurdu.

Uşaqlara, süd dişləri töküldüyündə bu dişləri atəşə atmaları və "atəş nənə"dən yeni dişlər istəmələri tənbehlənərdi. Atəşdən eyni zamanda olduqca qorxulur və "əgər günahkaramsa atəş nənə məni cəzalandırsan" mənasında andlar edilirdi.[136]

Sibirdəki Şaman qövmlərdən biri olan Tuvanlar, "atəş bayramı" dedikləri bir bayram təşkil edirlər və bu ayinlərdə şamanlar atəşə qurbanlar təqdim edərək onun məmnuniyyətini qazanmağa çalışırdılar. Atəşə ümumiyyətlə bir quzu və ya buzov təqdim edilərdi. Atəşə nə qədər çox yağ təqdim edərlər və onu nə qədər çox bəsləyərlərsə, gələcək il atəş ruhunun özlərinə o qədər sağlamlıq və xoşbəxtlik verəcəyinə inanardılar.[137]

Yakut soyundan gələn şamanlar isə "Uat iccite" dedikləri atəş ruhunu gözlərində çox böyütmüşlər və onu eyni Atəşpərəstlikdəki kimi bir "atəş tanrısı"na çevirmişlərdi. Anatoliy Ignatevia Gogolev yaqutların həyatından bəhs etdiyi kitabında bu mövzunu belə izah edir:

***Yakutlar odun bütün danışıqları anladığını, ona edilən duaları eşidib cavablandırdığını düşünürlərdi.*** *Bu səbəbdən oda qarşı bir hörmətsizlik etmək son dərəcə təhlükəli hesab edilərdi.* ***Atəş canlı ilah olaraq qəbul edildiyi üçün, onu dəmir bir çubuqla deşmək çox böyük hörmətsizlik sayılardı.*** *Evdar qadınlar atəşi təmin etməyə böyük əhəmiyyət verərlər, bunun üçün bişirdikləri hər yeməkdən bir parçanı atəşə təqdim edərdilər.*[138]

# Şamanizmdə qadınların "Çirkli" sayılması

Şamanların bir başqa xüsusiyyəti, qadınları və qız uşaqlarını mənəvi olaraq "çirkli" varlıqlar olaraq görmələri idi. Sanki bir ilah olaraq görüb qurbangahlar təqdim etdikləri atəşin, qadınlar və ya qız uşaqları tərəfindən üzərinə basılıb guya "çirklədilməsini" qadağan etmişlərdi. Rusiya İnsan Elmləri Təhsil Universitetində (Russian Humanities Educational University) Nenet dilləri mütəxəssisi olan Prof. M. Ya Barmich kitabında bu mövzunu belə açıqlayar:

*Atəş külüylə əlaqəli Şaman tabuları, atəşə hörmət etmə və onu çirklətməmə məntiqinə söykənirdi.* ***Elə ki, insanların atəşin üzərinə suyu ani şəkildə tökmələri, atəşə doğru tüpürmələri və ya yerdəki tozları atəşə doğru süpürmələri qadağan edilmişdi.*** *Atəşi və yanan odunları metal obyektlərlə sərt şəkildə qarışdırmaq da böyük hörmətsizlik olaraq görülürdü.* ***Qadınların və qız uşaqlarının atəşin üzərinə basmaları da qadağan idi, çünki qadınlar çirkli olaraq görülür və atəşi çirklədəcəkləri düşünülürdü.***[139]

# Şamanizm: Cahiliyyə inancı

Görüldüyü kimi Şamanizm cahiliyyə inancıdır. Necə ərəblər cahiliyyə dövründə bütlərə tapınmışlar, Allahdan başqa varlıqlarda güc təvəhhüm edərək onları ilah saymışlarsa, şamanlar da xurafatlarla dolu inanc içində dağı, daşı, torpağı, atəşi ilah qəbul edərək azmışlar.

Cahiliyyənin təməl xüsusiyyətlərindən biri ağılla düşünməməkdir. Bütlərə tapınan və ya təbiətdəki varlıqlarda ilahlıq verən kəslər, bütün bunların

Allahın yaratdığı varlıqlar olduqlarını, öz başlarına bir iradələri olmadığını anlaya bilmədikləri, yəni ağıllarını istifadə edə bilmədikləri üçün, öz ağıllarına görə güclü gördükləri varlıqlara tapınarlar.

Atəşə və ya Aya və Günəşə tapınan insanların hamısı, bu ağılsızlıq içində qalmış və davranmışdır. Allah, Qurani Kərimdə yaradılanlara tapınan insanların bu ağılsızlığını, Günəşə və Aya tapınan qövmlərdən danışarkən belə xəbər verər:

**Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin. (Fussilət surəsi, 37)**

## Çin: Üç batil dinin hayat sahasi

Qədim dövrlərdə Şamanizmin batil inancları ilə yoğurulan Çin torpaqlarında, daha sonra hələ də hökm sürən üç ayrı din suveren olmuşdur: Konfutsiçilik, Taoizm və Buddizm. Ancaq bu üç fərqli batil inanış Çin mədəniyyəti içində qaynaşmış, bir-birlərinin ənənə və tətbiqlərini götürmüşdür. Bu səbəblə də Çin dinlərini araşdıran bir çox araşdırmaçı bu üç dini birlikdə ələ almağı seçərlər.

Bu dinlərdən biri də Buddizmdir. Hinduizmə reaksiya olaraq ortaya çıxan Buddizm zaman ərzində Çin torpaqlarına da girmiş, məskun salmış Çin dinləriylə çox köklü bir şəkildə birləşmiş və Çin Buduqmu adını almışdır. Buddizmin Budaya guya bir ilah kimi tapınmağı nəzərdə tutan inanışlarını, insanı yoxluq və səfalət içində yaşamağa təşviq edən batil tətbiqlərini İslam və Buddizm adlı kitabımızda detallı olaraq araşdırmışdıq.

Bu üç batil dinin qarşılıqlı əlaqələri, “üç din tək dindir” şəklindəki bir Çin deyimi ilə ifadə edilir. Çinlilərin böyük hissəsi bu batil inanc şəkillərinin hər birini digərinin tamamlayıcısı olaraq görərlər. Konfutsiçilik tamamilə cəmiyyət həyatını və dövlət rəhbərliyini tənzimləməyə istiqamətli ictimai bir nizam üzərində sıxlaşarkən, Taoizm ilə Buddizm ritualları, ayinləri, batil inanışları ilə insanın iç dünyasını, gündəlik həyatını, ruhi istiqamətini təməl alırlar.

Ancaq Çində çox sayda Buddist olmasına baxmayaraq, bu əsassız inanc şəkli təməldə Hindu elementləri daşıdığı üçün Çinlilər tərəfindən milli din olaraq qəbul edilmir. Bu səbəblə də Çin mədəniyyəti daha çox Konfutsiçilik və Taoizm ətrafında şəkillənər.

## Konfutsianizm Allahın varlığını, ölümü və axirət həyatını əhəmiyyətsiz edən əxlaqi nizam

Konfutsiçilik dövrümüzdə təxminən 200 milyon insan tərəfindən qəbul edilən, Çin mədəniyyəti içində köklü bir təmələ sahib olan ictimai sistemin adıdır. Yaponiya, Burma və Tailand kimi ölkələrdə də təsirli olan bu təlim, 4000 illik Çin tarixində yer alan müxtəlif batil dinlərin qaydalaşdırılmış və sistemləşdirilmiş şəklindən meydana gəlir.

Ənənələrə söykənən və bir çox axmaq təlimi ehtiva edən Çin dinləri hər növ xəyali ilaha, ataların ruhlarına, torpağın, suların, dağların, meşələrin və təbiətin bir ruhunun olduğuna inanma üzərinə inşa edilmişdi. Batil rituallar, tapınmalar, cadugərlik, falçılıq, kahinlik Çin cəmiyyəti arasında çox yayılmışdır. Ümumiyyətlə əkinçiliklə məşğul olan Çin xalqı bərəkət, qıtlıq, zənginlik və kasıblıq səbəbi olaraq gördükləri təbiətə cahil şəkildə tapınırdılar.

Həmçinin dünya üzərində meydana gələn hadisələri göydəki ulduzlarla əlaqədar gördüklərindən ulduzları da guya bir ilah olaraq qəbul edirdilər. Ölmüş atalarının ruhlarını isə hər şeyin üstündə tuturdular. Onların, insanların yaşayışları üzərində müsbət, ya da mənfi mənada təsirli olduqlarına və ətrafda görünmədən gəzdiklərinə inanırdılar.

Bütün bu bütlərin yanında indiki vaxtda Çin inanışlarında "Tien" adı verilən öz ağıllarına görə daha uca gördükləri bir ilah da mövcuddur. Çinlilər digər bütün xəyali ilahların Tienə bağlı olduğuna və onun əmri ilə işləməsinə inanarlar. Ancaq əvvəlki hissədə də ifadə etdiyimiz kimi bu inanış ilahi dinlərdəki tövhid inancına (bir və tək olaraq Allaha iman etmək) tamamilə ziddir, Quranda təsvir edilən bütpərəst cəmiyyətlərlə eyni xüsusiyyətlər daşımaqdadır.

Çünki tövhid inancına sahib olan iman sahibləri, tək güc və qüdrət sahibi olaraq Rəbbimizə təslim olar, yalnız Allahdan kömək istər, yalnız Allahdan qorxar və hər cür qüsur və nöqsanlardan münəzzəh olan uca Rəbbimizi bütün qəlbi ilə sevərlər. Bütpərəstlər isə Allahdan başqa varlıqlara müxtəlif güclər ithaf edər, onlara hörmət nümayişləri edərlər, onlardan kömək diləyərlər.

Bütpərəst Çin xalqı da uydurma ilahlarına tapınar, onlar üçün ayinlər təşkil edər, hədiyyələr və yeməklər təqdim edər, ehtiyaclarını onlardan tələb edərlər. Allah atalarının yolunu izləyib, şüursuzca şirk qoşan insanların vəziyyətlərini Quranda bu şəkildə xəbər verir:

**Onlar sizin və atalarınızın qoyduqları adlardan başqa bir şey deyildir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Onlar yalnız zənnə və nəfslərinin istəklərinə uyarlar. Halbuki Rəbbindən onlara doğru yolu göstərən rəhbər artıq gəlmişdir.**

**(Nəcm surəsi, 23)**

Bu batil ənənəvi dinləri təməl alan Konfutsiçilik, 2500 ildir Çində hökm sürür və demək olar ki, çinlinin həyatında ən əhəmiyyətli yol göstərici olaraq qəbul edilir.

Konfutsiçilik Allah qatından vəhy edilmiş haqq din deyil, çinli alim Konfutsi tərəfindən ortaya qoyulan əxlaqi bir sistemdir. Qərbdə Konfüçyüs[140] adıyla tanınan Kung Çeunun (e.ə. 551-479) ortaya qoyduğu bu sistem, dini mövzulardan, ölümdən, axirət həyatından heç bəhs etməz. Zaman ərzində əsli batilə söykənən bir din halını almış və Uzaq Şərqin bir çox ölkəsinə yayılmışdır.

Çinin Shantung əyalətində doğan Konfutsi, xristianlığın doğuşundan təxminən beş yüz il əvvəl, Chou xanədanlığı dövründə (e.ə. 1027-256) yaşamışdır. Onun əsas məqsədi Chou xanədanlığının ilk zamanlarına xas uydurma əxlaq dəyərləri təkrar canlandırmaq idi. Ona görə Chou xanədanlığının ilk illəri "qızıl çağ" idi. O dövrün ideallarını canlandırmanın, Çinin birliyini yenidən təmin etmənin tək yolu olduğunu düşünürdü.

Bu səbəblə yeni bir anlayış ortaya qoymaqdansa, əsrlərdir Çin torpaqlarında hökm sürən inanışları, ənənələri, mərasimləri bir ictimai sistem halına gətirməyə qərar verdi. Konfutsi yeni qurduğu bu sistemdə yalnız cəmiyyət nizamına ağırlıq verdi. Ailə içi əlaqələri, şagird-müəllim əlaqəsini və xalqın dövlətlə olan əlaqəsini müəyyən bir zəmin üzərinə oturtmağı hədəflədi.

Ancaq bu hədəfini reallaşdırarkən, keçmiş dinlərdə yer alan bir çox batil inancı da eynilə həyata keçirdi. Atalara tapınma, qurban etmə, qadınları ikinci kasta insan olaraq görmə bu batil inanışlardan bəziləri idi. Konfutsinin Çində yaşanan və vəhyə söykənən batil dinlərdən miras aldığı daha azğın təlimlər də mövcud idi.

Keçmiş Çin dinlərində axirət həyatı, hesab günü, tale, cənnət və cəhənnəm inancları olmadığı üçün Konfutsi də yeni meydana gətirdiyi azğın sistemdə Allahın ilahi kitablarında bildirdiyi bu həqiqətlərdən heç bir şəkildə bəhs etmədi. Özünə bu mövzularda sual soruşanlara cavab vermədi və heç bir izah etmədi.[141]

Halbuki Konfutsinin qurmağa çalışdığı sistemin müvəffəqiyyətə çatması mümkün deyildi. İrəliləyən hissələrdə daha ətraflı olaraq görəcəyimiz kimi

gözəl əxlaqa sahib ola bilmək ancaq Allahdan qorxmaqla mümkündür. Bir insanın gözəl əxlaqa sahib olması və bu mövzuda sabit olması üçün dərin Allah sevgisi ilə birlikdə güclü Allah qorxusu daşıması lazımdır.

Chou xanədanlığının ilk illərinin ən əhəmiyyətli xüsusiyyəti olan siyasi birlik və siyasi güc, xanədanlığı meydana gətirən şəhər dövlətləri arasındakı qarşıdurmalarla, bəzi dövlətlərin yayılan hücumlarıyla, köçəri birliklərin axınlarıyla böyük ölçüdə zərər görmüşdü. Konfutsinin şəhəri işğalçıların nəzarəti altına girmişdi.

Bu dövrdə Konfutsi kiçik bir izləyici birliyinin müşayiətində getdiyi saraylarda rəhbərlərə öyüdlər edərək səyyah kimi təlimçilik etməyə başladı. Qısa zamanda yığdığı maraq ilə əvvəl hakim oldu, ardından ədalət nazirliyində vəzifəyə gətirildi. Bu dövrdə dövlət mexanizminin işləməsində Konfutsinin batil cəmiyyət sistemi böyük güc qazandı.

Ancaq bir müddət sonra yerləşdirməyə çalışdığı səhv sistem bəzi kütlələrdə narahatlıq meydana gətirdi və vəzifədən çəkilmək məcburiyyətində qaldı. Bunun ardından həyatının sonuna qədər ətrafındakı insanlara batil əxlaq anlayışını izah etdi və e.ə. 478-ci ildə 74 yaşında öldü.

Konfutsinin ölümündən iki əsr sonra Çində Sung xanədanı quruldu. Sung xanədanı Çinin bir ucundan o biri ucuna qədər bütün əyalətləri idarəsi altına aldı. Ancaq Konfutsinin izindən gedənləri təmizlik etmə mövzusunda istədikləri qədər müvəffəqiyyətli ola bilmədilər. Buna görə, biri xaricində Konfutsinin bütün kitablarını yandırdılar. Həmçinin yüzlərlə Konfutsi təqibçisini də diri-diri yandırdılar.

Lakin Xan Xanədanı qurulunca Konfutsi təliminə qarşı çox hörmətli bir tutum mənimsəndi. Konfutsi arxasında heç bir yazılı mətin buraxmamışdı. Ancaq şagirdləri Konfutsiyə aid olduğunu iddia etdikləri sözlərdən ibarət olan əsərlər meydana gətirib Xan xanədanı dövründə *"Böyük məlumat"* və *"Orta yol doktrinası"* adlarıyla nəşr etdilər.

Xan İmperatorluğu zamanında Konfutsiçilik Çinin rəsmi dini halına gəldi və bu iki min il qədər davam etdi. Konfutsiçilik bu müddət ərzində çox böyük dəyişmələrə məruz qaldı. İmperator "Göyün oğlu" adıyla (Allahı tənzih edərik)

bu dinin baş rahibi olaraq qəbul edildi. Azğın göyə və yerə tapınma anlayışı da zaman ərzində təlimə daxil edildi. Əsrlər boyunca Çin İmperatorluğunun demək olar bütün təşkilatları, ənənələri və məskun salmış nizamı Konfutsinin batil əxlaqi anlayışına söykənmişdir.

1313-cü ildən 1905-ci ilə qədər olan dövlət vəzifə imtahanları Konfutsinin Dörd Kitab deyə bilinən əsərlərini oxumağı tələb etmiş, 1912-ci ilə qədər bu əxlaqi sistemin məktəblərdə öyrədilməsi zəruri olmuşdur. Bunun nəticəsində də yalnız dünya həyatına istiqamətli həyat sürən, ölüm, axirət və hesab günü kimi mövzular üzərində heç düşünməyən, xoşbəxtliyi azğın rituallarda axtaran nəsillər ortaya çıxmışdır.

Konfutsiçiliyin Çin cəmiyyəti üzərindəki təsiri 1911-ci ildə İmperatorluğun ortadan qalxmasıyla zəiflədi. Mao dövründə isə Konfutsiçilik böyük düşmən olaraq görüldü. Mao əvvəlcə ölkə içindəki bütün dini təşkilatları dövlət tərəfindən qurulan mərkəzi təşkilatlara bağladı. Ardından bu dini təşkilatları “Maoizm təbliğat mərkəzi” halına gətirdi. Mao, bütün ibadətxanaları dağıtdı, bütün dini kitablarını yandırtdı, konfutsiçiləri yaxın təqibata aldırdı.

Ancaq Maonun ardından gələn rəhbərliklərdə bu təzyiq yavaş-yavaş azaldı. Xüsusilə də son illərdə Çində Konfutsi batil prinsipləri təkrar həyatda yerini almağa başladı. Dövrümüzdə rəsmi olmamaqla birlikdə Konfutsiçilik Çində hələ cəmiyyət həyatındakı güclü mövqeyini davam etdirir. On milyon qədər mənsubu olduğu Yaponiyada da xalq tərəfindən çoxluqla qəbul edilir.

## Konfutsinin istədiyi cəmiyyət nizamı

Konfutsinin yazılı qaynaqlarda çatdırılan həyatı müxtəlif əfsanələrlə doludur. Bunun səbəbi onun yaşadığı dövrə aid hər hansı yazılı qaynağın olmamağı, bütün yazılanların şifahi olaraq çatdırılan rəvayətlərə söykənməsidir.

Əlimizdə, onun ölümündən sonra inkişaf etdirilmiş və bir çox yönü ilə təqibçiləri tərəfindən əldən keçirilmiş, təhrif edilmiş və yenidən təşkil edilmiş açıqlamalar vardır. Konfutsiçilik deyildiyi zaman hər kəsin ağlına bu aforizmlər gəlir. Konfutsiyə ətf edilən aforizmlərin ona aid olub olmadığını təyin etmək də mümkün deyil. Ancaq Konfutsiçiliyin təməl inanışlarını bu sözlərdən anlamaq mümkündür.

## Allah inancı və Konfutsi

Konfutsi haqqında yazılan əsərlərdə onun Allah inancına sahib olduğu, "Göy Tanrısı" olaraq adlandırdığı yaradıcı bir varlığa inandığı istiqamətində izahlara rast gəlmək mümkündür. Ancaq Konfutsiyə aid olduğu iddia edilən kitablarda, aforizmlərdə Allah inancından demək olar ki, heç bəhs edilmir.

Konfutsi insanlara ərdəmli bir fərd olmağı nəsihət edir, cəmiyyət nizamını pozan davranışları təsvir edir, insanlar arasındakı əlaqələri təşkil edən qaydalar gətirir. Bunun xaricində bir izah etməz, verilən suallara cavab verməz, hətta ölüm, tale kimi mövzulardakı sualları nəzərdən qaçırır. Bu anlayışı da "hər insanın doğuşdan yaxşı olduğu, bu səbəblə də ilahi bir yol göstəriciyə gərək olmadığı" istiqamətindəki azğın inanışa söykəyər.

Halbuki gözəl əxlaqa sahib ola bilmək ancaq Allahdan qorxmaqla və Onun əmrlərinə qəti olaraq boyun əyməklə mümkündür. Bir insanın gözəl əxlaqa sahib olması və bunu dayanıqlılıqla davam etdirə bilməsi üçün, dərin Allah sevgisi ilə birlikdə güclü Allah qorxusu daşıması lazımdır.

Allahdan lazımı qədər qorxa bilmək isə, Allahın böyüklüyünü, şanını və əzəmətini, sonsuz elm və qüdrətini, qulları üzərindəki qeydsiz şərtsiz güc və hakimiyyətini, dilədiyini reallaşdıra biləcəyini həmişə ağılda tutmaqla, Allahın vədinə, təhdidinə, hesab gününə, cəzasının şiddətinə, cəhənnəm əzabının sonsuzluğuna qəti olaraq iman etməklə mümkündür.

Bu iman, güclü bir Allah qorxusunu doğurar. Bu qorxu da insanın bütün rəftar və davranışlarını, hərəkət və danışıqlarını Allahın bəyəndiyi, məmnun olduğu əxlaq istiqamətində tənzimləməsini təmin edər. Allahdan qorxan insan Onun sərhədlərini qorumağa qarşı dərin həssaslıq edər.

Allahdan qorxmayan insanlar isə, Allahın bəyənmədiyi hər cür rəftarı göstərə bilərlər. Məsələn Konfutsiçiliyin qaydalarına tabe olan bir insan, fərdi mənfəətləriylə zidd düşdüyündə asanlıqla bu ictimai qaydaların tərsini edə bilər. Dürüst olması lazım olan yerdə yalan söyləyə bilər, ehtiyac içində ikən oğurluq edə bilər, rüşvət verə bilər. Çünki ona maneə törədən heç bir şey yoxdur.

Allaha hesab verəcəyini unutmuş bir insanın dürüstlük göstərməsi, insanlara qarşı fədakarlıq etməsi, ədalətli və namuslu olması, qısacası gözəl əxlaqlı olması üçün heç bir səbəbi yoxdur. Onun bütün əxlaqını yalnız öz fərdi ehtirasları və mənfəətləri şəkilləndirər. Və ölümlü insanlara gözəl əxlaq göstərmənin onun üçün bir mənası ola bilməz. Allahın qədrini gərəyi kimi təqdir edə bilmədiyindən, Allahın əzabı onun üçün daşındırıcı bir ünsür olmaz.

Allahdan qorxmadığı və qarşılıq görəcəyini düşünmədiyi üçün həddi aşmada, insanlara zalım rəftar göstərmədə heç bir sərhəd tanımaz və ola bildiyi qədər azğın xarakter sərgilər. Allahın əzəmətini və intiqam alacağını ağlına gətirmədiyi üçün rahatlıqla Allahın sərhədlərini aşar. Bu səbəblərdən ötəri Allah qorxusu olmayan insanlar, hansı ictimai sistem içində yaşasalar, hər cür günaha və əxlaqi pozuqluğa açıqdırlar.

Allah inancına və qorxusuna sahib olmayan insan üçün bütün dünya xaos və naməlumluqlardan meydana gələr. Hər şeyin təsadüflər nəticəsi reallaşdığını, ətrafında olub bitən hadisələrin də başıboş işlədiyini zənn edər. Bu vəziyyətdə heç bir zaman həqiqi təhlükəsizlik və hüzur duyğusu yaşaya bilməz. Çünki hər an başına bir şeylər gələ biləcəyini, onu üzəcək, məhv edəcək, zərər verəcək hadisələrin reallaşacağını düşünər.

Gələcəklə əlaqədar saysız narahatlıqları və qorxuları vardır. Məsələn amansız bir xəstəliyə tutula bilər, bütün pulunu itirə bilər, ya da sevdiyi bir insandan ayrıla bilər. Və ya heç ümid etmədiyi fəlakətlər özünün, ya da

yaxınlarının başına gələ bilər. Bütün bu ola biləcək hadisələri idarəsiz zənn etdiyi üçün hər birindən ayrı-ayrı narahatlıq duyar. Hər birini öz idarəsi altına almanın mümkün olmadığını da bildiyi üçün böyük çarəsizlik və ümidsizlik içinə düşər.

Ətrafında özünü əzməyə, məğlub etməyə çalışacaq saysız rəqibləri vardır. Bunlarla başa çıxa bilməsi mümkün deyil. İnsanların özü haqqında nə düşündüyünə qədər hər şeyi tək-tək hesablamaq məcburiyyətindədir. Bu, ona tərifsiz gərginlik və stress yaşadar. Halbuki yalnız Allahdan qorxan bir insan saydığımız bu qorxuların heç biri ilə ünsiyyətdə olmaz. Allah qorxusu və iman bu qorxuların hamısını ortadan qaldırar.

Hər şeyin sahibinin və yaradıcısının Allah olduğunu, hadisələrin Allahın idarəsində və tale istiqamətində inkişaf etdiyini, Özünə inanıb güvənən qullarını Allahın qoruyacağını bilmək iman edən bir insanı hər cür qorxu və asılılıqdan azadlığa qovuşdurar. Bu səbəblədir ki, hz. İbrahim, bütpərəst olan atasının batil inancını belə vurğulamışdır:

**Bir zaman o, atasına demişdi: “Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? (Məryəm surəsi, 42)**

# Yalnız dünya həyatına dair mövzular üzərində dayanmaq

Konfutsi yuxarıda bəhs etdiyimiz kimi ölüm, axirət həyatı, cənnət cəhənnəm inancı və tale kimi mövzulardan heç bəhs etməmişdir. Onun üçün əsas olan hər zaman cəmiyyət nizamı olmuşdur. Özünə ölümlə, qədərlə əlaqədar verilən suallara heç maraq göstərməmiş, bu mövzuları düşünmənin lazımlı olmadığını ifadə etmişdir. Ölüm haqqında şərh etməkdən hər zaman uzaq dayanmış, insanları Allah qorxusundan və axirət inancından uzaqlaşdıraraq yalnız dünyadakı həyatları üçün səy sərf etməyə yönəltmişdir.

Halbuki ölüm və öldükdən sonra insanın nələrlə qarşılaşacağı haqqında heç düşünməmək çox böyük səhvdir. Çünki heç bir insanın ölümdən qaçışı mümkün deyil. Hər canlı varlıq bir gün ölmək üzrə doğular. Bəziləri çox kiçik yaşda, bəziləri gənc, bəziləri də yuxarı yaşlarda bu dünyanı tərk edərlər. Kimsənin sahib olduğu malı-mülkü, sərvəti, mövqeyi, şöhrəti, qüvvəti və gözəlliyi ölümü özündən uzaqlaşdıra bilməz. Allah bir ayəsində bu şəkildə buyurmuşdur:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz.**

**(Ənam surəsi, 94)**

Hər kəs istisnasız ölümə boyun əymişdir və bundan sonra da əyməyə davam edəcək. Konfutsiçilikdə də olduğu kimi bəzi insanlar ölümü düşünməməklə qazancda olduqları yanılmasına düşərlər. İnsanlar arasında düşünülmədiyi müddətcə, ölümlə qarşılaşılmayacağı kimi batil bir inanc inkişaf etmişdir. Quranda bu vəziyyət aşağıdakı ayə ilə xəbər verilər:

**De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir" (Cümə surəsi, 8)**

Halbuki bu şəxslər, həyatda ikən ölümü düşünməkdən nə qədər qaçsalar, ölümün əsli ilə qarşılaşdıqlarında yaşayacaqları əzab da o qədər şiddətli olar. Bu dünyadakı qəflətləri nə qədər böyüksə, ölüm anında, qiyamət günündə və əbədi əzabdakı dəhşət, çətinlik və əzabları o dərəcə böyük olar.

# Atalara tapınma

Konfutsi ailə içindəki əlaqələri ənənəvi Çin dinlərindən yola çıxaraq yeni bir sistemə oturtmuşdur. Ancaq qədim Çin dinlərindən qaynaqlanan atalara hörmət mövzusundakı batil tətbiqləri də bu sistemin içinə daxil etmiş, mərasimlər və qurban ayinləri yeni qurulan sistemin əhəmiyyətli bir hissəsi halına gəlmişdir.

Konfutsiçilikdə ataların ruhlarına tapınma əhəmiyyətli bir yer tutur. Keçmişdə olduğu kimi indiki vaxtda da Çində evlərdə atalara aid bir bucaq var. "Əcdad lövhələri" adı verilən tabletlər bu bucaqda saxlanılar. Lövhələrdə ölmüş ataların adları yazılar. Çinlilər bu lövhələrin qarşısında qurban təqdim edər, əhdlər edər, toy mərasimləri burada edilər. Meyvələr, şərab, bişirdikləri yeməklər bu lövhələrin önünə qoyular.

Ataların ruhlarının buralarda istirahət etdiklərinə inanarlar. Bununla yanaşı hər yerli birliyin ortaq ataları üçün ildə iki dəfə ayinlər nizamlayarlar. Rəqslər və musiqilərlə atalarını xoşbəxt etməyə çalışarlar. Bu hörmət göstərilərinin səbəbi ruhların ancaq bu şəkildə xoşbəxt olacağına, dinclik tapa

biləcəklərinə olan batil inanclarıdır. Heç kim bu səhv hərəkətlərin ağıl və məntiqlə nə qədər ziddiyyət təşkil etdiyi üzərində düşünməz.

Özləri ilə ünsiyyət qurduğuna inandıqları ruhların heç bir gücləri olmadığını, insan həyatı üzərində heç bir təsirləri ola bilməyəcəyini ağıllarına gətirməzlər. Gözləri bağlı bir şəkildə, şüursuzca, əzbərdən bildikləri ritualları yerinə yetirərlər. Bir insanın şüurlu bir təhsil alması, elmi düşüncə ilə maraqlanması da eyni məntiqdən kənar ritualların tətbiqinə maneə törətməz. Çünki ataların ruhuna ibadət, bütün Çin xalqı üçün yerinə yetirilməsi lazım olan qəti əmr kimidir.

Konfutsi də guya şərəflənmək məqsədiylə adına ayinlər təşkil edilən ruhlardan biridir. Zəmanəmizdə Konfutsi üçün təşkil edilən ayinlər eyni şəkildə davam edir. Pekin İmperatorluq Universitetindəki bir məbəddə Konfutsinin lövhələri var. Və ildə iki dəfə imperator bu məbədə rəsmi heyət ilə gedərək yeməklər təqdim edir və hörmətini ifadə edən çıxışar edir.[142]

Atalara tapınma dərəcəsində hörmət və sevgi nümayişləri etmək Çin dinlərində bütpərəst ritual halını almışdır. Çin cəmiyyəti insanları guya müqəddəsləşdirib, xəyali bir ilah olaraq qəbul etmə istiqamətindəki inanışları atalarından miras almışdır və eyni azğınlığı əsrlərdir davam etdirir. Doğru olub olmadığını düşünmədən əsrlərdir bu mənasız ritualı tətbiq edirlər. Allah ayələrdə keçmiş qövmlərin də atalarının azğın tətbiqlərini davam etdirdiklərini bu şəkildə bildirir:

**Həqiqətən, onlar ata-babalarını azmış gördülər, özləri də tez-tələsik onların izini tutub getdilər. (Saffat surəsi, 69-70)**

Konfutsinin tətbiq etmək istədiyi əxlaqi sistem yuxarıda saydığımız batil xüsusiyyətlərlə yanaşı Quran əxlaqına tabe olan bəzi öyüdləri də ehtiva edir. Cəmiyyətdəki nizamı təmin etməyi, insanlar arasındakı əlaqələri sevgi və hörmət təməlinə oturtmağı, məsuliyyət şüurunu meydana gətirməyi və dürüst, çalışqan fərdlər meydana gətirməyi hədəfləyən Konfutsi, Çin cəmiyyətində

əxlaqi mənada bəzi anlayışların meydana gəlməsində əhəmiyyətli rol oynamışdır. Bunlardan bəziləri bu şəkildədir:

Ailə əlaqələrinə əhəmiyyət vermişdir. Uşağın valideynlərinə, valideynlərin də uşaqlarına sevgi və hörmət ilə yaxınlaşmasının əhəmiyyəti üzərində dayanmışdır.

Hər fərdin öz məsuliyyətini əksiksiz şəkildə yerinə yetirməsini nəsihət etmiş, məsuliyyət şüurunun cəmiyyətin irəliləməsindəki roluna diqqət çəkmişdir. Hər insanın vəzifəsini lazım olduğu kimi icra etməsinin ictimai problemlərin çox böyük bir hissəsini həll edəcəyini söyləmişdir.

Konfutsinin yaxşılıq anlayışının mərkəzində "yen", yəni xeyirxahlıq, ya da insan sevgisi düşüncəsi vardır. İnsanların bir-birlərinə yaxşılıq etmələrini, fədakarlıq etmələrini, sevgi dolu olmağı tövsiyə etmişdir.

Sədaqətin üzərində dayanmış, ailə içində, iş həyatında, dövlətlə əlaqələrdə və yoldaşlıqlarda sadiq olmağı tövsiyə etmişdir.

İnsan əlaqələrində ədalətlə davranmağı, ədalətsizliyə də ədalətlə cavab verməyi nəsihət etmişdir.

"İnsanın özünə edilməsini istəmədiyi şeyi başqalarına da etməməsi" istiqamətindəki tövsiyəsi Konfutsiçiliyin təməl xüsusiyyətlərindən birini meydana gətirmişdir.

Bu müsbət xüsusiyyətlər Konfutsiçiliyin bir əxlaq fəlsəfəsi olaraq qəbul edilməsində əhəmiyyətli rol oynamışdır. Ancaq ifadə etdiyimiz kimi, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə iman üzərinə bina edilməmiş və Allah qorxusu üzərinə qurulmamış bir fəlsəfənin insanları qurtuluşa aparması mümkün deyil. İnsanlar ancaq Allaha səmimiyyətlə iman edib təslim olduqlarında həm dünya həyatında, həm də axirət həyatında həqiqi xoşbəxtliyə çata bilərlər.

# Taoizm təbiətə və atalarına tapınan batil bir din

Əvvəlki hissədə də vurğuladığımız kimi Konfutsiçiliyin ortaya çıxışı ilə Çin cəmiyyəti üzərindəki təsirini itirən Şamanizm, bir müddət sonra Taoizm adı altında cəmiyyət içindəki yerini aldı. Taoizm əsrlərdir davam edən batil Çin mədəniyyətini təmsil edirdi. Necə ki, Konfutsiçilik dövlət heyətləri və təhsilli seqmentlər üzərində daha təsirli olarkən, Taoizm hər zaman geniş kütlələri içinə alan məşhur inanc oldu.

Taoizm dövrümüzdə Çin, Yaponiya, Şimali və Cənubi Koreyada yayılmış bir din olmasına baxmayaraq, tərəfdarlarının böyük əksəriyyəti Cənubi Koreyada yaşayır. Dünya üzərində təxminən 20 milyona yaxın taoist olduğu təxmin edilir. Bu say bəzi statistikalarda 95 milyona qədər yüksəlir. Çünki Çində müxtəlif dinlər bir-birinə qarışmışdır və taoistlərin tam olaraq sayını təyin etmək mümkün deyil.

Taoizm yalnız Uzaq Şərq ölkələriylə məhdud qalmamış, dünyanın dörd bir tərəfindəki insanlar üzərində təsirli olmuşdur. Ancaq bu təsir Taoizmi bir din olaraq qəbul etməkdən çox, Tao mədəniyyətinin müxtəlif elementlərini qəbul etmək şəklində olmuşdur. Məsələn akupunktur, bitki mənşəli müalicə, fal, meditasiya, astrologiya kimi Taoist təlimlərin Qərb mədəniyyəti üzərində dərin təsirləri vardır.

Taoizmin e.ə. 500-cü illərdə yaşadığı düşünülən, lakin həyatı haqqında heç bir məlumat olmayan, (hətta yaşayıb yaşamadığı belə şübhəli olan) Lao-Tse adlı bir adam tərəfindən qurulduğu qəbul edilir. Müxtəlif qaynaqlarda Lao-Tsenin bir arxiv məmuru olduğu, yaşlandığında qərbə köç etdiyi, "Tao və fəzilət" adlı kitabını isə bir gömrükçüyə yazdırdığı iddia edilər. Taoistler "Tao-teh-King" adlı bir mətni müqəddəs qəbul edərlər. İki hissədən ibarət olan bu mətn təxminən 5000 sözdür. Bu kitabın Lao-Tse tərəfindən yazıldığı qəbul edilir.

# Taoizm xurafatlara söykənən aldatmadır

Taoizm insanları sülhə, dincliyə və stabil həyata aparan bir yol olaraq təqdim edilər. Halbuki bu tərif həqiqətləri əks etdirməz. Çünki mistik Taoist anlayışlar və fəlsəfi şərhlərin insanı məqsədsizliyə, hərəkətsizliyə, boş məşğuliyyətlərə, cadu və fal kimi batil inanclara sürükləməkdən başqa bir nəticəsi yoxdur.

Əsrlərdir nəsildən-nəslə çatdırılan ənənələrin, Konfutsiçiliyin və Buddizmin təsiri ilə şəkil dəyişdirən Taoizmin tərifini etmək çətindir. Ümumi qəbul görən tanınan Tao insanın həyatı boyunca izləmək məcburiyyətində olduğu yoldur. Yəni müxtəlif prinsiplər üzərinə qurulan bir davranış şəklidir. Ancaq bu prinsiplər Allahın vəhyinə söykənməyən, insan istehsalı prinsiplərdir. Bu səbəblə də içində bir çox ziddiyyətlər, axmaqlıqlar, ağıl və məntiqlə tərs düşən izahlar var.

Taoistlər insanın, Tao olaraq adlandırdıqları kosmik müddətin bir hissəsi olduğuna inanarlar. İnsanın həyatdakı ən fundamental seçimi isə bu həqiqəti qəbul edib Tao ilə bir olmaq, ya da müqavimət göstərib Taonun xaricində qalmaqdır. Onlara görə insan Taodan var olmuşdur və Taoya geri dönəcək. Bu batil inanca görə Tao, hər şeyin təməli olan, varlığı var edən bir güc olaraq qəbul edilir.

Amma Taoizm sonsuz güc və qüdrət sahibi olan Allah inancına sahib deyil. Tao, dünyanı idarə edən səbəb olaraq qəbul edilir. Amma bir şüuru, ruhu, şəxsiyyəti olmayan bu mücərrəd "idarəçi səbəb"in, kainatdakı və təbiətdəki möhtəşəm tarazlıq, dizayn və nizamı necə təmin etdiyi sualı cavabsızdır. Taoistlər Allahın mütləq varlığını qəbul etməkdənsə, "Tao" kimi xəyali bir anlayışa inanırlar.

Yenə də Taoizmin mistik atmosferi bəziləri tərəfindən maraqlı qalırdı, bu səbəblə də Tao mədəniyyəti cəmiyyət içində asanlıqla yayılılırdı. Halbuki Taoizm tamamilə bəzəkli, fəlsəfi cümlələrdən ibarət olan, insanları ağıl və məntiqlə hərəkət etməkdən uzaqlaşdıran, batil inanclarla dolu həyata

yönəldən azğın inanışdır. Taoist şərhlər nə bir dəlilə söykənir, nə də ağla uyğun bir təmələ.

Məsələn Taoizmin bir başqa təməl inanışı "yen" və "yanq" sözləriylə yekunlaşdırılar. Taoistlər üçün bu iki söz çox şey ifadə edir. Onlara görə kainatdakı həyat yen və yanq adını verdikləri bir prinsip üzərinə quruludur. Yanq dünyada var olan, yen isə dünyada var olmayandır. Yen, dünyanı meydana gətirən nəfəs olaraq qəbul edilir. Soyuq, şeytani, qaranlıq və mənfi enerji olaraq təsvir edilər. Yanq isə isti, yaxşı, işıq və müsbət kimi prinsiplərlə təsvir edilər.

Taoist fəlsəfənin izah edildiyi əsərlərdə "Yen olmadan Yanq, Yanq olmadan Yen yoxdur və təbiətdəki hər şeyin Yen və Yanq olmalıdır" kimi cümlələrlə tez-tez qarşılaşılar. Halbuki sanki böyük bir məna daşıyırmış kimi deyilən bu cümlələr, Allahın bildirdiyi həqiqətlərə dair heç bir məlumat verməzlər.

Taoizm bütpərəst bir dindir və ağla gələ biləcək demək olar ki, hər şeyi ilah olaraq mənimsəyir. Qarşısında əyilib ibadət etdikləri hər xəyali tanrının Taonun bir istiqamətinin əks olunması olduğuna inanarlar. Məsələn Yu-huanq, taoistlərin ən əhəmiyyətli xəyali tanrılarındandır. Bütün digər tanrıların ona sanki "hesabat verdiyinə" inanarlar. Bu azğın inanca görə Yu-huanq hər il digər xəyali tanrıların performanslarını müşahidə edər.

Performanslarına görə ya yeni vəzifələrə yüksəldər, ya da cəzalandırar. Ancaq maraqlıdır ki, Taoistlər bu bütlərə də dua etməz, xəyali tanrıların bir problemi həll edə biləcəyinə də inanmazlar. Onlar problemlərin yalnız müşahidə, ruhlarla əlaqə, cadu, fal və meditasiya kimi üsullarla həll ediləcəyinə inanarlar. Bir Taoistin, əhəmiyyətli ruhların adlarını, rütbələrini və güclərini bilmək, meditasiya və obrazlama üsullarıyla onları istiqamətləndirə bilmək üçün təhsildən keçməsi lazımdır.[143]

Taoistlərin evlərində bir çox bütün təsviri şkaflar içinə yerləşdirilər. Ancaq bu bütlər hər taoistə görə dəyişiklik göstərər. Taoistlərin çoxu xəyali döyüş tanrısı Kvan-Ti ilə tacirlərin tanrısı qəbul edilən xəyali zənginlik tanrısı Sai Shinə tapınırlar. Hinduizm, Caynizm, Şintoizm kimi batil dinlərində görülən

müşrik anlayış Taoizmdə də köklü bir şəkildə yerləşmişdir. Daşdan, taxtadan heykəllərə ibadət etmənin, onlara təqdimlər etmənin nə qədər böyük azğınlıq və ağılsızlıq olduğunu kitab boyunca dəfələrlə açıqladıq.

Ancaq Allah Quran ayələrində bu bütpərəst anlayışdakı birliklərin tarixin hər dövründə var olduqlarını bizə xəbər vermişdir. Taoistlərin də bu birliklərdən bir fərqləri yoxdur. Allah Quranda israiloğulları ilə əlaqədar bir nümunə vermişdir. Hz. Musa ilə birlikdə Fironun qövmündən xilas olan israiloğulları səfərləri əsnasında bütə tapınan bir qövmlə qarşılaşmışlar və Musa peyğəmbərdən onlara eyni şəkildə bir büt düzəltməsini istəmişlər. Bu vəziyyət Quranda belə bildirilər:

**Biz İsrail oğullarını dənizdən keçirtdik və onlar öz bütlərinə tapınan bir qövmə rast gəldilər. Onlar dedilər: "Ey Musa! Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt". Musa dedi: "Həqiqətən, siz cahil bir tayfasınız. Şübhəsiz ki, bunların etiqad etdikləri əqidə məhvə məhkumdur, gördükləri işlər isə batildir" (Əraf surəsi, 138-139)**

Görüldüyü kimi israiloğulları cahil şəkildə bir rəftar göstərib, gözləri ilə gördükləri, qarşısında əyiləcəkləri, bəlkə də ətrafında azğınlıqla mərasimlər edəcəkləri bir ilah istəyirlər. Bu vəziyyət onların cəhalətlərinin, Allahın qədrini təqdir edə bilmədiklərinin və qavraya bilmədiklərinin göstəricisidir. Hz. Musa onlara həqiqəti açıqladığı halda peyğəmbərləri yanlarından ayrılan kimi dərhal özlərinə yeni bütlər düzəltmişlər. Bu, çox böyük bir azğınlıqdır. Necə ki, bu davranışlarının ardından peşmanlığa qapıldıqları, Quranda belə bildirilmişdir:

**Musanın ardınca qövmü öz zinət əşyalarından böyürən bir buzov heykəli düzəltdilər. Məgər bu heykəlin onlarla danışmadığını, onlara düz yol göstərmədiyini görmürdülərmi? Buna baxmayaraq**

**ona məbud kimi sitayiş edib zalımlardan oldular. Onların əlləri yanlarına düşdükdə (tutduqları işə görə peşman olduqda) və haqq yoldan azdıqlarını gördükdə: "əgər Rəbbimiz bizə rəhm etməsə və bizi bağışlamasa, əlbəttə, ziyana uğrayanlardan olarıq" – dedilər. (əraf surəsi, 148-149)**

Ancaq Allahın buzovu ilah edən və bundan sonra tövbə etməyənlərə verdiyi cavab belədir:

**Həqiqətən, buzova sitayiş edənlərə öz Rəbbindən bir qəzəb və dünya həyatında zillət üz verəcəkdir. Biz iftira yaxanları belə cəzalandırırıq. (əraf surəsi, 152)**

Yuxarıdakı ayədən də aydın olur ki, Allah Özünə şirk qoşanları dilədiyi təqdirdə bağışlamır. Çünki ayədə də ifadə edildiyi kimi Allaha şirk qoşanlar əslində yalan düzüb uydururlar. Bir və tək olan ilahın Allah olduğu açıq-aşkar bir həqiqət ikən, onlar saxta ilahlar əldə edirlər. Bu uydurma ilahların qarşısında bel büküb əyilmək isə Allaha qarşı işlənmiş çox çirkin bir günahdır.

Taoistlərin vəziyyəti də tarix boyunca yaşamış bütün bütpərəstlərlə eynidir. Onlar da xurafatlarla, batil təlimlərlə beyinləri yuyulmuş, içində olduqları böyük azğınlığı fərq edə bilməyən kəslərdir. Dünya həyatının həqiqətlərindən özlərini tamamilə abstraksiyalamış, ovsunlanmış bir şəkildə atalarının dinlərinə sarılmışlar.

Halbuki bu batil inanclarını bir daha sorğulamaları, ağıl və vicdanlarının səsini dinləyərək əsrlərdir davam edən təlimlərini mühakimə etmələri, ənənələrini izləməyi deyil doğru yolu tapmağı hədəfləmələri lazımdır və beləcə heç şübhəsiz Allahın varlığını, sonsuz qüdrətini və mərhəmətini fərq edəcəklər.

# Çinlilərin bihudə ölümsüzlük axtarışları

Şamanların ən böyük hədəflərindən biri dünya həyatında ölümsüzlüyə gedən yolu tapmaq, ovsunlar, tilsimlər və müxtəlif bitki qarışıqları ilə insanı ölümsüz etmək idi. Taoistlər bu azğın inanışı şamanlardan miras almışlar və ölümsüzlük axtarışından heç imtina etməmişlər. Martın Palmer, "World Religions, A History of Faith" (Dünya dinləri, inancın tarixi) adlı əsərində bu inanışı aşağıdakı şəkildə açıqlayar:

*Taoistlər rituallar və bəzi dietalarla insan bədənini ölümsüz bir bədənə çevirə biləcəkləri kimi bir inanışa sahibdirlər. Çin mifologiyasında fövqəlbəşər güclər və ölümsüzlük axtarışı çox əhəmiyyətli bir yer tutar. Çin əfsanələrində, filmlərində iştirak edən uçan, üstün güclərə sahib və ölməyən xarakterlər bu inanışları təmsil edərlər. Bəzi inanışlara görə bəzi yeməklər, ya da içkilər insanı ölümsüz edərkən, bəzilərinə görə gündəlik meditasiyalar insanı ölümsüz edər.*[144]

Məhz Taoizmin özü də bu sitatda gizlidir. Taoistlər əsrlər boyunca bitkilərlə etdikləri müxtəlif kimyəvi qarışıqlarla ölümsüzlük axtarışı içində olmuşlar. Reallaşdırdıqları bəslənmə üsulları, məşqlər, masaj şəkilləri həmişə bu axtarışın nəticələridir. Bəlkə bu işlər əczaçılıq sahəsində böyük inkişaflara vəsilə olmuşdur, ancaq onların bihudə ölümsüzlük axtarışları hər zaman üçün böyük hüsranla nəticələnmişdir və hər zaman da bu şəkildə nəticələnəcək.

Bu çalışmalarla insanın sağlamlığını qorumasının xaricində bir nəticə ala bilmələri mümkün deyil. Çünki Allah hər insanı bir əcəl ilə yaratmışdır. Dünya həyatında sınaqdan keçirilən insan mütləq öləcək. Allah ayələrdə bu şəkildə bildirir:

**Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük nəsib etmədik. Məgər sən öləcəksən, onlar həmişəlik qalacaqlar?! Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!**

**(Ənbiya surəsi, 34-35)**

Quranda tarix boyunca ölümsüzlüyə çatmaq, min il yaşamaq istəyən insanlardan da bəhs edilir. Bir ayədə bu şəkildə buyurulur:

**Sən onların həyata bütün insanlardan, hətta müşriklərdən də daha həris olduqlarını görəcəksən. Onlardan hər biri min il ömür sürməsini istər. Halbuki uzun ömür belə onu əzabdan uzaqlaşdıra bilməz. Allah onların nə etdiklərini görür.**

**(Bəqərə surəsi, 96)**

Zamanın irəliləməsinə baxmayaraq özünü yaşlanmağa və ölümə qarşı qoruya bilmiş tək bir insan yoxdur. Ölməyəcək tək bir insan da yoxdur. Çünki insan öz bədəninin və öz həyatının sahibi deyil. Yaşamağa qərar verib həyatını özünün başlatmamış olması, bunun bir göstəricisidir. Bir başqa göstəricisi isə, həyatını sona çatdıran ölümə müdaxilə edə bilməməsidir.

Həyatın sahibi, onu verəndir. Və O, dilədiyi zaman da o həyatı geri alar. Dövrümüzdən əvvəl yaşamış olanların da, indi yaşamaqda olanların da başlarına gəlmiş, ya da gələcək olan bir sondur ölüm. Kimsə özünü bu qaçınılmaz sondan qurtara bilməz. Quranda, bu mövzu aşağıdakı şəkildə bildirilər:

**Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.**

**(Ali İmran surəsi, 185)**

Bu dünya insanların təhsil yeridir. Allah insanlara dünyada müxtəlif məsuliyyətlər yükləmiş və onlara qorumaları lazım olan sərhədləri bildirmişdir. İnsan, bu sərhədləri qoruduğu, əmr edilənləri yerinə yetirib, qadağan edilən şeylərdən çəkindiyi ölçüdə ruhən yetkinləşər, ağılı və şüuru inkişaf edər. Başına gələn hadisələrə səbir etməsini, heç bir vəziyyətdə Allahın dinindən güzəştə getməməyi, hər vəziyyət qarşısında Allaha dönüb yönəlməyi, tək Ondan kömək istəməyi öyrənər.

Allahı gərəyi kimi təqdir etməyi, Ona qarşı dərin bir sevgi və hörmət dolu bir qorxu duymağı öyrənir, Allaha qarşı qatqısız bir iman və tam bir təslimiyyət qazanar. Allahın yaratdığı nemətlərin dəyərini həqiqi mənada anlar və bu sayədə Allaha qarşı olan şükrü, sevgisi, yaxınlığı və heyranlığı artar. Nəticədə, Allahın bəyəndiyi üstün ağla və əxlaq xüsusiyyətlərinə sahib ideal mömin halına gəlir. Bu şəkildə hər istiqamətiylə mükəmməl yaradılmış olan cənnətə girməyə layiq bir insan halına gəlir.

İnsan bu dünyada başına gələn saysız hadisələrlə sınanar və bu imtahandakı müvəffəqiyyəti nisbətində əbədi həyatında cəza və ya mükafata qovuşar. Heç kim öz imtahanının nə vaxt sona çatacağını bilə bilməz. Ölüm, Quranda bizlərə bildirildiyi kimi "**müddəti ifadə edilmiş bir yazıdır**". (Ali İmran surəsi, 145) Bu müddət bəzən uzun, bəzən də qısadır. Əslində ən uzun olaraq təyin etdiyimiz müddət belə nadir olaraq 70, ya da 80 ildən çox bilər.

Bu səbəblə, uzun həyat üçün planlar qurmaq yerinə insan, Allaha qarşı məsul olduğunu və hesab günündə bütün etdiklərinin hesabını verəcəyini bilərək, Quranın rəhbərliyində və onun göstərdiyi yola uyğun olaraq yaşamalıdır.

Əks halda, insanın sonsuz həyatı üçün bir hazırlıq etməməsi, bunun üçün özünə verilən bu tək və əhəmiyyətli fürsəti qaçırması və əbədi olaraq cənnətdən məhrum qalması özü üçün həqiqətən də çox ağrılı bir nəticə olar. Bu səbəblə dünyada boşa keçən hər saniyə həm çox böyük bir itki, həm də çox acı bir nəticəyə doğru atılan bir addım ola bilər.

İnsan həyatı boyunca qarşısına çıxacaq hadisələr üçün əvvəldən hazırlıq görər. Ölüm isə hər insanın qarşılaşacağı mütləq sondur. İnsan ölümlə qarşılaşdığında tək başına olacaq, ölümünün ardından da **"tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz" (Ənam surəsi, 94)** hesaba çəkiləcək. Əbədi qurtuluşu istəyən insanlara, Allah Quranda belə əmr edər:

**Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. Allahı unudan, buna görə də Allahın onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir. (Həşr surəsi, 18-19)**

Konfutsiçilərin vəziyyəti isə dünya həyatını yetərli görüb, heç ölməyəcəklərini sanan insanların vəziyyəti kimidir. Allah Quran ayələrində bu insanların vəziyyətini belə xəbər verir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 103-104)**

**Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür. (Rad surəsi, 26)**

**Bu dünyada kor olan kəs axirətdə də kor olacaq və üstəlik haqq yoldan daha çox azacaqdır. (İsra surəsi, 72)**

# Ölümsüzlük axtarışından cadugərliyə

Çinlilər çox qədim tarixlərdən bəri falçılığı, astrologiyanı, təlqin yolu ilə müalicəni və cadugərliyi tətbiq etmişlər. Ölümsüzlüyə çatmaq üçün meditasiya, nəfəs alma forması, dərman istifadəsi kimi bir çox üsul inkişaf etdirmiş, bütün bu tətbiqləri də batil bir din halına gətirmişlər.

Bəzi Taoist axınlar cadu, tanrıları dəvət etmə, ölülərə nəzir vermə, ziyafətlər vermə, külək və yağışı çağırma və pis ruhları qovub xəstəlikləri yaxşılaşdırma kimi sehrlə məşğul olmaqda sıxlaşmışdı. Onsuz da çinlilər ölümsüzlük axtarışlarını tibbi sahədən daha çox cadugərlik sahəsinə aparıb çıxarmışlar. Bunun xaricində "ölümsüzlük təriqəti" adı verilən axınlar da olurdu.

Taoculuğun içindən çıxan bu axının ən əhəmiyyətli qabaqcıllarından biri Chung Tao Linq (34-cü il)-dir. Tao Linq batil cadugərlik qolu olan bugünkü məşhur Taoizmin qurucusu olaraq qəbul edilir. Azğın Tao əfsanələrinə görə Linqin ruhlar ölkəsində ona görünən Lao Tsedən qılınc və digər alətləri təslim aldığı və bunların sayəsində ruh dünyası üzərində hakimiyyət qurduğu deyilər.

Bu kimi axınlar düşüncənin sıxlaşdırılması, nəfəs təlimi və nəzarəti, bədəni uzatma, duş, pəhriz, dərman istifadəsi, masaj və hətta havada sıçrama, bədən şəkli dəyişdirmə və görünməmə kimi üsullarla ölümsüzlüyə çatıla

biləcəyinə inanırdılar. Pekin Universitetindən Tanq Yie-Jie "Confucianism, Buddizm, Daoism, Christianity and Chinese Culture" (Konfutsiçilik, Buddizm, Taoizm, xristianlıq və Çin mədəniyyəti) adlı kitabında Çin mədəniyyətindəki ölümsüzlük anlayışını bu şəkildə təsvir edər:

*Əyalət döyüşlərinin sonunda (e.ə. 3-ci və 2-cü əsrlər) müəyyən tətbiqlərlə həyatlarını uzadıb ölməyəcəklərini iddia edən "ölümsüzlər" adlı insanlar çıxdı... İnsanlar necə ölməməyi bacaracaqdı? Taoist dindəki ideal, insanlar üçün həyatlarını uzatmaq və ölməməkdir, bu bədəndə yuxarı uçmaqdır, yəni ölümsüz olmaqdır... Əgər ölsəniz hər şey bitər, buna görə həyatı uzatmağı araşdırmaq üçün əvvəlcə çürüməyən bir bədən əldə etməlisiniz, beləcə can, ya da ruh dayanacağı bir yer tapmış olar...*

*Taoizm bu məqsədi bacarmaq üçün fərqli metodlara malikdir. Bunların ən fundamental olanı iki növdür: Xarici həb və daxili həb. Xarici həb müxtəlif mineralları istifadə etməkdən meydana gələr, məsələn dərmanları bir-birlərinə uyğun hala gətirmək üçün civə. Müxtəlif dərmanları götürərək insanın bədənini çürüməkdən qurtaracağını ümid edərlər, beləcə ruh öz mühitində sonsuza qədər davam edər. Əgər ayağınıza bürünc bir palçıq qoyar və çox uzun müddət ayağınızı suya soxsanız çürüməyəcəyinizi iddia edərlər. Əgər qızıl həbi tapsanız bir dəfə yedikdə bütün bədəniniz çürümədən sonsuza qədər yaşaya bilər...*[145]

*Demək olar bütün dinlər ölümdən sonra insana nə olacağı haqqında araşdırarlar. Amma Çindəki Taoizm yalnız "insan ölümdən necə qaça bilər" problemi ilə məşğul olmağı seçər. Taozimin təməl inancı "sonsuzda yaşamaqdır" və "bədənin əti üçün ölümsüz olmaqdır"... Buna görə həyat və ölüm sualına bir həll tapmaq, qurtuluşu və ölümsüzlüyü araşdırmaq və sonunda "sonsuzluqda yaşamaq" vəziyyətinə çatmaq Taoizmin xüsusiyyətlərindəndir. Taoizm bədəndəki ölümsüzlüyü müdafiə edər, yəni ruhla bağlanmış olan bədən ölümsüzlüyü bacarar. Bu şəkildə insan acı həqiqəti tərk edə bilər və ölümsüzlük dünyasına girər.*[146]

Halbuki bütün bu batil inanışlar çox böyük axmaqlıqdır. Daha əvvəl də vurğuladığımız kimi insanın dünya həyatında ölümsüzlüyü əldə etməsi Allahın diləməsi xaricində qəti olaraq mümkün deyil. Rəbbimiz hər insanı müəyyən bir əcəl ilə yaratmışdır və hər insan vaxtı gəldiyində mütləq öləcək. Heç bir dərmanın, heç bir müalicənin, pəhrizin, ya da başqa bir üsulun bu vaxtı dəyişdirməsi, reallaşması qəti olan ölümə maneə törətməsi mümkün deyil. Necə ki, Allah ayələrdə bu şəkildə bildirər:

**Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə. Onlara bir yaxşılıq üz verdikdə: "Bu, Allahdandır!" – deyər, bir pislik üz verdikdə isə: "Bu, səndəndir!" – deyərlər. De: "Hamısı Allahdandır!" Bu adamlara nə olub ki, az qala söz də anlamırlar? (Nisa surəsi, 78)**

**Bəli, Biz onlara və atalarına ömürləri boyunca xoş güzəran verdik. Məgər onlar Bizim, gəlib müşriklərə aid ərazini hər tərəfdən əskiltdiyimizi görmürlərmi? Doğrudanmı onlar qalib gələcəklər?! (Ənbiya surəsi, 44)**

## Taoizmin yenidən ortaya çıxması

Taoizmin tarixində bir çox yüksəliş və enişlər vardır. Məsələn daha əvvəl də ifadə etdiyimiz kimi Xan İmperatorluğu dövrünə qədər Taoizm mənimsənən bir inanc idi. Ancaq 6-cı əsrdə Buddizmin yüksəlişi ilə təkrar enişə keçdi. 8-ci

əsrdə isə İmperator Hsuan Tsunq tərəfindən təkrar mənimsənmişdir. Manchu Xanədanı isə Taoizmi azğın bir təlim olaraq elan etmişdir.

Çində Kommunist partiyanın rəhbərliyi ələ keçərməsinin ardından hər cür dini inanc da qadağan edildi. Yeni rəhbərlik bütün rahibləri tarlalarda işə məcbur etdi, məbədləri bağladı və bütün zənginliklərə əl qoydu. 1960-cı ildə sayları milyonlara çatan rahiblərin sayı 50.000-ə endi. 1966-1976 ilindəki Mədəniyyət İnqilabı əsnasında geriyə qalan Taoist miras da ortadan qaldırıldı. Bu dövrdə demək olar bütün Taoist məbədlər bağlanıldı, minlərlə məbəd dağıdıldı, heykəllərin 95%-i parçalandı. Beləcə Taoizm demək olar tamamilə ortadan qaldırıldı.

1982-ci ildə Tay Xiao-Pingin rəhbərliyə gəlməsinin ardından Taoizm və digər dini inanclar yavaş-yavaş canlanmağa başladı. 1980-ci illərdən sonra təkrar mütəşəkkil olmağa başladı və bəzi məbədlər yavaş-yavaş yenidən hərəkətlənməyə başladı. Dövrümüzdə də Tao mədəniyyəti dünyanın dörd bir tərəfində tərəfdar yığır.[147]

Mistik Şərq mədəniyyətinin meditasiya, yoqa, fal kimi bütün elementlərini içində toplayan Taoizm, irəliləyən hissədə detallı olaraq araşdıracağımız "21-ci əsrin Allah inancı olmayan yeni azğın din anlayışının" da əhəmiyyətli bir hissəsini meydana gətirir. Vatikanın "**Əsrimizdə xristianlığın ən böyük düşməni**" olaraq qəbul etdiyi "Yeni Çağ" adındakı bu batil axın dünya üzərindəki Allaha yönəlişə maneə törədə bilmək üçün materialist kütlələr tərəfindən qızışdırılan bir aldatmadan başqa bir şey deyil.

## Çin ənənələrindəki "vəhşilik səhnələri"

Kitab boyunca Uzaq Şərq dinlərinə aid bir çox azğın ənənələri, batil tətbiqləri araşdırdıq. Məsələn hindu ənənələrinin qadınları yandırmağı, qız uşaqlarını diri-diri basdırmağı təşviq etdiyini gördük. Ancaq Uzaq şərq dinləri bu saydıqlarımızdan daha əhatəli şiddət səhnələri ehtiva etməkdədir.

Bunlardan biri də Çinin Phuket bölgəsindəki "Vegetarian festivalı" əsnasında yaşananlardır.

19-cu əsrin əvvəllərindən bu yana hər il nizamlı olaraq reallaşdırılan bu qəribə festivalın məqsədi çinlilərin guya ilahlarına hörmət göstərmələridir. Bu axmaq "hörmət" nümayişləri isə, insanın baxmaqda belə çətinlik çəkdiyi qorxunc tətbiqlər ehtiva edir. Festivalın adının "vegetarian bayramı" olmasının səbəbi 9 gün boyunca ət və ət məhsullarının yeyilməməsi, yalnız tərəvəz və meyvə yeyilməsidir. Çinlilər bu şəkildə ruhlarının və bədənlərinin pisliklərdən təmizlənəcəyi istiqamətində batil bir inanca sahibdirlər.

Festival boyunca, "bədənlərinə xəyali tanrılarının girdiyi" yalanına müraciət edən şəxslər yanaqlarında, dillərində, ya da bədənlərinin müxtəlif hissələrində dəliklər açarlar. Daha sonra bu dəliklərə bıçaqlar, çubuq, müxtəlif metallar, ağac budaqları, maketlər kimi müxtəlif obyektlər soxarlar. Hər kəsin üzü qan içində qalar. Azğın ənənələrinə kor-koranə bağlanmış Çin xalqı isə bu vəhşi ritualları böyük bir heyranlıqla izləyər. Bu şəxslər küçələrdə gəzər, xalqın ikram etdiyi yeməkləri yeyərlər.

Çinlilərin axmaq inanclarına görə bu şəxslərə toxunanlar yaxşılaşar, müsbət enerji alar. "Trans" halındakı bu şəxslər özlərindən keçərək qəribə rəqslər edər, od üzərində yeriyər, iti qılınclardan düzəldilmiş uzun bir nərdivandan çıxar, qızğın yağları üzərinə tökər, tam 9 gün boyunca özlərinə müxtəlif işgəncələr edərlər. Bu işgəncələri isə guya tanrıları üçün etdiklərini, bu şəkildə ruhlarını və bədənlərini təmizlədiklərini söyləyərlər. Bu insanlar yanağına dəmir keçirərək ruhunu təmizləyəcəyini iddia edəcək qədər ağıl və məntiqdən məhrumdurlar.

Halbuki insan ruhu ancaq Allah qorxusunun gətirdiyi iradə ilə, gözəl əxlaqla və dərin imanla pisliklərdən uzaqlaşıb təmiz bir vicdana çata bilər. Əksinə istiqamətdəki batil inanclar isə Allaha iman etməyən insanların qaranlıq ruh hallarının təbii bir nəticəsidir. Çünki Allahdan qorxmayan bir insan üçün azğınlıqda heç bir sərhəd yoxdur. Belə bir insan dünya həyatında etdiklərindən ötəri hesab verməyəcəyini düşündüyü üçün özünə və ətrafındakı şəxslərə əziyyəti, cinayəti, vəhşiliyi və şiddəti məqbul görər.

Kitabın əvvəlki hissələrində də gördüyümüz kimi bu şəxslər üçün günah və cinayət anlayışı yoxdur. Bu səbəblə də azğın ənənələrinin əmr etdiyi hər batil inancı doğru olaraq qəbul edər və gözü bağlı şəkildə tətbiq edərlər. Halbuki batil həyata batan bu şəxslər bilməlidirlər ki, insan başıboş deyil. Bütün etdiklərindən məsuldur və etdiyi hər hərəkətdən, söylədiyi hər sözdən mütləq Allah qatında hesaba çəkiləcək. Rəbbimiz Qiyamət surəsində **"İnsan, öz başına və məsuliyyətsiz buraxılacağınımı sanır?"** şəklində buyurmuşdur.

# MATERİALİST VƏ BÜTPƏRƏST DİN : YENİ ÇAĞ

## Uzaq Şərq dinlərinin batil təlimlərini içinə alan ateist din: Yeni Çağ

Uzaq şərq dinlərinin Qərb cəmiyyətlərinə daşınması 19-cu əsrdə başladı. Bu dövrdə bir çox avropalı tədqiqatçı Uzaq Şərq ölkələrini ziyarət etdi, yazılan kitablar, səyahət qeydləri Uzaq Şərq mədəniyyətinin daha yaxından tanınmasını təmin etdi. Bu dinlərə aid yazılı mətnlərin tərcümələrinin edilməsi marağı daha da artırdı. Ancaq dünyanın bu mədəniyyətlə vizual mənada tanış olması 1960-cı illərdə başladı.

60-cı illər qərb cəmiyyətləri üçün bir dönüş nöqtəsi idi. İki böyük dünya müharibəsinin dağıdıcı təsirləri, Yaponiyaya atılan atom bombaları, bunun ardından gələn Vyetnam müharibəsi, kommunizmə qarşı başladılan haqlı mübarizənin bir paranoyya çevrilməsi, bir-biri ardına ortaya çıxan Watergate bənzəri qalmaqallar Amerikan gəncliyində qurulu nizama qarşı böyük reaksiya meydana gətirmişdi.

Avropa ölkələrində də vəziyyət fərqli deyildi. Xristianlıq dininin bütün təşkilatları da “qurulu nizamın” bir hissəsi olaraq görülür, bu səbəblə rəhbərliyə qarşı yaranan reaksiya Kilsəyə hücum olaraq da ortaya çıxırdı. Bu dövrdə qərb gəncliyinin əhəmiyyətli bir hissəsi və bəzi qərbli intellektuallar əsrlərdir davam edən xristian inancını tərk edib, yeni axtarışlara girdilər. Bir hissəsi ateist olmağı seçərkən, bir hissəsi də Uzaq Şərq dinlərini mənimsədi. Bu axtarışın altında yuxarıda da ifadə etdiyimiz “zidd olmaq”, “nizama qarşı çıxaraq diqqətləri üzərində toplamaq” kimi səhv həvəslər də yatırdı.

Bu yönəliş məşhur mədəniyyəti təyin edən kütlələr tərəfindən də (şüurlu, ya da şüursuz olaraq) istiqamətləndirilirdi. Bunların başında Beatles qrupu gəlirdi. Beatles üzvlərindən Corc Harrisonun Hindizmi mənimsədiyini açıqlaması ilə sayları milyonlarla ölçülən Beatles pərəstişkarlarında Hinduizmə istiqamətli meyllilik meydana gəldi. Yalnız əyləncə sektoru deyil, qərb cəmiyyətinin qabaqcıl bir çox aydın, elm adamı da Uzaq Şərq mədəniyyətini mənimsədilər və gənclər arasında yayılmasına dəstək oldular.

Ancaq bu şəxslərin verdikləri dəstəyin ardında daha fərqli bir səbəb yatırdı: Uzaq Şərq mədəniyyətinin materialist Qərb mədəniyyəti ilə uyğunlaşması. Uzaq Şərq dinlərini mənimsəyən, təbliğatını edən kütlələr ümumiyyətlə materialist mədəniyyətə sahib olan qərblilərdir. Xristian-yəhudi mədəniyyətinə bağlı olan kütlələr isə bütpərəst Uzaq Şərq dinlərinə qarşı hər zaman məsafəli olmuş, bu dinlərin batil inanışlarını hər fürsətdə tənqid etmişlər.

60-cı və 70-ci illərin hippi mədəniyyəti zaman ərzində təsirini itirdi və ictimaiyyətin gündəmindən çıxdı. Ancaq o dövrdə Qərb cəmiyyətini əhatə edən Uzaq Şərq bolluğu, cəmiyyət üzərindəki təsirini heç bir zaman itirmədi, inkişaf etdi, gücləndi. Bu dəfə yeni adla və daha mütəşəkkil şəkildə insanların qarşısına çıxdı.

Bu, Uzaq Şərq dinlərinin bütün batil inanışlarını bir yerə gətirən, Allah inancına sahib olmayan, insanı sanki ilahlaşdıran (Allahı tənzih edərik) azğın bir axın idi: bütün ilahi dinlərin ortadan qalxıb, dünyanın "tək din"də birləşəcəyi bir dövrün yaxınlaşdığı xəyalinə sarılan Yeni Çağ (New Age) Hərəkatı (Yeni Çağ hərəkatı, New Age Movement-NAM. )

Xristian tədqiqatçı Wilbur Bruinsma, "The New Age Movement and Entertainment" (Yeni Çağ hərəkatı və əyləncə) başlıqlı məqaləsində 60-cı illərdən dövrümüzə gələn bu müddəti müxtəlif nümunələrlə izah edir. 1960-cı illərin bütün sistemə üsyan edən gənclərinin sülhü, marixuana və LSD kimi narkotiklərdə axtardıqlarına, Hinduizmə və Zen Buddizmə (D. T. Suzuki adlı Yapon filosof tərəfindən qurulan, Buddizm ilə bəzi Yapon inanclarını birləşdirən bir axın.

Zen sözü Çin dilində meditasiya mənasını verir və bu kimi batil tətbiqlər Zen Buddizminin təməlini meydana gətirir) qurtarıcı olaraq sarıldıqlarına diqqət çəkir və 50 ildir inkişaf edib böyüyən bu hərəkatın günümüzdəki təsirini belə təsvir edir:

*1960-cı illərdə və bəlkə də 1970-ci illərdə, tarixdə daha əvvəl heç olmadığı qədər Şərq və Qərb mistisizminin sintezi yaşandı. Hinduizm, Zen Buddizmi və Çin Taoizmi Qərb mistisizminin radikal əsrarəngliyi ilə qarışdırılmışdı. Humanizmin yaxşı aşılanmış ifadələrinə baxılsa, mistisizmin təməl təlimləri ölkəmizdə, mədəniyyətimizdə və hətta dünyada güclü bir şəkildə kök salmışdır. Bu Yeni Çağ hərəkatıdır.*[148]

Bruinsmanın da ifadə etdiyi kimi Yeni Çağ hərəkati 1960-cı illərin hippi mədəniyyətinin davamı xüsusiyyətindədir. Ancaq bu hərəkatın əsas ortaya çıxışı daha çox əvvəlki dövrlərə, 18-ci əsrə qədər uzanır. Əvvəl Amerikada ardından Avropada qurulan və batil Uzaq Şərq mədəniyyətini Qərbli insanların həyatına daşımağı hədəfləyən teozofi ("Müqəddəs Ağıl" mənasını verən "teozofi" yunan dilində bir sözdür) dərnəkləri bu hərəkatın ilk çıxış nöqtəsidir.

## Teozofi dərnəyi

"Teozofi dərnəyi" (Theosophical Society) ilk olaraq, Uzaq Şərq dinlərinə (xüsusilə də Hinduizmə və Buddizmə qarşı böyük heyranlıq duyan Helena Petrovna Blavatsky və Polkovnik Henry Steel Olcott tərəfindən 1875-ci ildə Nyu Yorkda quruldu. Quruluşun məqsədi "köhnə və müasir dinlərin, fəlsəfələrin, elmlərin araşdırılması" olaraq ifadə edilirdi. Halbuki həqiqi məqsəd yalnız araşdırmaq deyil, bəzi köhnə təlimləri diriltmək idi.

Helena Blavatsky gizli təlimlərə, ruhlarla əlaqə qurduqlarını iddia edən inanışlara, caduya, mistisizmə, Uzaq Şərq dinlərinin batil rituallarına böyük maraq duyan, bu məqsədlə Hindistan, Tibet, Çin, Yaponiya kimi ölkələri bir çox dəfə ziyarət etmiş səyyah idi. Kitablarında da cadu, ilana tapınma, ruhlarla əlaqə, əlkimya kimi bir çox batil inanca geniş yer verirdi. Qərbdə gizli fikirlərin yerləşməsində böyük payı olan şəxslərdən biri olaraq qəbul edilən Helena Blavatsky, eyni zamanda özünü də fövqəlbəşər güclərə sahib insan olaraq tanıdırdı.

Tibetdəki Budist rahiblərdən və müxtəlif qurulardan (Quru sözü Sanskritçe hörmətli mənasını verər. Hinduizmdə ruhani lider, ruhani rəhbər mənalarında istifadə edilər) təhsil aldığını, guya özünün ruhlarla insanlar arasında vasitəçi olduğunu iddia edirdi.[149] Hətta bu azğın iddiaları səbəbi ilə Hind mətbuatı tərəfindən saxtakarlıqla günahlandırılmış, haqqında bir çox mənfi xəbər və hesabatlar nəşr olunmuşdu.[150]

Blavatskyın təlimlərində Allah inancı yer almır, insan yalandan ilahlaşdırılırdı. (Allahı tənzih edərik) Ona görə insan müqəddəs bir varlıq idi və cadu, ruhlarla əlaqə qurma, meditasiya, yoqa kimi üsullar istifadə edərək sahib olduğu gücü çölə çıxarmalı idi. Blavatskyın bu azğın inanıcları Teozofi dərnəyinin də təməlini meydana gətirmişdi.

Blavatskyın bu azğın inanışlarının hər biri ağıl və məntiqlə uyğun gəlməyən, böyük yalan idi. İnsanı və bütün kainatı yoxdan var edən aləmlərin Rəbbi olan Allahdır. Allah əzəli və əbədi olandır, sonsuz güc və qüdrət sahibidir. İnsan isə Allaha möhtac, aciz varlıqdır. İnsanı yoxdan var edən, ona həyatını, gücünü, ağlını və sahib olduğu bütün xüsusiyyətləri bəxş edən böyük rəhmət sahibi olan Rəbbimizdir. İnsanın Allahın xaricində heç bir gücü, iradəsi yoxdur. Allahın bənzərsiz yaradılışına qarşı nankorluq içində olanların vəziyyəti ayələrdə bu şəkildə xəbər verilər:

**Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: “Çürümüş sümükləri kim dirildə bilər?” De: “Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız”. Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, Biləndir. Bir şeyi yaratmaq istədikdə ona təkcə: “Ol!” deyər, o da olar. Əlində hər şeyin hökmü Olan Allah pak və müqəddəsdir. Siz ancaq Onun hüzuruna qaytarılacaqsınız. (Yasin surəsi, 77-83)**

İnsan Allahın “OL” əmri ilə var olmuşdur və Allahın təyin etdiyi tale üzrə həyatını davam etdirir. Allahın təyin etdiyi bir zamanda ölüm mələkləri ilə qarşılaşacaq və dünya həyatında bütün etdiklərindən ötəri hesab verəcək. Bu səbəbdən aciz və möhtac bir qul olan insanın öz səyi ilə fövqəlbəşər güclər əldə edə biləcəyi istiqamətindəki inanc çox böyük axmaqlıqdır, ağıl və məntiqlə ziddiyyət təşkil edən çox böyük yalandır.

Ancaq “insanı həyatın mərkəzinə qoyub, heç kimə məsul olmayan bir varlıq kimi göstərən” bu aldatma, ateist və materialist dünyagörüşünə sahib kütlələr tərəfindən əsrlərdir gündəmdə tutulur.

Blavatksyın təlimi də həqiqətdə bəhs etdiyimiz ateist təlimin fərqli versiyası idi. Necə ki, bu dərnəyin ideologiyasını şəkilləndirən bir başqa inanc isə “təkamül nəzəriyyəsi” idi. Teologiya və fəlsəfə mövzularındakı məqalələri ilə tanınan və St. Tomas Aquinas İlahiyyat fakültəsində tarix professoru olan Rama P. Coomaraswamy bir çalışmasında Blavatskyın qurduğu Teozofi dərnəyini bu şəkildə açıqlayır:

*O dövrün təkamüllü düşüncəsindən çox təsirlənən teozofistlər, ya ruhi varlıqlar, ya da ümumiyyətlə bilinəndən daha çox təkamülləşmiş şanslı insanlar olan "ustadların" varlığına inanırdılar. Teozofistlər ən başından bəri dinin bütün Ortodoks şəkillərinə və hamısının üzərində Roma Katolik Kilsəsinə qarşı idilər. Sonradan ezoterik, ya da hermetik xristianlıq və daha sonra uydurma Liberal Katolik Kilsəsi kimi müxtəlif təşkilatlar quraraq, xristianlıq təşkilatına həm içəridən həm də çöldən hücum etdilər.*[151]

Teozofi dərnəyinin ideologiyası, materialist və təkamülçü dünyagörüşü ilə eyniylə üst-üstə düşürdü. Onlar da Allahın varlığını inkar edir, kainatın yaranmasını təsadüflərlə açıqlayır, insanın həm fiziki həm də ruhi olaraq təkamülləşdiyini və təkamülləşmə müddətinin hələ davam etdiyini iddia edirdilər. Uzaq Şərq dinlərinin təməlini meydana gətirən qarışıq və reinkarnasiya inancını da bu uydurma təkamül müddətinin bir ifadəsi olaraq qəbul edirdilər.

İnsanın bir-biri ardına gələn yeni həyatlarının nəticəsində mükəmməlləşəcəyini, çox dərin qavrayışa, müqəddəs mövqeyə, hətta guya ilah mövqeyinə çatacağını (Allahı tənzih edərik) iddia edirdilər. (Batil karma və reinkarnasiya inancı üçün ətraflı məlumat üçün baxın: "Hinduizmin ölüm və axirət həyatına dair batil inancları" hissəsi). Halbuki bu heç bir məntiqli təməli olmayan, içi boş bir aldatma, azğın fəlsəfə idi.

Üstəlik bu axmaq iddia Teozofi hərəkatının və bu hərəkatı izləyən digər batil inancların da təməl dayağını meydana gətirirdi. Alan Morrison uzun illər boyunca Yeni Çağ təqibçisi olduqdan sonra xristianlığı qəbul edən və o zamandan bu yana Yeni Çağ axınının batil istiqamətlərini izah etmək üçün müxtəlif kitablar və məqalələr yazan xristian tədqiqatçıdır.

Morrison, "From Old Gnosticism to New Age, A Historical Analysis of the Mystery of Iniquity from the 6th Century to the Present" (Köhnə Gnostisizmden Yeni Çağa pisliyin sirrinin tarixi analizi) başlıqlı məqaləsində ilk olaraq Blavatskyın ortaya atdığı ruhi təkamül anlayışını bu şəkildə açıqlayırdı:

*Teozofi dərnəyinin Yeni Gnostizmə təməl qatqılarından biri, Blavatskyın əhatəli çalışmasında ortaya çıxan "ruhi təkamül" (spiritual evolution) anlayışıdır... Necə insan aşağı həyat formalarından təkamülləşdisə, eyni şəkildə güclü və kosmik bir orqanizmə doğru təkamülləşməyə davam edəcək. Hər fərd mükəmməlliyi tutana qədər minlərlə dəfə reinkarnasiya olacaq. Ruhi təkamül nəzəriyyəsini iddia edərkən Blavatsky tək deyildi. Bir yazıçının yazdığı kimi: "Bu fikir, Madame Blavatskydan sonra Teilhard de Chardin tərəfindən, daha sonra da Berqson və Nitsşe tərəfindən fərqli şəkillərdə ifadə edilmişdir.*

*Lakin 19-cu əsrin sonlarında insanları ilk dəfə bu qədər təsir edən yalnız Blavatskyın fikri idi. Xristian inancının zəiflədilməsindən ortaya çıxan boşluq yeni bir dini axın ehtiyacına gətirib çıxarmışdı. Blavatsky "ruhi təkamül nəzəriyyəsini", təbii seleksiya, ya da şans inkişafı təməlinə söykəməmişdi. O, insanlara təkamülləşməkdə olan kainata istiqamətli bir plan olduğunu söyləyirdi. Və bu plana görə, təkamüldəki bir sonrakı mərhələnin Qızıl əsr olduğunu iddia edərək onlara ümid verirdi.*[152]

Alan Morrisonun da ifadə etdiyi kimi Teozofi dərnəyi ruhun təkamülü anlayışıyla, sonradan gələn Chardin və Berqson kimi qatı darvinistlərə və ya Nitsşe kimi fanatik din əleyhdarlarına ilham qaynağı olmuşdu. Xristian tədqiqatçı John Carlo Rosales isə "A Closer Look at the New Age Movement" (Yeni Çağ hərəkatına yaxından baxış) adlı çalışmasında bu hərəkətin təməl doktrinasını bu şəkildə təyin etmişdir:

*Bu hərəkat tarix boyunca dünyanın insanların özlərinin uydurduqları ən böyük dinlərinin mistik yanlarını əhatə edir. Müasir mənada teozofi, bir çox ənənədən, lakin əvvəlcə hindu fəlsəfəsi və gizli elmlərindən alınan dini, fəlsəfi və elmi anlayışların sintezini etməyə çalışan müasir bir Gnostik (xristianlığın başlanğıcında ruhani sirləri bilmək iddiasında olan dini axınlar) hərəkatdir. Teozofistlər, Allahın və ruhun varlığı haqqındakı təməl xristian fikirlərini inkar edərlər.*

*Ruhun təkamülü Teozofi dərnəyinin təməl təlimidir... Teozofik mənada təkamül, davamlı olaraq yenidən doğulma yoluyla Kosmik Həyat tərəfindən icra edilən özünü fərq etmə, ya da ortaya qoyma müddətidir. Məqsədi, insanın və bütün varlıqların mükəmməlləşdirilməsidir... Qısaca, Teozofi dərnəkləri arasında ümumiyyətlə qəbul edilən 4 ana doktrina, panteistik mənada ruhun müqəddəs mənşələri, təkamül, reinkarnasiya və karmadır.*[153]

Teozofi dərnəyi kimi daha bir çox batil axının təməlini meydana gətirən ruhun təkamülü iddiası çox böyük yalandır. Onsuz da bu əsassız iddianı müdafiə edən kütlələrin də ortaya qoyduqları hər hansı bir dəlil, göstərdikləri hər hansı nümunə yoxdur. Tək etdikləri bu azğın iddianı bəzəkli cümlələrlə və fəlsəfi şəkildə izah etmək, insanların da bu xəyali dünyaya həqiqət kimi inanmalarını gözləyir.

İnsan ruhunun mahiyyəti haqqındakı həqiqətləri tək öyrənə biləcəyimiz qaynaq Qurandır. Rəbbimiz Quranda ruh haqqında bu şəkildə buyurmuşdur:

**Səndən ruh haqqında soruşurlar. De: "Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir". (İsra surəsi, 85)**

Ayədə də bildirildiyi kimi insan ruhun mahiyyəti haqqında çox az məlumata malikdir. Sahib olduğu məlumat isə Quran ayələriylə bildirilənlərdir. Ayələrdə bu şəkildə xəbər verilir:

**Bir zaman Rəbbin mələklərə dedi: "Mən başqa şəklə düşmüş qara palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən insan yaradacağam! Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 28-29)**

**Sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! (Səcdə surəsi, 9)**

**Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: “Mən palçıqdan bir insan yaradacağam. Mən ona surət verib Öz ruhumdan üfürdüyüm zaman ona səcdə edin!” Mələklərin hamısı birlikdə səcdə etdi. (Sad surəsi, 71-73)**

Bütün kainatı yoxdan var edən Rəbbimiz insana Öz ruhundan üfləmişdir. Təbiətdə ruhu olan tək canlı insandır. İnsan şüurlu, iradə sahibi, düşünə bilən, danışa bilən, ağlaya bilən, qərar verə bilən, mühakimə edə bilən, sevə bilən, zövq ala bilən, sevinən bir varlıqdır. Bütün bunlar isə bir ət və sümük yığınından ibarət olan bədəninin deyil, sahib olduğu “ruh”unun xüsusiyyətləridir.

Ruh ölümlə birlikdə bu dünyadakı insanların içində yaşadıqları ölçüdən ayrılıb fərqli ölçüyə keçərkən, geridə cansız bədənini buraxır. Cansız bədən dünyada çürüyüb yox olarkən, ruh sonsuz bir həyata başlayacaq. Bu səbəbdən ruh, batil inancların arxasında qaçan insanların iddia etdikləri kimi təkamülləşmir, ya da daha “müqəddəs bir mövqeyə” çatmır. (Allahı tənzih edərik)

Blavatsky 1891-ci ildə öldüyündə Annie Wood Besant adlı başqa bir hindu pərəstişkarı, dərnəyin başına keçdi. Annie Besant da caduya, gizli elmlərə, psixi təcrübələrə marağı vardı. Ateist şəxsiyyətiylə və bu mövzuda etdiyi alovlu çıxışlarla tanınırdı.[154] Besant, bir tərəfdən teozofik elmlər üzərində işləyib tamamilə boş sözlərə söykənən kitablar yazarkən, bir tərəfdən də dərnəyin ruhi təkamül iddiası ilə metafizik mövzular üzərində sıxlaşmasını təmin etdi.[155]

Bugün də onun yazdığı kitablar, bəhs etdiyimiz batil inancın arxasında gedən, cadu bənzəri axmaq məşğuliyyətləri olan bir həyat şəkli olaraq qəbul edən insanların ən çox oxuduğu kitablar arasında yer alır.

Besant, Hinduizm kimi bütpərəst və ağıl sahibi hər insanın asanlıqla qavraya biləcəyi məntiqsizlikdə bir dini hər cür tənqidə qarşı müdafiə etdi. "Central Hindu Colleges"i və 1916-cı ildə "Indian Home Rule Leagues"i (Hindi avtonomluğu dərnəyi) quraraq Hindistanın müstəqilliyi hərəkatına qatıldı. 1917-ci ildə isə Hindistan Milli Konqresinin başçısı seçildi. Teozofi dərnəyinin və Besantın Hindistandakı təsiri "Hinduism Today" qəzetində nəşr olunan bir məqalədə də ətralı olaraq izah edilmiş, Besantın Mahatma Qandi, Jawaharlal Nehru, Sarojini Naidu, C. P. Ramaswami Aiyer və daha bir çox hindu liderinə birbaşa təsir etdiyi ifadə edilmişdir.[156]

Teozofi dərnəyi, batil Uzaq Şərq dinlərinin, xristian inanclarını təməl alan qərb mədəniyyətinə nüfuz edib, bu mədəniyyəti degenerasiya etmələrində əhəmiyyətli rol oynadı. Yeni Çağ hərəkatı isə köhnə bir Teozofi dərnəyi üzvü olan Alice A. Bailey tərəfindən başladılmışdır. Bailey, Teozofi dərnəyinin qurucuları kimi ateist fikirlərini dəstəkləyən azğın Uzaq Şərq dinlərinə heyran olan, batil inanclara sahib bir adam idi. Djwal Khul adlı tibetli bir liderdən mesajlar aldığını söyləyir və bir kahin olduğunu iddia edirdi.

1919-1949-cu illəri arasında bu xəyali mesajları ehtiva edən 24 kitab yazdı. Bu kitablar ümumiyyətlə gizli elmlərinin, ezoterik təlimlərin, müxtəlif cadu üsullarının izah edildiyi, azğın inancların təbliğatının edildiyi işlər idi. Bailey yazdığı 2 cildlik "Discipleship in the New Age" (Yeni Çağ tərəfdarlığı) adlı çalışmasında isə başlatdığı yeni axının təməl dəyərlərini ortaya qoydu. Yeni Çağ hərəkatı, Teozofi dərnəyinin batil olan bütün təlimlərini qəbul edir, Hinduizm, Buddizm, Şamanizm, Taoizm kimi bütpərəst dinlərin azğın inanclarının yanında müxtəlif gizli elmləri də ehtiva edirdi.

Baileyin ardından Yeni Çağ təlimi sürətlə tərəfdar yığmış və qərb mədəniyyətinin əhəmiyyətli bir hissəsi halına gəlmişdir. Ancaq bu təlim ağıl, məntiq və sağlam fikir ilə uyğun gəlməyən müxtəlif axmaqlıqlar ehtiva edən, ilahi dinlərdə qadağan edilən fal və cadu kimi bir çox batil tətbiqi təşviq edən,

insanları dünya həyatının həqiqətlərindən uzaqlaşdırıb, xəyali bir dünyada yaşamağa sürüyən bir aldatmadır.

# Batil inanclardan yaranan bütpərəst din: Yeni Çağ hərəkatı

Uzaq Şərq dinləri ilə qərb mədəniyyəti arasındakı əlaqə ilk zamanlarda yalnız Teozofi dərnəyi üzvləri və materialist həyat fikrinə sahib kiçik kütlə ilə məhdud idi. Ancaq bu ateist hərəkat qısa müddətdə yeni batil dinə çevrildi. Bu din materialist kütlələr tərəfindən haqq dinlərin dünya üzərindəki inkişaf edən təsirlərini maneə törədə bilmək məqsədiylə, "21-ci əsrin dini" olaraq önə sürülən Yeni Çağ idi.

Yeni Çağ hərəkəti Allahın mütləq varlığını inkar edən, ilahi vəhyə söykənməyən, hər hansı bir yazılı kitabı olmayan, mərkəzi bir təşkilata sahib olmayan, üzvləri və başçısı olmayan, inancları və tətbiqləri qəti xəttlərlə təyin oluna bilməyən özünə xas bir hərəkatdır. İstəyən, bu batil dinə istədiyi inancı əlavə edə bilər, istədiyini də çıxara bilər.

Yeni Çağ təlimləri Hinduizm, Buddizm, Taoizm, Şamanizm, Şintoizm, Gnostik ənənələr, Spiritualizm (ruh çağırma), Wicca (cadugərlik) kimi bir çox fərqli batil inanca söykənir. Alan Morrison, Yeni Çağnin mənşələrinin hansı nöqtələrdə birləşdiyini "Blavatsky teozofik təliminin əsası, hamısı üstün yaradıcı Allahı rədd edən və fərdin ilahlaşmasını təmin etmək üçün müxtəlif tətbiqlərə müraciət edən Hinduizm, Buddizm, Zərdüştlük və Gnostizmin müxtəlif təlimlərini bir yerə gətirir"[157] sözləriylə ifadə edər.

Xüsusilə də son illərdə ateist və materialist fikrə sahib kütlələr Yeni Çağ mədəniyyətinin təbliğat işlərinə sürət qatmışlar. Bunun üçün də kütləvi informasiya vasitələrini çox sıx olaraq istifadə edirlər. Məqsədləri isə qərb cəmiyyətlərində çox böyük sürət qazanan haqq dinlərə (xüsusilə də İslam

dininə) yönəlişin onlara görə qarşısını kəsmək, batil dinlərinin qəbul görməsini təmin edir.

Həmin kütlələr bu inancları doğrudan batil təlim olaraq insanlara təqdim etmir, daha çox bəzəkli reklamlarla, üstü bağlı ifadələrlə, şüur altına istiqamətli mesajlarla təlqin etməyə çalışırlar. “Quru” adını verdikləri saxta ruhani liderlərlə bütpərəst inanclarını və azğın fəlsəfələrinin reklamını edir, bu şəkildə insanları aldatmağı hədəfləyirlər. Cəmiyyətin yaxından tanıdığı şəxslər də bu təbliğatda əhəmiyyətli rollar boynuna götürürdürlər. Məsələn bir dövrün məşhur aktrisalarından Shirley MacLaine, yazdığı kitablar və apardığı televiziya proqramları ilə azğın Yeni Çağ inanclarının ən böyük təbliğatçılarından biridir.

Ateist və materialist kütlələr tərəfindən müxtəlif təbliğat üsullarıyla gündəmdə tutulmağa çalışılan Yeni Çağ inancları, insanları Allah inancından uzaqlaşdırma, din əxlaqının gətirdiyi əxlaqi gözəllikləri tərk etmə və Allahın vəhyi yerinə batil işlərə yönəltmə hədəfini daşıyır. Məsələn yoqa, meditasiya, şəfaçılıq, bioenerji müalicələri, transandantal meditasiya kimi tətbiqlər Yeni Çağ inanışlarında çox böyük bir yer tutarlar.

Astrologiya, tarot kartları, falçılıq, kahinlik bu mədəniyyətin əhəmiyyətli bir hissəsini meydana gətirərlər. Bununla yanaşı karma, reinkarnasiya, reiki, feng shui, astral bədən, kristalların insanlar üzərində fərqli gücləri olduğuna inanma, ağ və qara cadu, kəhanət, tilsim tərzi obyektlərlə pis ruhların qovula biləcəyinə inanma, şeytan çıxarma, telepatiya və telekinezi kimi tətbiqlər azğın Yeni Çağ inanclarından yalnız bəzilərididir. Dövrümüzdə isə bu terminlər materialist kütlələr tərəfindən edilən təbliğat səbəbi ilə tez-tez eşidilir. Bu azğın inanışlardan bəziləri bu şəkildədir.

- Yeni Çağ hərəkatında cadu və sehr çox böyük yer tutur. Uzaq Şərq dinlərinin bütün cadu ritualları, Şamanizm kimi cadu əsaslı batil inanışları və tarix boyunca davam etmiş hər cür gizli inanc bu batil dinlə təkrar dünya gündəminə gətirilmişdir. Halbuki, fal, cadu kimi inanışlar Allahın haram etdiyi çirkin əxlaqsızlıqlardır. Allah Maidə surəsində **“Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar**

**da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız."** (Maidə surəsi, 90) şəklində buyurur. Hz. Musanın cadugərlərlə qarşılaşmasının bəhs edildiyi ayələrdə isə **"sehrbazlar uğur qazanmazlar"** (Yunus surəsi, 77) və **"Sehrbaz isə, hara gedirsə-getsin, uğur qazanmaz"** (Taha surəsi, 69) şəklində bildirir. Yəni cadunu bir qurtuluş, hüzur, rifah, ya da müvəffəqiyyət yolu olaraq görənlər çox böyük aldatma içindədirlər. Çünki, Allah diləmədikcə heç bir insanın bir başqası üçün zərər, ya da fayda diləməsi mümkün deyil. Allah Bəqərə surəsində bu vəziyyəti bu şəkildə xəbər verər:

**...Lakin onlardan ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Onlar bilirdilər ki, onu əldə edən kimsə üçün axirətdə heç bir pay yoxdur. Nəfslərinin əvəzində satın aldıqları şey necə də pisdir! Kaş bunu biləydilər!**

**(Bəqərə surəsi, 102)**

- Falçılıq, tarot kartları, ruhlarla əlaqə quraraq gələcəkdən məlumat alma yalanı, kahinlik və kəhanət kimi batil inanclar Yeni Çağ mədəniyyətinin əhəmiyyətli bir hissəsini meydana gətirərlər. Onsuz da Quru adını verdikləri kəslər də ümumiyyətlə ruhlarla əlaqə qurduqları, kahinlik etdikləri, tarot kartları ilə gələcəyi söyləyə biləcəkləri kimi yalanlara müraciət edərək insanları aldatmağa çalışan şəxslərdir. Halbuki qeybi də, müşahidə edilə biləni də yalnız Allah bilər. Nəml surəsində də bildirildiyi kimi "... **Göylərdə və yerdə qeybi Allahdan başqa kimsə bilməz..."** (Nəml surəsi, 65) Allah Cin surəsində isə bu şəkildə buyurar:

**O, qeybi Biləndir və Öz qeybini heç kəsə açmaz; Razı qaldığı elçidən başqa. Həqiqətən, Allah onların önündə və arxasında gözətçilər qoyur... (Cin surəsi, 26-27)**

Ayələrdə də ifadə edildiyi kimi Rəbbimiz razı olduğu qullarına qeyb məlumatlarını vəhy edə bilir. Bunun xaricində heç bir insanın öz səyi, cəhdi, ruhlarla əlaqə qurmağa çalışması o insanı qeybə dair bir məlumata çatdırmaz. Halbuki Yeni Çağ kimi hərəkatlara qapılan bəzi insanlar ətraflarında diqqət çəkə bilmək, mərkəzdə ola bilmək üçün kahinlik kimi xüsusiyyətlərə sahib olduqları yalanının arxasına gizlənərlər. Bu yolla insanları aldatmağı, onlardan hörmət və maraq görə bilməyi, maddi çıxar əldə etməyi ümid edərlər.

İnsanların bir neçə kağız parçasına, daşlara, kristal kürələrə baxaraq gələcəyi söyləyə bilmələri, Allahın diləməsi xaricində, mümkün deyil. Çünki **"Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.** (Ənam surəsi, 59)

- Dövrümüzdə Yeni Çağ inancları müəyyən kütlələr tərəfindən bir moda axını halına gətirilməyə çalışılır. Xüsusilə də ictimaiyyət tərəfindən tanınan şəxslər istifadə edilərək bu azğın tətbiqlərin mənimsənməsi üçün bəzəkli təbliğat işləri görür. Televiziya proqramlarında, qəzet və jurnallarda insana heç bir fayda təmin etməyəcək batil təlimlərinin reklamı edilir və bu təlqinin təsirində qalan bəzi insanlar isə meyl göstərərək və nə etdiklərini belə bilmədən eyni şeyləri tətbiq etməyə başlayırlar. Son zamanlarda ictimaiyyəti örtən "Reiki" modası da eyni yalanın bir məhsuludur. Cəmiyyət içində diqqət çəkmək, orijinal olub maraq yığmaq istəyən

şəxslər bu batil təlimin təbliğatından təsirlənirlər. Halbuki reiki də digər azğın Uzaq Şərq inancları kimi böyük yalandır.

Bütpərəst bir cəmiyyət olan yaponlar, reikinin kainatdakı bir çox enerjidən biri olduğuna inanar və reikiyi "universal həyat və şəfa enerjisi" olaraq qəbul edərlər. Bəzi şəxslərin reiki enerjisinə sahib olduğunu, bununla insanlara guya şəfa verdiyini və diləyərlərsə bu enerjini başqalarına verə bildiklərini iddia edərlər.[158]

Reiki enerjisinə sahib olduğu yalanını ortaya atan insan əllərini yuxarıya açaraq qəribə hərəkətlər etməyə başlayar. Daha sonra bir başqa insana "ya da heyvana toxunaraq ona enerji transferi etdiyini iddia edər. Halbuki reikinin bir cadu dini olan Şamanizmdəki şeytan çıxarma və şəfa vermə rituallarından heç bir fərqi yoxdur. Şaman rahibləri də sahib olduğunu iddia etdikləri güclərlə insanlara şəfa verdikləri yalanını ortaya atmaqda, azğın cadu və tilsim kimi batil yollara müraciət edirlər.

Ağıl və məntiq sahibi heç bir insanın inanmayacağı bu axmaq inanclar çox böyük saxtakarlıqdan ibarətdirlər. Çünki heç bir insanın Allahın diləməsi xaricində bir insana şəfa verməsi mümkün deyil. Şəfanı verən Allahdır. Allah dilədiyi təqdirdə "Şafi" sifəti ilə, verdiyi xəstəliyi ortadan qaldırar. Allah diləmədikcə bütün dünyanın həkimləri, ən inkişaf etmiş texnoloji cihazlar, kəşf edilən ən son dərmanlar, ya da Uzaq Şərq dinlərinin bütün batil inancları bir yerə gəlsə yenə də o insanın xəstəliyinin yaxşılaşması qeyri-mümkündür. Quranda hz. İbrahimin səmimi duası bu şəkildə bildirilir:

**Xəstələndiyim zaman mənə şəfa verən Odur.**

**(Şuəra surəsi, 80)**

Bu səbəbdən reiki kimi batil inanclar ancaq bir yalandan, aldatmadan ibarətdir. İnsanın Allahdan başqa heç bir dostu, köməkçisi, vəlisi yoxdur. Allahın xaricində heç bir gücün insana bir zərər verməsi, ya da bir fayda təmin etməsi mümkün deyil.

- Yeni Çağ inancındakı batil tətbiqlər saymaqla bitirilməyəcək qədər çoxdur. Daşların və mineralların müxtəlif güclərə sahib olduğunu düşünmək də bu səhvlərdəndir. Bu batil inancın təqibçiləri kvars kristalının müalicə və cadu sahələrində çox təsirli olduğunu qəbul edərlər. Hematit daşının qərar vermə gücü verdiyinə, almazın bədəni təmizləyərək mənfi qüvvətləri yox etdiyinə, mərcanın nəzərin qarşısını aldığına inanarlar. Bunun kimi daha bir çox daşa və minerala bu kimi axmaq güclər ətf edərlər. Halbuki bu inancların hamısı axmaq və batil inanışlardır. Hər hansı bir daşın, ya da bir obyektin bir insanı qoruması, ona güc verməsi, mənfi halları ortadan qaldırması qəti olaraq mümkün deyil. İnsan nə qədər çalışırsa çalışsın, hansı üsullara sarılsın Allahın diləməsi xaricində başına gələcək hər hansı bir şeydən qoruna bilməz. İnsan üçün tək qoruyucu Rəhman olan Allahdır. Quranda bu vəziyyət belə bildirilir:

**De: "Acizanə və gizlicə: "əgər bizi bundan qurtarsan, əlbəttə ki, şükür edənlərdən olarıq" – deyə yalvardığınız zaman sizi qurunun və dənizin zülmətlərindən xilas edən kimdir?" De: "Ondan və bütün başqa sıxıntılardan sizi Allah xilas edir. Sonra siz yenə də şərik qoşursunuz". (Ənam surəsi, 63-64)**

İnsan çətinliklə qarşılaşdığında bunları ortadan qaldırmaq üçün təbii ki, tədbirlər görməlidir. Məsələn xəstələnən bir insan həkimə gedib, deyilən müalicə üsullarını əksiksiz tətbiq etməli, dərmanlarını almalıdır. Ancaq əhəmiyyətli olan, alınan bu tədbirlərin tək başlarına bir gücləri olmadığını bilib, şəfanı yalnız Allahdan gözləməkdir. Çünki Allahdan başqa varlıqların, daşdan və taxtadan düzəldilmiş bütlərin, daşların, ya da mineralların insanı qoruya biləcəyini, bir zərəri dəyə biləcəyini, ya da güc verib fayda təmin edə biləcəyini düşünmək Allaha açıq şəkildə şirk qoşmaqdır.

Şirk isə kitabın əvvəlindən bu yana bir çox dəfə açıqladığımız kimi çox böyük günahdır. Dünyada Allahdan başqa qoruyucu, köməkçi və vəli tapa bilməyəcəyini anlamaq istəməyən, Onun hər cür köməyinə baxmayaraq nankorluqda israr edənlər axirətdə çox böyük peşmanlıq yaşayacaqlar. Allah bu kəslərin vəziyyətini Quranda belə bildirir:

**De: "Allaha qoşduğunuz şəriklərdən eləsi varmı ki, hər hansı bir məxluqu ilk dəfə yaratsın, öldükdən sonra onu əvvəlki halına qaytarsın?" De: "Məxluqu ilk dəfə Allah yaradır, öldükdən sonra onu əvvəlki halına qaytarır. Siz necə də haqdan döndərilirsiniz!" De: "Allaha qoşduğunuz şəriklər arasında haqqa yönəldən bir kimsə varmı?" De: "Allah Öz qullarını haqqa yönəldir. Elə isə deyin görək haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa özünə doğru yol göstərilməyincə onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə edirsiniz?"**

**(Yunis surəsi, 34-35)**

İnsanların yoqa, meditasiya, reiki kimi üsullara müraciət etmələrinin səbəblərindən biri də yaşadıqları həyatın qarışıqlığından, çətinliklərindən, stressindən uzaqlaşa bilmək, hüzuru və güvəni tapmaqdır. Necə ki, bu kimi batil tətbiqlərin reklamlarında da ümumiyyətlə "daxili hüzur, ruhi tarazlıq, daxili dünya..." kimi anlayışları istifadə edirlər. İnsanlar da, içində yaşadıqları materialist cəmiyyətdəki mərhəmətsiz, sevgisiz, qarşıdurmanı, rəqabəti və eqoizmi təşviq edən həyatdan uzaqlaşmaq üçün bu batil inancları bir qurtuluş yolu olaraq görmə səhvinə düşürlər.

Halbuki bu batil inancların insanlara daxili hüzuru və ruhi tarazlığı təmin etməsi mümkün deyil. Tam əksinə Uzaq Şərq dinləri insanları daş və taxtadan düzəldilmiş bütlərdən kömək gözləyən, cadu və batil ritualların problemlərinə həll tapa biləcəyini zənn edən, ağıllı və məntiqli hərəkət etmə qabiliyyətlərini

itirmiş kəslər halına gətirir. Uzaq Şərq fəlsəfələrinin təsirli olduğu cəmiyyətlərdəki dini (bütpərəst) birliklərdə bu psixoloji təxribatı, məsuliyyətsizliyi, həyatın həqiqətlərdən uzaqlaşmış şizofreniyalı ruh halını görmək mümkündür.

Bu açıq bir həqiqətdir ki, insanların dünya üzərində həqiqi hüzur və xoşbəxtliyi tapmalarının, hər cür pislikdən, mərhəmətsizlikdən, pessimizmdən və bədbəxtlikdən xilas olmalarının tək yolu, Yaradıcımız olan Allaha təslim olmaq və Onun razı olacağı kimi bir həyat sürməkdir. Allah bu vəziyyəti ayələrdə bu şəkildə bildirər:

**"... hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar. Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq ..."**

**(Taha surəsi, 123-124)**

Yerlərin və göylərin tək sahibi olan Rəbbimiz, bütün insanların qurtuluş yolunun, bir hidayət rəhbəri olaraq endirdiyi Qurana sarılmaq olduğunu bildirmişdir. Allah İbrahim surəsində **"... Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır."** (İbrahim surəsi, 1) şəklində buyurur.

Allahın varlığını inkar və ya əhəmiyyətsiz edib özlərinə batil yollar seçənlər həm dünyada, həm də axirətdə çox böyük itkiyə uğrayacaqlar. Həyatları boyunca özlərinə heç bir fayda verməyən, boş işlərin arxasında qaçmalarının qarşılığını mütləq alacaqlar. Onlar özlərini doğru yolda sanıb, dünya həyatındakı batil işlərlə məşğul olanların özlərini qurtuluşa çatdıracağını zənn edərkən əslində çox böyük səhvin içində yaşadıqlarını fərq edəcəklər. Allah belə insanların vəziyyətini bir Quran ayəsində bu örnəklə bizlərə xəbər verər:

**Allahdan başqasını özlərinə dost tutanların aqibəti özünə yuva qurmuş hörümçəyin məsəlinə bənzəyir. Yuvaların ən zəifi də, əlbəttə ki, hörümçək yuvasıdır. Kaş ki, biləydilər!**

**(Ənkəbut surəsi, 41)**

Ayədə də ifadə edildiyi kimi inkar yolunu seçənlər öz yollarının ən doğru yol olduğunu zənn edərkən əslində böyük aldanış içinə girmişlər. Onların bütün etdikləri boşa gedəcək, hesab günündə güvəndikləri, mədət ümid etdikləri, özlərini qoruyacağını sandıqları bütün ortaqlarının, tilsimlərinin, ovsunlarının özlərinə bir fayda verməyəcəyini görəcəklər. Allah ayələrdə belə bildirir:

**Məhz mələkləri görəcəkləri gün günahkarlara heç bir müjdə olmayacaqdır. Mələklər deyəcəklər: “Cənnətə girməyiniz qadağandır, qadağan!” Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları sovrulmuş toz dənəciklərinə çevirərik. Həmin gün Cənnət sakinlərinin qalacağı yer daha lətafətli və istirahət edəcəyi yer daha gözəl olacaqdır. (Furqan surəsi, 22-24)**

**De: “Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik”. (Kəhf surəsi, 103-105)**

# Yeni Çağ, darvinizm və ateizm

Daha əvvəl də vurğuladığımız kimi Yeni Çağ bənzəri batil dinlərin qərb cəmiyyətlərində bu qədər böyük maraq görmələrinin ardında yatan səbəblərdən biri də Uzaq Şərq dinlərinin materialist, ateist və bütpərəst strukturlarıdır. Qərb cəmiyyətinin xristian-yəhudi mədəniyyətindən uzaqlaşan materialist ünsürləri, Uzaq Şərq mənşəli hər cür inancı təsdiqləyir, dəstəkləyir, hətta təbliğatını edir.

Materialist qərb mədəniyyətində kainatın bir təsadüf əsəri olduğuna inanılar və canlılığın necə var olduğu sualına Darvinin təkamül nəzəriyyəsi ilə cavab verilər. Bu düşüncə, insan ruhunun varlığını rədd edər və insanın inkişaf etmiş bir heyvan növü olduğunu iddia edər. Ölümdən sonra həyatı, axirət həyatının varlığını, cənnət və cəhənnəmin varlığını qəbul etməz.

Məhz hər biri böyük bir səhv olan bu iddialar Uzaq Şərq dinlərinin inancları ilə böyük uyğunluq içindədir. Buddizm, Hinduizm başda olmaq üzrə Uzaq Şərq dinlərinin çox böyük hissəsi Allahın varlığını inkar edən, canlılılığın mənşəyinin təbiətin özü olduğunu qəbul edən, axirət, cənnət və cəhənnəm həyatının varlığını rədd edən inanclardır. Məhz bu səbəblə də materialist Qərb mədəniyyətinin müdafiəçilərindən çox vaxt böyük dəstək görmüşlər.

Təkamül nəzəriyyəsinin qabaqcılları da 19-cu əsrdən bu yana Uzaq Şərq fəlsəfələrini hər zaman dəstəkləmişlər. Bu şəxslərin əvvəlcə Darvinin ən böyük dəstəkçisi olaraq qəbul edilən Tomas H. Huxley gəlir. Yaradılışı müdafiə edən din və ya elm adamlarıyla etdiyi mübahisələr, darvinizmi müdafiə edən alovlu yazı və nitqləri, Huxleyi 19-cu əsrin ən məşhur darvinisti olaraq tarixə keçirmişdir. Huxleyin Uzaq Şərq dinlərinə, xüsusilə də Buddizmə, olan əlaqəsi isə o qədər yaxşı bilinmir.

Xristianlıq və yəhudilik kimi ilahi dinlərin nümayəndələri ilə şiddətlə mübarizə edən Huxley, Buddizm, dünyəvi qərb mədəniyyətinə uyğun inanc olaraq görürdü. “Philosophy East and West” jurnalında nəşr olunan “Buddhism in Huxley's Evolution and Ethics” (Huxleyin təkamül və əxlaqında buddizm)

başlıqlı məqalədə bu mövzu işlənməkdədir. Məqalədə Huxleyin "Evolution and Ethics" (Təkamül və əxlaq) adlı kitabından Buddizm haqqındakı bu tərifi deyilməkdədir:

*(Buddizm) batili mənada Tanrı tanımayan bir sistemdir; insanın bir ruhu olduğunu qəbul etməz; ölümsüzlüyə inanmanın səhv olduğunu müdafiə edər, hətta bunu ümid etməyi günah sayar; duaya və qurban ibadətinə yer verməz; insanların qurtuluş üçün yalnız öz etdiklərinə güvənməsini istəyər... yenə də köhnə Dünyanın qeydə dəyər bir hissəsində möcüzəvi sürətlə yayılmış, xarici inanclarla qarışsa belə insanlığın kiçik hesab edilə bilməz bir hissəsinin hakim inancı olmuşdur.*[160]

Huxley Buddizmin pərəstişkarıdır və bunun tək səbəbi Buddizmin, eynilə Huxley və digər darvinistlər kimi Allah inancına sahib olmamasıdır. "Buddhism in Huxley's Evolution and Ethics" məqaləsinin yazıçısı olan Havay Universiteti müəllim Vijitha Rajapakseyə görə, Huxleyin Buddizmə olan heyranlığında, Buddizm ilə köhnə Yunanın bütpərəst və ateist mütəfəkkirləri arasında gördüyü paralellik də rol oynamışdır:

*Huxleyin Buddist düşüncəni qərbli fikirlərlə əlaqələndirmə mövzusundakı açıq meyli... onun arqumentinin başqa ölçülərində də örnəkləndirilməkdədir. Buddizmin qeyri-ilahi mövqeyini Heraklitusun dünyagörüşünə bənzətmiş və bundan əlavə "Stoacılıkla Buddizm arasında" bir çox paralelliyə işarə etmişdir.*[161]

Rajapakse, yalnız Huxleyin deyil, 19-cu əsrin digər bəzi ateistlərinin (və ya aqnostiklərinin) də Buddizmə böyük heyranlıq duyduqlarını qeyd edir. Bu dövrdə Buddizm ilə materialist qərb fəlsəfəsi arasında qurulan bir paralellik də, David Humenin fikirləri mövzusundadır. 18-ci əsrdə yaşamış olan Şotlandiyalı alim Hume, ateist və din əleyhinə filosofdur. Rajapakse;

"Maraqlıdır ki, Buddizm və Hume fəlsəfəsi arasındakı paralelliklər, Buddizm haqqında ilk şərh edən şəxslər tərəfindən belə doğru şəkildə qeyd edilmişdir" deyər və belə davam edər:

*Məsələn Rhys Davids ifadə edər ki "xaricdən gələn bir ruha sahib olmama düşüncəsi, daimi və dəyişməz bir acı çəkmə fikri baxımdan, bizdən yalnız iki əsr əvvəl yaşamış olan Humedən iki min dörd yüz il əvvəl eyni vəziyyəti almışdır."*[162]

Rajapaksenin ifadə etdiyi kimi, Viktoriya dövrü İngiltərədə (yəni 19-cu əsrdə) daha bir çox filosof Buddizmə maraq duymuşdu və bunun səbəbi də, Buddizmi, o dövrün məşhur fəlsəfələri olan ateizm və darvinizmə uyğun görmələri idi.

Eyni səbəblə Buddizmə yaxşı gözlə baxan bir başqa ateist isə, Friedrich Nietzsche idi. Xristianlığa qarşı qatı nifrət bəsləyən, buna qarşı bütpərəst mədəniyyətini və bütpərəst əxlaqını müdafiə edən Nitsşe, müdafiə etdiyi fikirlərlə 20-ci əsr faşizminin və xüsusilə də Nasizmin fikri qabaqcılı oldu. İlahi dinlərə olan bu nifrəti, şübhəsiz yalnız bu dinlərin əxlaqi prinsiplərindən deyil, bundan da əhəmiyyətlisi, Nietzschenin fanatik ateizmindən də qaynaqlanırdı.

Ancaq Nitsşenin nifrəti yalnız ilahi dinlərə qarşı idi, bütpərəst dinlərə deyil. Əksinə, bütpərəstliyi tərifləyir və ucaldırdı. Xüsusilə də Buddizmi... "Eighteenth-Century Studies" redaktoru yazıçı Jason DeBoerin ifadəsiylə **"maraqlıdır ki, tarixdəki ən militan ateistlərdən biri olmasına qarşı, Nietzsche tamamilə din əleyhdarı deyildi... Digər bəzi dinlərin bir çox xüsusiyyətinə hörmət və heyranlıq duymuşdu; bunlar bütpərəstlik və hətta Buddizmdi."**[163]

İngilis alimi David R. Loy isə, Nitsşe haqqında yazdığı bir məqalədə eyni mövzuda bunları ifadə edər:

*Nitsşe və Buddizmi müqayisə etmək demək olar klassik bir çalışma halına gəlmişdir və bunun yaxşı bir səbəbi vardır: Aralarında dərin uyğunluq*

*görünürdü. Morrisonun ifadə etdiyi kimi, bir çox ortaq element paylaşırlar: Hər ikisi də ilah olmayan bir kainatda insanın mərkəziliyini vurğulayır və heç biri varlıq probleminin həlli üçün gətirdikləri həllərdə xarici varlığa söykənmir... Hər ikisi də insanı daim dəyişən və çox müxtəlif olan psixofiziki güclərin axışı olaraq görür və bu axışda avtonom və dəyişməyən bir varlığa (yəni ruha) yer vermir.*[164]

Nitşenin Buddizm ilə paylaşdığı bu fikirlər şübhəsiz böyük səhvdir. Bu səhvlərin yaranma səbəbi isə, insanın qürurundan və cəhalətindən başqa bir şey deyil. Kainatı və təbiəti ağıl və vicdan gözü ilə araşdıran insan Allahın varlığının açıq-aşkar dəlillərini görəcək. Eyni həqiqət dövrümüzdəki elmi tapıntılar tərəfindən də ortaya qoyulur.

Nitşe kimi ateistlərin ortaya atdığı fikir Biq Banq və İnsani Qanun (Anthropic Principle) kimi elmi tapıntılarla yıxılmış, elm Allahın kainatı yaratdığına və fövqəladə bir tarazlıqla təşkil etdiyinə dair açıq dəlillər ortaya qoymuşdur. (Ateizmin çökməsi haqqında ətraflı məlumat üçün baxın: İslamın Yüksəlişi, Harun Yəhya, 2002, Mədəniyyət nəşriyyat) Darvinin təkamül nəzəriyyəsinin etibarsızlığını və "şüurlu dizayn"ın varlığını göstərən dəlillər, yaradılışın doğruluğunu sübut edir. Freud, Marx, Durkheim kimi 19-cu əsr ateist mütəfəkkirlərinin fikirləri də yenə elmi tapıntılar və ya ictimai nəticələrlə bir-bir məhv olmuşdur.

Ateist və materialist qərb mədəniyyətinin memarları, nəzəriyyələrinin çökdüyünü görür, buna qarşılıq İlahi dinlərə yönəlmənin artan surətinin qarşısını almaq üçün, həlli bütpərəst inancların qızışdırılmasında görürlər. Məhz bu məqsədlə yaradılan Yeni Çağ axını da materializmə saxta "mənəviyyat" möhkəmlətməsidir.

Yaxşı bəs, materialist qərb mədəniyyəti buna niyə ehtiyac duyur? Qərb dünyasının iki min illik fikri inkişafını (və degenerasiyasını) araşdıran İngilis yazıçılar Michael Baigent, Richard Leigh, Henry Lincoln qərb dünyasının 20-ci əsrdə bir "məna böhranı" içinə düşdüyünü ifadə edərlər. Bir başqa ifadə ilə, batil cəmiyyətlərə təlqin edilən materialist fəlsəfə və həyat forması, bir çox

insanı Allahın varlığı və Ona ibadət həqiqətindən qoparaq, həyatlarını mənasız hala gətirmişdir. Baigent, Leigh və Lincolnun ifadəsiylə "Həyat hər hansı bir mənadan və müəyyənləşdiricilikdən tamamilə qopmuş və heç bir konkret hədəfə məruz olmayan təsadüfü bir fakt halına gəlmişdir".[165]

Bu məna böhranına, bir tərəfdən də materialist nəzəriyyələrin elmi səviyyədəki çökməsinin əlavə olunması, insanların ilahi dinlərə yenidən yönəlmələrinə gətirib çıxarmışdır. Bu səbəblədir ki, bu gün xristian, İslam və yəhudi dünyasında din yüksəlişdədir; dinə inananların və dini tətbiq edənlərin nisbəti gedərək artır, dini anlayış və dəyərlər cəmiyyət həyatında daha çox iştirak edir. (Xüsusilə İslam dini, qərb dünyasının içində yüksəlişini davam etdirir.)

Məhz bütpərəst inanc olan Yeni Çağ də dinsizliyin "mənəvi böhranı" içində tərəddüd edən insanlarına saxta qurtuluş və çıxış yolu təqdim etmək üçün alovlandırılır. Bütün bunlar ateist və materialist doqmadan qopmaq istəməyən, buna baxmayaraq özlərinə bir növ "mənəviyyat" axtaran insanların qapıldıqları boş və batil təlimlərdir.

Bu təlimlərin boş olduğunu anlamaq üçünsə yalnız bir az düşünmək, onları ağıl və məntiq süzgəcindən keçirmək kifayətdir. Bu böyük təhlükə qarşısında iman sahiblərinin də yerinə yetirmələri lazım olan çox əhəmiyyətli bir məsuliyyətləri vardır: Allahın mütləq varlığının və din əxlaqının təbliğ edilməsi. Yeni Çağ ideoloqlarının etdikləri sıx təbliğatın önünü kəsmək üçün əvvəlcə edilməsi lazım olan bütün insanlara Allahın sonsuz güc və qüdrətinin izah edilməsi, insanların iman etməyə dəvət edilməsidir.

Əgər İslam əxlaqı insanlara əksiksiz izah edilər, bütün həyatını Rəbbimizin bildirdiyi şəkildə yaşayan bir insanın sahib olacağı bənzərsiz nemətlər ortaya qoyulsa, insanların saxta mənəviyyat möhkəmlətmələrinə ehtiyacları olmayacaq.

Yeni Çağ hərəkatının inkişafında isə şəxsən təkamül nəzəriyyəçiləri rol oynamışdır. Yeni Çağ təqibçilərinin çoxu, Theillard de Chardin ruhani liderləri olaraq qəbul edirlər. Theillard de Chardin təkamül nəzəriyyəsinin tarixində əhəmiyyətli yerə sahib bir alim və paleontoloqdur. Hətta Piltdown adamı kimi

tarixin ən böyük elmi saxtakarlıqlarından biri sayılan böyük qalmaqalın da ortaqlarındandır.[166] Onun darvinizmə nə qədər bağlı olduğunu anlamaq üçünsə bu sözü kifayətdir:

*Təkamül bir nəzəriyyə, bir sistem ya da bir fərziyyədir? Xeyr o bunların hamısından kənar bir şeydir.* ***Təkamül, özündən şübhə edilməyən yeganə qanundur ki, bütün nəzəriyyələr, bütün sistemlər, bütün fərziyyələr, ciddiyə alına bilmək və doğru ola bilmək üçün ona söykənmək məcburiyyətindədirlər. Təkamül, bütün həqiqətləri işıqlandıran bir işıq, bütün xətlərin özündən çıxması lazım olan bir ana xətdir.*** *Məhz təkamül budur.*[167]

Öz sözündən də aydın olduğu kimi Theillard de Chardin təkamül nəzəriyyəsinin alovlu müdafiəçilərindən idi. O, fiziki təkamüllə yanaşı, ruhi təkamülün də reallaşdığını iddia edirdi. İnsanın zehni və ictimai olaraq təkamülləşdikdən sonra nəticədə ruhi mükəmməlliyə çatacağını müdafiə edirdi. Çatılacaq bu mərhələyə isə "Omeqa nöqtəsi" adını vermişdi.

Yeni Çağ ideoloqları arasında Theilhard de Chardindən başqa Julian Huxley və Theodosius Dobzhansky kimi bir çox təkamülçü də sayılır. Dobzhanskyın "Təkamüllü müddət, insanı yüksəldərkən, kosmosun tarixində ilk və son dəfə, öz şüuru halına gəldi." sözü dövrümüzün Yeni Çağ şərhçilərinin tez-tez istifadə etdikləri izahatlardan biridir. Dobzhanskyın ölümündən sonrakı bir mədhiyyədə, genetik Francisco Ayala belə demişdir:

*Dobzhansky Allahın varlığı kimi ənənəvi dinin təməl inanclarını açıq qəbul etməsə də dindar bir adam idi... Dobzhansky insanda, bioloji təkamülün özünün fərqinə varma və mədəniyyət sahəsində üstün gəldiyi fikrini müdafiə etməkdə idi. İnsanın nəhayətdə uyğunlaşma və yaradıcılığın ən yüksək səviyyələrinə təkamülləşəcəyinə inanırdı.*[168]

Bura qədər olan izahatlarda da görüldüyü kimi, Yeni Çağ tamamilə dünya həyatını və insanı təməl alan bir axındır. Allah inancını rədd edərkən insanı guya ilahlaşdırar (Allahı tənzih edərik) və müqəddəs xüsusiyyətlərə sahib bir varlıq olaraq qəbul edər. Necə ki, bu axının məşhur müdafiəçilərindən qəbul edilən bir zamanlar məşhur müğənni və aktrisalarından Shirley MacLainə bir yazısında: "**Kimsəyə, ya da heç bir şeyə deyil, yalnız özünüzə tapına bilərsiniz, çünki ilah sizsiniz**"[169] deyərkən, (Allahı tənzih edərik) Yeni Çağnin azğın inanclarını da ortaya qoyur.

İlkin hədəfi insanları Allah inancından uzaqlaşdırmaq və ateist cəmiyyət meydana gətirmək olan Yeni Çağ ideoloqlarına görə insan özünün rəhbəri və mühakiməçisidir. Bu azğın inanca görə meditasiya, yoqa, reiki, ruhlarla əlaqə qurma, kristal kimi daşların köməyi ilə guya mükəmməlliyə çatacaq. Hətta eyni inanc bu kəsləri daha çox azğın bir nöqtəyə qədər aparıb çıxarır. Bu səhv guya ilah mövqeyinə sahib olan insan üçün "doğru-səhv", "günah-savab" deyə anlayışların olmamağıdır.

Yəni Yeni Çağ inancına görə insanın etdiyi hər şey doğrudur. Michigan Universitetinin Teologiya sahəsindən Prof. H. Wayne House bir məqaləsində səhv Yeni Çağ inancına görə guya ilah qəbul edilən insanın bir başqasını mühakimə edə bilməyəcəyinə, doğru və səhv deyə bir anlayış ola bilməyəcəyinə diqqət çəkər.[170] Bu səhv məntiqə görə dünya üzərindəki bütün cinayətlərin, işgəncələrin, soyğunların, qarətlərin, zülmlərin, ədalətsizliklərin də "mühakimə oluna bilməz" sayılması lazımdır.

Halbuki bu iddianı ortaya atanlar səhv fikirdədirlər. Çünki insan başıboş və məsuliyyətsiz deyil. Onu yaradan, hər anını müşahidə edən, bütün düşüncələrini bilən və öldükdən sonra onu sorğulayaraq etdiyi hər şeyin qarşılığını verəcək olan bir Yaradıcımız vardır. Və Yaradıcımız olan Allah insanı heyvanlardan fərqli olaraq bir ruh, ağıl, iradə, mühakimə qabiliyyəti ilə yaratmışdır. Yəni bir insan içində hər cür hərəkətə qarşı bir istək və ya meyl olsa belə sahib olduğu bu xüsusiyyətlərlə onu maneə törətmə gücünə sahib olaraq yaradılmışdır.

Məsələn bir hadisə qarşısında şiddətlə qəzəblənən, iradəsi zəif bir insan özünü və qarşısındakı insanı heyvan kimi görsə, ona heç düşünmədən zərər verə bilər, mərhəmətsizcə davrana bilər. Qarşısındakının kiçik bir uşaq, müdafiəsiz bir insan olması heç fərq etməz. Ancaq, Allahın ona verdiyi ruhu daşıdığını bilən, ağıl və vicdan sahibi insan hər cür vəziyyətdə qəzəbinə hakim olar. Mühakiməsi, vicdanı hər an açıq olar. Allaha hesabını verə bilməyəcəyi ən kiçik bir hərəkət etməmək üçün səy göstərər. Bunun əksini edənlər isə günah edirlər.

Səhv və günah olanı seçmələrinin səbəbi, Allaha iman etməmələri, etdiklərindən ötəri Allaha hesab verməyəcəklərini zənn etmələri və bu səbəblə çəkinməmələridir. Çünki Allah bir ayəsində insanlara həm pisliyin həm də pisliklərdən çəkinmənin ilham edildiyini bildirər (Şəms surəsi, 7-10). Bu səbəbdən insan doğru və səhvi bilir, vicdanının səsini dinləmədiyi üçün səhv olanı seçir. Hər insan Allahın ona bəxş etdiyi ruhu daşıyar və onu yoxdan var edən Yaradıcımıza qarşı məsuldur. Ayələrdə bu şəkildə bildirilər:

**Hansı ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş, sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz!**

**(Səcdə surəsi, 7-9)**

Allah, Quranda onu başıboş zənn edənlərə yaradılışlarını və ölümdən sonra təkrar diriləcəklərini belə xatırladar:

**Bəlkə insan özbaşına qoyulacağını güman edir? Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi? Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı. Ondan da bir cüt kişi və qadın yaratdı. Məgər O, ölüləri diriltməyə qadir deyil? (Qiyamət surəsi, 36-40)**

Yeni Çağın təməlini meydana gətirən və insanı bütün kainatın təməlinə qoyan bu əyri inanc, darvinistlərin də təməl arqumentlərindən birini meydana gətirir. Darvinin ən qabaqcıl müdafiəçilərindən biri olan Julian Huxleyin qurduğu "təkamüllü humanizm" bənzər bir anlayışa sahib idi. Bu dinin məqsədi **"yer üzündəki təkamüllü müddətin maksimum nəticəyə çatmasını təmin etmək"** olacaqdı.

Bu, yalnız güclü orqanizmlərin daha çox yaşamasına və daha çox törəmələrinə çalışmaqla məhdud deyildi. Həmçinin, insanoğlunun "özündən qaynaqlanan qabiliyyətləri"nin "ən üst səviyyədə reallaşdırılması" nəzərdə tutulurdu. Bir başqa ifadə ilə, insanoğlunun gün ərzində fiziki və zehni mərhələdən "daha irəli mərhələlərə" sıçraması üçün səy göstəriləcəkdi. "Humanizm" termininin tam tərifi isə, Huxley tərəfindən belə edilirdi:

*Mən "humanist" sözünü istifadə edərkən, insanın, eyni bir bitki, ya da heyvan kimi təbii varlıq olduğunu nəzərdə tuturam. Yəni insanın bədəni, zehni və ruhu fövqəltəbii bir güc tərəfindən yaradılmamış, əksinə təkamül müddəti sonunda meydana gəlmişdir. Bu səbəbdən insan, hər hansı bir fövqəltəbii gücün idarəsi, ya da yol göstəriciliyinə deyil, yalnız öz varlığına və öz gücünə inanmalıdır.*[171]

Julian Huxley bir başqa sözündə isə təkamüllü hümanizmin inanclarını bu şəkildə sayırdı:

*"Təkamüllü humanizmə dininin inancları, fövqəltəbii mənadakı vəhyə söykənən deyil. Lakin elm və elmin bizə insan və kainat haqqında bildirdiklərinə söykənəndir. Bir humanist tam olaraq insanın təbiətə yad olmadığına, tam əksinə təbiətin bir hissəsi olduğuna inanır... Öz taleyi, yer üzündəki təkamülün gələcək axışını mükəmməl şəkildə tamamlamağa, cəmiyyətin ehtiyac duyduqlarını qarşılamağa öndərlik etməsidir."*[172]

Halbuki Julian Huxleyin qurduğu bu süni axın heç bir təmələ söykənməyən, çox böyük səhvdir Çünki dünyadakı qüsursuz dizaynın tək sahibi aləmlərin Rəbbi olan Allahdır. Darvinistlərin öz ağıllarına görə müqəddəsləşdirdikləri insan da Allahın yoxdan var etdiyi, ONA möhtac, aciz bir varlıqdır. Necə ki, Quranda, yer üzündəki həyatın Allahın bir möcüzəsi olduğu xəbər verilir:

**Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və orada hər şeydən lazım olduğu qədər yetişdirdik. Orada həm sizin üçün, həm də sizin ruzi vermədikləriniz üçün dolanışıq vasitələri yaratdıq. Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Biz onu ancaq müəyyən ölçüdə endiririk. Biz küləkləri döllәndirici (buludlarda su əmələ gətirən, bitkiləri tozlandıran bir vasitə) kimi göndərdik, göydən yağmur yağdırıb onu sizə içirtdik. Belə olmasaydı, siz onu yığıb saxlaya bilməzdiniz. Şübhəsiz ki, Biz həm diriltdir, həm də öldürürük və hər şeyə varis olan da Bizik. Həqiqətən, sizdən əvvəl gəlib-gedənləri də bilirik, sonra kimlərin gələcəyini də bilirik. (Hicr surəsi, 19-23)**

Huxleyin ortaya atdığı və insanoğlunun "müqəddəs" məqsədinin öz təkamülünü sürətləndirmək olduğunu qarşıya qoyan bu düşüncələr, John Dewey adlı amerikalı filosofa dərindən təsir etdi. Dewey bu xətti inkişaf

etdirərək 1933-cü ildə "Dini humanizm" axınını başlatdı və məşhur humanist manifestonu nəşr etdi. Manifestoda vurğulanan təməl düşüncə, ilahi dinlərin ortadan qaldırılmasının zamanının artıq gəldiyi və bunların yerinə, insanoğlunun elmi irəliləmə və ictimai əməkdaşlığa söykənən yeni bir dövrə girmək üzrə olduğu idi.

II Dünya Müharibəsində "elmi irəliləmə"(!) nəticəsində öldürülən 50 milyon insan, Humanist manifestoda nəzərdə tutulan optimizmi dərindən sarsıtdı. Bənzəri zərbələrin ardından Deweyin yolunu izləyənlər onun fikirlərini az da olsa düzəliş etmək məcburiyyətində qaldılar və 1973-cü ildə II Humanist manifestonu nəşr etdilər. Bu mesajda "elmin bəzən insanlığa zərər də verə biləcəyi" qəbul edilir, amma yenə də təməl düşüncədən imtina edilmirdi. Bu elmi təmələ söykənməyən, içi boş iddiaya görə insan artıq öz təkamülünü idarə edə bilərdi və bunu da elmlə edəcəkdi. Belə deyilirdi:

*Elmi ağılla istifadə edərək, içində yaşadığımız ətrafı idarə edə bilərik, kasıblığı məğlub edə bilər, xəstəlikləri ortadan qaldıra bilər, həyat müddətimizi uzada bilər, davranışlarımızı diqqətə çarpan bir şəkildə dəyişdirə bilərik. Beləcə insanoğlunun təkamül müddətini istiqamətləndirə bilər, yeni güc qaynaqları meydana gətirə bilər və insanlığın daha azad və mənalı həyata qovuşması üçün lazımlı fürsətləri yarada bilərik.*[173]

Əslində hər təkamülçü tərəfindən şüurlu, ya da şüursuz olaraq mənimsənən bu fikirlər, "təkamül dini"nin təməl inanışlarını ortaya qoyur. Əvvəl xəyali bir təkamül müddəti hazırlanır və bu müddətin hər şeyi var edən "yaradıcı" olduğu fərz edilir, sonra bu müddətin insanı qurtuluşa aparacağı düşünülür və ən sonunda insanoğlunun "müqəddəs" məqsədinin də bu müddətcə xidmət etmək olduğuna inanılır. Qısacası, təkamül, həm yaradıcı, həm qurtarıcı, həm də müqəddəs bir məqsəd olaraq qəbul edilir. Bir başqa ifadə ilə özünə tapınılan bir ilahdır (Allahı tənzih edərik.)

Halbuki darvinistlərin iddiasının böyük aldatma olduğu 20-ci əsrdə elm dünyasında yaşanan inkişaflarla bərkidi. Son illərdə mikrobiologiya, biokimya,

anatomiya kimi elm sahələrində yazılan kəşflər və əldə edilən məlumatlar təkamülçülərin nəzəriyyələrinin etibarsızlığını göstərərkən, canlılığın şüurlu bir dizaynın əsəri olduğu həqiqətini ortaya qoydu. Elmi irəliləmə ilə insanın təkamülünün sürətlənəcəyi, ya da ilahi dinlərə gərək qalmayacağı istiqamətindəki iddianın böyük aldatma olduğu bütün dəlilləriylə ortaya çıxdı. Çünki elm yaradılışı təsdiq edər və insanların Allahın varlığının açıq dəlillərini görmələrinə vəsilə olar.

Fort Worth, Teksas, Southwestern Baptist Teolojik İlahiyyat fakültəsində fəxri professor olan John Newport yeni nəşr olunan kitabı "The Worldview Crisis and the New Age Movement" (Dünya görüşü böhranı və Yeni Çağ hərəkatı) adlı kitabında Yeni Çağ inancının təməl inanclarından birinin "insanın öz səyləri ilə artan yüksək ruhani vəziyyətlər əldə edə biləcəyi" fikri olduğuna diqqət çəkmişdir. Newport bunu belə açıqlayır:

*Hamısı eyni fikrə söykənir: "bizim ilahi ola biləcəyimiz, bir qurtarıcıya ehtiyacımızın olmaması, xristianlıqda olan təməl inanclara ehtiyacımızın olmadığı.*[174]

Bu mövzudakı bir açıqlamada Yeni Çağ hərəkatınınn müdafiəçiləri arasında da sayılan məşhur təkamülçü Jeremy Rifkindən gəlir. Rifkin "Algeny" adlı kitabında bu aşıqlamanı edir:

*Təkamül uzun zamandır şüursuz bir hadisə olaraq görülmür, hətta tam tərsi... Biz uzun zamandır özümüzü bir başqasının evində qonaq kimi görmürük. Daha əvvəldən bəri var olan kosmik qaydalara əməl etmək üçün davranışlarımızı düzəltmirik. Bu artıq yaradılışımızdır. Qaydaları biz qururuq. Həqiqətin parametrlərini biz meydana gətirərik. Dünyanı biz meydana gətirərik. Çünki biz uzun zamandır özümüzü xarici güclərdən asılı görmürük. Uzun zamandır davranışlarımızı haqlı göstərməmiz lazım deyil, çünki kainatın memarları bizlərik. Özümüzün xaricində heç bir şeyə məsul deyilik. Çünki biz krallığıq, qüvvətik və davamlı olaraq qalib olanlar bizlərik.*[175]

Rifkinin bu sözləri darvinistlərin Yeni Çağ hərəkatı ilə niyə bu qədər yaxın olduqlarını da ortaya qoyur. Əsrlərdir Allahın mütləq varlığını inkar edib kainatın var olmasını təsadüflərə bağlayan materialist həyat fikri, insanı həyatın mərkəzinə qoyan Yeni Çağ hərəkatı ilə eyni tərəfdədir. Halbuki daha əvvəl də vurğuladığımız kimi insan Allahın yoxdan var etdiyi aciz, Rəbbimizə möhtac bir varlıqdır. Bütün kainatı, yaşadığımız dünyanı, həyat üçün son dərəcə əlverişli olaraq yaradılan bu planetin üzərindəki bütün canlıları Rəbbimiz bənzərsiz mükəmməllikdə, qüsursuz bir dizaynla var etmişdir.

Dünya üzərində var olan bütün canlılarda heyranlıq oyandırıcı bir yaradılış müşahidə edilir. Hər canlı özü üçün ən uyğun mühitdə, uyğun bir bədən quruluşuyla həyat sürür. Kainatdakı varlıqlara aid olan hər detalda Rəbbimizin qüsursuz sənətini görmək mümkündür. Allah yaratdığı sistemin qüsursuzluğunu Mülk surəsində belə xəbər vermişdir:

**Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli Allahın yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb göyə diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir. (Mülk surəsi, 3-4)**

Bu mövzu ilə əlaqədar digər ayələr bu şəkildədir:

**De: "Mən göyləri və yeri Yaradan Allahdan başqasınımı dost tutacağam? O, hamını yedirir, Özünü isə heç kəs yedirmir". De: "Mənə Allaha təslim olanların birincisi olmaq əmr edildi". Odur ki, sən müşriklərdən olma. (Ənam surəsi, 14)**

**Elçiləri onlara dedilər: "Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar? O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi iman gətirməyə çağırır". Onlar dedilər: "Siz də bizim kimi ancaq bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz. Elə isə bizə açıq-aydın bir dəlil gətirin". (İbrahim surəsi, 10)**

İnsanı ilahlaşdıran, güc və qüdrət sahibi bir varlıq olaraq qəbul edən insanlar, həqiqətdə nə qədər aciz olduqlarını görməməzlik edirlər. Gözlə görülməyəcək qədər kiçik olan bir virus qarşısında belə çarəsiz qalan, bədənində qüsursuzca işləyən sistemlərə ən kiçik bir müdaxilə belə edə bilməyən, Allahın yazdığı əcəli bir saniyə belə dəyişdirə bilməyən bir insanın ilahlıq iddiasında olması ağıl və məntiqlə ziddiyyət təşkil edən böyük azğınlıqdır. Hər insan Allahın "ol" deməsiylə var olmuşdur. Dünya həyatında Rəbbimiz hər insanı sınaqdan keçirir və bütün etdikləriylə mütləq hesaba çəkəcəkdir.

Quranda hz. Hudun qövmünün də Allaha iman etməməkdə müqavimət göstərən, öz ilahlarına ibadətdə qərarlı olan, müşrik bir qövm olduğu xəbər verilər. Ayələrdə hz. Hudun inkarçı birliyə bu sözləri bildirər:

**Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir. (Hud surəsi, 56)**

# NƏTİCƏ

# MÜSƏLMANIN UZAQ ŞƏRQ DİNLƏRİNƏ MÜNASİBƏTİ NECƏ OLMALIDIR?

Kitab boyunca Uzaq Şərq dinlərini bir çox istiqamətiylə nəzərdən keçirdik və bu dinlərin öyrətdiyi kimi bütlərdən mədət ümid etmənin, batil rituallarla problemlərə həll tapıla biləcəyini zənn etmənin nə qədər böyük aldatma olduğunu Quran ayələrindən müxtəlif nümunələrlə açıqladıq.

Ancaq bütün bu tənqidlərlə birlikdə ifadə edilməsi lazım olan çox əhəmiyyətli bir məqam vardır: Quranda "dində məcbur etmə yoxdur" (Bəqərə surəsi, 256) şəklində bildirilər və dolayısilə hər kəs vicdanında azaddır. İslama görə hər insan istədiyi dini seçib ona inanmaqda sərbəstdir. Şərq dinlərinə inanan insanların da şübhəsiz bu inanclarını davam etdirməyə haqları vardır. İslami bir cəmiyyətdə də bu haqlarına mütləq hörmət göstərilməlidir.

**Ancaq İslam dininin bütün müsəlmanlara yüklədiyi əhəmiyyətli məsuliyyət, "səhv yoldakı insanlara səhvlərini göstərmək və onları həqiqətə dəvət etmək"dir.** Bu kitabda Şərq dinləri bu məntiqdə tənqid olunmuş, bu dinlərə bağlı olan insanlar inanclarını sorğulamağa və "həqiqət nədir" deyə səmimi şəkildə düşünməyə dəvət edilmişlər. Məqsəd, bu dinlərə inanan insanlara dostca yaxınlaşmaq, onlara inandıqları dinin batil istiqamətlərini göstərmək, beləcə haqq din olan İslamın əslini görmələrinə və sonsuz həyatlarının xilas olmasına Allahın icazəsi ilə vəsilə ola bilməkdir.

# “Yaxşılığı əmr edib, pislikdən çəkindirmək” bütün müsəlmanların məsuliyyətidir

Müsəlmanlar həqiqi yaxşılıq və həqiqi pisliyin nə olduğunu Allahın “doğrunu səhvdən ayıran” bir kitab olaraq göndərdiyi Qurandan öyrənərlər. Quranda, doğru və səhv, yaxşılıq və pislik kimi anlayışlar, nümunələr verilərək hər insanın anlaya biləcəyi şəkildə açıqlanmışdır. Müsəlman, Quran əxlaqını bütün həyatında tətbiq etmək üçün cəhd göstərər. Ancaq onun üzərinə yüklədilən əhəmiyyətli bir məsuliyyət daha vardır: İnsanları, doğruları görməyə, səhvlərdən çəkinməyə, Quran əxlaqını yaşamağa dəvət etmək.

Bu səbəblə möminlər bütün həyatları boyunca insanlara yaxşı ilə pisin arasındakı fərqi izah edərlər. Allah “**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır.** (Ali İmran surəsi, 104) ayəsiylə bu məsuliyyəti bütün müsəlmanlara bildirmişdir.

Saleh möminlər **Belələri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər.**” (Ali İmran surəsi, 114) ayəsiylə də diqqət çəkilən bu vəzifənin əhəmiyyətin dərk edirlər. Bu səbəblə ətraflarındakı hər kəsi, yaxınlarını, ailələrini və təmasda olduqları bütün insanları Allaha iman etməyə, Ondan qorxub çəkinməyə və Onun öyrətdiyi gözəl əxlaqı yaşamağa dəvət edərlər.

Uzaq Şərq dinlərini tək yol olaraq bilən milyonlarla insana və ya Əhli Kitab olub daha sonradan Uzaq Şərq dinlərinə yönələnlərə edilən bütün bu xatırlatmaların səbəbi də Allahın Quranda bildirdiyi əmrdir: “**Yaxşılığı əmr edib, pislikdən çəkindirmək”.**

Quranda həmçinin Allahın bu əmrini yerinə yetirən insanların digər insanlar üçün nə qədər xeyirli şəxslər olduqlarına da diqqət çəkilmişdir:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir.**

**(Ali İmran surəsi, 110)**

Ayələrdə bu dəvətin necə olacağı da bildirilir:

**İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

Ayədə də görüldüyü kimi müsəlman bu çağırışı sevgi ilə, şəfqət ilə, gözəlliklə etməklə məsul tutulmuşdur. Allah bunu **"Qullarıma, sözün ən gözəl olanını söyləmələrini de"** (İsra surəsi, 53) ayəsiylə bildirmişdir. Allah Peyğəmbərimiz (s.ə.v)-in də yüksək xarakterinin və üstün əxlaqının bir nəticəsi olaraq insanlara həmişə gözəlliklə davrandığını bildirmiş və onu bütün insanlara nümunə etmişdir. Allah Peyğəmbərimiz (s.ə.v)-in bu yumşaq xasiyyətli rəftarını iman edənlərə belə bildirmişdir:

**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla**

**məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.**

**(Ali İmran surəsi, 159)**

Ayədə Peyğəmbərimiz (s.ə.v)-in yumşaq xasiyyətli əxlaqının insanlar üzərində çox müsbət təsir meydana gətirdiyi və insanların ona daha da bağlanmalarına vəsilə olduğu xəbər verilir. Allahın elçiləri insanlara Allahın əmr etdiyi şəkildə davranmış və gözəl əxlaqlarından əsla güzəştə getməmişlər. Məsələn dövrün ən azğın və ən zalım rəhbəri olan Firona gedən hz. Musaya Allah bu şəkildə buyurmuşdur:

**Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin. Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" (Taha surəsi, 42-44)**

Yuxarıdakı ayələr bütün iman sahibləri üçün çox əhəmiyyətli xatırlatmalar ehtiva edir. Bir müsəlman, insanları Allaha iman etməyə və Quran əxlaqına görə yaşamağa dəvət edərkən gözəl sözdən əsla imtina etməməli, hər zaman razılıq və tolerantlıq tərəfdarı olmalıdır. Bu, Allahın Quranda razı olduğunu bildirdiyi əxlaqdır.

# İnsan dilədiyi dini seçməkdə azaddır

Allah Quran ayələrində **"dində məcburiyyət yoxdur"** şəklində buyurur. İslamın vəhy edildiyi dövrdən zəmanəmizə qədər etibarlı olan bu anlayış, İslam əxlaqının da təməlini meydana gətirər. Bu mövzudakı ayələr çox açıqdır.

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir (Bəqərə surəsi, 256)**

İslam əxlaqına görə heç kim bir başqasını inanc mövzusunda məcbur edə bilməz. Müsəlman digər insanlara yalnız təbliğ etməklə, Allahın varlığını, Quranın Allahın haqq kitabı olduğunu, hz. Məhəmməd (s.ə.v)-in Onun elçisi olduğunu, axirətin və hesab gününün varlığını, İslam əxlaqının gözəlliklərini izah etməklə və yaşamaqla məsuldur. Amma bu öhdəçiliyi yalnız dini izah etmək ilə məhduddur. Allah Peyğəmbərimiz (s.ə.v)-in də yalnız bir təbliğatçı olduğunu ayələrdə bu şəkildə bildirər:

**Əgər üzlərini çevirsələr, unutma ki, Biz səni onlara nəzarətçi təyin etməmişik. Sənin vəzifən ancaq təbliğ etməkdir...**

**(Şura surəsi, 48)**

**İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə müzakirə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

Bir başqa ayədə isə "... **Haqq Rəbbinizdəndir; artıq diləyən iman etsin, diləyən inkar etsin..."** (Kəhf surəsi, 29) şəklində buyurulur.

Özünə Allahın, qatından bir hidayət olaraq endirdiyi İslam dini izah edildiyi zaman insan öz istəyi ilə iman edər, heç bir təzyiq, ya da məcburiyyət altında qalmadan qərar verər. İnsan doğrunu, ya da səhvi seçməkdə azaddır. Əgər səhv seçim etsə axirətdə bunun qarşılığını alacaq. Quran ayələrində bu mövzuyla əlaqədar çox açıq əmrlər və xatırlatmalar var:

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən? (Yunis surəsi, 99)**

Məsələn bir mömінin təbliği qarşısında bir insan dərhal iman edərkən, digər insan inkar edərək lağ və aqressiv rəftarlarla qarşılıq verə bilər. Başqa bir insan vicdanını istifadə edib, həyatını Allahın razı olacağı şəkildə keçirməyə qərar verərkən, digər insan isə inkarçılardan olub, gözəl sözə pisliklə qarşılıq verə bilər. Ancaq bu inkar, dəvəti edən kimsəni heç bir şəkildə ümidsizliyə, ya da kədərə salmaz. Allah Yusif surəsində bu şəkildə buyurur:

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. Sən ki bunun əvəzinə onlardan bir mükafat istəmirsən. Bu Quran aləmlər üçün ancaq bir öyüd-nəsihətdir.**

**(Yusif surəsi, 103-104)**

Burada əhəmiyyətli olan Qurana tabe olmayanı dəvət edən insanın, qarşılaşdığı reaksiyalar nə olursa olsun, hər zaman üçün Allahın razı olacağı əxlaqı göstərməsi, gözəl əxlaqından qəti olaraq geri addım atmamağı, təvəkküllü davranmasıdır.

Allah insana ağıl və vicdan vermişdir. Elçiləri və elçilərinə vəhy etdiyi müqəddəs kitablarıyla haqq yolunu göstərmişdir. Bu səbəblə də hər kəs öz seçimindən məsuldur. İslam əxlaqı ancaq səmimi qərarla, Allaha təslimiyyətlə və hər zaman doğruları əmr edən vicdanın səsini dinləyərək yaşana bilər. Bir insanı ibadət etməyə məcbur etmək İslam əxlaqına tamamilə ziddir.

Çünki əhəmiyyətli olan insanın ürəkdən Allaha təslim olması, səmimi olaraq iman etməsidir. Əgər bir sistem insanları inanca və ibadətə məcbur edəcək olsa, bu vəziyyətdə insanlar o sistemdən qorxduqları üçün dindar olarlar. Din baxımından məqbul olan isə, vicdanların tamamilə sərbəst buraxıldığı bir mühitdə Allah rizası üçün dinin yaşanmasıdır. Allah Ğaşiyə surəsində Peyğəmbərimiz (s.ə.v)-a bu şəkildə buyurur:

**Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən. Lakin üz döndərib küfr edəni, Allah ən şiddətli əzabla cəzalandırar. Şübhəsiz ki, onların dönüşü Bizədir. Sonra onları sorğu-suala çəkmək də Bizə aiddir. (Ğaşiyə surəsi, 21-26)**

İslam dini, yuxarıda da üzərində dayandığımız kimi, insanları dini inanclarını seçmədə azad buraxarkən, onların digər dinlərin mənsublarına hörmətli olmalarını əmr edər. Bir insan Quranda batil olaraq təsvir edilən bir inanca sahib olsa belə, İslam torpaqlarında hüzur və sülh içində yaşaya bilər, ibadətlərini azad şəkildə yerinə gətirə bilər. Allah Peyğəmbərimiz (s.ə.v)-ə inkar edənlərə bu şəkildə söyləməsini əmr etmişdir:

**Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 2-6)**

İslam tarixini araşdırdığımızda, hər kəsin azad şəkildə ibadət edə bildiyi, inanclarının gərəklərini yerinə yetirə bildiyi bir cəmiyyət modeli görülər. Quranda Əhli Kitabın ibadət yerləri olan monastır, kilsə və sinaqoqlardan da Allahın qoruduğu ibadət məkanları olaraq bəhs edilər:

**...əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. (Həcc surəsi, 40)**

Peyğəmbərimiz (s.ə.v)-in həyatı da bu kimi nümunələrlə doludur. Hətta Peyğəmbərimiz (s.ə.v) onunla görüşməyə gələn xristianların öz məscidində ibadət etmələrini söyləmiş və bunun üçün məscidi onların istifadəsinə buraxmışdır.[176] Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı xəlifələr dövründə də bu tolerant anlayış qorunmuşdur. Şam fəth edildiyi zaman, məscidə çevrilən bir kilsə ikiyə bölünmüş, bir hissəsində xristianlar, o biri hissəsində müsəlmanlar ibadət etmişlər.[177]

Kitabın əvvəlki hissələrində də gördüyümüz kimi müsəlman birliklər əsrlər boyunca Hindistan torpaqlarında hökm sürmüş, bu torpaqlara ədalət, hüzur, güvən və rifah gətirmişlər. Hindistanın dörd bir tərəfini əhatə edən müxtəlif tarixi əsərlər, məscidlər və saraylar üstün İslam mədəniyyətinin ən gözəl nümunələridir.

# NƏTİCƏ

Bu kitab boyunca Allahın Quranda bildirdiyi "təbliğ" əmri gərəyi, Uzaq Şərq dinlərini mənimsəyən bütün insanlara, dinlərinin onları necə bir sona apara biləcəyi xatırladılaraq "pislikdən çəkindirilmiş"dir. Həmçinin Allahın ayələri ilə Quran əxlaqı təsvir edilmiş və bütün insanlara yaxşılıq əmr edilmişdir. **Bütün hindular, buddistlər, caynistlər, sihlər, şintoistlər, konfutsiçilər, taoistlər, şamanistlər və digər Uzaq Şərq dinlərini izləyənlər bir və tək İlah olan Allaha iman etməyə, bütün batil inanclardan uzaqlaşıb sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə təslim olmağa dəvət edilmişlər.**

Onlar da bu müjdəli dəvəti ağıl və sağlam fikirlə qiymətləndirməli, alışdıqları ənənələri və bütpərəst ritualları bütün ön mühakimələrdən uzaqlaşaraq səmimiyyətlə nəzərdən keçirməlidirlər. Əgər vicdanlarının səsini dinləyər və kitabda bəhs edilən xatırlatmalar üzərində diqqətlə düşünülərsə, heç şübhəsiz onlar da tək bir doğruda birləşəcəklər. Bu, "La İlahə İllƏllah" (Allahdan başqa İlah yoxdur) gerçəyidir.

Allahın xaricində ilah əldə etdiyi bütün gücləri buraxıb yalnız Allaha quluq etməyə qərar verən və həmin ana qədər etdiklərindən peşmanlıq duyan bütün insanlar, bu qərarı tətbiq etmək üçün bir an belə tərəddüd etməməlidirlər. Bütün keçmiş həyatlarını və batil inanclarını geridə buraxmalı, Allaha könüldən təslim olmalıdırlar.

Bunu etdikləri zaman heç şübhəsiz Rəbbimizi **"bağışlayıcı və mərhəmət edici olaraq"** (Nisa surəsi, 110) görəcək, həqiqi hüzura və xoşbəxtliyə çatacaqlar. İsrailoğullarının bənzər bir vəziyyətdəki rəftarları da onlar üçün çox gözəl nümunədir. Ancaq hz. Musa bu səhvlərini onlara xatırlatmış, onları dərhal tövbə edib Allaha yönəlməyə dəvət etmişdir. Allah Bəqərə surəsində onların tövbələrini qəbul etdiyini belə bildirər:

O zaman Musa öz qövmünə dedi: “Ey qövmüm! Siz buzova ibadət etməklə özünüzə zülm etdiniz. Odur ki, Yaradanınıza tövbə edin və özünüzü (sizlərdən özlərinə zülm edənləri) öldürün. Bu, Yaradanınızın yanında sizin üçün xeyirlidir”. O, sizin tövbənizi qəbul etdi. Doğrudan da O, tövbələri qəbul edəndir, Rəhmlidir.

(Bəqərə surəsi, 54)

# ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən

"Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

# XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

# Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, – demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

# Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

# Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi

ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

# Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid

forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

# Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

# İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- **Australopithecus**
- **Homo habilis**
- **Homo erectus**
- **Homo sapiens**

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında

təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", – deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir.

Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

# Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər

amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

